


Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR

ELMİ-PRAKTİKİ JURNAL

№ 2 (04) 2015

ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 2 (04)

BAKI-2015

BAŞ REDAKTOR:
Hüseyn Qaraşov, *sosiologiya üzrə elmlər doktoru, professor*

BAŞ REDAKTORUN MÜAVİNİ:
Mobil Məcidov, *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

MƏSUL KATİB:
Zeynəddin Şabanov, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

REDAKSİYA HEYƏTİ:

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA Elmi İnnovasiyalar Mərkəzinin nəzdindəki Təhsil-Tədris Mərkəzinin direktoru

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

fəl.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Hüquq İnstitutunun direktoru

p.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

t.ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Azərbaycan tarixi" kafedrasının müəllimi

b.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris işləri üzrə prorektoru

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.ü.f.d. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d. Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dos. Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə və mühasibat uçotu" kafedrasının müdiri

i.ü.f.d. Şövqi Quliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Tel.: 563-01-32; e-mail: jurnal@aesma.edu.az; aesma.elmi-jurnal@mail.ru.
Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 4, 27.11.2015)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014

MÜNDƏRİCAT

MÜNDƏRİCAT.....3

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

Vəkil Həsənov
Azərbaycan həmkarlar ittifaqları: tarixi inkişaf mərhələləri.....5

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

Aydın Şirinov
Siyasi, ideoloji anlayışlara qnoseoloji və aksioloji yanaşma.....18

Həcər Abdallı
Ailə müasir ictimai-siyasi münasibətlər sistemində.....26

Şərafəddin Şərifov
Hüquqi şəxslərin inzibati hüquqi məsuliyyətinin səciyyəvi cəhətləri və xüsusiyyətləri.....36

Söhrab Məhərrəmov
İnternet və sosiokültür transformasiya.....42

Telman Niftaliyev
Gənc zabitlər və liderlik keyfiyyətləri.....54

Sədaqət Məmmədova
Cəmiyyətin inkişafında milli-mənəvi dəyərlərin özünəməxsusluğu.....59

Rəna Mirzəzadə
Soyqırım və genosid cinayətinə beynəlxalq hüquqi və siyasi baxış.....67

Elnur Rüstəmov
Mirzə Fətəli Axundzadə və qərb ekzistensializmi.....73

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

Гюльнара Гаджиева
Образование как фактор повышения эффективности трудового потенциала Азербайджанской Республики.....76

Nurəngiz Mikayılova
Aqrar sahənin inkişafının sürətləndirilməsində bələdiyyə orqanlarından istifadənin istiqamətləri.....79

Ofeliya Yusupova
Material ehtiyatlarından səmərəli istifadənin əhəmiyyəti, onların qiymətləndirilməsi və uçotu.....88

Şövqi Quliyev, Ramil Əsgərov
Regional iqtisadi inteqrasiyanın xüsusiyyətləri.....101

Təranə Əhmədova
Müəssisələrdə biznes strategiyasının formalaşması yolları.....108

Firuz Qurbanov
Turizm sektorunun inkişaf istiqamətləri.....113

Məhəmməd Balkaya
Əmək potensialının formalaşmasının nəzəri məsələləri.....117

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

UOT – 316

Vəkil Həsənov
Azərbaycan Dövlət İqtisad Universiteti, t.ü.e.d.

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI: TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Azərbaycan həmkarlar ittifaqları XX əsrin əvvəllərindən yaranmağa başlamışdır. Ən böyük həmkarlar təşkilatı neft sənayesi fəhlələrini əhatə edirdi. Həmkarlar ittifaqlarının vahid təşkilatda birləşməsi 1920-ci ildə baş vermişdir. Azərbaycan həmkarlar ittifaqları təşkilati cəhətdən formalaşmış və onlar sovet cəmiyyətinin həyatında mühüm rol oynamışlar. Lakin sovet dövründə həmkarlar ittifaqlarının fəaliyyətində nöqsanlara da yol verilmişdir. XX əsrin 20-30-cu illərində həmkarlar ittifaqlarının rəhbərliyində qeyri-azərbaycanlılar üstünlük təşkil edirdilər. Həmkarlar ittifaqlarının rəhbərliyində kadr dəyişiklikləri geniş şərh olunmuşdur. Müstəqil Azərbaycan Respublikasının yaranması ilə həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı dönüş yarandı.

Azərbaycanda fəhlə sinfinin ən kütləvi təşkilatlarından olan ilk həmkarlar ittifaqları Rusiyada baş vermiş 1905-1907-ci illər burjua demokratik inqilabı dövründə yaranmışdır. Rusiya imperiyasının müxtəlif sənaye şəhərlərində olduğu kimi 1905-ci ildə Bakıda da ilk həmkarlar təşkilatları meydana gəldi. 1905-ci il oktyabrın 17-də Bakıda konka (at-dəmir yolu) fəhlə və qulluqçularının həmkarlar ittifaqı fəaliyyətə başladı. Həmin ilin noyabrında mətbəə işçiləri həmkarlar ittifaqının əsası qoyuldu. 1905-ci ildə mühəndis və texniklərin, həkimlərin, müəllimlərin, vəkillərin həmkarlar ittifaqları yarandı. Bu dövrdə kontor qulluqçuları, şəhər, mədən qulluqçuları, ticarət gəmiçiliyi qulluqçularının xırda həmkarlar ittifaqları da mövcud idi [1, s.32-33].

Azərbaycanda həmkarlar hərəkatının tarixində ittifaqlararası birliyin təşkili mühüm mərhələ hesab edilir. 1905-ci ilin sonunda Bakıda "İttifaqların ittifaqı bürosu" yaradılmışdı [2, s.11]. Bu, 1905-1907-ci illər inqilabı gedişində meydana gəlmiş həmkarlar ittifaqlarının birləşdirilməsi məqsədilə göstərilmiş ilk cəhd idi. 1906-cı ildə də ayrı-ayrı həmkarlar ittifaqlarının yaradılması prosesi davam edirdi. 1906-cı ilin yanvar-fevral aylarında Bakı şəhəri və onun rayonlarının kontor qulluqçularının həmkarlar ittifaqı və gəmi mexaniklərinin cəmiyyəti fəaliyyətə başladı. Çar hökuməti 1906-cı il martın 4-də həmkarlar ittifaqları haqqında xüsusi qanun – "Ticarət və sənaye müəssisələrində çalışan şəxslər və ya bu müəssisələrin sahibləri üçün təsis edilmiş həmkarlar cəmiyyətləri haqqında müvəqqəti qayda" qəbul etmişdi. Bu qanun həmkarlar ittifaqları və cəmiyyətlərə, onların nizamnamələri müəssisə rəhbərliyi tərəfindən qeydiyyata alınmaq şərtilə, leqal fəaliyyət göstərmək hüququ verirdi. Çar hökuməti bu qanunun vasitəsilə fəhlələri mütləqiyyətə qarşı mübarizədən yayındırmağa, həmkarlar ittifaqlarını bolşeviklərin təsirindən çıxarmağa, onların fəaliyyətini adi qarşılıqlı yardım cəmiyyətlərinin dar çərçivəsi ilə məhdudlaşdırmağa ümid edirdi. Qanun zəhmətkeşlərin bir çox kateqoriyalarına - dəmiryolçular, kənd təsərrüfatı fəhlələri, bank qulluqçuları və b. həmkarlar ittifaqlarında birləşməyi qadağan edirdi [3, s.17].

Neft sənayesi fəhlələrinin vahid ittifaqda birləşdirilməsinə daha çox diqqət verilirdi. Azərbaycanda ilk güclü həmkarlar təşkilatı 1906-cı ildə yaradılmış Neft sənayesi fəhlələri həmkarlar ittifaqı olmuşdur. Bu həmkarlar ittifaqının yaradılmasını asanlaşdıran cəhətlərdən biri ondan ibarət idi ki, ittifaq yarananadək sənaye müəssisələrində seçkili zavod və mədən fəhlə komissiyaları fəaliyyət göstərirdi və bu komissiyalar fəhlələri həmkarlar ittifaqlarına cəlb etmək üçün fəal iş aparırdılar.

1906-cı il avqustun 18-də Balaxanı fəhlələrinin təşəbbüs qrupu Bakı şəhəri və onun rayonlarının neft sənayesi fəhlələrinin həmkarlar cəmiyyətinin yaradılması barədə nizamnamə və təqdimatla Bakı şəhəri general qubernatoruna müraciət etdi.

1906-cı ilin oktyabrında Neft sənayesi fəhlələri həmkarlar ittifaqının təsis iclası keçirildi. Neft sənayesi fəhlələri həmkarlar ittifaqının Nizamnaməsinin birinci paraqrafında cəmiyyətin üzvlüyünə ancaq fəhlələrin daxil ola bilməsi, Nizamnamənin qeydlərində isə sahibkarlar və mədən-zavod idarəçiliyinin üzvlərinin cəmiyyətin üzvləri sırasına daxil edilə bilməməsi qeyd olunmuşdu. Həmkarlar ittifaqı istehsalat prinsipi üzrə qurulurdu. Onun üzvü milliyyətindən və ixtisasından asılı olmayaraq ittifaqa daxil olarkən 50 qəpik məbləğində üzvlük haqqı ödəyən və bundan əlavə hər ay cəmiyyətin xeyrinə əmək haqqının 2 faizini keçirən hər bir neftçi-fəhlə ola bilərdi. 1908-ci ildən aylıq üzvlük haqqı 2%-dən 1%-ə endirilmişdi. Neft sənayesi fəhlələri həmkarlar ittifaqının faktiki fəaliyyətə başlaması tarixi 1906-cı il oktyabrın 1-nə aid edilir [3, s.18-19].

1906-cı ilin noyabrında Neft sənayesi fəhlələri həmkarlar ittifaqının 12 nəfərdən ibarət idarə heyəti seçilmişdi. İdarə heyətinə V.F.Tronov - ittifaqın 1906-cı ilin noyabrından 1908-ci ilin oktyabrınadək ilk sədri, M.Məmmədyarov, S.Yaqubov, S.Kandelaki, Y.Lunkin, A.Çaparidze (ittifaqın katibi), Qneuşev, Kuznetsov, Q.Qluxov, H.Sultanov, Əmir Aslan Süleymanov, Məmməd Həsən Adıgözəlov daxil idilər. Neft sənayesi fəhlələri həmkarlar ittifaqı ilə yanaşı Bakıda bu dövrdə Mexaniki istehsal fəhlələri, neft çıxarılması işçiləri, Dənizçilər, Celonkaçılar, Qazanxana işçiləri, mətbəə fəhlələri həmkarlar ittifaqları da fəaliyyət göstərirdi. Ümumiyyətlə, 1906-cı ilin sonlarında Bakıda 18-20 həmkarlar ittifaqı var idi. Qısa müddət ərzində Neft sənayesi fəhlələri həmkarlar ittifaqı ən populyar və kütləvi təşkilata çevrildi. Əgər 1906-cı ilin oktyabrında ittifaqın 225 nəfər üzvü var idisə, artıq 1907-ci ilin sonunda onların sayı 6 min nəfərdən çox idi. Birinci il Neft sənayesi fəhlələri həmkarlar ittifaqı yalnız Balaxanıda fəaliyyət göstərirdisə, sonrakı illərdə onun fəaliyyəti digər fəhlə royonlarına da yayıldı. İttifaqın Bibi-Heybətdə, Qara və Ağ şəhərlərdə, Suraxanıda da şöbələri açılmışdı. İttifaqın Mərkəzi idarə heyəti isə Balaxanıda yerləşirdi [3, s.19].

Neft sənayesi fəhlələri həmkarlar ittifaqı 1907-ci ilin avqustunda özünün mətbu orqanı olan "Qudok" qəzetini buraxmağa başladı. Bu qəzetin cəmi 37 nömrəsi buraxılmışdı. 1908-ci ilin avqustunda isə İttifaq "Bakinski raboçi" qəzetini buraxmağa başladı [4].

1908-ci ilin oktyabrında Neft sənayesi fəhlələri həmkarlar ittifaqının sədri M.M.Varnaçev, katib isə V.F.Yefimov seçildi.

1909-cu ilin əvvəllərində inqilabi hadisələrin zəifləməsi ilə əlaqədar Neft sənayesi fəhlələri həmkarlar ittifaqının fəaliyyətində də durğunluq əmələ gəlir, ittifaq üzvlərinin sayı azalır.

Neft sənayesi fəhlələri həmkarlar ittifaqı ilə yanaşı digər sənaye sahələri fəhlələrini birləşdirən həmkarlar təşkilatları da yaranırdı. 1908-ci ildə kontor, zavod və mədən qulluqçuları həmkarlar ittifaqları, eyni zamanda ağac emalı fəhlələri həmkarlar ittifaqı yaranmışdı [1, s.45].

Bu dövrdə Azərbaycanın qəzalarında da həmkarlar təşkilatları fəaliyyət göstərirdi. 1910-cu ildə Astarada dəniz və sahil fəhlələrinin, Lənkəran qəzasında isə balıq tutanların həmkarlar təşkilatları yarandı [1, s.48].

1911-ci ilin aprelində Neft sənayesi fəhlələri həmkarlar ittifaqı öz fəaliyyətini yenidən canlandırmağa cəhd göstərdi. İttifaqın ümumi iclasında yeni idarə heyəti seçildi, F.P.Trofimov İttifaqın sədri, A.İ.Doqadov isə katib seçildilər.

1912-ci ilin martında Neft sənayesi fəhlələri həmkarlar ittifaqı yeni adla – "Neft sənayesi və ona köməkçi istehsal sahələrinin fəhlələrinin həmkarlar cəmiyyəti" - öz fəaliyyətini bərpa edir. Bu ittifaq 1914-cü ilin fevralına qədər fəaliyyət göstərə bilir. 1915-ci ildə nəşriyyatçılar, dərzilər və ticarət - sənaye qulluqçularının həmkarlar ittifaqları fəaliyyətə başlayır.

Birinci dünya müharibəsinin başlanması ilə ictimai həyatın bütün sahələrində olduğu kimi həmkarlar təşkilatlarının fəaliyyətində də durğunluq müşahidə edilir.

1917-ci il Fevral burjua demokratik inqilabının qələbəsindən sonra həmkarlar təşkilatlarının fəaliyyətində yenidən canlanma başlandı. 1917-ci ilin mayında Neft sənayesi fəhlələri həmkarlar

ittifaqının təsis iclası keçirildi. İclasda ittifaqın sədri İ.T.Fioletov seçildi. Bu dövrdə artıq ittifaqın üzvlərinin sayı 4 min nəfərdən çox idi [5, s.92].

Neft sənayesi fəhlələrini həmkarlar ittifaqının fəaliyyət dairəsinə daha geniş cəlb etmək məqsədilə ittifaqın rayon şöbələrinin yaradılmasına xüsusi diqqət verilirdi. Neft mədən və müəssisələrini əhatə edən bütün ərazi 10 rayona bölünmüşdü. Neft sənayesi və ona köməkçi istehsalat sahələri fəhlələrinin Bibi-Heybət, Qara şəhər, Sabunçu, Balaxanı, Suraxanı, Binəqədi və digər rayon şöbələrinin yaradılması qərara alındı [6]. İttifaqın rayon şöbələrinin yaradılması onun üzvlərinin sayının artmasına müsbət təsir göstərdi. 1917-ci ilin sonunda Neft sənayesi fəhlələri həmkarlar ittifaqı üzvlərinin sayı 30 min nəfərə çatırdı [7, s.7].

Ayrı-ayrı xırda həmkarlar təşkilatlarının vahid ittifaqda birləşdirilməsi həmkarlar hərəkatının inkişafında yeni mərhələ oldu. Bakının bir çox həmkarlar ittifaqlarının nümayəndələri - neftçilər, taxtapuşçular və rəngsazlar, metalçılar, mətbəə işçiləri, kontor işçiləri, əczaçılar, elektriklər və b. oxşar ittifaqların birliyi uğrunda çıxış edirdilər. 1917-ci ilin ortalarında taxtapuşçular, rəngsazlar və rəssamlar həmkarlar ittifaqının, həmçinin taxtapuşçular və tənəkəçilər həmkarlar ittifaqının idarə heyətləri inşaat fəhlələri həmkarlar ittifaqında birləşmək haqqında qərar qəbul etdilər. Bu həmkarlar ittifaqına digər inşaatçı fəhlələri də (bənnalar, dülgərlər,süvaqçılar) cəlb etmək nəzərdə tutulmuşdu. 1917-ci ilin sentyabrında bənnalar ittifaqı, tikinti işlərində çalışanların digər ittifaqları kimi vahid inşaatçı fəhlələr həmkarlar ittifaqına daxil oldular [8].

1917-ci il noyabrın 10-da Xəzər ticarət donanmasının gəmi sürücüləri və mexaniklərinin həmkarlar ittifaqı və dənizçilər ittifaqı "Ümumrusiya ticarət donanması dənizçiləri və çay nəqliyyatı işçiləri ittifaqının Xəzər şöbəsi" adı altında vahid həmkarlar ittifaqında birləşdilər [7, s.8].

Neft sənayesi fəhlələri həmkarlar ittifaqının təşkili ilə eyni vaxtda Bakıda mədən və zavod rayonları qulluqçuları həmkarlar ittifaqı yaradıldı. Fevral inqilabından sonra dənizçilər, metalçılar, dəmiryolçular, yükdaşıyanlar, inşaatçılar, mətbəə işçiləri, dəri emalçıları, ağac emalçıları, tütünçülər və b. da həmkarlar ittifaqlarında birləşməyə başlamışlar. 1917-ci ilin sonunda Bakıda 80 min nəfərədək üzvü olan bərpa edilmiş və yeni yaradılan 40 həmkarlar ittifaqı var idi [9, s.202].

Neft sənayesi fəhlələri həmkarlar ittifaqı öz fəaliyyətinin başlanğıcından neft sənayesində çalışan bütün əməkçilərin, ilk növbədə isə neft sənayesi qulluqçularının həmkarlar ittifaqı ilə əhatə olunmasına nail olmağa çalışırdı. Ancaq 1917-ci ildə bu iki ittifaqı birləşdirmək mümkün olmadı.

Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra Azərbaycanda ayrı-ayrı həmkarlar təşkilatlarının yaradılması ilə yanaşı mədən-zavod komitələrinin təşkili prosesi də gedirdi. 1917-ci ilin aprel - may aylarında Bibi-Heybət, Balaxanı, Ramana və Zabratın neftçıxarma sahələrinin fəhlələri mədən komitələri yaratmışdılar.

Beləliklə, Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra Bakıda xeyli sayda həmkarlar təşkilatları, mədən-zavod və fabrik komitələri meydana gəlmişdi.

1918-ci ilin əvvəllərində Bakıda bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə əlaqədar olaraq onların təsiri altında olan həmkarlar təşkilatlarının da fəaliyyəti genişlənir. Bolşeviklərin təklifi ilə mədən-zavod komitələrinin yaratdıqları xüsusi nəzarət komissiyaları istehsalat üzərində ardıcıl olaraq nəzarət həyata keçirirdilər. 1918-ci ilin aprelində Bakı Xalq Komissarları Soveti hakimiyyəti ələ keçirdikdən sonra həmin ilin iyunun əvvəllərində həmkarlar ittifaqları şurasının yenidən seçkisi keçirildi və bolşeviklər bu şurada da üstünlüyü zorakı yolla öz əllərinə aldılar [9, s.214]. Həmkarlar təşkilatları faktiki olaraq Bakıdan neft, benzin və digər yanacaq növlərinin Sovet Rusiyasına daşınıb aparılmasında bolşeviklərin fəal yardımçıları oldular. 1918-ci ilin aprel-avqust ayları ərzində Bakıdan 80 mln. puddan çox neft və neft məhsulları qarət edilib aparılmışdı. Moskvanın toxuculuq sənayesi üçün Azərbaycandan pambıq daşınırdı. 1918-ci ilin 11 iyununadək Moskvaya 153 min pud pambıq göndərilmişdi. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə xalqın sərvətlərinin talan edilməsinin qarşısı alındı. Lakin Cümhuriyyət dövründə də həmkarlar təşkilatları, demək olar ki, bolşeviklərin təsiri altında idilər. Cümhuriyyət dövründə yaradılmış "Türk fəhlə konfransı"nda yalnız azərbaycanlı fəhlələr üstünlük təşkil edirdilər. Lakin Bakı fəhlələri içərisində qeyri-azərbaycanlılar üstünlük təşkil etdiyinə və onların da əksəriyyəti bolşeviklərin və menşeviklərin təsiri altın-

da olduğuna görə həmkarlar təşkilatları da faktiki olaraq bolşeviklərin siyasi xəttini müdafiə edirdi. 1919-cu ilin mayında bolşeviklər onların təsiri altında olan həmkarlar təşkilatlarını "Bakı şəhəri və onun rayonlarının neft və metal sənayesi və onlara köməkçi sahələrin işçilərinin Birləşmiş ittifaqı"nda birləşdirməyə nail oldular. Balaxanı, Suraxanı, Bibi-Heybət və Fabrik-zavod rayonunda bu ittifaqın rayon idarə heyətləri var idi. Birləşmiş ittifaqda neft sənayesi fəhlələri, metalçılar, mədən-zavod qulluqçuları, inşaat fəhlələri və ağac emalçıları həmkarlar ittifaqları birləşmişdilər. Faktiki olaraq həmkarlar təşkilatları bolşeviklərlə birləşərək Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparırdılar [1, s.135-136]. 1918-1920-ci illərdə bolşeviklərin yaratdıqları həmkarlar ittifaqları könüllülük prinsiplərindən uzaq idi və onların fəaliyyəti daha çox Müsavat hökumətini devirmək vəzifəsinə tabe etdirildiyindən sırf siyasi xarakter daşıyırdı. Bolşevik liderləri iqtisadi böhranın törətdiyi hərc-mərclikdən istifadə edərək kütlələri inandırmağa çalışırdılar ki, onların təşəbbüsü ilə yaradılmış fabrik-zavod və yerli komitələr "geniş kütlələrin" əsl mənafelərini qoruyur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin yaratmağa cəhd göstərdiyi həmkarlar ittifaqlarına qarşı bolşeviklərin mübarizəsi çox kəskin və amansız xarakter almışdı. Ən faciəli hal bu idi ki, bolşeviklər məhz milli həmkarlar ittifaqlarının yaradılmasına maneçilik törədirdilər. Sovet dövründə repressiya qurbanı olmuş bəzi bolşevik liderləri iftixar hissi ilə yazırdılar ki, "bolşeviklərin işi onunla nəticələnmişdi ki, azərbaycanlı fəhlələr Müsavat həmkarlar ittifaqlarına daxil olmaqdan imtina etmişdilər". AXC-nin iqtisadi islahatlarına mane olan 28 yerli həmkarlar ittifaqı təşkilatları "fəaliyyət" göstərirdi [10, s.24-25]. Bolşeviklər 1919-cu il aprelin 27-də Bakıda Zaqafqaziya, Dağıstan və Zakaspi həmkarlar ittifaqlarının qurultayını keçirməyə nail olmuşdular. Qurultayda iştirak edən 148 nümayəndənin 116 nəfəri Azərbaycan həmkarlar ittifaqlarının təmsilçiləri idi. Bu, Azərbaycan həmkarlar ittifaqları içərisində bolşeviklərin təsirinin daha güclü olduğunu göstərirdi. Qurultayda qəbul edilmiş qətnamədə göstərilirdi ki, həmkarlar ittifaqlarının qarşısında duran əsas vəzifə proletariat diktaturası və sovet hakimiyyəti uğrunda siyasi mübarizədir. Qurultayın qəbul etdiyi qətnamədə açıq şəkildə yazılmışdı: "Zaqafqaziya, Zakaspi və Dağıstanın birləşdirilməsi yalnız göstərilən əyalətlərdə sovet hakimiyyətinin qurulması və onların Rusiya Sovet Sosialist Respublikası ilə birləşməsi yolu ilə mümkündür" [11, s.137-143]. Bu qurultayda Azərbaycan həmkarlar ittifaqları tamamilə bolşeviklərin platformasına keçdilər. Bu dövrdən başlayaraq bolşeviklərin təsiri altında olan Azərbaycan həmkarlar ittifaqları bolşeviklərin Rusiyaya qovuşmaq siyasətində alət rolunu oynamağa başladılar. Bolşeviklər həmkarlar ittifaqlarından öz ideyalarını kütlələrin beyninə yeritmək üçün leqal kütləvi tribuna kimi istifadə edir, onların əsl sosial təyinatından uzaqlaşaraq Kommunist partiyasının əlində alətə çevrilməsinə nail olurdular.

1919-cu ilin avqustundan ayrı-ayrı həmkarlar təşkilatlarında və həmkarlar ittifaqlarının Bakı şurasında bolşeviklərin təsiri daha güclənmişdi. Həmkarlar ittifaqlarının Bakı şurasının sədri neftçi fəhlə İ.M.Konuşkin seçilmiş, bolşeviklər D.X.Bünyadzadə və Z.D.Dadaşov isə Şuranın tərkibinə daxil olmuşdular.

Həmkarlar təşkilatlarında bolşeviklərin təsirinin güclənməsi onların öz əsl təyinatından uzaqlaşaraq siyasi proseslərə qoşulmasına gətirib çıxardı. Aprel çevrilişindən sonra kommunistlərin Azərbaycanda hakimiyyəti ələ keçirməsi ilə əlaqədar olaraq həmkarlar təşkilatları yeni yaranmış sovet cəmiyyətində aparıcı və kütləvi təşkilatlardan birinə çevrildilər.

1920-ci il aprelin 28-də Azərbaycanın tarixində əsaslı siyasi dəyişiklik baş verdi. Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycanda müstəqil respublika süqut etdi və yeni bir rejimin - Sovet hakimiyyətinin əsası qoyuldu. Yeni yaranmış proletariat diktaturasının hakimiyyəti dövründə siyasi sistem də dəyişdirildi. Bu sistemdə əvvəlki cəmiyyətdə əzilən sinif olan fəhlələr hakim qüvvəyə çevrildilər. Ona görə də fəhlələrin üstünlük təşkil etdikləri ictimai təşkilatların da yeni cəmiyyətdə rolu dəyişildi. Ən kütləvi təşkilatlardan biri olan həmkarlar ittifaqlarının təşkilati quruluşunda yeni şəraitə uyğun olaraq dəyişikliklər edildi.

Azərbaycanda sovet həmkarlar ittifaqlarının yaradılmasına 1920-ci ilin mayında başlandı. Bu proses o dövrdə çətin şəraitdə gedirdi, çünki Kommunist partiyası sıralarında bir qrup adamlar sovet cəmiyyətində həmkarlar ittifaqlarının lüzumsuzluğunu iddia edirdilər. 1920-ci ilin mayında Mədən-

çilər, Kimyaçılar, Metalçılar və Elektriklər, İnşaatçılar, Ağac emalçıları həmkarlar ittifaqları yaradıldı. Tibb-sanitariya işçiləri həmkarlar ittifaqına isə həkimlər, əczaçılar, feldşerlər, tibb bacıları, xəstəxana və lazaret xidmətçilərini birləşdirən xırda ittifaqlar daxil edildi. Orta və ali tədris müəssisələrinin müəllimləri, uşaq bağçalarının əməkdaşları Maarif və sosialist mədəniyyəti işçiləri həmkarlar ittifaqında birləşdilər. 1920-ci il iyunun 5-də isə həmkarlar ittifaqlarının təşkilati cəhətdən yenidən qurulması nəticəsində 24 həmkarlar ittifaqı yaradıldı [12; 13]. Azərbaycan həmkarlar ittifaqları Ümümrusiya həmkarlar ittifaqları Mərkəzi Şurasının (ÜRHİMŞ) müəyyən etdiyi sxemə uyğun olaraq istehsalat prinsipi üzrə yaradılırdı. İlk dövrdə Azərbaycanda Sovet Rusiyasının həmkarlar ittifaqlarının müvafiq respublika şöbələri təşkil edilmişdi. 1920-ci il iyunun 30-da keçirilən həmkarlar ittifaqlarının birinci Ümumbakı konfransında onların vahid təşkilat şəklində birləşməsi prosesi başa çatdı. Konfransda vahid respublika mərkəzi həmkarlar ittifaqları orqanı olan Azərbaycan həmkarlar ittifaqları şurası - AHİŞ yaradıldı. Azərbaycanın qəzalarında isə həmkarlar ittifaqlarının qəza şöbələrini və onları birləşdirən orqanlar - qəza büroları yaratmaq barədə qərar qəbul edildi. AK(b)P MK və BK-nın göstərişi əsasında AHİŞ-in rəyasət heyətinə İ.İ.Anaşkin, B.D.Ağayev, Z.Dadaşov, İ.M.Konuşkin, Qausman, A.İ.Mikoyan, L.İ.Mirzoyan, M.E.Sapunov və A.A.Nikişin seçildilər [11, s.164].

AHİŞ-in yaranmasının ilk günündən onun təşkilində ciddi nöqsanlara yol verilmişdi. Göründüyü kimi, AHİŞ-in rəyasət heyətinin üzvü olan 9 nəfərdən yalnız 2 nəfəri azərbaycanlı idi. AHİŞ-in sədri isə Azərbaycan xalqının qatı düşməni, daşnak A.İ.Mikoyan təyin edilmişdi.

1920-ci ilin 29 avqust - 6 sentyabrda keçirilən Azərbaycan həmkarlar ittifaqlarının birinci qurultayında seçilən rəyasət heyəti üzvlərinin tərkibi də o dövrdə milli ayrı-seçkiliyin açıq nümunəsi idi. Qurultayda rəyasət heyətinə 7 üzv: L.İ.Mirzoyan, M.E.Sapunov, İ.M.Konuşkin, Z.Dadaşov, A.A.Nikişin, Ə.Xanbudaqov, A.E.Çurayev və 2 namizəd - R.İzmaylov və Mikadze seçilmişdilər [14, s.5]. AHİŞ-in sədri M.E.Sapunov oldu. Göründüyü kimi AHİŞ-in rəyasət heyətinə seçilənlərin əksəriyyəti başqa millətlərin nümayəndələri idi. Bu, həmin dövrdə yeridilən məqsədyönlü milli ayrıseçkilik siyasətinin nəticəsi idi.

Azərbaycan həmkarlar ittifaqlarının II qurultayında (1921-ci il, 1-11 iyul) seçilən rəyasət heyəti üzvləri və namizədlərin əksəriyyəti də qeyri azərbaycanlılar idi [15, s.101-102]. 1921-ci il iyulun 11-də AHİŞ-in plenumunda L.Mirzoyan AHİŞ-in sədri təyin edildi.

AHİŞ-in mərkəzi aparatında məsul vəzifə tutanların hamısı başqa millətlərin nümayəndələri idi. 1921-ci ildə Xalq Əmək komissarı A.Çurayev, AHİŞ-in Mədəniyyət şöbəsinin müdiri V.Kasparov, Statistika şöbəsinin müdiri B.Quxman, İnformasiya şöbəsinin müdiri M.Danilov, İqtisadi şöbənin müdiri E.Şeftel, Təşkilat şöbəsinin məsul katibləri Rayxlin və L.Frik, Tarif-iqtisadi şöbəsinin müdiri T.A.İvanov, Əməyin normalaşdırılması şöbəsinin müdiri İ.M.Konuşkin idi [16]. AHİŞ-in idarə aparatının bu cür tərkibi təkcə azərbaycanlı kadrların çatışmazlığının nəticəsi deyil, milli ayrı seçkiliyin bariz nümunəsi idi.

Azərbaycanda ilk həmkarlar təşkilatları Sovet Rusiyasının həmkarlar ittifaqlarının nizamnamələri əsasında yerli xüsusiyyətlər nəzərə alınmadan yaradılırdı. Azərbaycanın qəzalarında isə həmkarlar ittifaqlarının qəza şöbələri və onları birləşdirən qəza bürosu yaradılmışdı. Qəzalarda da həmkarlar ittifaqlarının təşkili zamanı ciddi əyintilərə yol verilmişdi. 1920-ci ilin sonunda Azərbaycanda 22 həmkarlar ittifaqı fəaliyyət göstərirdi. 1921-ci ilin aprelində isə Azərbaycanda həmkarlar ittifaqlarının 8 qəza bürosu, 2 rayon bürosu (Gəncə və Şuşa) və 20-dək katiblik var idi [11, s.169]. Şuşa rayon bürosu bütün Qarabağa, Gəncə bürosu isə Şamxor və Qazax qəzalarına xidmət göstərməli idilər. Həmkarlar ittifaqları katibliklərı qəzaların uqarlarında yerləşən ittifaq üzvlərinə xidmət göstərmək məqsədilə yaradılmışdı. 1920-ci ilin sentyabrından 1921-ci ilin martınadək keçən müddətdə bütün qəzalarda həmkarlar ittifaqlarının qəza qurultayları keçirilmişdi. 1921-ci il dekabrın 4-də isə Naxçıvan həmkarlar ittifaqlarının diyar bürosu yaradıldı [17, s.3].

1921-ci ilin əvvəllərində Gəncədə 20 həmkarlar şöbəsi, 2 bölmə, 3 qəza katibliyi və 10 sahə katibliyi, Nuxada 14, Salyan qəzasında 16, Şamaxıda 12, Qubada 13, Lənkəranda 16, Göyçayda 9

həmkarlar təşkilatı var idi. Bütün respublika üzrə 175 həmkarlar təşkilatı fəaliyyət göstərirdi [15, s.24-25].

Azərbaycan SSR XKS 1922-ci il mayın 21-də AHİŞ-in təqdim etdiyi fabrik-zavod, mədən və yerli komitələr haqqında təlimatı təsdiq etdi. Təlimata əsasən qəzalarda həmkarlar ittifaqları büroları ləğv edilərək onların əvəzində AHİŞ-in səlahiyyətli müvəkkili təsisatı yaradıldı. 1924-cü il yanvarın 1-i üçün Azərbaycanda 346 həmkarlar ittifaqı müvəkkili fəaliyyət göstərirdi [10, s.34-35].

Sovet hakimiyyətinin ilk illərində həmkarlar ittifaqlarının özü bir təşkilat kimi kütlələr içərisində populyar deyildi. Əhali bu təşkilatlara az maraq göstərirdi. Ona görə də əhali içərisində bu təşkilatları populyarlaşdırmaq məqsədilə kütləvi tədbirlər keçirmək vacib idi. 1921-ci ilin martında bu məqsədlə həmkarlar hərəkatı həftəsi adlanan birinci kütləvi kampaniya keçirilmişdi [15, s.21]. Kampaniyanın keçirilməsi ilə əlaqədar 1921-ci il fevralın 10-da "Bakinski raboçi" qəzetində AHİŞ-in bütün həmkarlar təşkilatlarına edilmiş müraciətində bu tədbirin vəzifəsi və əhəmiyyəti izah edilmişdi. Tədbirin əsas şüarı ittifaqlar vasitəsilə istehsalata yiyələnmək, vəzifəsi isə həmkarlar ittifaqlarının geniş fəhlə kütlələri içərisində nüfuzunu və təsirini yüksəltməkdən ibarət olmalı idi. Həmkarlar hərəkatına aid mühazirələr, səhnələşdirilmiş tamaşalar, bədii məhkəmələr, sərgilər, canlı və divar qəzetləri, ucadan qiraətlər və s. təşkil edilirdi. Vaxtaşırı keçirilən həmkarlar hərəkatına dair kütləvi tədbirlərdə həmkarlar ittifaqlarının fəaliyyətinin müxtəlif sahələrinə dair məlumat və təlimat xarakterli mühazirələr təşkil edilirdi. 1920-ci il və 1921-ci ilin birinci yarısında həmkarlar ittifaqlarında təşkilati məsələlərə həsr edilmiş 20 ümumi qəza qurultayı və konfransı, sahə həmkarlar ittifaqlarının 25 qurultayı və 3 respublika miqyaslı müşavirə keçirilmişdi [18, s.158-159]. 1921-ci ildə yeni iqtisadi siyasətə keçilməsi ilə əlaqədar həmkarlar ittifaqlarının təşkilati quruluşunda bəzi dəyişikliklər edildi. Mədən fəhlələri həmkarlar ittifaqlarının mərkəzi idarə heyətləri və rayon şöbələri formasında təşkilati quruluşu fəhlələrlə birbaşa əlaqə saxlamağa imkan vermirdi. Bu nöqsanı aradan qaldırmaq məqsədilə Mədən fəhlələri həmkarlar ittifaqlarının rayon şöbələri ləğv edilərək onların əvəzinə bütün rayonlarda birləşmiş həmkarlar komitələri, eyni zamanda qazma şöbələrinin birləşmiş həmkarlar komitələri təşkil edildi. Bu tədbirlər fəhlələrin həmkarlar ittifaqlarına cəlb edilməsində səmərəli rol oynasa da, azərbaycanlı fəhlələrin ittifaqlara, xüsusilə həmkarlar ittifaqları idarə heyətlərinə cəlb edilməsi işi son dərəcə acınacaqlı vəziyyətdə idi. AHİŞ aparatında işləyənlər Azərbaycan dilini bilmirdilər, kargüzarlıq işləri rus dilində aparılırdı.

Həmkarlar ittifaqlarının fəaliyyətinə partiyanın nəzarəti getdikcə güclənirdi. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda həmkarlar ittifaqlarına partiya rəhbərliyi nümayəndələr mübadiləsi yolu ilə həyata keçirilirdi, yəni AHİŞ-in nümayəndəsi AK(b)P MK-ya və əksinə, MK-nın nümayəndəsi AHİŞ-ə daxil edilirdi. Sonrakı illərdə partiya həmkarlar ittifaqlarının fəaliyyətinə nəzarəti daha da gücləndirdi və bu işi, əsasən, həmkarlar təşkilatlarındakı kommunistlərdən ibarət fraksiyalar vasitəsilə həyata keçirirdi. Partiya həmkarlar təşkilatlarına zəhmətkeşləri təsərrüfat quruculuğuna cəlb etmək üçün özünün əsas ehtiyat qüvvəsi kimi baxırdı. AK(b)P-nin II qurultayının (1920-ci il, oktyabr) qətnaməsində deyilirdi: "həmkarlar ittifaqları fəhlə kütlələrinin geniş tərbiyə məktəbidir, partiya və dövlət yeni ictimai quruluşu yaratmaq üçün bütün yeni qüvvələri oradan götürür" [19, s.14]. 1921-ci ildə AK(b)P MK-nın həmkarlar ittifaqlarının fəaliyyətinə partiyanın rəhbərliyini tənzimləyən sərəncam xarakterli məktubu nəşr edildi. Bu sənəddə bütün partiya komitələrinə həmkarlar təşkilatları nəzdində partiya üzvləri və namizədlərindən ibarət kommunist fraksiyalarını təşkil etmək barədə göstəriş verilmişdi. Partiya komitələri bu fraksiyalar vasitəsilə həmkarlar ittifaqlarının fəaliyyətini istiqamətləndirməli, həmkarlar ittifaqlarında partiyanın baş xəttinin həyata keçirilməsinə nəzarət etməli idilər. Mərkəzi komitənin məktubunda açıq şəkildə bildirilirdi: "həmkarlar ittifaqlarının fraksiyaları - həmkarlar ittifaqlarının qəza büroları və yerli katibləri iki həftədə bir dəfədən az olmayaraq partiya komitələrinə həmkarlar ittifaqlarında işin vəziyyəti barədə məruzə etməlidirlər" [19, s.14]. Məktubda həmçinin partiya və həmkarlar təşkilatları nümayəndələrinin bu təşkilatların rəhbər orqanlarına qarşılıqlı daxil edilməsi qaydaları göstərilmişdi. Sərəncam xarakterli bu məktub partiya təşkilatlarının həmkarlar ittifaqları ilə qarşılıqlı münasibətlərini tənzimləyən ilk sənəd oldu. Məktubda ciddi şəkildə partiyanın qərarlarının həmkarlar ittifaqlarına məcburi qəbul etdiril-

məsinə yol verilməməsi, onlara ən kiçik himayə edilməsinin yol verilməzliyinin zəruriliyi barədə xəbərdarlıq edilirdi. Bu xəbərdarlığa baxmayaraq, Kommunist Partiyası məhz bu fraksiyalar vasitəsilə həmkarlar ittifaqlarının fəaliyyətinə nəzarət mexanizmini həyata keçirirdilər. Ona görə də həmkarlar təşkilatlarında kommunistlərdən ibarət fraksiyaların gücləndirilməsinə xüsusi diqqət verilirdi. AK (b) P-nin IV qurultayının qərarlarında (1922-ci il, fevral) həmkarlar təşkilatlarında müxtəlif təmayüllərin və səhvlərin baş verə biləcəyinin qarşısını almaq məqsədilə bu təşkilatlarda kommunistlərdən ibarət fraksiyaların gücləndirilməsinə diqqətin artırılması partiya komitələrindən tələb edilirdi. Qurultayın qərarında deyilirdi: "həmkarlar hərəkatına fövqəladə mühüm əhəmiyyət verərək və orada partiyanın daimi möhkəm rəhbərliyi olmadan təmayüllərin mümkünlüyünü nəzərə alaraq, keçmişdə heç bir siyasi partiyaya daxil olmamış ən sınanmış və qocaman partiya üzvlərini rəhbər həmkarlar işinə göndərmək lazımdır. Həmkarlar ittifaqlarının idarə heyətlərinin katibləri üçün 5 ildən az olmayan, qəza həmkarlar bürosunun katibləri üçün isə iki il partiya stajı müəyyən edilsin" [20, s.76-77].

Partiyanın göstərişlərinə uyğun olaraq həmkarlar təşkilatlarının idarə heyətlərində kommunistlərin sayı ildən-ilə artırdı. Sovet sisteminin bütün mövcudluğu dövründə rəhbər orqanlara kommunistlərlə bitərəflərin seçilməsi təmin edilirdi. 1923-cü ildə zavod komitələri üzvlərinin 36%-ə qədəri kommunistlər idisə, 1924-cü ildə onların sayı 60%-ə çatmışdı [21, s.20]. 1926-cı il yanvarın 1-nə olan məlumata görə Azərbaycan həmkarlar ittifaqları idarə heyətlərinin 442 nəfər seçkili işçisinin 72,4%-i kommunist, 3,4%-i isə komsomolçu idi. Sosial mənşəyinə görə bu işçilərdən 257 nəfəri fəhlə, 178 nəfəri qulluqçu, 7 nəfəri isə kəndli idi [22, s.50]. Kommunist partiyası həmkarlar ittifaqlarında kommunist fraksiyalarının fəaliyyətinin gücləndirilməsinə daimi diqqət yetirirdi. AK(b)P MK-nın 1925-ci ilin sentyabrında keçirilmiş plenumunda qəbul edilmiş "AHİŞ-in işi haqqında" xüsusi qətnamədə deyilirdi: "kommunist özəklərinin fabrik-zavod komitələrini ən kiçik himayə etməsi hallarını aradan qaldırmaq lazımdır. Özəklər kommunistlərdən ibarət fraksiyalar vasitəsilə fabrik-zavod komitələrinin işinə rəhbərlik etməli və onu istiqamətləndirməlidirlər". Qətnamədə fraksiyaların təşkilinə diqqətin artırılması tələb edilirdi: "yerlərdə fabrik-zavod komitələrinin fraksiyalarını formalaşdırmaq lazımdır. Harada ki, onlar yoxdur, təşkil olunmalıdır" [20, s.227].

Partiyanın həmkarlar ittifaqlarına nəzarəti getdikcə güclənirdi. Həmkarlar ittifaqlarının fəaliyyətində inzibatçılıq və bürokratik meyllər artırdı. Fəhlə kütlələri içərisində əməli iş aparmaq əvəzinə həmkarlar ittifaqları bəzən öz işlərini göstəriş və əmr vermək formasında qururdular. Bir sıra hallarda fabrik-zavod komitələrinin işinə rəhbərliyi partiya orqanları öz əllərinə alırdılar, bu isə bitərəf fəhlələrin həmkarlar təşkilatlarının işinə marağını azaldırdı. Fəhlələr həmkarlar təşkilatlarının iclaslarına həvəssiz gedirdilər və bunu onunla əsaslandırırdılar ki, onsuz da kommunistlər bütün məsələləri iclasa qədər özləri həll etmişlər və müzakirə formal xarakter daşıyır. Bu cür hallar həmkarlar ittifaqlarının öz əsas vəzifəsindən uzaqlaşmasına, onların kütlələr içərisində tərbiyə işinə mənfi təsir göstərirdi. İnzibatçılığa meyl, işdə formalizm və yeknəsəklik, fəhlələrin mənafeyini müdafiə etmək əvəzinə müəssisə rəhbərliyinin mövqeyinin danışıqsız müdafiə edilməsi və s. kimi hallar fəhlələrin öz həmkarlar ittifaqlarına inamını azaldır, onları aşağı həmkarlar orqanlarında fəal işdən uzaqlaşdırırdı.

Həmkarlar ittifaqlarının rəhbər orqanlarında azərbaycanlılar azlıq təşkil edirdilər. 1923-cü ilin iyulunda Azərbaycan həmkarlar ittifaqları idarə heyətlərinin 291 nəfər üzv və namizədindən cəmi 22,5%-i azərbaycanlı, 52,7%-i rus, 13%-i erməni, 11,8%-i isə başqa millətlərin nümayəndələri idi [23]. Bəzi həmkarlar ittifaqlarının aparatında isə bir nəfər də olsun azərbaycanlı yox idi.

1923-cü ildə fabrik-zavod həmkarlar komitələri üzvlərinin cəmi 25,4%-ni azərbaycanlılar, 74,6%-ni isə başqa millətlərin nümayəndələri təşkil edirdilər. Həmkarlar müvəkkillərinin cəmi 17,6%-i azərbaycanlı idi.

Azərbaycan həmkarlar ittifaqlarının idarə heyətlərində daimi işləyənlər içərisində vəziyyət daha acınacaqlı idi. 1922-ci ildə həmkarlar ittifaqları aparatında çalışan 244 nəfər həmkarlar işçisindən 116 nəfəri rus, 41 nəfəri erməni, 45 nəfəri yəhudi, 11 nəfəri başqa millətlərin nümayəndələri, cəmi 31 nəfəri və ya 12,7 %-i azərbaycanlı idi [23].

Kiçik həmkarlar təşkilatlarının birləşməsi nəticəsində həmkarlar ittifaqları idarə heyətlərinin ştatda olan məsul və texniki işçilərinin sayı 1922-ci ildə 244 nəfərdən 1924-cü ildə 237 nəfərə enmişdi [24, s.18]. 1926-cı il yanvarın 1-nə isə idarə heyətlərində 442 nəfər çalışırdı. Onlardan 257 nəfəri fəhlə, 178 nəfəri qulluqçu, 7 nəfəri kəndli idi [22, s.50]. Maraqlı cəhət burada idi ki, həmkarlar ittifaqlarının aşağı təşkilatlarında da azərbaycanlılar azlıq təşkil edirdilər. 1924-cü il yanvarın 1-nə Azərbaycanda həmkarlar ittifaqlarının 373 seçkili orqanlarında (fabrik-zavod yerli komitələrində) 1537 nəfər çalışırdı. Bundan əlavə 1133 təşkilatda 4807 nəfər müvəkkil və nümayəndə var idi. Fabrik-zavod komitələrində işləyənlərin 46%-i rus, 31%-i azərbaycanlı, 12,8%-i erməni, 10,2%-i başqa millətlərin nümayəndələri idi. Müvəkkil və nümayəndələrin tərkibində isə ruslar 43,9%, azərbaycanlılar 29,5%, ermənilər 15,5%, başqa millətlər 11,1% təşkil edirdi [24, s.20-21]. 1924-cü illə müqayisədə 1926-cı ildə fabrik-zavod komitələri üzvlərinin tərkibində azərbaycanlıların sayının artması bütövlükdə həmkarlar ittifaqları üzvlərinin sıralarında azərbaycanlıların sayının xeyli artması, həmçinin həmkarlar ittifaqlarının təşkilati-kütləvi işinin güclənməsi ilə bağlı idi. Həmkarlar ittifaqları üzvləri tərkibində azərbaycanlılar 1924-cü ilin yanvarında 32,1% təşkil edirdisə, 1926-cı ilin yanvarında bu 39,1%-ə yüksəlmişdi. Buna baxmayaraq, həmkarlar ittifaqları üzvləri içərisində azərbaycanlılar başqa millətlərlə müqayisədə yenə də azlıqda qalırdılar.

1926-cı il yanvarın 1-də aşağı həmkarlar təşkilatlarında 18853 nəfər çalışırdı. Onlardan 5409 nəfəri fabrik-zavod komitələrinin üzvləri, 7222 nəfər müvəkkil və nümayəndə, fabrik-zavod yerli komitələrində komissiya üzvlərinin sayı 6222 nəfər idi [22, s.49].

1926-cı ildə fabrik zavod komitə üzvlərinin (5409 nəfər) 43,7%-i azərbaycanlı, 33,5%-i rus, 15,4%-i erməni, qalanları isə başqa millətlərin nümayəndələri idi [25, s.78]. Maraqlı cəhət budur ki, həmkarlar ittifaqlarının idarə aparatına azərbaycanlıların cəlb edilməsi məsələsi partiyanın bütün iclaslarında ardıcıl olaraq qaldırılsa da, vəziyyət, demək olar ki, dəyişilməz qalırdı. Həmkarlar ittifaqları işinin ən zəif həlqələrindən biri ittifaqların rəhbər orqanlarında azərbaycanlıların təmsil olunması və dil məsələsi idi. AK(b)P Bakı komitəsinin katibi R.Axundovun XII Ümumbakı partiya konfransındakı (1923-cü il, iyun) çıxışında bu məsələ ciddi şəkildə qaldırılmışdı: "İttifaq şöbələrində kifayət qədər türk və ya ən azı türkcə danışan işçilər olmadığına görə müsəlman fəhlələr öz həmkarlar ittifaqına müraciət edərkən çox vaxt lazım olan cavabı almırlar. Beləliklə, həmkarlar ittifaqları və türk fəhlələri arasında, buradan isə rus, erməni və türk fəhlələri arasında bir uçurum əmələ gəlir" [26, s.9].

Bu dövrdə həmkarlar ittifaqlarının təşkilati quruluşunda mövcud olan bu vəziyyət Mərkəzi hökumətin yeritdiyi siyasətlə bağlı idi. Təkcə həmkarlar təşkilatları aparatında deyil, partiya və sovet orqanlarında da vəziyyət belə idi. Sovet dövləti məqsədyönlü şəkildə Azərbaycanda partiya, sovet və dövlət orqanları aparatının ruslaşdırılması siyasətini yeridirdi.

1926-cı ilin yanvar-fevral aylarında bütün sahə həmkarlar ittifaqları üzrə qurultaylar keçirilmişdi [27, v.3]. Həmin ilin martında isə Azərbaycan həmkarlar ittifaqlarının V qurultayı keçirilmişdi. Qurultayda həmkarlar ittifaqlarının sıralarına fəhlə və qulluqçuların, o cümlədən həmkarlar ittifaqları aparatına azərbaycanlıların zəif cəlb edilməsi qeyd olunmuş, eyni zamanda fabrik-zavod və mədən komitələrinin səlahiyyət müddətinin 6 aydan bir ilədək artırılması qərara alınmışdı [28, s.1-6].

1926-cı il martın 10-da AHİŞ-in plenumunda 16 nəfər üzv və 5 namizəddən ibarət rəyasət heyəti seçilmişdi. Rəyasət heyətinin üzvlüyünə L.İ.Mirzoyan, S.A.Qutin, T.A.İvanov, H.B.Ağaverdiyev, R.A.İzmaylov, İ.Rəhimov, E.B.Şeftel, Z.A.Edelson, O.Ə.Zeynalov, P.Qasımov, İ.İ.Qodlevski, Y.Abdinov, B.Səfərov, E.Qriqoryan, N.D.Çeçetkin, N.Qolubev, namizədliyə Z.Pokopov, E.N.Mişina, F.V.Qodov, M.Seyidov, Y.Andreyev seçilmişdilər. Plenumda T.A.İvanov AHİŞ-in sədri, R.A. İzmaylov katibi, İ.Rəhimov təşkilat şöbə müdiri, Z.A.Edelson mədəniyyət şöbə müdiri, L.M.Frik AHİŞ-in məsul xəzinədarı, N.Qolubev Azərbaycan SSR Xalq Əmək komissarı, Y.Andreyev AHİŞ-in orqanı olan "Trud" qəzetinin redaktoru seçilmişdilər [29, v.7].

Göründüyü kimi, 20-ci illərin əvvəlləri ilə müqayisədə də AHİŞ-in mərkəzi aparatının işçilərinin milli tərkibində elə ciddi bir dəyişiklik baş verməmişdi. 1923-cü il fevralın 10-da AHİŞ-in

sədri İ.M.Konuşkin seçilmişdi. O bu vəzifədə L.Mirzoyanı əvəz etmişdi. 1924-cü il martın 3-də İ.M.Konuşkini Seyidcəfər Yaqub oğlu Yaqubov (milliyyətcə tatar idi) əvəz etdi. 1924-cü il oktyabrın 28-də Timofey İvanov AHİŞ-in sədri oldu.

1928-ci il martın 21-28-də isə Azərbaycan həmkarlar ittifaqlarının VI qurultayı keçirildi. Qurultayda iştirak edən 450 nəfər nümayəndədən cəmi 196 nəfəri (43%) azərbaycanlı idi. Dövrün tələbinə uyğun olaraq qurultay nümayəndələrinin xeyli hissəsi - 122 nəfəri fəhlə idi. Qurultayda seçilmiş AHİŞ-in rəyasət heyətinə T.A.İvanov (AHİŞ-in sədri), İ.Rəhimov (məsul katib), İ.Q.Yarıqin (təşkilat şöbə müdiri), F.P.Sudik (tarif-iqtisadi şöbə müdiri), M.Şahbazov (mədəniyyət şöbəsinin müdiri), S.A Qutin, O.Zeynalov, N.D.Çeçetkin, P.Qasımov, B.Səfərov, Y.Abdinov, İ.İ.Qodlevski, İ.E.Rıbakin, D.Kuznetsov, P.Balbasov, S.Badırov və Karamyan seçilmişdi. Qurultayda həmçinin V.A.Udalov Azərbaycan mühəndis və texniklər bürosunun sədri, N.C.Məmmədli isə proletar tələbələr bürosunun sədri seçilmişdi [30, v.528]. Həmkarlar ittifaqlarının VI qurultayında da seçilmiş rəyasət heyəti üzvlərinin və namizədlərin əksəriyyəti başqa millətlərin nümayəndələri idi.

AHİŞ-in 1928-ci ilin iyun plenumunda isə İ.Rəhimov AHİŞ-in sədri, İ.Q.Yarıqin isə məsul katib seçilmişdilər [31, s.35]. 1929-cu ilin avqustunda İsrafil Rəhimovu Ovsəd Zeynalov əvəz etdi.

1929-cu ildə Azərbaycanda həmkarlar ittifaqları daxilində sağ və sol təmayülçülərə qarşı mübarizə pərdəsi altında həmkarlar ittifaqlarının tərkibində azərbaycanlıların sayının artırılmasını tələb edən adamlar həmkarlar işindən uzaqlaşdırıldılar. Sağ təmayülçü adlandırılanlar əslində həmkarlar aparatının azərbaycanlaşdırılmasını tələb edirdilər.

AHİŞ-in 1929-cu ilin 1-5 iyulunda keçirilmiş plenumunda Azərbaycan həmkarlar ittifaqlarının ayrı-ayrı işçilərinin partiyanın baş xəttinə qarşı çıxmaq cəhdləri kəskin tənqid edilmişdi [32, s.22]. 1929-cu il avqustun 21-23-də AHİŞ-in həmkarlar ittifaqlarının mərkəzi idarə heyətləri üzvləri, mədən fəhlələri həmkarlar ittifaqlarının rayon şöbələri və istehsalat fəhlələri ilə birlikdə keçirdiyi plenumunda Azərbaycan həmkarlar ittifaqlarının işi haqqında məsələ müzakirə edilərək, AHİŞ-in tərkibində təmizləmə tədbiri həyata keçirildi. Plenumun qərarı ilə AHİŞ-in rəyasət heyətinin üzvləri İ.Rəhimov, M.F.Frolov, S.A.Qutin, P.Qasımov, B. Səfərov, Y Abdinov, İ.N.Qodlevski, P.Adamyan və rəyasət heyəti üzvlüyünə namizədlər S.İtkin və Dulçin vəzifələrindən azad edildilər. AHİŞ-in yeni seçilən rəyasət heyəti üzvlüyünə O.Ə.Zeynalov (AHİŞ-in sədri), F.P.Sudik (AHİŞ-in məsul katibi), N.D.Çeçetkin, Ə.Bağırov, A.Frolov, fəhlələrdən D.Kuznetsov, P.Balbasov, Qüdrət Xan Əli, Şarluşkin və Myaqkov, rəyasət heyəti üzvlüyünə namizədliyə R.Babayev seçildilər [33]. Göründüyü kimi AHİŞ-in tərkibində qeyri-azərbaycanlılar əvvəllərdə olduğu kimi üstünlük təşkil edirdilər.

1929-cu ilin sentyabr ayı ərzində keçirilən Azərbaycan həmkarlar ittifaqlarının plenumlarında həmkarlar ittifaqlarının idarə heyətlərinin 99 nəfər üzvündən 32 nəfəri sağ təmayülçülükdə günahlandırılaraq işdən azad edilmişdilər [34].

1929-cu il oktyabrın 1-dən isə bütün həmkarlar təşkilatları daxilində "təmizləmə" işinə başlandı. Təkcə AHİŞ aparatında "təmizləmə" nəticəsində beş nəfər işdən azad edilmiş, 1 nəfər texniki işə keçirilmiş, 4 nəfərə isə töhmət elan edilmişdi [35]. Əslində bu tədbirlər sosializm cəmiyyəti üçün "düşmən" elan edilən adamların ictimai siyasi fəaliyyətdən uzaqlaşdırılması və məhv edilməsinə xidmət edirdi.

Təmizləmə tədbirləri 1930-cu ildə də davam etdirildi. 1930-cu ildə AHİŞ Toxucular və Yerli nəqliyyat işçiləri həmkarlar ittifaqlarının idarə heyətlərini tam tərkibdə buraxmış, Sovet ticarət işçiləri, Kimyaçılar, Su nəqliyyatı və dəmir yol nəqliyyatı işçiləri həmkarlar ittifaqlarının idarə heyətləri tamamilə yeniləşdirilmişdi. Fabrik-zavod yerli komitələrinin hesabat-seçki kampaniyası zamanı isə 302 fabrik-zavod yerli komitəsi təzədən seçilmiş, onların tərkibinə 2089 nəfər yeni üzvlər daxil edilmişdi [36, v.48-50].

1930-cu il sentyabrın 26-da AHİŞ-in plenumunda da təşkilati dəyişikliklər həyata keçirildi. Abid Əmiraslanov AHİŞ-in sədri, rəyasət heyəti üzvlüyünə Korıtnıy, Boquş, Ə.Babayev, Barablev, Y.A.İqnaçenko, Kayurov və A.Bezzubov seçildilər. AHİŞ-in katibləri N.D.Çeçetkin, Korıtnıy, təşkilat şöbə müdiri A.Bezzubov, mədəniyyət şöbəsinin müdiri Y.A.İqnaçenko oldular [37].

1929-1930-cu illərdə həmkarlar ittifaqlarının tərkibində həyata keçirilən bütün bu dəyişikliklər sağ təmayülçülüyə qarşı mübarizə pərdəsi altında həyata keçirilirdi.

1931-ci ilin sentyabrında AHİŞ-in aparatında yenidən dəyişikliklər edildi. Qrupbazlıqda təqsirləndirilən A.Əmiraslanov (AHİŞ-in sədri), Y.A.İqnaçenko, Kazarinova, M. Həsənov, Kayurov, Adrov və b. AHİŞ-in rəyasət heyəti üzvlüyündən azad edildilər. AHİŞ-in sədri Ələkbər Mahmudov seçildi. Həmkarlar ittifaqlarının VII qurultayında isə (1932-ci il, aprel) yenidən AHİŞ-in sədri Ə.Mahmudov, AHİŞ-in katibi Nauman, şöbə müdirləri Lunin, Boqdanov, Əzimov, Əliyev, İ.Rəhimov, Faynqart, Rayxlin, Terberov seçildilər. Azərbaycan sosial-sığorta idarəsinin rəisi isə P.Adamyan seçildi [38]. 1933-cü il iyunun 11-də AHİŞ-in plenumunda Lətif Rəsulov AHİŞ-in sədri seçildi.

1934-1935-ci illərdə bir sıra həmkarlar ittifaqlarının işinin yenidən qurulması pərdəsi altında onların SSRİ həmkarlar təşkilatlarına tabe etdirilməsi tədbiri həyata keçirildi. Həmin illərdə neft və neftayırma sənaye sahələri Mərkəzi hökumətin tabeçiliyində olduğuna görə bu sahələrdə çalışan işçiləri birləşdirən həmkarlar ittifaqları da birbaşa Mərkəzi həmkarlar ittifaqlarına tabe etdirilmişdilər. Yenidənqurma pərdəsi altında Neftçilər həmkarlar ittifaqının Azərbaycan şöbəsi ləğv edildi [39].

Bu dövrdə neft sənayesi tamamilə Moskvanın nəzarəti altında idi. Həmin sənaye sahəsində çalışan işçilər də mərkəzi həmkarlar təşkilatlarının tabeçiliyinə keçirilmişdi. Sözdə elan edilmiş sosialist demokratiyası faktiki olaraq formal xarakter daşıyırdı.

Azərbaycan həmkarlar ittifaqlarının işinin yenidən qurulması prosesində yol verilmiş əyintilər onların fəaliyyətinə mənfi təsir göstərirdi. 1934-cü ildə keçirilmiş təşkilati tədbirlər nəticəsində Azərbaycanda o vaxta qədər mövcud olan 32 həmkarlar komitəsi əvəzinə 21 idarə heyəti və 10 səlahiyyətli nümayəndəlik yaradılmışdı [40; 41]. AHİŞ aparatında çalışan 44 nəfər ştatdankənar təlimatçının sayının 10 nəfərə endirilməsi həmkarlar ittifaqlarının könüllü həmkarlar fəalları ilə işi düzgün qura bilməməsinin, fəhlələrin həmkarlar işinə zəif cəlb edilməsinin, həmkarlar təşkilatlarının zəhmətkeşlərlə əlaqəsinin zəifləməsinin nəticəsi idi. Həmkarlar ittifaqlarının yeni təşkilati quruluşuna görə həmkarlar ittifaqları üzvlərinin sayı 1000 nəfərdən az olan rayonlarda pullu həmkarlar təşkilatı aparatı ləğv edilirdi, 1000-dən 5 min nəfərədək həmkarlar ittifaqı üzvü olan rayonlarda 1 nəfər təlimatçı, 5 mindən 10 min nəfərədək həmkarlar ittifaqı üzvü olan rayonlarda isə 2 ştat vahidi (təlimatçı və mühasib-statistikçi) müəyyən edilmişdi. Yalnız həmkarlar ittifaqları üzvlərinin sayı 10 mindən 30 min nəfərədək olan rayonlarda 4 nəfər ştatı olan (həmkarlar ittifaqı sədri, mədəniyyət məsələləri üzrə təlimatçı, təlimatçı və mühasib-statistikçi) həmkarlar ittifaqı şurası saxlanılırdı. Bu qaydaya görəyalnız Gəncə şəhər həmkarlar ittifaqları şurası ştatla öz fəaliyyətini davam etdirə bilərdi. DQMV, Naxçıvan MSSR və Nuxada həmkarlar ittifaqları şuraları ləğv edilir, yalnız bir nəfər təlimatçı ştatı saxlanılırdı. Yeddi rayon üzrə hər bir rayonda (Əli-Bayramlı, Ağcabədi, Quba, Lənkəran, Xaçmaz, Göyçay və Salyan) AHİŞ-in 2 nəfər, qalan 38 rayonun hər birində 1 nəfər təlimatçısı fəaliyyət göstərirdi, 11 rayonda isə (Astara, Vərqəduz, Dəstavyur, Züvənd, Gədəbəy, Kəlbəcər, Xızı, Qonaqkənd, Samux, Qubadlı, Gülüstan (keçmiş Şaumyan) nə həmkarlar ittifaqı şurası, nə də AHİŞ-in təlimatçısı yox idi. Bu rayonlarda həmkarlar işi əvəzçilik üzrə həmin rayonlarda fəaliyyət göstərən (əgər olsa idi) sahə həmkarlar ittifaqlarının işçilərindən birinə həvalə edilmişdi. Həmkarlar ittifaqlarının işinin ərazi prinsipi üzrə deyil, istehsalat prinsipi əsasında qurulması onların zəhmətkeşlərlə əlaqəsinin zəifləməsinə gətirib çıxardı.

Həmkarlar ittifaqlarının təşkilati quruluşunda tez-tez həyata keçirilən dəyişikliklər də onların fəaliyyətinə mənfi təsir göstərirdi. AHİŞ-in 1935-ci ilin avqustunda keçirilmiş plenumunda L.Rəsulov AHİŞ-in sədri vəzifəsindən azad edildi, onun yerinə əvvəllər Lenin adına toxuculuq fabrikinin direktoru işləmiş Əbülfət Heydər oğlu Məmmədov seçildi. AHİŞ-in katibi vəzifəsində isə P.K. Adamyanı Lunin əvəz etdi [42]. Ə.Məmmədov 1937-ci ilin iyunundək, AHİŞ ləğv olunana qədərki dövrdə onun sədri olmuş, sonra isə Azərbaycan Kommunal təsərrüfatı komissarı təyin edilmişdi [43].

30-cu illərin ikinci yarısında həmkarlar ittifaqlarının fəaliyyətində ciddi nöqsanlara yol verilmişdi. İnzibati-amirlik sisteminin cəmiyyətdə dərin kök salması həmkarlar ittifaqlarının fəaliyyətində demokratik prinsiplərin tamamilə aşılanmasına gətirib çıxarmışdı. 1937-ci ildə ayrı-ayrı həmkar-

lar ittifaqlarının idarə aparatları ləğv edildi. Həmin ildə keçirilmiş həmkarlar ittifaqlarının hesabat seçki kampaniyasında onların tərkibi tamamilə yeniləşdirildi. Azərbaycan həmkarlar ittifaqlarının Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasından (ÜİHİMŞ) asılılığı daha da gücləndirildi. Sovetlər birliyinin digər respublikalarında olduğu kimi Azərbaycanda da həmkarlar ittifaqları Şurası ləğv edilərək onun funksiyası ÜİHİMŞ-in səlahiyyətli müvəkkilinə verildi. Yalnız 1948-ci ildə respublikalarda həmkarlar ittifaqları şuraları bərpa edildi. ÜİHİMŞ-in XIX plenumunun "Respublika, ölkə və vilayətlərdə həmkarlar ittifaqları şuralarının təşkili haqqında" qərarına uyğun olaraq 1948-ci ilin 27-29 martında Bakıda keçirilən birinci respublika ittifaqlararası konfransda 35 nəfər üzv və 11 üzvlüyə namizəddən ibarət AHİŞ-in rəyasət heyəti seçildi. Tofiq Əliheydər oğlu Allahverdiyev AHİŞ-in sədri seçildi [44]. 1950-ci il mayın 29-da AHİŞ-in plenumunda T.Ə.Allahverdiyev başqa işə keçməsi ilə əlaqədar AHİŞ-in sədri vəzifəsindən azad edildi, onu İsmayıl Nəsrulla oğlu Əsgərov əvəz etdi. 1952-ci il sentyabrın 22-də İ.N.Əsgərov başqa işə keçməsi ilə əlaqədar AHİŞ-in sədri vəzifəsindən azad edildi, Zəhra Adıgözəl qızı Kərimova AHİŞ-in sədri seçildi [45, v.1-5]. 1954-cü il aprelin 5-də AHİŞ-in plenumunda Z.A.Kərimovanı Tahirova Tahirə Əkbər qızı əvəz etdi. 1956-cı il dekabrın 4-də isə o, başqa işə keçməsi ilə əlaqədar AHİŞ-in sədri vəzifəsindən azad edildi. Şəfiqə Dəmir qızı Bədəlova AHİŞ-in sədri seçildi [46]. 1958-ci ilin mayında Azərbaycan həmkarlar ittifaqlarının VIII qurultayı (VII qurultay 1932-ci ildə keçirilmişdi) keçirildi. Qurultaydan sonra 1958-ci il mayın 9-da AHİŞ-in plenumunda Ş.Bədəlova AHİŞ-in sədrliyindən azad edildi. AHİŞ-in sədri Kamran Əsəd oğlu Hüseynov seçildi. Qurultayda AHİŞ-in 11 nəfərdən ibarət rəyasət heyəti (onlardan 6 nəfəri azərbaycanlı idi) seçilmişdi [47]. 1961-ci il iyunun 9-da AHİŞ-in plenumu K.Ə.Hüseynovu ÜİHİMŞ-in katibi seçilməsi ilə əlaqədar AHİŞ-in sədri vəzifəsindən azad etdi. Plenumda Qüdrət Qulu oğlu Dadaşov AHİŞ-in sədri seçildi [48]. O, 1970-ci ilədək bu vəzifədə çalışdı. 1970-ci il iyunun 1-də AHİŞ-in plenumunda təşkilat məsələsi müzakirə edilmiş, Q.Dadaşov AHİŞ-in sədri vəzifəsindən azad edilmişdi. Züleyxa Hüseynova AHİŞ-in sədri seçildi [49].

1981-ci il yanvarın 23-də AHİŞ-in plenumunda təşkilat məsələsi müzakirə edildi. Z.Hüseynovanın başqa işə keçməsi ilə əlaqədar AHİŞ-in sədri Lidiya Xudat qızı Rəsulova seçildi [50]. 1989-cu il martın 27-də AHİŞ-in plenumu L.Rəsulovanı Azərbaycan SSR Sosial təminat naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq AHİŞ-in sədri vəzifəsindən azad etdi. Bakı Elektro məişətcihaz Birliyinin baş direktoru Rüfət Ağababa oğlu Ağayev AHİŞ-in sədri seçildi [51]. 1990-cı il iyunun 25-də AHİŞ-in VIII plenumunda R.A.Ağayev Bakı şəhər partiya komitəsinin birinci katibi seçilməsi ilə əlaqədar AHİŞ-in sədri vəzifəsindən azad edildi. AHİŞ-in katibi işləmiş Kamran Yusif oğlu Ağahüseynov AHİŞ-in sədri seçildi [52]. 1992-ci ilin dekabrınadək o, bu vəzifəni icra etmişdir.

Azərbaycan həmkarlar ittifaqları 1988-ci ildən respublikada başlayan demokratik proseslərdən kənarda qalmışdı. Həmkarlar ittifaqları seçim qarşısında qalmışdılar, ya həmkarlar ittifaqını buraxmaq, sonra aşağıdan yuxarıya doğru yenisini yaratmaq, ya da struktur dəyişiklikləri etməklə onu beynəlxalq tələblərə cavab verə bilən bir quruma çevirmək. Həmkarlar ittifaqlarında ikinci yol seçildi. Həmkarlar ittifaqlarında yeniləşmə prosesi 1991-ci ildə Naxçıvan Muxtar Respublikasında başlmışdı.O zaman Muxtar Respublika İşçi Federasiyası yaradıldı, lakin təşkilatlanma işi hələ başa çatdırılmamışdı. "Turan" Azad Əməkçi Birliyi təşəkkül tapmaqda idi. Azərbaycan Xalq Cəbhəsinin nəzdində yeni müstəqil həmkarlar ittifaqı yaratmaq üçün təşəbbüs qrupu fəaliyyət göstərirdi.

Həmkarlar İttifaqında mövcud olan vəziyyəti qaydaya salmaq məqsədilə 1993-cü il fevralın 5-də Azərbaycan həmkarlar ittifaqlarının növbədənkənar XIX fövqəladə qurultayı keçirildi.Qurultay tarixi zərurət üzündən çağırılmışdı. Qurultayda AHİŞ-in fəaliyyətinə xitam verildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə yeritdiyi siyasətə uyğun olaraq daha demokratik qurum - Konfederasiya yaratmaq qərara alındı. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Suliddin oğlu Mehbalıyev seçildi [53]. Bu vaxtdan başlayaraq Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətində yeni bir dövr başladı.

Açar sözlər: Azərbaycan, həmkarlar ittifaqı, mədəniyyət, respublika, beynəlxalq təşkilatlar, siyasi sistem

İstifadə edilmiş ədəbiyyat

1. Гусейнов К.А., Найдель М.И. Очерки истории профдвижения в Азербайджане. Баку: Азернешр, 1966, 484 с.
2. Четверть века борьбы под большевистским знаменем. Юбилейный сборник, посвященный 25-летию союза рабочих нефтяной промышленности АССР. Сборник статей. Отв. Ред. Д.В. Кирдянов. Баку: Изд. Азербайджанского комитета союза рабочих нефтяной промышленности, 1932, 94 с.
3. Базиянц А.П. Возникновение и деятельность союза нефтепромышленных рабочих (1905-1908 гг.). М.: Профиздат, 1955, 32 с.
4. Тронов В.Ф. Как возник союз нефтепромышленных рабочих. Газ. «Бакинский рабочий», Баку, 1932, 27 мая
5. Никишин А.А. 20 лет Азербайджанских Горнорабочих. Баку: Изд. РИО АСПС, 1926, 78 с.
6. Газ. «Бакинский рабочий», Баку, 1917, 19 июля
7. Первая Кавказская Краевая Конференция профессиональных союзов. Тифлис: 1918, 16 с.
8. Газ. «Бакинский рабочий», Баку, 1917, 2 декабря
9. Профсоюзы в борьбе за победу Октябрьской социалистической революции. Сборник статей. М.: Изд-во ВЦСПС Профиздат, 1957, 243 с.
10. Qaraşov H.T. Həmkarlar ittifaqları müstəqil ictimai, qeyri-siyasi təşkilatdır. Bakı: Təhsil EİM, 2003, 203 s.
11. Гусейнов К.А., Найдель М.И. Профсоюзы Советского Азербайджана. Исторический очерк. М.: Профиздат, 1962, 309 с.
12. Газ. «Коммунист», Баку, 1920, 8 июня
13. Газ. «Коммунист», Баку, 1920, 16 июня
14. Резолюции I Азербайджанского съезда профессиональных союзов. Баку: Изд. АСПС, 1920, 23 с.
15. Второй Азербайджанский съезд профессиональных союзов (1-11 июля 1921 г.). Стенографический отчет. Баку: Изд. АСПС, 1921, 197 с.
16. Бюллетень АСПС. Баку: 1921, 1 июня, №4
17. Вестник профдвижения. Баку: 1921, № 8-9.
18. Все Закавказье. Справочная. Баку: Изд. Закгиз, 1925, 472 с.
19. Известия ЦКАКП (б). Баку, 1921, №5
20. Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференции и пленумов ЦК. Том первый, 1920-1937. Баку: Азернешр, 1986, 675 с.
21. XIII Общебакинская конференция АКП (б). (26 апреля - 4 мая 1924 г.). Стеног. Отчет. Баку: Изд. БКАКП (б), 1924, 310 с.
22. Профдвижение Закавказья 1924 и 1925 гг. Отчет Закпрофсовета к III съезду профсоюзов Закавказья. Тифлис: Изд. Закпрофсовета, 1926, 79 с.
23. Информационное письмо АСПС. Газ. «Труд», 1923, 1 октября
24. Отчет Закбюро ВЦСПС 2-му Закавказскому съезду профсоюзов. 1922-март-1924. Тифлис: Изд. Закбюро ВЦСПС, 1924, 136 с.
25. AK (b) F-nin VIII qurultayına statistik materiallar. Bakı: AK (b) F-nin nəşriyyatı, 1927, 78 s.
26. Общебакинская XII конференция АКП (б). Национальный вопрос. Стеног. Отчет. Баку: Изд. БКАКП (б), 1923, 271 с.
27. Azərbaycan Respublikası Dövlət Arxivi: F.1114, siy.1, iş 64
28. Профдвижение в Азербайджане к 5-у съезду профсоюзов. Баку: Азпрофиздат, 1926, 88 с.
29. Gürcüstan Respublikası Mərkəzi Tarix Arxivi: F.805, siy.1, iş 470
30. Azərbaycan Respublikası Dövlət Arxivi: F.1114, siy.1, iş 2641
31. Резолюции и постановления 2-ой сессии пленума АСПС (25-28 мая 1928 г.). Баку: Изд. РИОАСПС, 1928, 36 с.
32. Очередные задачи профсоюзов. Баку; Изд. РИОАСПС, 1926, 40 с.
33. Газ. «Бакинский рабочий», Баку, 1929, 25 августа
34. Газ. «Вышка», Баку, 1929, 27 сентября
35. Газ. «Вышка», Баку, 1929, 14 ноября
36. Azərbaycan Respublikası Dövlət Arxivi: F.1114, siy.1, iş 8486

37. Газ. «Вышка», Баку, 1930, 28 сентября
38. Газ. «Вышка», Баку, 1932, 1 апреля
39. Газ. «Вышка», Баку, 1934, 30 октября
40. Газ. «Вышка», Баку, 1934, 2 октября
41. Газ. «Вышка», Баку, 1934, 8 октября
42. Пленум АСПС (11 август 1935 г.) Газ. «Вышка», Баку, 1935, 14 августа
43. Газ. «Вышка», Баку, 1937, 3 декабря
44. "Kommunist" qəz., 1948, 30 noyabr
45. Azərbaycan Respublikası Dövlət Arxivi: F.1114, siy. 5, iş 200
46. "Kommunist" qəz., 1956, 5 dekabr
47. "Kommunist" qəz., 1958, 11 may
48. "Kommunist" qəz., 1961, 10 iyun
49. "Kommunist" qəz., 1970, 3 iyun
50. "Kommunist" qəz., 1981, 24 yanvar
51. "Kommunist" qəz., 1989, 28 mart
52. "Kommunist" qəz., 1990, 26 iyun
53. "Ülfət" qəz., 1993, 13 fevral

Векил Гасанов

ПРОФСОЮЗЫ АЗЕРБАЙДЖАНА: ИСТОРИЧЕСКИЕ ЭТАПЫ РАЗВИТИЯ

Резюме

История создания профессиональных союзов в Азербайджане относится к началу XX века. Созданная в это время первая, самая крупная профсоюзная организация объединила рабочих нефтяной промышленности. Объединение отдельных профсоюзов в единую организацию произошло лишь в 1920 году, после советизации Азербайджана. С этого периода начался процесс организационного укрепления профсоюзов, которые стали играть важную роль в советском обществе. Однако в советский период в деятельности профсоюзов были допущены ошибки и они имели ряд недостатков. В 20-30-х годах XX года в руководстве профсоюзов представители некоренной национальности составляли большинство. В статье широко освещен вопрос о кадровых изменениях в руководстве профсоюзов. С восстановлением в 1991 году независимости Азербайджана в деятельности профсоюзов произошел коренной перелом.

Ключевые слова: Азербайджан, профессиональные союзы, культура, республика, международные организации, политическая система

Vekil Hasanov

AZERBAIJAN TRADE UNIONS: THE STAGES OF ITS HISTORICAL DEVELOPMENT

Summary

Azerbaijan Trade Unions had begun to establish since the beginning of the XX century. The biggest trade organization covered the workers of oil industry. The combination of trade unions in a single organization had taken place in 1920. Azerbaijan trade unions had formed from an organizational point of view and they had played an important role in the life of soviet society. But shortcomings had been made in the activity of trade unions in the soviet era. 20-30 years of the XX century non-Azerbaijanis dominated in the management of trade unions. Personal changes had been widely interpreted in the leadership of trade unions. There was a major turning in the activity of trade unions with the establishment of Independent Republic of Azerbaijan.

Keywords: Azerbaijan, trade unions, culture, republic, international organizations, political system

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

UOT – 101.1

Aydın Şirinov
AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d., professor

SİYASİ, İDEOLOJİ ANLAYIŞLARA QNOSEOLOJİ VƏ AKSİOLOJİ YANAŞMA

Məqalədə hazırda humanitar tədqiqatlarda daha çox araşdırılan milli mentalitet, milli ideya, milli ideologiya, dövlətçilik ideologiyası, azərbaycançılıq ideologiyası kimi məsələlərin təhlili öz əksini tapıb. Siyasi və ideoloji anlayışlar o zaman cəmiyyət və onun vətəndaşlarının psixologiyasına, şüuruna, mənəviyyatına yol tapır ki, o, insanların gündəlik həyatı və qayğıları ilə bağlı olur. Bildirilir ki, azərbaycançılıq ideologiyası özündə həm vətənpərvərliyi, həm milli ideologiyanı, həm dövlətçiliyi, həm də fundamental əsas olan milli mentaliteti birləşdirir. Burada indiki dövrdə hamı tərəfindən birmənalı qəbul edilən, hamının mənəviyyatında, düşüncəsində özünə yer tapmış olan komponent vətənpərvərlikdir. Eyni zamanda, milli dəyərlər və milli identiklik anlayışlarının mahiyyətinə aydınlıq gətirilir.

Siyasi və ideoloji anlayışlara qnoseoloji və aksioloji yanaşma konkret sosial məkan və zamanda xalqın və ölkənin real həyatının gedişində bu terminin məzmun və formasının necə dəyişdiyini izləməyə imkan verir.

İstər Azərbaycanda, istərsə də ən çox istifadə olunan rusdilli ictimai və humanitar tədqiqatlarda milli mentalitet, milli ideya, milli ideologiya, dövlətçilik ideologiyası, Azərbaycanda isə azərbaycançılıq ideologiyası kimi anlayışlardan gen-bol istifadə olunur. Nəinki elmi tədqiqatlarda, hətta KİV-də belə çoxlu yazılara və söhbətlərə rast gəlinir. Lakin bütün bunlara mahiyyətcə sitemli yanaşma, tarixi və sosial fəlsəfi təhlil süzgəcindən baxılması halları qismən azdır. Hərçənd R.Mehdiyev və Ə.Abbasov kimi tədqiqatçılar bu məsələlərin tədqiqi istiqamətində xeyli iş görmüşlər. Lakin göstərilən anlayışların korrelyasiyası (əlaqəsi) və fəlsəfi ümumiləşdirilməsi aktual olaraq qalır. "Fəlsəfi ümumiləşdirmə" ifadəsini təsadüfi işlətmirəm. Çünki fəlsəfi ümumiləşdirmə öz varlığında müxtəlif olan şeylər arasındakı ümumi cəhəti tapmaq, üzə çıxarmaq deməkdir. Əslində bütün fəlsəfi və elmi anlayışlar bu qayda əsasında yaranır və buna görə də abstrakt məzmuna malik olur. Ümumiyyətlə, istənilən nəzəri təfəkkür sahəsində biz müxtəlif səviyyələrdə olan abstraksiyalarla qarşılaşırıq. Fəlsəfi prinsip və kateqoriyalar sisteminə gəldikdə isə bunlar ən yüksək və universal abstraksiyalardır. Bu abstraksiyaların konkretliyi isə istər tarixi, istərsə də müasirlik baxımından gerçəkliyi düzgün əks etdirməsidir. Gerçəklik isə həm maddi, həm sosial, həm də düşüncə və mənəviyyata aiddir. Fəlsəfənin donuq sxolastik mühakimələr torunda ilişib qalmaması və real gerçəklikdən çıxış etməsi də elə bu deməkdir. O nəinki real gerçəkliyi əks etdirməli, həm də bu gerçəkliyin tendensiyasını, onun inkişaf meylini göstərməyə çalışmalıdır. Bu isə onun proqnastik funksiyasıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hər bir elmin proqnostik funksiyası var və bu funksiya müəyyən ideya və hipotezalarda öz əksini tapır. Hərçənd bu ideya və hipotezaların bir qismi gerçəkliyin daha dərindən və dəqiq öyrənilməsi və elmin inkişaf fonunda özünü doğrultmaya bilər, yaxud dəqiqləşdirilə bilər. Lakin belə ideya və hipotezaların olması həm gerçəkliyin öyrənilməsi, həm də elmin sonrakı inkişafı üçün stimul verir. Elm tarixində belə hadisələrə tez-tez rast gəlinir.

SSRİ-nin çökməsi nəticəsində əvvəlki ittifaqa daxil olan respublikalar kmi Azərbaycan da müstəqillik əldə etdi, lakin SSRİ-nin dağılması yalnız siyasi hadisə deyildi. Sadəcə olaraq siyasi hadisələr ön plana keçmişdi. Bu da qanunuyğun idi. Çünki tarixin dönüş dövrlərində həmişə siyasi hadisələr önə çıxır. Elə kənara çıxmadan Azərbaycanın XX əsr tarixinə nəzər salsaq, bunu aydın görərik. Söhbət 1918-20-ci ilərdə baş verən hadisələrdən gedir. 1918-20-ci illərdə əldə olunan qısa

müddətli (iki il) müstəqillik, sonra isə Azərbaycanın milli həyat tərzinə, həyat ukladına yad olan yeni bir ictimai-siyasi quruluş bu ölkənin, demək olar ki, altını üstünə çevirdi. Bütün tarix, mədəniyyət, psixologiya, mənəviyyat təftiş olunmağa, yeni rəngdə verilməyə başladı. Bunların bir qismi mədəni inqilab, bir qismi isə xalis bolşevik ideologiyasının doqmaları əsasında yürüdülən siyasət idi. Hərçənd mədəni inqilabın müsbət nəticələrini heç cürə inkar etmək olmaz. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, mənzərə aydın olsun. 1919-cu ildə Azərbaycanda ilk ali təhsil müəssisəsi olan universitet, 1945-ci ildə isə təxminən 25 ildən sonra Elmlər Akademiyası təşkil olunmuşdur. Bu isə qısa bir müddətdə təhsilin, elmin və bütövlükdə mədəniyyətin sürətli inkişafının nəticəsi idi. Şübhəsiz ki, buraya ilk növbədə təbiətşünaslıq və dəqiq elmlərin inkişafını daxil etmək lazımdır. Bu həm də münbit şərait olduqda xalqın intellektual potensialının çox böyük sürətlə özünü gerçəkləşdirə bilməsinin göstəricisi idi. Qısa müddət ərzində Y.Məmmədəliyev, Z.Xəlilov, A. Mirzəcanzadə və başqaları kimi nəhəng alimlər yetişmişdi.

Sovet dövrü praktikası sübut etmişdir ki, siyasi və ideoloji anlayışlar o zaman cəmiyyət və onun vətəndaşlarının psixologiyasına, şüuruna, mənəviyyatına yol tapır ki, o, insanların gündəlik həyati və qayğıları ilə uzlaşır, həmahəng olur [1, s.33]. Hətta gələcək haqqında söylənilən fikirlər də bu günün real hadisələrinə əsaslanır, bu gün həmin gələcəyin işartılarını görmək mümkün olur. Belə olmadıqda istər bu gün, istərsə də gələcək haqqında söylənilən fikirlər beyinlərə yol tapa bilmir, cəmiyyət tərəfindən kinayə ilə qarşılanır və lağa qoyulur, yumora çevrilir. N.S.Xruşşovun başçılığı ilə sovet kommunistlərinin 1961-ci ildə qəbul etdiyi geniş kommunizm quruculuğu proqramını xatırladır. Həmin proqrama əsasən iyirmi ildən sonra (yəni 1981-ci ildə) SSRİ-də maddi nemətlər bolluğu sel kimi axmalı, hər bir adam öz tələbatına uyğun olaraq bu nemətlərdən istifadə etməli idi. Lakin praktikada tam əksi alındı. Artıq 70-ci illərin sonundan başlayaraq ən mühüm ərzaq məhsullarının qıtlığı başladı və talona keçildi. Son dərəcə keyfiyyətsiz və zövqsüz tikililər, məişət avadanlıqları, gündəlik məişət malları heç kimi təmin etmirdi.

Belə bir şəraitdə iqtisadi və sosial inkişaf, xalqın güzəranının daha da yaxşılaşması haqqında söylənilən fikirlər ancaq kinayəli gülüşlə qarşılanırdı. Başqa sözlə, ideoloji barabanın vurulmasından alınan gurultulu səslərə artıq heç kim qulaq asmır və hamı bu səslərə biganə idi. Nəticəsi isə SSRİ-nin bir siyasi və ideoloji rejim kimi çökməsi, dağılması ilə başa çatması oldu. Buna görə də siyasi və ideoloji konsepsiya və ideyaları işləyərkən son dərəcə ehtiyatlı və realist olmaq lazımdır ki, bunlar cəmiyyətin gündəlik həyatından və onun mümkün perspektivindən uzaq düşməsin. Burada subyektivliyə, volyutarizmə və əsassız fantaziyaya yol vermək olmaz. Eləcə də hər hansı bir siyasi-ideoloji qruplaşmanın ideologiyasını cəmiyyətin ümumi ideologiyası kimi qələmə vermək, onu müxtəlif vasitələrlə cəmiyyətə qəbul etdirmək olmaz.

İndiki Azərbaycan cəmiyyəti üçün ən çox qəbul edilən, hamının şüuruna, mənəviyyatına çökmüş olan ideologiya azərbaycançiliq ideologiyasıdır. Bu, əslində inteqrativ ideologiyadır. Belə ki, azərbaycançılıq ideologiyası özündə həm vətənpərvərliyi, həm milli ideologiyanı, həm dövlətçiliyi, həm də fundamental əsas olan milli mentaliteti birləşdirir. Burada indiki dövrdə hamı tərəfindən birmənalı qəbul edilən, hamının mənəviyyatında, düşüncəsində özünə yer tapmış olan komponent vətənpərvərlikdir. Səbəbi aydındır. Azərbaycanın torpaqlarının iyirmi faizini işğal etmiş ermənilər bu torpaqların onlara məxsus olması iddiasındadırlar. Bu torpaqları əldə saxlamaq üçün onları müdafiə edən beynəlxalq havadarlarından və geniş yayılmış erməni diasporundan istifadə edirlər. Lakin hər bir azərbaycanlı həsrətlə bu torpaqların azad olunmasını gözləyir və onun azad olunması üçün əlindən gələni etməyə, silah götürüb döyüşə getməyə hazırdır.

Lakin vətənpərvərlik ideologiyası yalnız işğal olunmuş, itirilmiş torpaqları geri qaytarmaq əzmi ilə tamamlanmır və tamamlanmamalıdır da. Burada vətənpərvərlik ideologiyası ideologiyanın digər komponentləri ilə üzvi əlaqəyə girir. Şübhəsiz ki, milli ideologiyanın ən mühüm komponentlərindən biri dövlətçilik ideologiyasıdır. Dövlət və dövlətçilik həmişə əhalinin bütün təbəqələri arasında ən çox müzakirə olunan, haqqında müxtəlif fikirlər söylənilən məsələlərdən biridir. Lakin bu söz-söhbətlər təəssüf ki, heç də dövlətin strukturu, bu strukturun elementləri arasındakı sinxron əlaqə və strukturun özünün həyatın gedişi prosesində dəyişdirilməsi istiqamətində deyil, mövcud strukturda hər hansı bir həlqədə isə oturmaq onu hansı yolla olursa-olsun ələ keçirmək istiqamətin-

də gedir. "Mən olsaydım belə edərdim" tezisi kütləviləşmiş fikirdir. Bu qəbildən olan fikirlər isə praktikada heç bir pozitiv nəticəyə gətirib çıxarmır. Əsas məsələ cəmiyyətin özünün onun təhsil, elm və idarəetmə sistemi ilə yanaşı, bütöv siyasi sistemin əsas dövlət adamı yetişdirə bilməsidir. Belə dövlət adamı mənəvi əxlaqi keyfiyyətləri ilə yanaşı, ölkə konstitusiyasının qarantı rolunda çıxış etməli, müstəqil analitik qabiliyyəti, təşəbbüskarlığı, kreativliyi və iradəliliyi ilə fərqlənməlidir. O, düzgünlüyün, ədalətliliyin və halallığın simvoluna çevrilməlidir. Əlbəttə, sual oluna bilər ki, axı bir adamda bu qədər müsbət və yüksək səviyyəli keyfiyyətləri haradan tapmaq olar. Cavabında isə demək olar ki, əlbəttə, bunlar idealdır, lakin bu idealı heç cürə kənara atmaq olmaz. Həmişə bu ideala doğru getmək lazımdır. Çünki bu ideal reallıqda, yaxud reallaşan zaman həmişə bu və ya digər cəhətdən aşağı əmsala malik olur. Bir də ki axı dövlət adamı çox az sayda yetişir. Hər hansı bir fərddən dövlət adamı olmaz. Əslində dövlət adamı da elə nadir tapıntı kimi bir şeydir. Sözün doğrusu, mən dövlət adamı haqqında fikirləşəndə, bunun nə qədər ağır bir iş olduğunu təsəvvürümə gətirəndə bu işin nə qədər çətin və mürəkkəb olduğuna heyrət edirəm. Və o adamlara acıyıram ki, onlar xalq, ölkə qarşısında heç bir məsuliyyət hiss etmədən necə olursa olsun, dövlət vəzifələrinə can atırlar. Əgər burada nə üçün, nəyin naminə sualını qoysaq, yəqin ki, cavab yalnız və yalnız başqaları üzərində hökmranlıq etmək və özü üçün var-dövlət toplamaqdan ibarət olacaq. Əlbəttə, cəmiyyəti, yaxud onun hər hansı bir sahəsini idarəetmə sahəsində işləmək, rəhbərlik etmək çox hörmətli, nüfuzlu və şərəfli bir işdir və bu sahədə çalışanlar yüksək sosial və hüquqi-inzibati statusa malik olurlar. Onlar həmişə diqqət mərkəzində dururlar. Lakin onlar öz dövləti və sosial statuslarından düzgün, əxlaqi və hüquqi normalara uyğun istifadə etmədikdə, öz vəzifələrini yerinə yetirə bilmədikdə bütövlükdə dövləti nüfuzdan salırlar. Cəmiyyət dövlətdən üz döndərməyə başlayır, dövlətə və onun məmurlarına inamsızlıq yaranır. Cəmiyyət bütövlükdə bundan əziyyət çəkməyə başlayır. Hamı hər şeydən narazı qalmağa başlayır. Ümumi bir inamsızlıq, etibarsızlıq, ümidsizlik yaranır. Bu isə çalışmaq, işləmək, fəaliyyət göstərmək və düşünmək təşəbbüsünü aşağı salır, zəiflədir. Siyasi və elmi elita məsələsinin məhz bu qəbildən olan xüsusiyyətlərinə diqqət verməlidir ki, vaxtında idarəetmə sahəsində profilaktik tədbirlər həyata keçirilsin və bu iş ardıcıl surətdə aparılsın.

Artıq göstərildiyi kimi, mühüm siyasi və ideoloji anlayışlar bir-birilə sıx surətdə bağlıdır. Buna görə də bunların heç birini ayrılıqda, başqalarından təcrid olunmuş halda götürmək mümkün deyildir. Belə hal yalnız abstraksiyada mümkündür, real gerçəklikdə, praktikada isə bu mümkün deyildir. Buna görə də milli ideologiya, azərbaycançılıq və dövlətçilik ideologiyası milli mentalitetlə bağlıdır. Elə mentalitet sözünü azərbaycan dilinə çevirsək, o, milli ağıl, milli düşüncə, yaxud fəlsəfi dilə çevirsək milli-ictimai şüur, milli mənəviyyat kimi səslənəcəkdir. Milli ictimai şüur özü də elə milli şüurdur. Əlbəttə, burada çıxış nöqtəsi fərdi şüurdur. Çünki fərdi şüur olmadan milli şüur anlayışı quru abstraksiyadır. Məhz fərdi şüurların ümumi, ictimai məqamları milli şüuru, yaxud milli mentaliteti əmələ gətirir. Başqa sözlə, fərdi şüur fərdə məxsus olan maraq və keyfiyyətləri saxlamaqla digər fərdlərə də məxsus olan ictimai şüur məqamları ilə qovuşur və ictimai şüuru yaradır.

Bu ictimai şüura məxsus olan ümumi prinsiplər isə hamı tərəfindən qəbul olunur. Beləliklə, ictimai və fərdi şüurun vəhdəti yaranır və bu vəhdət heç də donuq olmayıb, həyatın gedişinə uyğun olaraq dəyişir və həm də həyatın özünə təsir edərək onun dəyişməsinə səbəb olur. Real gerçəkliklə ağlın dialektikası belədir. Mentalitetin və yaxud ictimai şüurun başa düşülməsinin çətinliyi də elə bundadır. Bu çətinliyə görədir ki, bəziləri mentalitet dedikdə artıq köhnəlmiş, daşlaşmış ənənələri götürərək özlərini az qala Məşədi İbad gününə salırlar. Heç nə əbədi olaraq qalmır və hər şey istər məzmun, istərsə də forma baxımından tamamilə, yaxud qismən dəyişir. Lakin bu dəyişkənliyin vektoru müxtəlif ola bilər: o həm pozitiv, həm də neqativ istiqamətdə dəyişə bilər.

Mentalitet adiləşmiş, kütləviləşmiş şüur formasıdır [1, s.33]. Lakin bu adiləşmiş, kütləviləşmiş şüur özlüyündə ictimai şüurun alt qatını təşkil edir. Belə ki, əgər ictimai şüur mövcud adi şüur postulatlarından çıxış etmirsə, o, başa düşülməyən, qəbul edilməyən bir nəsnəyə çevilir. İctimai şüur mövcud adi şüurdan çıxış etməklə və buraya yeni postulat və prinsiplər əlavə etməklə adi şüuru yeniləşdirir və onu ictimai tərəqqi istiqamətinə yönəldə bilir [2, s.138]. İctimai şüura adi şüurun tərəqqiyə xidmət edən cəhətlərinin ümumiləşdirilməsi kimi də baxmaq olar. Məsələyə hansı tərəfdən baxılmasından asılı olmayaraq gündəlik həyatda adi şüur həmişə ictimai şüur üzərində üstünlük təş-

kil edir. Çünki adi şüur gündəlik həyat, yaşayış qayğıları üzərində qurulur və onları əks etdirir. İctimai şüur isə adi şüurdan yüksəkdə durur və gündəlik həyat baxımından adı həyatla yaşayan adamlardan bir qədər uzaqdır. Buna görə də ziyalı və siyasi elitanın vəzifələrindən biri də ictimai şüurun məzmun və mahiyyətini, onun hamı üçün, bütün cəmiyyət üçün pozitiv əhəmiyyətini açmaq və bütövlükdə cəmiyyətin inkişafı üçün onun mühüm rolunu göstərməkdir. İctimai şüur vasitəsilə real həyatda öz idealını, özünün və nəslinin gələcəyini görə bilməyən adamlar müxtəlif cürə illüziyalara inanmağa başlayırlar. Yada ki, elə "kilimə bürün, elnən sürün" psixologiyasına qapılaraq ümumi bir ataraksiyaya (biganəliyə) düşürlər. Belə olduqda heç bir fəallıqdan, nəyə isə nail olmaq cəhdindən söhbət gedə bilməz. Çünki insanın daxili azadlığı, onun nə haqda isə sərbəst düşüncəsi və hansısa bir qərar qəbul etmək iradəsi olmur. Bu daxili düşüncə və azadlıq isə mövcud alqoritmlər matrisasına sərbəst yanaşa bilmək və hər cür nüfuzdan asılı olmamaqdır. Aydınlıq olsun deyə qeyd edək ki, bu heç də nüfuzu və movcud ictimai normativləri inkar etmək olmayıb, onlara sərbəst yanaşa bilmək qabiliyyətidir. Xarici azadlıq dedikdə isə siyasi və maddi azadlıq nəzərdə tutulur [3, s.187]. Əlbəttə, heç bir azadlıq hansısa bir özbaşınalığa, xaosa gətirib çıxarmamalı və mahiyyəti etibarilə həm ictimai pozitivliyə malik olmalı və həm də tərəqqiyə xidmət etməlidir. İctimai harmoniya, konsolidasiya bu azadlığın nüvəsini təşkil etməlidir. Harmoniya və konsolidasiya isə fərdin, şəxsiyyətin azadlığı ilə yanaşı, onun ictimai məsuliyyətini də özündə ehtiva edir. Əgər bu ictimai məsuliyyət yoxdursa, azadlıqdan da söhbət gedə bilməz. O, zaman azadlıq xaosa çevrilər və özü-özünü inkar etmiş olar. Buna görə də hər bir fərd öz həyat və fəaliyyətində ictimai məsuliyyəti əsas tutmalıdır [4, s.188].

Bu ictimai məsuliyyətin özü də dövrlə, yaranmış ictimai tarixi şəraitlə bağlıdır. Hər bir ictimai tarixi şərait həmin dövrdən əvvəl mövcud olmuş dəyərlərə yenidən baxılmasını tələb edir. Belə ki, indiki dövrdə elmin və texnikanın cəmiyyətin və insanların həyatına sürətlə daxil olması həm psixologiyada, həm də şüurda ciddi dəyişikliklərin əmələ gəlməsinə səbəb olur. Əvvəlki dəyərlər dəyişir və yeni dəyərlər yaranmağa başlayır. Əvvəlki ənənəvi dəyərlərin bir qismi sual altına düşür [5, s.42]. Tarixin gedişi göstərir ki, ənənəvi cəmiyyətlər öz dəyərlərini qoruyub saxlamaqla eyni zamanda bu və ya digər istiqamətdə, bu və ya digər dərəcədə müasir inkişafdan geri qalmış olurlar. Müasir elmi-texniki tərəqqi onların şüuruna, fəaliyyət sahəsinə daxil ola bilmir. Düzdür, onlar öz həyatlarında elmi-texniki tərəqqinin bütün mümkün nailiyyətlərindən istifadə edirlər. Lakin öz düşüncə və əmək fəaliyyətinə bunu heç cürə daxil edə bilmir, yaxud heç daxil etmək də istəmirlər. Öz sivilizasion inkişaflarından geri qalan ölkələr özlərinin qədim tarixləri, folklor nümunələri, mədəniyyətlərinin qədimliyi ilə fəxr etməklə kifayətlənirlər. Bunun nəticəsidir ki, Nobel mükafatı lareatı Ə.Zevaylın dediyi kimi, onların çoxunda ədəbiyyat, əyləncə, idman, tarix sahələrində zəngin mədəniyyətləri olsa da, elmi mədəniyyət zəifdir, ya da ki, ümumiyyətlə, yoxdur [6, s.187].

Milli dəyərlər anlayışı milli mentalitet, milli identiklik, milli ideologiya, azərbaycançiliq ideologiyası və eyni zamanda dövlətçilik ideologiyası ilə çox yaxın surətdə bağlı olan anlayışdır. Bu anlayışlar biri digəri ilə səsləşir və biri digəri ilə qovuşur. Burada ən vacib məsələlərdən biri və bəlkə də birincisi milli dəyərlər anlayışının məzmununa nələrin daxil olduğunu təhlil etməkdən ibarətdir. Bu məzmunu təhlil etdikdə isə biz görürük ki, bu dəyərlərin xeyli qismi özlüyündə elə ümumbəşəri dəyərlərdir. Burada da biz ümumi ilə xüsusinin vəhdətini görürük. Yəni milli dəyərlər heç də hər hansı bir milləti başqa millətlərdən ayırmır, əksinə başqa millətlərə yaxınlaşdırır, əlaqə yaradır. Bəzən bunlarda müəyyən forma müxtəlifliyi olsa da, məzmun eyni olaraq qalır. Ayrıca bir millətə məxsus olan xüsusiyyətlər isə bütövlükdə dünya mədəniyyətinin mozaikasını, onun rəngarəngliyini verir. İndi haqqında çox söhbətlər gedən millikulturalizm də əslində elə bu məsələləri öyrənməklə məşğuldur.

Milli dəyərlər, artıq yuxarıda göstərildiyi kimi, heç də mütləq və dəyişməz olmayıb, dəyişkənlik və yeniləşmə xüsusiyyətlərinə malikdir. Burada həm məzmun, həm də forma dəyişiklikləri baş verir. Lakin bu dəyərlərdə sabit qalan, dəyişməyən və həm də müsbət və əhəmiyyətli olan cəhətlər də vardır ki, onları qoruyub saxlamaq hər bir nəslin borcudur. Bu dəyərlər hansılardı: şübhəsiz ki, ilk növbədə millətin yaşadığı coğrafi ərazidə mövcud olan bütün təbii sərvətlərə (yeraltı və yerüstü) münasibət məsələsidir. Burada mən heç də təbii sərvət və milli dəyərlər anlayışını eyniləşdirmirəm.

Söhbət təbii sərvətlərə münasibətdən, onların kortəbii yoxsa rasional istifadəsindən gedir. Burada rasional istifadə özü milli dəyərə çevrilir. Faydalı qazıntılardan, torpaqdan, sulardan, meşələrdən rasional istifadə, onların bərpa oluna bilənlərini bərpa etmək özü də mühüm milli mənəvi dəyərlərlə bağlıdır və ictimai şüurun göstəricilərindən biridir. Payız, qış və erkən yaz mövsümündə qaz yanacağının olmaması üzündən meşələrin, hətta meyvə ağaclarının kəsilməsi və yandırılması şübhəsiz ki, dözülməz haldır. Meşələrin qırılması özü ilə digər çoxlu bəlaların da yaranmasına səbəb olur. Meşə heyvanlarının, quşların qırılmasına, bulaqların qurumasına, müxtəlif torpaq uçqunlarına və torpağın eroziyasına gətirib çıxarır. Nəzərə alsaq ki, meşə və içməli su ehtiyatları baxımından Cənubi Qafqazda ən az payı olan Azərbaycandır, onda biz öz sərvətlərimizi hamıdan çox qorumalıyıq. Onların qorunub saxlanması hamının işinə çevrilməlidir.

Milli dəyərlər içərisində vacib olanlar sırasında ən vacib olanlardan biri də ölkənin ərazisinin, yaxud onun sərhədlərinin toxunulmazlığını qoruyub saxlamaqdır. Düzdür, deyə bilərlər ki, bunlar maddi sərvətlərə aiddir. Milli-mənəvi dəyərlər isə mənəviyyat sahəsinə aiddir. Cavabda demək olar ki, mənəvi dəyərlər heç vaxt maddi dəyərlərdən təcrid olunmuş halda olmur. Düzdür, ilk baxışda onlar müxtəlif şeylər kimi görünür. Lakin məsələyə bir qədər dərindən baxdıqda onların möhkəm əlaqəsi üzə çıxır. Maddi dəyərlər mənəvi dəyərlərə, mənəvi dəyərlər isə maddi dəyərlərə təsir göstərir və onların qarşılıqlı dəyişkənliyi baş verir. Biz bu prosesi insan və cəmiyyət həyatının bütün sahələrində izləyə bilərik.

Milli-mənəvi dəyərlərə, adətən, daha çox adət-ənənələri daxil edirlər. Lakin bunlar heç də bütövlükdə milli-mənəvi dəyərləri əhatə etmir. Əvvələn, artıq deyildiyi kimi, milli-mənəvi dəyərlər də daim forma və hətta məzmun dəyişikliyinə uğrayır. İkinci, milli-mənəvi dəyərlər, ümumiyyətlə, cəmiyyət həyatının bütün sahələri ilə bağlıdır.

Elə fikirləşmək olmaz ki, guya milli mənəvi dəyərlər yalnız özlüyündə mənəviyyat sahəsidir. Ölkənin iqtisadi həyatı, təsərüfatçılıq, dövlətçilik psixologiyası və dövlətçilik şüuru, ədalətlilik və halallıq və s. hamısı milli-mənəvi dəyərlərdir. Valideynlərin öz uşaqlarının necə və hansı istiqamətdə tərbiyə etməsi də milli dəyərlər sisteminə daxildir. Bizdə hətta metroda hərəkət zamanı tez-tez qocalara, əlillərə, uşaqlı qadınlara yer verilməsi, hörmət edilməsi haqqında elanlar təkrarlanır. Bu, bir tərəfdən yaxşıdır və özlüyündə tərbiyə vasitəsidir. Digər tərəfdən təəssüf və təəccüb edirsən ki, necə olmuşdur ki, bizim adamlar hələ də belə sadə şeyləri başa düşmür və ona əməl etmirlər. Axı, adamların hamısı, yaxud böyük əksəriyyəti ailədə böyümüş və mütləq halda hamısı məktəb divarları arasından çıxmışlar. Əgər ən sadə mənəvi dəyərləri təkrar-təkrar bu adamların yadına salmağa ehtiyac varsa, deməli, ailə və məktəb tərbiyəsində xeyli dərəcədə problemlər qalmaqdadır. Bütün bunlar valideynlərin öz övladları ilə müntəzəm olaraq işləməsini, məkləbdə isə müəllimlərin didaktikanın bütün prinsiplərinə əməl etməsini tələb edir.

Ağsaqqala hörmət anlayışı üzərində bir qədər dayanmaq istəyirəm. Ağsaqqal sözü bizdə iki mənada işlədilir. Birinci fiziki mənada, yəni sadəcə olaraq yaşlanmış, qoca yaşlarında olan adama ağsaqqal deyirlər. Şübhəsiz ki, hər bir yaşlı, qoca adam hörmətə layiqdir və ona hörmət edilməlidir. Bu haqda başqa söhbət ola bilməz. Ağsaqqal sözünün ikinci mənası böyük həyat təcrübəsinə malik, ağıllı, müdrik deməkdir. Belə ağsaqqallar keçmişdə yaxşı nə varsa, onu bu günə və gələcəyə ötürənlərdir. Onlar ailənin, nəslin, cəmiyyətin həyatında çox önəmli rol oynayırlar. Həyatın bütün cəhətlərini təcrübə və beyin süzgəcindən keçirirlər və öz həyatları, davranış və düşüncələri ilə ictimai tərbiyədə əhəmiyyətli yer tuturlar. Əlbəttə, yaxşı olardı ki, bizim yaşlıların, qocaların hamısı belə olaydı. Bu fikirləri ona görə yazıram ki, bu gün cavan olanlar otuz-qırx ildən sonra yaşlı, qoca olacaqlar. İndidən çalışsınlar ki, yaşlananda, qocalanda insanlar və cəmiyyət üçün dəyərli olsunlar, ətrafa nur saça bilsinlər. El arasında "nurlu qoca" ifadəsinə layiq olsunlar. Bu nurdan başqa qəlblər və beyinlər öz paylarını ala bilərlər.

İdeologiyanın ilkin konturları ailədən və ailə tərbiyəsindən başlayır. Bu isə o deməkdir ki, ideologiya çoxçalarlı kompleks anlayışdır. Ailədən başlayan humanistlik və ədalətlilik, mütləq nəyi və nələrisə öyrənmək, çalışqanlıq, zəhmətkeşlik ideologiyası istiqamətində olmalıdır. Müxtəlif əyləncələrlə vaxt keçirmək, onlara alüdə olmaq bura daxil olmamalıdır. Bunlara yalnız müəyyən istirahət saatlarında yol vermək olar. Valideynlər diqqət verməli və nəzərdə saxlamalıdırlar ki, onların

övladları öz vaxt büdcələrini nəyə sərf edirlər. Çünki müxtəlif əyləncələr heç bir zəhmət tələb etmədiklərinə və kifayət qədər bəsit olduqlarına görə daha cəlbedicidir və yetkinlik dövründə olan yeniyetmələri daha çox cəlb edir. Bu əyləncələr kifayət qədər pul tələb etdiyi üçün və valideyn bu pulu ödəyə bilmədikdə əyləncəyə öyrənmiş övlad müxtəlif neqativ yollarla bu pulu əldə etməyə meyil edə bilər. Bu isə hətta kriminal hadisəyə gətirib çıxara bilər. Elə buna görə də uşaqlıq dövründən hər bir adama çox sadə şəkildə düzgün tərbiyə, ideya aşılamağa çalışmaq lazımdır. İdeologiya sözü də elə ideya sözündəndir. Hər bir adamın öz həyat, yaşayış və fəaliyyət ideyası olmalıdır ki, o, nə etdiyini və nə üçün etdiyini bilsin. Bu ideologiya müxtəlif səviyyələrdə (ilkin, yetkin, ali və s.) ola bilər. Lakin buraya düzlük, ədalətlilik, halallıq, insanpərvərlik (humanizm), çalışqanlıq, işgüzarlıq, zəhmətkeşlik kimi konstantalar qoşulduqda, yaxud onlar bu konstantalar üzərində qurulduqda özlüyündə fərdi şüuru da ehtiva edən ictimai şüura çevrilir. Göründüyü kimi, ictimai şüur heç də quru abstraksiya deyil, o yaşanılan həyatın doğurduğu fenomendir. Lakin bu fenomenə əsasən şüurlu yanaşmaq, həyatı dərk etmək və onu istiqamətləndirmək lazımdır.

Artıq göstərildiyi kimi, ictimai şüur, milli-mənəvi dəyərlər, milli ideologiya heç də hamısı xalis mənəvi-psixoloji, mənəvi-mədəni durum olmayıb, həm də maddi atributlarla bağlıdır. Məsələn, dövlətin bayrağı, gerbi, himni eyni zamanda mənəvi-ruhi dəyərlərdir. Göründüyü kimi, burada bayraq və gerb maddi rəmz olduğu halda himn təmiz mənəvi rəmzdir. Bunların hamısı ölkəni, xalqı, dövləti təmsil edirlər və bütün ölkə vətəndaşları bunlara böyük hörmət və sədaqət göstərirlər. Bunları konkret halda ona görə göstərirəm ki, bəzən uzun-uzadı milli-mənəvi dəyərlərdən bəhs edirlər. Lakin bu milli mənəvi dəyərlərin nədən ibarət olmasını göstərmirlər. Tərbiyə, təhsil sistemi də milli-mənəvi dəyərlər sisteminə daxildir. Çünki millət özünü tərbiyə, təhsil və elm vasitəsilə tanıyır və tanıdırır. Deyə bilərlər ki, riyaziyyat, fizika, kimya və s. kimi elmlərin milliliyə nə dəxli var. Lakin bu elmlər də bilavasitə və ilk növbədə milli həyatın ehtiyaclarının ödənilməsinə yönəldilməlidir. Buradakı ümumi nəzəri istiqamətlər konkret problemlərin həlli ilə məşğul olmalıdır. Lakin bu işdə konstruktiv və işlək təşkilati mexanizmlər olmalıdır.

Mentalitet də ictimai şüur və ideologiya kimi dəyişkəndir. Buna görə də bu sahələrdə aparılan tədqiqatlar daimi olaraq davam etməli, sosial həyatda baş verən bütün dəyişikliklər öyrənilməli və qiymətləndirilməlidir. Burada nədənsə yapışıb bu mütləqdir demək olmaz. Qədim yunan müdriki Heraklit demişkən, hər şey axır, hər şey dəyişir. İyirminci əsrə qədər yalnız muğamlardan, xalq mahnılarından, saz və aşıq ifasından ibarət olan musiqimiz indi rəngarəng janrlara malikdir və biz yuxarıda göstərilənlərlə yanaşı simfonik və estrada musiqisinə də böyük zövqlə qulaq asırıq. Ü. Hacıbəyovun "Koroğlu" operasının üverturasının, "Sənsiz" romansının, Q.Qarayevin "Yeddi gözəl" baletinin, F.Əmirovun "Şur" simfonik muğamının və digər əsərlərin musiqisi qulaqlarımızda, duyğularımızda səslənməkdədir. Məgər bunlar əvvəl mövcud olmuş mentalitetin dəyişməsinə dəlalət etmirmi?

Mentalitet fərdin, qrupun və millətin elə bir sosial-psixi durumudur ki, onda, dünyaya baxışın, dilin, davranışın, fəaliyyətin, özünəməxsus xüsusiyyətləri ehtiva olunur. Bu kateqoriya subyektin fəallığını tədqiq etməklə yanaşı eyni zamanda sosiomədəni inkişafın dinamikasını da açmağa kömək edir [7, s.22]. Burada işlədilən "sosiomədəni inkişafın dinamikası" fikrinə diqqət yetirsək, özlüyündə aydın olur ki, nə mentalitet, nə milli-mənəvi dəyərlər, nə fərdi, nə də ictimai şüur heç də statik vəziyyətdə olmayıb həmişə dinamik inkişafda, yaxud dəyişmədədir. Lakin bu dəyişiklik heç də bəzi postmodernistlərin dediyi kimi, köklü dəyişiklik olmayıb, sabit qalan, dəyişməyən cəhətlərə, konstantalara da malikdir. Başqa sözlə, mentalitet müəyyən alqoritmlər sistemində müəyyənləşmiş bir hadisə deyildir. Mentalitet latın dilindəki mens sözünün sifət – mentais formasına salınmasından ibarətdir. Bu anlayış orta əsrlər sxolastikasında işlənilsə də, onun populyarlaşması fransız filosofu F.Volterin yaradıcılığı ilə bağlıdır. Sonradan E.Dürkheym də bu anlayışın daha da geniş yayılmasına təsir göstərmişdir.

XVIII-XIX əsrlərdən başlayaraq fəlsəfi və sosial ədəbiyyatda mentalitet anlayışının geniş miqyasda işlənməsinə baxmayaraq, marksist-leninçi sovet fəlsəfəsində və sosiologiyasında bu anlayışdan istifadə olunmamışdır. Çünki o sovet marksizminin bir neçə fundamental prinsipləri ilə uzlaşmırdı. Burada hər şey sovet marksizmi mövqeyindən başa düşülməli idi. Yəqin ki, 30-50-ci illər-

də genetikaya və kibernetikaya olan hücumlar, onların "yalançı elm" adlandırılması sovet dövrü fəlsəfə tarixi ilə məşğul olanların yadındadır. Məzmunca sosialist, yalnız formaca milli mədəniyyətin yaranması tələbini irəli sürən sovet doqmatik marksizmi heç cürə fərdi, qrup və milli mentalitetdən bəhs edə bilməzdi. Lakin bu müddəa özlüyündə qondarma, qeyri-həyati bir müddəa idi. Çünki əslində, forma yalnız məzmunun forması olar. Məzmunsuz forma ağlabatan bir şey deyil. Milli mədəniyyətdən söhbət gedirsə, onun forması da, məzmunu da milli olmalıdır. Lakin bu milliliyin həmişə beynəlmiləl, bütövlükdə dünyaya məxsus olan tərəfləri olur. Qırğız yazıçısı Ç.Aytmatovun roman və povestlərində olduğu kimi. Məsələn, vətənpərvərlik hissi, vətənpərvərlik şüuru bütün millətlərdə vardır. Bu bütün millətlərin mentalitetinin atributiv xüsusiyyətlərindən biridir. Lakin hər bir millətin vətənpərvərlik hissi və şüuru onun öz vətəni, öz etnik tarixi kökü ilə, onun dili, mədəniyyəti ilə bağlıdır. Bu isə tanınmış ABŞ filosofu və politoloqu S.Hantinqtonun "Biz kimik" kitabında çox ətraflı halda tədqiq olunmuşdur [8].

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycan intellektual mühitində mentalitet anlayışından istifadə olunmasa da, bütün yaradıcı ziyalı nəsli əslində mentalitet, fərdi və ictimai psixologiya, fərdi və ictimai şüur problemi ilə məşğul olmuşdur. M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və başqaları köhnəlmiş, yeni tarixi şəraitlə səsləşməyən, Azərbaycan xalqının geri qalmasına səbəb olan bütün mental cəhətləri açıb göstərmişlər. Əgər bu dövrdə müxtəlif müəlliflər tərəfindən yazılmış çoxlu sayda olan və indi bədii və fəlsəfi fikrimizin qızıl fondu sayılan bu əsərlərə diqqət yetirsək, burada biz Azərbaycan düşüncəsinin yeni intibahını, bu düşüncənin əvvəlki dövrlərdəkindən tamamilə fərqli, yeni keyfiyyətli bir istiqamət aldığını görərik. Bu, mentalitetdə, ictimai şüurda, həqiqətən, inqilabi bir dəyişiklik idi və bu dəyişikliyin əsasını M.F.Axundov qoymuşdu. Bu ənənəni yüksək səviyyədə inkişaf etdirən M.Ə.Sabirin yaradıcılığına diqqət yetirsək o başdan-başa köhnəlmiş, inkişafa mane olan əski mentalitetin tənqidinə yönəlmişdir. Çox təəssüf ki, indi çoxları ictimai psixologiya və şüurun real gerçıkliyə uyğun olaraq dəyişkənliyini və özünün bu gerçəkliyə ciddi təsir edərək onu dəyişdirdiyini o qədər də dərindən başa düşməyə səy göstərmədən mentalitetin indi heç bir dəyərə, pozitivliyə malik olmayan tərəflərindən yanaşırlar. Tarixən mövcud olmuş, lakin indi lazımsız bir şeyə çevrilmiş şeylərdən yapışmaq nəyə və kimə lazımdır. Məsələn, vaxtilə nənələrimiz cəhrə ilə yundan sap əyiriblərsə, indi yenidənmi cəhrəyə keçmək lazımdır. Bəs müasir elmi-texniki inqilab, bəs modernləşmə necə olsun. Yaxud kim mentaliteti müasir elmi-texniki inqilabdan, aqrokulturadan, modernləşmədən ayırırsa, onda zəhmət çəkib evindəki soyuducu, televizor, kompüter və digər müasir tipli məişət avadanlıqlarından imtina etsin. Məgər bunlar yeni tipli mentalitetin yaranmasına səbəb olmurmu? Mentalitet insan və cəmiyyət həyatının, fəaliyyətinin bütün sahələrini əhatə edir.

Çox təəssüf ki, modernləşmə ilə yanaşı mentalitetə pis təsir göstərən cəhətlər də vardır. Bu hər şeydən əvvəl ailə-kəbin münasibətlərində özünü göstərir. Azərbaycan xalqı həmişə ailə münasibətlərinə çox ciddi yanaşan, ailəni müqəddəs və toxunulmaz sayan bir xalq olub. Lakin indi hüquq bərabərliyi ilə məşğul olan çoxlu qadın təşkilatlar yaranıb ki, onlar ailənin möhkəmlənməsi deyil, dağılması ilə məşğul olurlar. Qadın hüquqları ilə məşğul olan bu təşkilatlar qadınların gələcək ana və ev xanımı kimi tərbiyə edilməsi əvəzinə onların kişilərlə bərabər hüququndan bəhs edirlər. Sanki təbiətin verdiyi təbii funksional həyat və yaşayış tərzini pozaraq yeni bir funksionallıq və yeni bir həyat tərzi yaratmaq istəyirlər. Hansı ki, möhkəm və sabit ailə həyatı yaratmaq üçün hər şeydən əvvəl gənc oğlanları və gənc qızları bu işə hazırlamaq lazımdır. Onlar ailənin bütün məsuliyyətini, kişi-qadın münasibətlərinin bütün məsuliyyətini başa düşməlidirlər. Bu, başqa canlılarda olan təbii instinktlər səviyyəsində deyil, sosial yetkinlik və hazırlıq səviyyəsində olmalıdır. Bu sosial yetkinlik olmadıqda isə nəinki fəsadlar, hətta faciələr əmələ gəlir və bu cəmiyyətin bəlasına çevrilir. Ən gözəl hüquq bərabərliyi qadının qadın, kişinin isə kişi olmasıdır və olmağı bacarmasıdır. Azərbaycan mentalitetində, azərbaycan düşüncəsində "qadın" və "kişi" ancaq cinsi bildirmir, o daha çox tərbiyəni və sosial yetkinliyi bildirir. Buna görə də "yaxşı kişidir" və "yaxşı qadındır" ifadələri işlənir. Bu ifadələr özlüyündə ağıllılıq, təmkinlilik, qayğıkeşlik, düzgünlük, halallıq, obyektivlik, yönbilənlik, işgüzarlıq və s. kimi anlayışları birləşdirir.

İdeologiya bir tərəfdən gələcəyə inam istiqamətində, digər tərəfdən isə gündəlik həyat, məişət psixologiyasına və şüuruna uyğun qurulmalıdır. Belə olduqda indi bizdə üstünlük təşkil edən istehlakçılıq ideologiyası daha çox istehsalçılıq ideologiyasına çevrilə bilər.

Açar sözlər: qneseologiya, aksiologiya, demokratiya, dövlət, siyasət, ideologiya, mentalitet

İstifadə edilmiş ədəbiyyat

1. Дождикова Р.Н. К вопросу об аксологических основаниях обыденного познания // Вопросы философии, 2013, №2, с.33-41
2. Тружинин Б.И. Об одной особенности гносеологической проблематики // Познание в социальном контексте. М.: 1994, с.138-139
3. Эйнштейн А. Собр. Научных трудов. М.: 1967, с.187-188
4. Капица С. Свобода или сквернословие. В чем особенность нового поколения и вина интеллигенции // Аргументы и факты, 2012, №10
5. Лекторский В.А. Трансформация эпистемологии. Новая жизнь старых проблем. Эпистемология перспектив развития. М.: 2012, с.42.
6. Zevayl Əhməd. Zaman içrə səyahət. Bakı, 2012, s.187.
7. Губанов Н.И., Губанов Н.Н. Менталитет: сущность и функционирование в обществе // Вопросы философии, 2013, №2, с.22.
8. Хантингтон С. «Кто мы» М.: Транзимкнига, 2004, 635 с.

Айдын Ширинов

ГНОСЕОЛОГИЧЕСКИЙ И АКСЕОЛОГИЧЕСКИЙ ПОДХОД К ПОНЯТИЯМ ПОЛИТИКА И ИДЕОЛОГИЯ

Резюме

В данной работе под названием «Гносеологический и аксеологический подход к понятиям политика и идеология», исследуется связь указанных понятий с национальной ментальностью. Ибо без раскрытия сущности данных понятий невозможно создать политику и идеологию, способствующую сплочению и развитию общества. Для этого нужно беспристрастно изучать историю и исторически сформировавшуюся психологию народа.

Ключевые слова: гнесеология, аксиология, демократия, государство, политика, идеология, ментальность

Aydin Shirinov

GNOSEOLOGICAL AND AXIOLOGICAL APPROACH TO THE CONCEPTS OF THE POLITICS AND IDEOLOGY

Summary

Communication of these concepts with national mentality is investigated under the name of "Gnoseological and axiological approach to the concepts of the politics and ideology" in the article. Because it is impossible to create the politics and ideology promoting unity and development of society without disclosure of essence of these concepts. For this it is necessary impartially to study history and historically formed the psychology of the people.

Keywords: gnoseology, axiology, democracy, state, politics, ideology, mentality

UOT – 101.1:316

Həcər Abdallı
AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d.

AİLƏ MÜASİR İCTİMAİ-SİYASİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

Məqalədə ailə və onun funksiyalarına yeni baxış keçirilir, ictimai-siyasi münasibətlər sistemində ailənin rolu təhlil edilir. Eyni zamanda ailənin tarixi formaları araşdırılır, müasir ailələrin fərqli xüsusiyyətlərinə nəzər yetirilir. Ailənin möhkəmliyinin qorunub saxlanmasında dinin və milli-mənəvi dəyərlərin rolunun əhəmiyyəti vurğulanır.

Azərbaycan qadınlarının və kişilərinin əmək məşğulluğu səviyyəsi yüksək nəticələrə malikdir. Ailə həyatı – ailə təsərrüfatının və ailə büdcəsinin təşkili bütün dövrlərin və bütün cəmiyyətlərin aktual məsələlərindən sayılır. Ailə anlayışına olan maraq daimi və kütləvi xarakter daşıyır. Ailə quran hər bir kəs – qadın, kişi fərq etməz, birlikdə yaşadığı müddətdə ailə qayğısını bölüşür və ailə məsuliyyətini daşımalı olur [1].

Ailəni həmişə "kiçik dövlət"ə bənzədirlər. Necə ki, sosial-psixoloq N.Niftəliyevin fikrincə, ailəni cəmiyyətin, dövlətin mövcudluğunun və tərəqqisinin təməli, məhək daşı hesab edirlər. İnsanın müasir həyat tərzinin ahəngdarlığına, siyasi, iqtisadi, hüquqi və s. təsisatların rəngarəngliyinə baxmayaraq, demək olar ki, hər bir sosial-tarixi cəmiyyət tipində ailə özünəməxsus sosial bütövlük, neçə deyərlər, cəmiyyətin sabit özülü, "nüvəsi" kimi çıxış edir. İstənilən cəmiyyətdə ailənin mövcudluğu ikili xarakter daşıyır. Belə ki, ümumi anlayış səviyyəsində qiymətləndirdikdə bu cəmiyyətin özünəməxsus sosial təsisatıdır. Müasir şəraitdə onu cəmiyyətdən, dövlətdən, ictimai-siyasi münasibətlər sistemindən kənarda təsəvvür etmək mümkün deyildir. Digər tərəfdən isə, bu özünəməxsus mövcudluq inkişaf və fəaliyyət qanunauyğunluqları olan kiçik qrupdur [6].

Ailənin əsasını nigah cütlüyü təşkil edir. Yəni, birgə yaşayış, birgə fəaliyyət qayğısı ailənin xarakterik xüsusiyyətlərinin əsasını təşkil edir. Lakin müasir dövrdə münasibətləri rəsmi dövlət nigahı ilə tamamlanan ailələrlə yanaşı, nikahsız yaşayan və ya yalnız dini nigahla yaşayan ailələr də çoxalmışdır. Demək olar ki, son illərdə nikahsız yaşayan ailələrin, sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu cür həyat tərzi müasir, inkişaf etmiş ölkələr üçün xarakterik hal sayılır. Tədqiqatçılar belə bir xarakterik cəhəti müşahidə etmişlər ki, bir çox ölkələrdə əhalinin, xüsusən gənc nəslin rəsmi ailə qurmaq, nikaha girməyə olan marağı getdikcə azalır. Əsasən, ailənin üc əsas tipi fərqləndirilir:

1. Ənənəvi (və ya patriarxal) ailə;
2. Ənənəyə söykənən müasir ailə;
3. Eqalitar ailə ("bərabər münasibətlər" ailəsi) [2, s.125].

Əslində, ailə modeli dedikdə, ənənəvi ailə tipi bir cox ölkələr üçün xarakterikdir. Postsovet məkanına daxil olan ölkələrdə, o cümlədən Azərbaycanda əhalinin sosial-demoqrafik strukturunda baş verən ciddi dəyişikliklərə baxmayaraq, bu ailə tipi öz mövcudluğunu qoruyub saxlamışdır. Doğrudur, Azərbaycan ailələri sırasında ənənəvi ailələr nisbi çoxluq təşkil edir. Ənənəvi ailə tipinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, belə ailələr özündə ən azı, üc nəslin nümayəndələrini birləşdirir. Belə ailələrdə qadın-kişi və ya ər-arvad münasibətlərində ənənəyə söykənən daimi öhdəliklər və ya dəqiq "vəzifə bölgüsü" vardır [7]. Burada kişi bilavasitə ailə başçısı kimi çıxış edir, ailənin mövcudluğu, tərəqqisi, təminatı və rifahı naminə əsas məsuliyyəti öz üzərinə götürür. Bu səbəbdən qadın cox zaman iqtisadi cəhətdən həyat yoldaşından asılı olur, lakin bunun əvəzində özünü ailə sahibəsi, öz evinin xanımı hesab edir.

Müasir ailələrdə, əgər bu ailə ənənəyə söykənibsə, onda kişi nüfuzu ailədə müstəsna əhəmiyyət kəsb edir. Ənənəvi və ya mühafizəkar ailə tipində olduğu kimi burada da ciddi vəzifə bölgüsü mövcuddur. Lakin bu bölgü cox zaman sosial-iqtisadi motivlərlə bağlıdır. Belə olan halda qadın öz həyat yoldaşı ilə yanaşı əmək bölgüsündə iştirak edir, müəyyən bir işdə işləyir, ailənin təminatında özünəməxsus paya malik olur, eyni zamanda, bir çox hallarda ev əməyinin və bir sıra məişət problemlərinin öhdəsindən gəlmək məcburiyyətində qalır. Bu səbəbdən, sözügedən ailə tipini istismarçı ailə tipi kimi də adlandırmaq olar.

Eqalitar ailədə və ya "bərabər münasibətlər" ailəsində qarşılıqlı vəzifələr və öhdəliklər, adətən, daha dəqiq və ədalətli şəkildə bölünür. Bir sözlə, ailədə tərəf müqabili olan qadınla kişi arasında birlikdə müəyyənləşdirilmiş rol simmetriyası mövcudluğu yaranır. Tərəf müqabilləri bu və digər problemin həllində bir-birinə yaxından kömək edir, ailə qayğıları ilə bağlı qərarları birgə məsləhət və qarşılıqlı anlaşma şəraitində qəbul edirlər. Bu cür ailələrdə emosional dayanaqlılıq, adətən, yüksək olur.

Ailə tərbiyəsinin stereotipini aşağıdakı kimi göstərmək olar:

1. Uşağın mənafeyindən və mövqeyindən çıxış etmə;
2. Peşəkarlıq;
3. Praqmatik yanaşma [3, s.175].

Ailənin təsərrüfat-iqtisadi funksiyası ailə münasibətlərinin bir çox cəhətlərini əhatə edir. Buraya ailə büdcəsinin, ailə təsərrüfatının idarə olunmasından başlayaraq məsuliyyət və müəyyən əmək bölgüsü ilə tamamlanan bir cox xırda işlər aiddir.

Azərbaycanda qadınların və kişilərin əmək məşğulluğu səviyyəsinin çox yaxşı göstəricilərə malik olması məlumdur. Azərbaycanda qadın əməyinə xüsusi diqqət və əhəmiyyət verildiyini, eyni zamanda, azərbaycanlı xanımların müxtəlif humanitar peşə fəaliyyəti istiqamətlərində çalışmağa üstünlük verdikləri görünür. Belə bir nəticəyə gəlmək olur ki, aparılan tədqiqatlar göstərir ki, getdikcə daha çox qadın fəal əmək həyatına qoşulmağa, qapalı ailə mühitindən xilas olmağa, necə deyərlər, "dörd divar arasından" qurtulmağa səy göstərir. Digər tərəfdən, qadınların əksəriyyəti hesab edir ki, onların iş vaxtı kişilərlə müqayisədə daha qısa olmalıdır və qadınlara əmək fəaliyyəti ilə bağlı bir sıra imtiyazlar verilməlidir. Əslində, tamamilə doğru fikirdir. Əlbəttə, qadınlar işdən evə döndükdə kişilər kimi yumşaq divan-kresloda istirahət üçün dincəlməyə uzanmırlar. Evdə olan bütün işlər tək qadının üzərinə düşür. Bişirmək, yumaq, təmizlik işləri və uşaqla məşğul olmaq, hələ bazarlığı demirəm. Hələ, bununla da kişilər inciyirlər ki, bizə qadınlar çox fikir vermirlər. Eh, kişilər!!! Kişilər? Elə qadınların gördüyü ev işlərinə əmək haqqı düşür.

Ailələr niyə dağılır? Eyni zamanda, şəraitdən asılı olaraq kişi və qadının funksiyalarının ayrı-ayrılıqda ailə həyatında yeri və təsir gücü fərqli olur.

Ailə həyatı ilə bağlı problemlərin tədqiqi, öyrənilməsi həm nəzəri cəhətdən, həm də praktik baxımdan çox mühüm əhəmiyyət kəsb edir. Ailə və nikahın dayanıqsızlığı, boşanmaların sayının artması ilə bağlı yaranan çoxsaylı problemlər bu gün bir cox dünya ölkələrində geniş yayılmışdır. Bu problem əksər hallarda miqrasiya ilə izah edilir. Daha bir cəhəti də, qadınların ümumi fəallığının artması tədqiqatcılar tərəfindən boşanmaların sayını artıran amil kimi göstərilir. Başqa sözlə, ailə təsisatı indi özünün çətin və böhranlı anlarını yaşayır. Ailəni daxildən möhkəmləndirən bir cox amillər – qadının həyat yoldaşından iqtisadi asılılığı, dini, əxlaqi, hüquqi qadağalar əvvəlki təsir gücünü, əhəmiyyətini itirmiş və ya kəskin dəyişikliklərə, gətirib çıxarmışdır. Ailədaxili münaqişələri doğuran səbəblər iki qrupa bölünür:

1. Ailə qurulanadək mövcud olan səbəblərə;
2. Ailə qurulduqdan sonra yaranan səbəblər çoxluğuna ayırmaq olar [2, s.184].

İlk səbəblər sırasını çox zaman risk amilləri qrupu adlandırırlar. Yəni, bu elə səbəblər çoxluğudur ki, mümkün ailə böhranını və ya ailənin dağılma riskini ailə qurulmamışdan öncə özündə

göstərir. Bütün müvafiq cəhdlərə baxmayaraq, ailə qurulana qədər olan tanışlıq əksər hallarda bu riski aradan qaldıra bilmır. Risk amilləri insanın tərbiyəsi, şəxsiyyəti, milli, irqi, dini mənsubiyyəti, sosial statusu, eyni zamanda, nikahın şərtləri ilə bilavasitə bağlıdır. Aşağıdakı səbəblər əsas risk amilləri qrupuna aid edilir:

1. Ailədə tərəf müqabillərinin təhsilində və yaşında böyük fərqin mövcudluğu (xüsusən, qadının kişidən yaşda nəzərəçarpacaq dərəcədə böyük olması);
2. Tərəf müqabillərindən birinin spirtli içkilərə, nakromaniyaya meyilliliyi və ya aludəçiliyi;
3. Çox erkən yaşda nikaha daxilolma;
4. Nikaha və ailəyə qeyri-ciddi münasibət;
5. İlkin tanışlıq müddətinin çox qısa olması;
6. Ailə qurduqdan sonra uşağın dünyaya gəlməsi ehtimalı və tərəf müqabillərindən birinin bunu arzulamaması;
7. Valideynlərin nikahın bağlanılmasına kəskin etiraz etməsi;
8. Qarşılıqlı razılıq olmadan məcburiyyət qarşısında bağlanılan nikah.

Bu cür amillər ailə həyatının ilk illərində, xüsusilə, böyük rol oynayır. Belə ki, dağılan ailələr və müvafiq olaraq boşananlar sırasında 1 ildən 3-4 ilə qədər birgə yaşayanlar nisbi çoxluq təşkil edir [7].

Nikaha daxil olanların orta yaşı artır - Çox fərqli və müxtəlif ailə quranlar vardır. Elə olur ki, biri digərinə zidd olan motivlər əsasında müvafiq qərar qəbul edirlər. Bu yolla gənclər öz gələcək həyatını və taleyini müəyyənləşdirdiyini düşünür, digəri isə fikirləşir ki, belə bir məsuliyyətli addımı atmaqla müstəqil həyata qədəm qoya biləcəklər. Bəzən də elə olur ki, birinin acığına digəri ilə və ya "dostluq xatirinə" ailə quranlar da tapılır, bu da ümumilikdə ailə həyatında qeyri-ciddi münasibətlərə gətirib çıxarır.

Azərbaycan ailələrinin bir sıra hallarda erkən nikaha daxilolma, çox vaxt isə gənc ailə cütlüklərinin öz valideynlərindən maddi və mənəvi cəhətdən asılı olması onların ailə məsuliyyətini hiss etmək, birgə məqsədlərini müəyyənləşdirmək imkanını çətinləşdırır. Əsasən də, ailə quran tərəf müqabillərinin hər ikisinin yaşı 20-dən aşağı olduqda valideynlərdən asılılıq vəziyyəti labüd nəticə kimi ortaya çıxır. Belə olan halda, gənclərin valideynlərindən biri gənc ailənin təminatından tutmuş məişət məsələlərinin həllinə qədər bütün problemləri öz üzərinə götürmək məcburiyyətində qalır. 2003-cü ilin statistik məlumatlarına görə, Azərbaycanda ilk nikaha daxil olan qadınların orta yaşı 23,3-ü, müvafiq olaraq ilk nikaha daxil olan kişilərin orta yaşı isə 27,6-nı təşkil edir. 2004-cü il üçün də bu göstərici, əsasən, dəyişməmişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, Avropada və ABŞ-da bu göstəricilər müvafiq olaraq 25,7 və 28,4 rəqəmləri ilə ifadə olunur. Qonşu Rusiya Federasiyasında isə ilkin nikaha daxil olmanın orta yaş həddi qadınlar üçün 21,7-i, kişilər üçün 23-ü təşkil edir. Müvafiq rəqəmlərin 1989-cu ildən 2003-cü ilədək dəyişən dinamikasına diqqət yetirdikdə Azərbaycanda ilk nikaha daxilolmanın orta yaşının tədricən artması müşahidə edilir. Məsələn, 1989-cu ilin və 2003-cü ilin müvafiq göstəricilərini mütləq şəkildə müqayisə etdikdə qadınların ilk nikaha daxil olma yaşının 0,5 il, kişilərin ilk nikaha daxil olma yaşının 1,9 il artdığı aydın görünür. Bütün bunlar Azərbaycanda erkən nikaha daxil olmaya görə baş verə biləcək ailə böhranlarının xüsusi çəkisinin aşağı olduğunu göstərir [8].

Təcrübə göstərir ki, təhsil səviyyəsinin artması bütövlükdə ilkin nikaha daxilolma yaşını ləngidən amillərdən biri kimi çıxış edir. Bu baxımdan, Azərbaycanda ali təhsil ocaqlarının və orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəyənlərin sayının artması qurulan ailələrin sayının tədricən azalmasına, eləcə də ailədə doğulan uşaqların sayının planlaşdırılmasına təsir göstərən mühüm amillərdən biri kimi çıxış edir. Məsələn, 2002-ci ildə orta məktəbi qurtaranların 29,9%-nin ali məktəblərə daxil olması deyilənlərə əyani misal sayıla bilər [9].

Gənclərdə ali təhsilə meylin artması ilə bağlı yaranan bir çox ziddiyyətli təmayül də özünü göstərir. Gənclərin öz diqqətini təhsilə yönəltməsi əksər hallarda məhz sosial-iqtisadi motivlərlə şərtlənir. Gənclərdə, təhsilə ayrılan vaxt və diqqət müəyyən dövrdə onların iqtisadi fəallığının azalmasına və ilkin gənclik yaşlarında ailə qurmaq imkanlarının məhdudlaşmasına gətirib çıxarır.

Ailə həyatını şərtləndirən sosial-iqtisadi amillər bir-biri ilə sıx şəkildə bağlıdır. Hazırda nikahların sayının azalaraq ən aşağı həddə yaxınlaşması, gənclərin ailə qurmaq meyillərinin azalması, ailəyə olan ənənəvi münasibətin dəyişməsi bu istiqamətdə ciddi böhranın yaşandığını göstərir. Azərbaycanda əhalinin ənənəvi demoqrafik strukturunun pozulması, həm ölkədaxili, həm də ölkəxarici miqrasiyanın geniş vüsət alması ilə bilavasitə əlaqədardır. Bu əhalinin demoqrafik strukturunda bir sıra yeniliklərlə, məsələn, əcnəbilərlə, xarici ölkələrin vətəndaşları ilə ailə quran azərbaycanlı qadınların və kişilərin sayının nəzərəçarpacaq dərəcədə artması ilə nəticələnir.

Qarışıq nikahlar bütün dünyada getdikcə daha geniş vüsət almaqdadır və müxtəlif irqlərin, dinlərin, etnosların nümayəndələri arasında belə nikahlara getdikcə daha cox təsadüf edilir. Belə ailələrdə valideyn-övlad münasibətləri, tərəf müqabilləri arasında münasibətlərin sosial-psixoloji xarakteri, qarşılıqlı uyğunlaşma və bu tipli ailənin sosiomədəni mühiti tədqiqat obyekti kimi böyük aktuallıq kəsb edir [3, s.283].

Müasir dövrdə qurulan ailələrin bir qisminin dağılması müxtəlif səbəblərlə izah edilir. Tərəf müqabillərinin ailə quranadək bəzən bir-birlərini yaxından tanıya bilməməsi, qadın və kişinin dünyagörüşündə meydana çıxan ziddiyyətlər nəticəsində yadlaşmanın baş verməsi və qarşılıqlı sevgi hissinin itirilməsi bu səbəblər sırasına aid edilir. Eyni zamanda, bu zaman ailənin maddi təminatı, sosial rifahı ilə bağlı yaranan problemlər də həlledici əhəmiyyət kəsb edir. Qızlarımızın yaşı ötür, oğlanlarımızın evi və ailəni dolandıracaq əmək haqqının az olması səbəbindən. Ailənin dağılmasına və boşanmalara gətirib çıxaran səbəbləri üc qrupa bölmək olar.

1. Maddi-məişət problemləri;
2. Şəxsi münaqişələr;
3. Xarici təsirlər.

Maddi-məişət problemləri ailənin yaşayış tərzi ilə bağlı meydana çıxan müxtəlif çətinlikləri özündə əks etdirir.Məişət zorakılığının və digər problemlərin aradan qaldırılması üçün müvafiq qanun da qəbul olunub [5]. Yaşayış şəraitinin ağırlığı, tərəf müqabillərindən birinin ailə təsərrüfatını idarə etmək istəməməsi və ya bunu bacarmaması, maddi təminatın olmaması və digər müvafiq problemlər ailələrin dağılmasına səbəb olan mənfi amillərdən sayılır. Belə problemlərin davamlı xarakter alması ağır maddi-mənəvi çətinliklər yaradır [3, s.279].

Beləliklə, ailə həyatında meydana cıxan cətinliklər həm ailə qurmaq istəyənləri, həm də ailəsi dağılanları ciddi çətinliklərlə üzləşdirir. Bununla belə, bəzi ailələrin dağılmasını mütləq şəkildə mənfi amil kimi qiymətləndirmək mümkün deyil. Belə ki, bu amil istər-istəməz hər kəsin diqqətini ailə-nikah münasibətlərinə çəkir, cəmiyyətdə sosial ədalətin, mənəvi, mədəni və əxlaqi prinsiplərin qorunub saxlanması zərurətini bilavasitə təsdiqləyir.

Ailədə müasirliyin və ənənəviliyin toqquşması - 15 may 1994-cü ildən etibarən bu tarix BMT-nin xüsusi qərarı ilə Beynəlxalq Ailə Günü kimi qeyd olunur [4]. Belə bir günün təsis olunması və beynəlxalq səviyyədə qeyd olunması heç də tasadüfi deyil. Çünki uzun müddətdir ki, dünyada, xüsusilə Qərbdə ailə institutu ciddi aşınmalara məruz qalıb və böhran keçirir. Qərbdən fərqli olaraq Azərbaycanda ailə dəyərlərinin qorunub saxlanıldığını açıq-açığına görürük. Müasir Azərbaycanın çiçəkləndiyi bir dövrdə yaşadığımıza baxmayaraq, getdikcə son dövrlər boşanma hallarının sürətlə artmasını görürük. Ölkəmizdə boşanmaların səbəb olduğu mənfi məqamlar daha ciddi bir sosial problem olma mərhələsinə gəlib çatmayıb. Ancaq boşanmalarda son illərdəki artımı bu prosesin ölkəmiz üçün də ciddi bir sosial problemə çevrilə bilmə ehtimalının mövcud olduğunu göstərir.

Müasir dövrdə Azərbaycan ailələrində boşanmalara səbəb olan faktorların ciddi təhlil olunmasına böyük ehtiyac duyulur. Bu gün boşanmaların bir hissəsi maddi problemlər, yaxud qısqanclıq və xəyanət kimi ənənəvi səbəblər ucbatından baş verir. Bu prosesdə əksər hallarda diqqətdən kənar qalan, lakin əhəmiyyətli olan bir çox yeni məqamlar meydana gəlib. Xüsusilə ər-arvad arasındakı münasibətlərdə özünü büruzə verən problemlər haqqında danışmaq olar. Əvvəlki illərdə ailələrin uzunömürlü olmasını təmin edən şərtlərdən biri də bir çox məsələdə cütlərin bir-birinə güzəştə getməsilə bağlıdır. Bir tərəflərin daha çox qadının həyat yoldaşına güzəştə getməsi, bir çox xırda məişət məsələsini böyük ailə probleminə çevirmədən üstündən keçməsi labüddür. Atalar demişkən, tərəflərdən biri od olanda, digəri su olar. İndiki gənclər də məhz bu cür münasibət formasının hökm sürdüyü ailələrdə böyüyüb başa çatıblar. Lakin müasir dövrdə bu cür davranış modeli tədricən yerini inada, höcətləşməyə verib. Hər iki tərəf münaqişəyə səbəb olan məsələdə özünün haqlı olduğunu xüsusi bir cəhdlə sübut etməyə çalışır və nəticədə xırda bir məsələ şişir, böyük bir ailə dramına çevrilir. Modernləşmənin fərdin şəxsi maraqlarını və eqosunu təmin etməyə çalışan bir insan modeli yaratma tendensiyasının bu prosesə təsiri az deyil. Sonda həlli mümkün olmayan vəziyyət yaranır. Bu zaman çıxış yolunu tək boşanmaqda görürlər. Bunu həyatda gedən proseslərin nəticəsindən də görürük. Evlilik yaşında olan gənc qızlar gənc əksciнslərindən fərqli olaraq bir-birlərini başa düşməyən cütlərin, hətta övlad sahibi olsalar belə, boşanmalarını ən düzgün seçim olduğunu qeyd edirlər. Gənclər arasında boşanmaya qarşı bu cür rahat münasibətin formalaşması ciddi məsələdir [3, s.194].

Evdə münaqişəyə səbəb olan bir başqa məsələ də ailədaxili rol bölgüsü ilə əlaqədardır. Belə ki, əvvəlki illərdə ev işləri və uşağın qulluğu məsələləri, hətta bir işdə çalışsa belə, qadının öhdəsində idi. Amma müasir qadın bu vəziyyətə etiraz edir və həyat yoldaşının da onunla birgə bu məsuliyyəti bölüşməsini tələb edir. Ailə başçısı olan gənc isə bu cür davranış modelinə hazır deyil. Çünki yenə də onun böyüyüb başa çatdığı ailədə bütün ev işlərini evin xanımı olan anası yerinə yetirib və həmin gənc öz həyat yoldaşından da eyni cür davranışı gözləyir. Eynilə evin gəlini olan gənc xanım da böyüyüb başa çatdığı ailədə evin bütün maddi təminatını atasının çiynində olduğunu görüb. Bəzi "müasir" gənc ailə başçılarının çalışmaq istəməməsi, hər şeyi valideynlərindən gözləməsi isə bu dəfə də evin xanımını bu vəziyyətə etiraz etməsinə səbəb olur. Burda da yenə ənənəvi davranış modeli ilə müasirlik arasında münaqişə faktı özünü büruzə verir. Başqa bir ifadəylə müasir və ənənəvi düşüncə tərzinin toqquşması baş verir. Hətta düşüncə tərzində meydana gələn bu fərqlilikdən ötrü bəzi gənc xanımlarımız son zamanlar əcnəbi kişilərlə ailə qurmağa üstünlük verdiklərini vaxtaşırı qeyd edirlər.

Bütün bu qeyd olunan məsələlərdən sonra istər-istəməz belə bir sual ortaya çıxır: Necə olur ki, müasir gənclərin bir hissəsi (daha çox kişilər) ailə daxilində ənənəvi davranış modelinə üstünlük verdikləri halda, digər bir hissəsi (qadınlar) öz qurduqları ailədə böyüdükləri ailədən fərqli davranış modelləri nümayiş etdirirlər? Məsələ burasındadır ki, əgər əvvəlki illərdə gənci ailə həyatına hazırlayan yalnız öz ailəsi idisə, müasir dövrdə başqa qeyri-formal institutların gənclərin ailə həyatı haqqında fikirlərinin formalaşmasına təsir etdiyini nəzərdən qaçırmır. Burada televiziyanın rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, gənc qızın tamaşa etdiyi serialın qəhrəmanı və ya hansı bir müğənni bütün günü gözəllik salonunda, əyləncə mərkəzində, rəfiqələri ilə birlikdə özünə vaxt ayırmaqla keçirir. Ev işlərini isə onun əvəzinə ya evin qulluqçusu görür, ya da ən yaxşı halda həyat yoldaşı ilə birgə həyata keçirirlər. Həmin serial qəhrəmanı öz karyerasını da yeri gələndə ailə maraqlarından üstün tutur. Bunun təsiri altında olan gənc xanım eyni həyat tərzini öz ailəsində də tətbiq etmək istəyir və nəticədə insident baş verir. Eyni zamanda bu prosesə gender probleminin cəmiyyətdə qabardılması da təsirsiz ötüşmür. Yeri gəlmişkən, açıq deməliyik ki, qadınların müasir həyat tərzini mənimsəmələri və onlara uyğun davranış modelləri nümayiş etdirmələri kişilərdən daha sürətlidir [3, s.284].

Bu məsələdə valideynlərin də münasibətlərində əvvəlki illərdən fərqlənən bir çox cəhətlər özünü büruzə verir. Belə ki, əgər əvvəlki illərdə bu cür hallarda valideynlər daha çox barışdırıcı mövqedə çıxış edirdilərsə, müasir dövrdə onların da öz övladlarını haqlı çıxaran və tərəfini saxlayan bir mövqe nümayiş etdirdikləri açıq formada görünür.

İlk baxışdan xırda görünən bu məsələlər bu gün Azərbaycan ailəsini təhdid edir. Lakin bu arzuolunmaz prosesin əvvəlcədən qarşısını almaq mümkündür.Əslində, bunun üçün birinci növbədə valideynlərin öhdəsinə böyük məsuliyyət düşür. İlk növbədə onlar öz övladlarını ailə həyatına hazırlamalıdırlar. Bərkə-boşa düşəndə ailədaxili çətinlikləri onlara aşılamaları lazımdır.Eyni zamanda bu prosesdə müasir üsullardan da istifadə etmək vacibdir. Ona görə də evlənmə yaşında olan gənclər üçün xüsusi kursların təşkil olunması məqsədəuyğundur. Bir çox ölkədə bu təcrübədən istifadə olunur. Müasir həyat tərzindən irəli gələn problemlərin öhdəsindən gəlmənin yolları ixtisaslı mütəxəssislər tərəfindən xüsusi məşğələlərlə gənclərə aşılanmalıdır. Aparılan məşğələlərdə ailədə meydana gələn böhran ən xırda təfərrüatına qədər təhlil olunmalıdır, böhranın idarə olunması və ondan çıxış yolları öyrədilməlidir. Bu sahədə Türkiyənin təcrübəsindən istifadə etmək yaxşı olardı. Türkiyədə belə kurslar mütəmadi olaraq təşkil olunur və gənclər böyük həvəslə bu kurslarda iştirak edirlər [10]. Sonda bir fikri xatırlatmaq yerinə düşərdi: "Ailə bir dövlətdir, onu qorumaq hamımızın borcudur".

Azərbaycanın çağdaş ailə modeli

Azərbaycanın çağdaş ailə modeli necə olmalıdır?! Milli dəyər sayılan ailə institutunu qorumaq və gələcəyə sağlam ənənələrlə getmək üçün yeni modelin zəruriliyi cəmiyyətimizdə son illər ən çox müzakirə olunan, ictimai debatlar mövzusu olan məsələlərdən birinə çevrilib.

Ailə hər zaman xalqımızın yüksək mənəvi dəyərlərinin qorunduğu, genofondumuzun saxlanıldığı ictimai-sosial təsisat kimi sivilizasiya tariximizdə və milli inkişaf yolumuzda mühüm rol oynayıb. Sirr deyil ki, hər bir sivil cəmiyyətin və oturuşmuş dövlətin formalaşmasında, demokratik dəyərlərin inkişafında ailə mühüm yer tutur. Fiziki və mənəvi baxımdan sağlam ailə intellektual cəmiyyətin, güclü dövlətin əsasını təşkil edir. Təəssüf ki, bu gün dünyada gedən proseslər, qloballaşma, xalqların inteqrasiyası, televiziya ilə İnternetin həyatımıza nüfuz etməsi, sosial şəbəkələrin genişlənməsi, müxtəlif texnologiyaların inkişafı kimi mühum amillərin zərbələri Azərbaycan ailəsindən də yan keçməyib. Bu inkişaf bir tərəfdən müsbət yeniliklər gətiribsə, digər tərəfdən milli-mənəvi dəyərlərin aşınmasına, ailə institutunun deformasiyaya uğramasına səbəb olmaqdadır. Tarixən ailə hər zaman Azərbaycanda müqəddəs ocaq, kiçik dövlət hesab olunub. Bəs XXI əsrdə, yaşadığımız müasir dövrdə bu mənada durum necədir? Azərbaycan ailəsində yaranan problemlər doğrudanmı dünyada gedən proseslərdən, inkişafdan, tez-tez dəyişən zamandanmı qaynaqlanır?

Qlobal bir dünyada yaşadığımızdan artıq Azərbaycan ailəsi anlayışı deyiləndə yalnız bu taylı Azərbaycanda yaşayan və 9 milyon 500 min insanı əhatə edən ailələri deyil, eyni zamanda dünyanın müxtəlif yerlərinə səpələnmiş 50 milyondan çox soydaşımız, həmçinin qarışıq nikahlardan doğulanların sonralar yaratdıqları ailələr də nəzərdə tutulur.

Son 10 ilin araşdırmaları göstərir ki, hər il ölkəmizdə dünyaya göz açan 120-130 oğlana rəğmən, 100 qız uşağı doğulur. Deməli, 10-15 ilin statistikası üst-üstə gələndə bəlli olur ki, biz yaxın gələcəkdə oğlan uşaqlarımızı evləndirməyə qız tapmayacağıq. Ona görə də biz yaxın gələcəkdə qlobal ailə tiplərini Azərbaycan ailəsi ilə müqayisə etməyə, yaxud da milli ailəmizin yeni-yeni fərqli formaları haqqında daha çox danışmağa məcbur olacağıq… [10].

Müasir Azərbaycan ailəsi və onun dəyərləri, o dəyərlərin müasir dövrdə necə qorunması barədə sosioloqlar, cəmiyyətşünaslar, siyasətçilər, kulturoloq və filosoflar arasında hələ ötən əsrdən üzü bu yana ciddi müzakirələr, gərgin mübahisələr gedir. Doğrudur, bütün dünyada aparılan bu müzakirələr Azərbaycanda daha çox radio, televiziya və İnternet saytlarında aparılır. Daha ciddi konfranslarda və alimlərin əhatəsində bu problem ətrafında elmi, sosial, mədəni müzakirələr formasında apa-

rılmır, ya da məsələyə elə də ciddi yanaşılmır. Yaxud bu istiqamətdə debatlar gedirsə belə, orada iştirakçıların sayı az olur, ictimai rezonans doğuran nəticələri görmürük. Baxmayaraq ki, hər kəsə bəllidir: bu məsələ nəinki bizim cəmiyyəti düşündürür, həm də müasir dövrün ən böyük problemlərindən birinə çevrilib.

Biz hələ son vaxtlar Azərbaycanda da bütün dünyada gedən, klassik ailə tipini dağıtmağa yönəlmiş mənfi tendensiyalı modern ailə tipləri barədə demirik. İnsan haqları bəhanəsi ilə özü-özülə, kompüterlə, itlə, həmcinsi ilə nikaha girən yüngüləxlaqlar son vaxtların media marağındadırlar. Bilərəkdən, ya məlumatsızlıqdan tirajlanan bu cür "şok" faktlar milli ailə obrazımızı sarsıdıcı təsirlərə məruz qoyur, gənclərin mənəviyyatını pozur, ənənəvi ailə bağlantılarımızı qırır. Düzdür, bu sadalananlar Azərbaycan cəmiyyəti üçün tipik deyil, ailə müqəddəsliyinə inanclarımızı sarsıda bilər. Ona görə də hər zaman ailə saflığını, mentalitetimizi qoruyub saxlamağa çalışmalıyıq [6].

Azərbaycan üçün daha çox "qadın, kişi və iki-üç uşaq" ailə forması məqbul sayılır: bu tip daha çox inkişaf edib. Bunun özü də klassik milli ailə ittifaqı sayılmır, çünki məmləkətimizdə tarixən çoxuşaqlı ailələrin sayı, cəmiyyətin inkişafında, ictimai münasibətlərin tənzimlənməsində daha önəmli rolu olub. Ana kitabımız sayılan "Kitabi-Dədə Qorqud" eposundakı ailə modellərimizlə bağlı dəyərləri yada salmaq kifayətdir ki, yuxarıdakı fikrimiz aydın olsun. Əlbəttə, bütün bunları sadalamaq çox yaxşıdır. Gəlin görək hələ sayı 2-3 uşağı olan ailə başçıları bu övladlarını mənzillə, işlə təmin edə bilirlərmi və onları istədiyi kimi saxlayırlarmı, yoxsa övladlarının yanında başı aşağıdırlarmı? Hələ çoxuşaqlı ailələrə nəzər salın? "Dədə Qorqud"un dövrü keçdi, onlar alaçıqlarda da yaşayırdılar. Deyirik XXI əsrdə yaşayırıq. Elə ona görə də hər kəs istəyir özünün ayrıca isti bir ocağı olsun!!!... Həyə görə gəlin-qayınana problemləri ortaya çıxır. Bəs nə səbəbdən boşanmaların sayı getdikcə daha da artır. Səbəblər!!! Səbəblər!!?...

Nə olsun ki, müasir zamanda yaşayırıq, indi həm əyalətdə, həm Bakıda yaşayan bir çox qadın və kişi başqa ölkələrə işləməyə gedir, bu da müasir – milli Azərbaycan ailəsinin uzun müddət parçalanmasına aparıb çıxarır. Bəzən 3-5 il qadın uşaqları ilə yaşayır, amma yanlarında ata olmur, yaxud ailə başçısı ildə bir neçə dəfə, bayramlarda, şənliklərdə, yaslarda evinə "qonaq" gəlir. Başqa tipik fakt: qadınıyla boşanmış, yaxud arvadını itirmiş kişi uşaqlarını yaxın qohumlarının, – əsasən baba və nənələrin, – yanında, ya da dövlət internat məktəblərində qoyur, özü tək yaşayır. Qlobal dövrümüzdə bu problemlər get-gedə aktuallaşır və son vaxtlar boşanmaların sayı günü-gündən artır. Bu da klassik ailə tipinin inkişafına və dəyərlərin saxlanmasına mənfi təsir göstərir.

Sual oluna bilər: bəs müasir milli ailə modeli necə olmalıdır? Normal qəbul edib-etməməyimizdən asılı olmayaraq, bu gün çağdaş ailə modellərimizdə müxtəlif dəyişikliklər baş verir. Bunun qarşısını almaq üçün tarixdə və yaxın keçmişimizdə ən yaxşı ailə ənənələrimizi dirçəltməli, möhkəmləndirməliyik. Əvvəllər çoxuşaqlı – 5-10 uşaqlı ailə modellərinin sayı həddən-artıq idi. Üstəlik də bu cür ailələr yaxın qohumların əhatəsində olurdu: söhbət xala, bibi, dayı, əmi, baba, nənədən gedir. Əfsuslar olsun ki, indi bunların çoxu yoxdur. Artıq ötən əsrin 80-ci illərindən bu yana respublikamızda ən uzağı iki və ya üç uşaqdan ibarət ailələrin sayı çoxalmağa başladı. Odur ki indi əksər uşaqların xala, bibi, əmi, dayı deyilən qohumları yoxdur. Bundan sonra daha böyük problemlərlə rastlaşacağıq, çünki bu qohumluq anlayışları get-gedə azalacaq. Evdə bir oğlan və tək qız varsa, onlar evlənəndən sonra uşaqlarının xalası, yaxud dayısı, və ya bibisi-əmisi olmayacaq. Bütün bunlara baxmayaraq, iki uşaq da yeri gələndə deyir ki, elə bir uşaq dünyaya gətirərdin, indi də ev davası düşməzdi. Bəs bunlar hamısı sosial problemlərin nəticəsi deyilmi?

Digər tərəfdən, heç də birmənalı demək olmaz ki, müasir Azərbaycan ailəsinin bütün dəyərləri idealdir. Azərbaycanda boşanma faktları hər zaman ictimai qınağa məruz qalıb, pis hal sayılıb. Bütün dünyada isə psixoloqların, ailələrlə bağlı araşdırma mərkəzlərinin tədqiqatları, xüsusilə sosioloqların çoxsaylı araşdırmaları göstərir ki, boşanmalar olmayanda ailədaxili zorakılıq halları durmadan artır. Belə hallar isə gələcək nəslin formalaşmasında öz mənfi təsirini daha çox göstərir. Boşan-

mayaraq uzun müddət münaqişəli ailələrdə yaşayanların psixoloji problemləri cəmiyyətə daşınma halları da artır, cinayət faktlarının çoxu məhz onlardan qaynaqlanır [2, s.105].

Azərbaycanda çox vaxt gənclər ata, ana məsləhəti ilə evlənirlər və onların psixoloji cəhətdən bir-birlərinə uyğunluğu nəzərə alınmır. Nəticələr göstərir ki, ənənəvi ailə modelində qadın və kişi arasındakı sevgi münasibətləri üç ildən artıq davam etmir. Daha sonra ya uşaqlarla bağlı maraqlar və yaxud ailəni qorumaqla əlaqədar milli-mental dəyərlər ailəni möhkəmlədir, boşanmaların qarşısını alır. Ailədə tərəflər arasında məlhəm – intim münasibətlərə bütün dünyada önəmli məsələ kimi baxılır. İki fərdin arasındakı ülvi münasibətlərin möhkəmlənməsindəki bu münasibətlər üç ildən sonra ya azalır, ya da adiləşir. Eyni zamanda ailə modelinin möhkəm qalmasında bir çox dəyərlərin yaşamasının və ictimai qınağın önəmli rolu var.

Ailə münasibətlərində əsas amillərdən biri də iqtisadi məsələ, birgəyaşarlığın maddi-sosial təminatıdır. Boşanmalarla bağlı statistik məlumatları diqqətlə nəzərdən keçirəndə, məlum olur ki, yaranmış və sonradan dağılmış ailələrə əsasən iqtisadi çətinliklər problem yaradır. Ən qəribəsi budur ki, pulun həm az, həm də çox olması dağılan ailələrə önəmli mənfi təsir göstərir. Pul az olanda, kişi qadın arasında münasibət kəskinləşir və bu da boşanmaya aparıb çıxarır. Yaxud ailəsini yüksək səviyyədə dolandıra bilməyən kişi məcburən Rusiyaya və ya digər xarici ölkələrə işləməyə gedir.

Tədqiqatçı-alim Ə.Süleymanlının qeyd etdiyi kimi, boşanmaların başqa bir səbəbi isə qadının ailədə söz sahibi olmağa çalışmasıdır. İşgüzar qadın karyera qurur və iqtisadi cəhətdən müstəqil olan kimi öz fikirlərini diqtə etməyə başlayır ki, bu da ailənin dağılmasına aparıb çıxarır. Axı əsrlər boyu formalaşan milli mentalitetimizə görə ailədə əsas söz sahibi kişidir [8].

Sadalanan problemlərin qarşısını, əlbəttə, dünyanın ən qabaqcıl sivil cəmiyyətlərində olan ailə modellərini götürüb müqayisəsini aparmaq, onları milli-tarixi dəyərlər süzgəcindən keçirmək və Azərbaycan üçün optimal ailə formalarını yaradıb, ortaya qoymaqla ala bilərik. Amma bunun üçün ailə ilə bağlı ciddi tədqiqat institutlar yaradılmalı, araşdırmalar aparmalı, onların elmi-praktik nəticələri real həyatda tətbiq olunmalıdır.

Bizdə ailəyə elmi yanaşma çox zəifdir, dünyanın hər yerində ailə psixoloqları deyilən böyük bir mütəxəssislər ordusundan ibarət sistem işləyir. ABŞ, Rusiya və digər ölkələri nümunə göstərmək olar. Bu ölkələrdə məktəb psixoloqundan tutmuş ailə psixoanalitikinə qədər fərqli mütəxəssislər var. Əlbəttə, ailə modelinin möhkəmlənməsində bu ixtisaslaşmış mütəxəssislər böyük rol oynayır. Bizdə isə tamam başqa ictimai ailə münasibətləri mövcuddur: çox vaxt görürük ki, ailə daxilində ciddi problemlər yaşanır. Bu zaman tərəflər ortaya çıxan məsələləri mütəxəssislərlə araşdırmaq, həll etmək əvəzinə, ata-anaya, qayınana-qaynataya, qohumlara – yaşlı nəslin nümayəndələrinə üz tuturlar. Əslində belə problemlər olanda psixoloq və psixoanalitikə müraciət etmək daha məntiqlidir. Onlar ailənin qorunması ilə bağlı müəyyən bilgilər verə bilərlər. Bu mənada ənənəvi ailə modelini inkişaf etdirməyin və bu ənənələrin yaşadılması vacibdir. Nə qədər qəribə görünsə də, xaricdə yaşayan, hər iki tərəf azərbaycanlıdan ibarət ailələrdə milli adət-ənənələr və klassik ailə modeli daha çox qorunur, nəinki müasir dövrdə Azərbaycanın özündə yaşayan insanlar arasında.

İctimai düşüncəmizə təsir edən əsas amillərdən biri də elektron KİV, İnternet, sosial şəbəkələrdir. Telekanalların çoxunda ailə qurulması, eləcə də nikahın dağılmasıyla bağlı müxtəlif verilişlər yayımlanır. İnternetdəki tanışlıq saytlarında, sosial şəbəkələrdə insanlar bir-birlərilə tanış olub ailə qururlar. Əlbəttə, onlar yüz faiz xoşbəxt olmurlar. Real həyatda olduğu kimi, virtual və digər formalarda ailə quran insanlar arasında da müəyyən problemlər yaşanır. Yeni texnologiyaların tətbiqinin tərəfdarı olsaq da, unutmamalıyıq ki, biz azərbaycanlıyıq və öz dəyərlərimiz var. Ən yeni texnologiyalar insanlara xoşbəxtlik verməklə bərabər, onlara böyük bədbəxtliklər də gətirə bilər. Bunun da artıq bir çox işartılarını görürük.

Bu gün, zamanın diqtələrini də nəzərə almaqla, Azərbaycanda yeni, bir qədər də modern ailə modellərinin hazırlanmasına ehtiyac duyulur. Azərbaycanın çağdaş ailə modeli millət olaraq bizim

qiymətli mənəvi dəyərlərimizdən birinə çevrilməlidir. Elə bir mənəvi dəyər ki, bunu bütün dünyada təbliğ etmək lazımdır və bunu əcnəbilər də etiraf edirlər. XXI əsrdə dünyada, həm də bizim yaşadığımız cəmiyyətdə elə proseslər gedir ki, mənəvi problemlər sanki arxa plana keçib, əksinə, maddi tələbatlar önə çıxıb. Xoşagəlməz hal budur ki, maddi tərəflərə üstünlük verdiyimiz halda, mənəvi dəyərlərimiz güclü təzyiqə məruz qalır, televiziya kanalları, yaxud İnternetin, sosial şəbəkələri mənfi təsirilə bu dəyərlərdə sürətli aşınma baş verir. Məhz bunların qarşısını almaqdan ötrü ən qiymətli ailə dəyərlərimizi dirçəltməli, zamana uyğun olmayan bəzi cəhətlərini islah etməliyik [10].

Azərbaycan XXI əsrdə milli ailə modelini qoruya biləcəkmi? Yeni texnologiyalar vasitəsilə tanış olub ailə qurmaq lazımlı və uğurludurmu? Və yaxud Azərbaycan XXI əsrdə milli ailə modelini qoruya biləcəkmi? Çağdaş dünyamızda gedən proseslər, qloballaşma, texnologiyanın inkişafı, xalqların inteqrasiyası, İnternet və virtuallaşma kimi yeni düşüncə-informasiya modellərinin zərbələri Azərbaycan ailəsindən də yan keçməyib. Bu inkişaf bir tərəfdən müsbət yeniliklərə gətirsə də, digər tərəfdən milli-mənəvi dəyərlərin aşınmasına, Azərbaycan ailə institutunun deformasiyaya uğramasına aparıb çıxarır. Milli ailə modeli hər zaman Azərbaycanda müqəddəs ocaq, kiçik dövlət hesab olunub. Bəs günümüzdə bu sahədə durum necədir? Azərbaycan ailəsində yaranan problemlər doğrudanmı dünyada gedən inkişafdan, dəyişən zamandan qaynaqlanır?

Oğlanları evləndirməyə qız tapılmayacaq! Əlbəttə, hər kəs oğlan övladına sahib olmaq istəyir, qızları isə dünyaya gəlməyə qoymurlar, onda belə də olmalıdır. Bəs deyirsiniz qədim dövrdə (əsrdə) qız uşaqları doğulandan sonra onu diri-diri torpağa gömürdülər. Müasir dövrdə isə qız uşaqlarını həkimlərin sayəsində heç dünyaya gəlməyə də qoymurlar. Qlobal bir dünyada yaşadığımızdan artıq Azərbaycan ailəsi məhfumu deyiləndə, yalnız Şimali Azərbaycanda yaşayan, 9 milyon insanı əhatə edən ailə institutları deyil, eyni zamanda dünyanın müxtəlif yerlərinə səpələnmiş 50 milyona yaxın soydaşımız, həmçinin, qarışıq ailə tipləri nəzərdə tutulur. Son 10 ilin araşdırmaları göstərir ki, 140 oğlanla müqayisədə 100 qız uşağı doğulur. Deməli, 10-15 ilin statistikasının nəticələri üst-üstə gələndə bəlli olur ki, biz yaxın gələcəkdə oğlan uşaqlarımızı evləndirməyə qız tapmayacağıq. Ona görə də biz yaxın gələcəkdə qlobal ailə tipini Azərbaycan ailəsi ilə müqayisə etməyə, yaxud da Azərbaycan ailəsinin yeni bir tipi haqqında danışmağa məcbur olacağıq" [7].

Klassik Azərbaycan ailəsi və onun dəyərləri, o dəyərlərin müasir dövrdə necə olması barədə sosioloqlar, siyasətçilər, kulturoloq və filosoflar arasında mübahisələr gedir. Əfsuslar olsun ki, Azərbaycanda bu mübahisələr radio və internet saytlarında aparılır. Daha ciddi konfranslarda və alimlərin əhatəsində bu mübahisələr getmir. Yaxud gedirsə də, orda iştirakçılar çox az olur. Baxmayaraq ki, əslində, bu, müasir dövrün ən böyük problemlərindən birinə çevrilib.

Bizdə boşanma əvvəl ictimai qınağa məruz qalıb, pis hal sayılırdı, amma sonra psixoloqlar, xüsusilə sosioloqların araşdırmaları göstərdi ki, boşanmalar olmayanda ailədaxili zorakılığın gizlədilməsi baş verir. Bu da psixoloji problemlər yaradır. Çox vaxt gənclər ata, ana məsləhəti ilə evlənirlər və psixoloji cəhətdən bir-birlərinə uyğunluğu nəzərə alınmır. Doğrudur bu cür fikirlər söylənilir ki, valideyinlərin göstərişi ilə ailə qurmuşuq, lakin fikirlərimiz üst-üstə düşmür, bir-birimizi tam formada anlaya bilmirik. Son nəticədə də ailə daxilində çəkişmələr, qabalıqlar baş verir. Hətta, ailədə qadın zorakılığa məruz qalır və elə də olur ki, əri tərəfindən öldürülür və yaxud da qadın intihar edir, beləliklə, ailədə böyük faciələr baş verir. Olsun!., Deyirlər ki, valideynlər tərəfindən qurulan ailələrdə belə hadisələrə rast gəlinir. Ortaya belə bir sual çıxa bilər!... Bəs özləri seçib-sevib evlənənlər nəyə əsasən böyük faciələr yaşayır? Elə olur ki, belə ailələrdə də boşanmalar, zorakılıqlar, xoşagəlməyən hadisələr baş verir. Onda demək olmaz ki, valideynlər tərəfindən qurulan ailələr daha tez dağılır. Bu heç də belə deyil? Ailənin kim tərəfindən qurulduğuna baxmayaraq, ailədə qarşılıqlı hörmət olmasa, onlar heç zaman bir-birini anlaya blməyəcəklər və belə ailələrin də ömrü çox qısa olacaq!..

Son araşdırmalar göstərir ki, qadın və kişi münasibətləri, xüsusən, ailə modelində 3 ildən artıq davam etməyib. Daha sonra ya uşaqlarla bağlı maraqlar və yaxud ailəni qorumaqla bağlı dəyərlər ailəni saxlayıb. İntim münasibətlərə bütün dünyada önəmli məsələ kimi baxılır. Bu münasibətlər də 3 ildən sonra ya zəifləyir, ya da adiləşir. Eyni zamanda ailə modelinin möhkəm qalmasında bir çox dəyərlərin yaşamasının və ictimai qınağın önəmli rolu var.

Açar sözlər: ailə, insan haqları, dəyər, nikah, boşanma

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Ailə və Nikah Məcəlləsi. Bakı: 2010
2. Azərbaycanda qadın məsələsi. Kollektiv toplu. Bakı: 2014
3. Abdallı H.İ., Şabanov Z.M. Qadın: ailədə, cəmiyyətdə, təhsildə, dində, ədəbiyyatda. Bakı: Avropa, 2013, 332 s.
4. BMT-nin qərarlar toplusu. Bakı: 2003
5. "Məişət zorakılığının aradan qaldırılması haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 2010
6. www.inter.sayt. 12.09.15
7. www.strategiya. 17.09.15
8. www.lent.az. 26.09.15
9. www.az.politika. 16.10.15.
10. www.qafqazinform. 17.11.15

Хаджар Абдаллы

СЕМЬЯ В СИСТЕМЕ СОВРЕМЕННЫХ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ

Резюме

В статьеисследуется новый взгляд на семью и ее функции, анализируется роль семьи в социально-политических отношениях. В то же время исследованы исторические формы семьи, отличительные особенности современной семьи. Подчеркивается важность национально-нравственных и религиозных ценностей в поддержании прочности семьи.

Ключевые слова: семья, права человека, ценности, брак, развод

Hajar Abdalli

FAMILY IN THE SYSTEM OF MODERN SOCIAL AND POLITICAL RELATIONS

Summary

The article is a new look at the family and its functions, the role of the family is analyzed in the system of social and political relations. At the same time historical forms of the family are investigated and is paid attention to the different characteristics of modern families.The author stresses significance of the role of religion and national-spiritual values in the maintaining the strength of the familiy.

Keywords: family, human rights, values, marriage, divorce

UOT – 342

Şərafəddin Şərifov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

HÜQUQİ ŞƏXSLƏRİN İNZİBATİ HÜQUQİ MƏSULİYYƏTİNİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

Məqalədə hüquqi şəxslərin inzibati məsuliyyətinin səciyyəvi cəhətləri və xüsusiyyətləri hüquq münasibətləri sistemində və hüquq normalarının tətbiqində müstəqil amil kimi müəyyənləşdirilir. Müəllifin fikrincə, hüquqi şəxslərin inzibati məsuliyyətinin səciyyəvi cəhətləri və xüsusiyyətləri hüquqi şəxslərin mahiyyətindən, əlamətlərindən, hüquq münasibətlərində onların iştirakının əhəmiyyətindən, müvafiq hüquq sistemində hüquqi şəxs anlayışı ilə əhatə olunan konkret məzmundan, müvafiq dövrdə inzibati məsuliyyətin vəzifələrindən asılı olaraq formalaşır və müstəqil amil kimi hüquqi tənzimləmə prosesinə əhəmiyyətli təsir göstərir.

Xüsusi mülkiyyətin, o cümlədən bazar iqtisadiyyatının təşəkkülü hüquq hüquqi şəxslərin iqtisadi münasibətlərdə əhəmiyyətini artırmaqla yanaşı, onların münasibətlərdə iştirakı ilə bağlı hüquq və vəzifələrinin, eləcə də hüquqi məsuliyyətinin xüsusiyyətlərinin və səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi zərurətini yaratdı. Bu sahədə elmi tədqiqatın aparılması qeyd olunan zərurətlə bağlıdır. Tədqiqat prosesi sistemli yanaşma və müqayisəli təhlil metodologiyası əsasında həyata keçirilmişdir.. Tədqiqatla müəyyən olunmuşdur ki, "hüquqi şəxs" terminindən ilk dəfə Alman hüquq elmində "juristische person" ifadəsi qismində istifadə edilmişdir. Bununla yanaşı, da bəllidir ki, "hüquqi şəxs" anlayışı ilə əhatə edilən məzmun və mahiyyət qədim Roma hüququndan başlayaraq müasir dövrə qədər özünün formalaşma mərhələlərini keçmişdir. Hüquqi şəxslərin inzibati məsuliyyətinin xüsusiyyətləri məhz bu təkamül prosesindən bəhrələnmişdir.

Qədim Roma hüququnda hüquqi şəxs kateqiyası mövcud olmasa da, Marsian, Alfen, Ulpian kimi hüquqşünaslar bəzən mülkiyyətin ayrı-ayrı şəxslərə deyil, onların birliklərinə mənsub olmasını ifadə edirdilər. Onlar, hətta korporasiyalarla ("universitas") ortaqlıqlar ("sosietas") arasındakı fərqlərin izahını da verməyə çalışırdılar. "XII Cədvəl qanunu" korporasiya, kollegiya və assosiasiyaların yaradılması sərbəstliyini təsbit etmişdir. Bununla yanaşı, hüquqi şəxslərdə iradə mövcudluğu tanınmamış, ona görə də onların delikt qabiliyyətli olması inkar olunmuşdur. Bu təşkilatlar hüquq subyekti kimi tanınmadığından, onların işlərini fiziki şəxslər icra etmişdir.

Sonrakı dövrdə feodal-natural təsərrüfatın tamamilə qapalı və istehsalın şəxsi istehlaka xidmət etdiyi bir sistemdə hüquqi şəxslərin formalaşması prosesi nisbətən zəifləmişdir.

Lakin kapitalist münasibətlərinin formalaşmalaşması və genişlənməsi, milli və beynəlxalq bazarların yaranması, rəqabətin güclənməsi dövrünü əhatə edən XIX əsrin II yarısından etibarən bazar subyektləri öz imkanlarını birləşdirərək fəaliyyət göstərmək zərurətilə üzləşlilər. Nəticədə, milli, regional və beynəlxalq səviyyədə bir sıra təsərrüfat və peşə birlikləri meydana gəldi ki, bunların da ən məşhurları ticarət kompaniyaları idi.

Məhz bu dövrdən başlayaraq Alman və Fransız hüquqşünasları Girke, Dernburg, Salleyl, İerinq, Savinyi və s. tərəfindən hüquqi şəxslərin müasir dövrdə tədqiqat obyektinə çevrilmiş nəzəriyyələrinin əsası qoyulmuşdur.

Hüquqi şəxslərin mahiyyəti 150 ildən artıq bir müddətdir ki, müxtəlif nəzəriyyələrlə izah olunur. Lakin müasir hüquq elmində "hüquqi şəxslər" probleminin bu aspektlərdə qruplaşdırılaraq araşdırılması məqsədə uyğun hesab edilir:

1. *Hüquqi şəxs anlayışı və onun əsas əlamətləri*:

Burada tədqiqat predmeti hüquqi şəxslərin mahiyyəti, funksiyaları, tarixi inkişaf yolu, onlar haqqında yaranmış nəzəriyyələr və onları xarakterizə edən əsas əlamətlərdir.

Hüquqi şəxslərin əlamətləri dedikdə, ona məxsus olan elə daxili xüsusiyyətlər başa düşülür ki, həmin xüsusiyyətlər əsasında müvafiq qurum mülki hüququn subyekti kimi tanınır. Bu əlamətlərə aşağıdakılar aiddir:

a) *Təşkilati vahidlik.* Təşkilati vahidlik dedikdə, hüquqi şəxsin öz mənafelərini həyata keçirmək üçün yaratdığı idarəetmə orqanları və funksional bölmələrə malik olmasında ifadə olunan daxili strukturu başa düşülür. Ölkə qanunvericiliyinə görə hüquqi şəxslər mülki hüquq və vəzifələri öz orqanları vasitəsilə əldə edirlər.

b) Hüquqi şəxsin fəaliyyətinin mövcud qanunvericiliklə tənzimlənməsi.

c) Müstəqil əmlak sahibliyi. Hüquqi şəxs öz nizamnaməsində göstərdiyi məqsədlərə nail olmaq, mülki dövriyyədə müəyyən öhdəliklər götürə bilmək üçün təbii ki, ayrıca əmlaka və ya əmlak müstəqilliyinə malik olmalıdır.

2. *Hüquqi şəxslərin hüquq subyektliyi və onların yaradılması*:

Bu baxımdan hüquqi şəxslərin hüquq subyektliyi problemi, onun əsas elementləri, hüquqi şəxslərin yaradılması və indiyədək mövcud olan əsas yaradılma sistemləri, ölkəmizdə geniş şəkildə tətbiq edilən qeydiyyatlı sistemin xarakteri və əsas prosedurları araşdırılır.

Hüquqi şəxslərin mülki dövriyyədə iştirakının ilkin şərtlərindən biri onların mülki hüquq subyektliyinə malik olmalarıdır.

Hüquqi şəxsin mülki hüquq subyektliyi dedikdə, hüquqi şəxsin mülki hüququn subyekti olmaq üçün sosial-hüquqi imkanı və ya qabliyyəti başa düşülür. Hüquqi şəxslərin mülki hüquq subyektliyi fiziki şəxslərin hüquq subyektliyindən fərqli olaraq universal deyil, xüsusi xarakter daşıyır. Çünki bu subyektlik qanunvericilik və onun nizamnaməsi ilə müəyyən çərçivəyə salınır. Hüquqi şəxslərin hüquq subyektliyi aşağıdakı elementlərdən ibarətdir: hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, delikt qabiliyyəti və transdelikt qabiliyyəti.

Hüquqi şəxslərin mülki hüquq qabliyyəti, onların mülki hüquqlara malik olmaq və mülki vəzifələr daşımaq qabliyyətini ifadə edir. Məzmun etibarilə onların sahib ola biləcəkləri mülki hüquq və vəzifələrin məcmusudur. Fiziki şəxslərdə insan anadan olduğu andan bu qabliyyəti əldə etdiyi və onlarda universal xarakter daşıdığı halda, hüquqi şəxslərdə bu xüsusi (məqsədli) xarakter daşımaqla onlar dövlət qeydiyyatına alındığı andan əldə edilir. Bəzi fəaliyyət növləri sahəsində isə onlar xüsusi lisenziya alaraq mülki hüquq və vəzifələr əldə edirlər ki, bunlar da müddətli və xüsusi dövlət rüsumunu ödəməklə əldə olunur. Ölkəmizdə bu fəaliyyət sahələrinin siyahısı və onların əldə edilməsi ilə bağlı qaydalar ayrıca prezident fərmanı ilə tənzimlənir.

Hüquqi şəxslərin mülki fəaliyyət qabliyyəti dedikdə, onların öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək, həyata keçirmək və özü üçün mülki vəzifələr yaratmaq, icra etmək qabliyyəti başa düşülür. Fiziki şəxslərdə tam fəaliyyət qabliyyəti əldə edilməsi ilə bağlı 18 yaşa çatmaq kimi bir məhdudiyyət qoyulduğu halda, hüquqi şəxslər üçün belə bir məhdudiyyət yoxdur. Ümumi şəkildə belə qəbul edilir ki, onların fəaliyyət qabliyyəti də, hüquq qabliyyəti kimi dövlət qeydiyyatından keçdikləri andan əldə edilmiş sayılır.

Mülki hüquqda hüquqi şəxslərin delikt qabiliyyəti dedikdə, onların öz hərəkətlərinə görə müstəqil surətdə mülki-hüquqi məsuliyyət daşımaq qabiliyyəti nəzərdə tutulur. Fiziki şəxslərin belə imkanları üçün müəyyən yaş məhdudiyyəti nəzərdə tutulsa da, hüquqi şəxslərdə belə məhdudiyyət yoxdur və onlar qeydiyyata alındıqları andan həm də delikt qabliyyətli sayılır.

Hüquqi şəxslərin transdelikt qabiliyyəti. Hüquqi şəxslər mülki dövriyyədə iştirak edərkən bütün hüquq və vəzifələri təkcə özləri üçün deyil, münasibətlərin digər subyektləri üçün də əldə edirlər. Bu özünü nümayəndəlik, vasitəçilik kimi bir sıra fəaliyyətlərin həyata keçirilməsi zamanı daha qabarıq göstərir. Məhz hüquqi şəxslərin transdelikt qabiliyyəti dedikdə, onların öz hərəkətləri ilə başqaları üçün hüquq və vəzifələr yaratmaq qabiliyyəti nəzərdə tutulur.

3. *Hüquqi şəxslərin yaradılması və fəaliyyətinə xitam verilməsi:*

Burada hüquqi şəxslərin yaradılması və xitamı anlayışı, əsas səbəbləri, məcburi və könüllü əsasları, hüquqda mövcud olan xitam üsulları, bu zaman qarşıya çıxan hüquq və vəzifələrin varisliyi məsələləri, bir xitam üsulu kimi hüquqi şəxslərin ləğvi, ləğvetmə zamanı kreditorlarla hesablaşma-

lar və ümumilikdə ləğvetmə proseduru və s. kimi məsələlər mövcud qanunvericiliyimiz əsasında izah edilir.

Hüquqi şəxslərin yaradılmasının birinci və lakin yeganə olmayan məqsədi iqtisadi xeyirin əldə olunmasıdır. Hüquqi şəxslərin ayrıca növləri kommersiya xeyiri əldə etmək üçün yaradılmır, "başqa növlü" tələbatlarının ödənilməsinə xidmət edir: mədəni-maarif işinin aparılması, dini ayinlərin və vicdan azadlığının həyata keçirilməsi, özünün peşə maraqlarının müdafiəsi və s., başqa sözlə qeyri-kommersiya hüquqi şəxsləri sosial funksiya həyata keçirirlər, öz iştirakçılarının hüquqlarının reallaşdırılması üçün şərait yaradır.

İnzibati məsuliyyət üçün də bu faktor vacib əhəmiyyət kəsb edir, çünki inzibati cəzaların əmlak həcmi hüquqi şəxsin əmlakının həcmi, onun nizamnamə kapitalı ilə məhdudlaşır.

4. *Hüquqi şəxslərin təsnifatı:*

Bu aspektdən çıxış edilməklə, hüquqi şəxslər müxtəlif meyarlar əsasında qruplaşdırılır. Beləliklə, hüquqi şəxsin hüquqi konstruksiyası təkcə sahibkarlıq risqini deyil, həm də inzibati məsuliyyətin həcmi sərhəddini müəyyən etməyə imkan verir.

Hüquqi şəxslərin əlamətlərini qanunverici onun ayrı-ayrı təşkilati-hüquqi formalarını səciyyələndirməklə verir.

Sahibkarlıq fəaliyyətinin məqsədlərindən çıxış edərək hüquqi şəxslər olan təsərrüfat subyektləri, öz fəaliyyətrinin əsas məqsədi gəlir əldə etmək olan (kommersiya) təşkilatları və belə məqsədi olmayan və alınan gəliri iştirakçılar arasında bölünməyən təşkilatlara (qeyri-kommersiya) ayrılır.

Beləliklə, hüquqi şəxslər (təşkilatlar) yaradılma məqsədlərindən və təşkilati-hüquqi formalarından asılı olaraq belə qruplaşdırılır:

1. Kommersiya təşkilatları olan hüquqi şəxslər: tam ortaqlıqlar, inamda olan ortaqlıqlatr, açıq səhmdar cəmiyyətlər, qapalı səhmdar cəmiyyətlər, məhdud məsuliyyətli cəmiyyətlər, əlavə məsuliyyətli cəmiyyətlər, istehsalat kooperativləri, kəndli təsərrüfatları (fermerlər), unitar müəssisələr, təsərrüfat aparılması hüququna əsaslanan unitar müəssisələr, operativ idarəetmə hüququnu əsaslanan unitar müəsissələr, törəmə unitar müəssisələr.

2. Qeyri-kommersiya təşkilatları olan hüquqi şəxslər: istehlak kooperativləri, ictimai və dini təşkilatlar (birliklər) ictimai hərəkatlar, fondlar, müəssisələr, dövlət kooperasiyaları, ictimai orqanlar, qeyri-kommersiya tərəf müqabilliyi, muxtar qeyri-kommersiya təşkilatları, hüquqi şəxslər birliyi (assosasiyalar və birliklər), kəndli (fermer) təsərrüfatları assosasiyaları, ərazi ictimai özünüidarələri, mənzil mülkiyyətçiləri ortaqlıqları, bağ, bostançılıq və ya bağçılıq ortaqlıqları.

Hüquqi şəxslərə təyin olunan inzibati cəzaların əksəriyyəti (xəbərdarlıq və fəaliyyətin inzibati qaydada dayandırılması istisna olamaqla) əmlak xarakteri daşıyır, deməli, qeyri-kommersiya təşkilatının inzibati hüquq pozuntusuna görə inzibati məsuliyyətə cəlb olunması ehtimalını azaldır.

Eyni zamanda qeyd olunmalıdır ki, qeyri-kommersiya təşkilatının inzibati məsuliyyətə cəlb olunması istisna edilmir.

Ümumilikdə, hüquqi şəxslərə – müəyyən bir məqsədi reallaşdırılmaq üçün vətəndaşların müstəqil bir varlıq halında əmlakla birgə təşkilatlandıqları, mövcud hüquq sistemi tərəfindən hüquq və vəzifələrə sahib olmaq səlahiyyəti təsbit edilmiş birliyi qismində yanaşılması onların mahiyyətini daha dəqiq ifadə edir.

Hüquqi şəxsləri hal-hazırda səciyyələndirən bu əlamətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 43-cü maddəsində öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Mulki qanunvericiliyinə görə, hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlaka cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır [2, s.43].

Hüquqi şəxslər məzmun və mahiyyət etibarılə bir reallıq kimi ictimai münasibətlərdə, o cümlədən mülki dövriyyədə, eləcə də hüquq münasibətlərində iştirak etməklə müvafiq hüquqlar əldə

edir və vəzifələr daşıyır. Bu prosesdə hüquqi məsuliyyət münasibət iştirakçılarının davranışını tənzimləyən hüquqi mexanizm kimi çıxış edir .

Beynəlxalq səviyyədə hüquqi şəxslərin məsuliyyətinə dair məsələ ilk dəfə ikinci dünya müharibəsindən sonra meydana gəldi.

Beləliklə, bir çox ölkələrin daxili qanunvericiliyi ilə, eləcə də beynəlxalq hüquqla hüquqi şəxs publik-delikt münasibətlərin subyekti və publik-hüquqi məsuliyyətin subyekti qismində tanındı.

İnzibati məsuliyyət hüquqi məsuliyyətin müstəqil bir növü olduğuna görə, "hüquqi məsuliyyət", eləcə də inzibati "məsuliyyət" anlayışlarının məzmununun təhlilini aparmaq, hüquqi məsuliyyətin tərkibində inzibati məsuliyyətin yerini təyin etmək zəruridir.

Tanınmış hüquqşünas alim S.S.Alekseyev hüquqi məsuliyyətə belə tərif verir: "Hüquqi məsuliyyət-təqsirli şəxsə hüquqpozma törətdiyinə görə dövlət məcburiyyət tədbirlərinin tətbiq edilməsidir. Hüquqi məsuliyyət hüquqpozanın ictimai mühakiməsi, onun davranışının sosial və mənəvi qüsurluluğu ilə bağlıdır" [3, s.101].

Digər hüquqşünas tanınmış alim O.M.Yakuba yazır: "Məsuliyyət hüquqi mənada bütün hallarda qüvvədə olan hüquq normalarının pozulmasına görə təqsirli üçün xeyirsiz nəticələri ehtiva edir [5, s.69].

İnzibati məsuliyyət dedikdə, hüquqpozma törətmiş şəxsə tətbiq edilən bütün inzibati-hüquqi təsir vasitələri başa düşülməlidir. Bu tədbirlər hüquqpozma törədilən andan yaranan və obyektiv mövcud olan hüquq münasibətində reallaşırlar. İnzibati məsuliyyət zaman çərçivəsində baş verən və inzibati hüquqpozmalar haqqında icraatın əsas mərhələlərini əhatə edən inzibati prosessual hüquqqoruyucu mexanimdir.

İnzibati məsuliyyətin əlamətlərini D.N.Baxrax belə təqdim edir: "İnzibati məsuliyyət – hüquqi məsuliyyətin elə bir xüsusi növüdür ki, ona sonuncunun bütün əlamətləri (o hüquq normaları əsasında hüquq normalarının pozulmasına görə yaranır, səlahiyyətli orqanların aktlarında konkretləşdirilir, dövlət məcburetməsi ilə əlaqədardır) mənsubdur. Digər tərəfdən inzibati məsuliyyət inzibati məcburetmənin tərkib hissəsidir və onun bütün xassələrinə malikdir: funksional hakimiyyətin subyektləri tərəfindən qeyri-xidməti tabeçilik çərçivəsində həyata keçirilir, inzibati məsuliyyyətin əsasını inzibati hüquqpozma təşkil edir, inzibati tənbehlərin ona səlahiyyətli orqan, məhkəmə və ya vəzifəli şəxs tərəfindən tətbiqindən ibarətdir, inzibati məsuliyyətə cəlb etmənin xüsusi qaydası mövcuddur, hüquq normaları ilə nizamlanır [4, s.87].

Beləliklə, tədqiqat nəticəsində hüquqi şəxslərin inzibati məsuliyyətinin bir sıra səciyyəvi cəhətlərə malik olması müəyyən edilir.

1. Hüquqi şəxslərin inzibati və mülki hüquq subyektliyində fərqliliyin movcud olması.

Bu səbəbdən, dini qurumların, beynəlxalq təşkilatların, hüquqi şəxslərin filiallarının və nümayəndəliklərinin inzibati məsuliyyətə cəlb edilməsinin mümkün olmaması. Demək olar ki, inzibati hüquq normalarına uyğun olmayan davranışa görə bu cür qurumların məsuliyyətinin müstəsna meyarı onların fəaliyyətinin qadağan edilməsidir.

Əksinə, dövlət qeydiyyatının olması tələb olunmayan, Mülki Məcəllədə hüquqi şəxs qismində birbaşa qeyd olunan, hətta bu keyfiyyətdə təsbit olunmayan, lakin qanunvericiliyin digər aktları əsasında bu statusu əldə etmiş publik-hüquqi qurumlar inzibati məsuliyyətin subyektlərinə aid edilir. Belə ki, həmkarlar ittifaqlarının, siyasi partiyaların, dövlət və bələdiyyə müəssisələrinin hüquqi səxs qismində qeydiyyatı tələb olunmur, lakin mülki dövriyyənin tamhüquqlu müstəqil iştirakçıları kimi inzibati məsuliyyətə cəlb oluna bilərlər.

İcra hakimiyyəti orqanları, seçki komissiyaları və s. müvafiq qanunlara əsasən delikt qabiliyyətlidir.

1. Hüquqi şəxslərə qarşı İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan cəzaların ancaq bir neçə növü, yəni xəbərdarlıq, cərimə, inzibati xəta predmetinin müsadirəsi tətbiq edilə bilər.

2. İnzibati Xətalar Məcəlləsində hüquqi şəxslər üçün inzibati deliktə görə sanksiyalara dair ciddi istisnalar mövcuddur. Hüquqi şəxslərə qarşı inzibati həbs tətbiq edilə bilməz.

3. Ümumi qaydaya görə, inzibati məsuliyyət ancaq İnzibati Xətalar Məcəlləsinin Xüsusi hissəsində özünün obyektiv əlamətlərinin unikal səciyyəsi əsasında konkret əməl birbaşa inzibati cəzalandırılan kimi təsvir ediliyi halda inzibati məsuliyyət meydana gəlir. Belə ki, bütün inzibati xətaların bir qismi hüquqi şəxslər tərəfindən törədilə bilməz.

Hüquqi şəxslərin inzibati məsuliyyətə cəlb edilməsinin xüsusiyyəti kimi hüquqi şəxslər tərəfindən inzibati qanunun pozulmasının nəticələrinin fiziki və vəzifəli şəxslər tərəfindən bu qanunun pozulması nəticələrindən daha ağır olmasına dair ümumi yanaşma meylinin mövcudluğudur. Bu əsasən özünü eyni inzibati hüquqpozmaya görə hüquqi şəxslərə tətbiq edilən cərimə sanksiyalarının daha böyük həcmdə olmalarında özünü göstərir.

4. Bir inzibati hüquq pozuntusu əməlinə görə hüquqi şəxsin inzibati məsuliyyətə cəlb edilməsi bu inzibati hüquq pozuntusunu törədilməsində təqsirli olan fiziki şəxsi, eləcə də vəzifəli şəxsi inzibati məsuliyyətdən azad etmir. Qeyd olunur ki, bu qayda ədalət prinsipinə əsaslanır: Hər kəs öz təqsirinin dərəcəsinə uyğun məsuliyyət daşımalıdır. Hüquqi şəxsin məsuliyyətə cəlb olunmasına səbəb olan əməl törətmiş vəzifəli şəxsin, eləcə də təşkilatın hər hansı təqsirli fiziki şəxsinin cinayət məsuliyyətinə cəlb edilməsi, hüquqi şəxsi həmin hüquqpozmaya görə inzibati məsuliyyətdən azad etməyə əsas vermir. Bu zaman həm hüquqi şəxsin, həm də vəzifəli və fiziki şəxslərin təqsirli olmasının müəyyən olunması çox vacibdir.

Bir sıra görkəmli hüquqşünas alimlər iki müstəqil məsuliyyət növü olan cinayət məsuliyyəti ilə inzibati məsuliyyətin qeyri-hüquqi birləşdirilməsi nəticəsində hüquq pozuntularının inzibati-cinayət hüquq pozuntusuna çevrilməsi konsepsiyasını kəskin tənqid edirlər.

5. Hüquqi şəxsin, fiziki şəxsdən fərqli olaraq, yenidən təşkili mümkün olduğundan, onun yenidən təşkili zamanı inzibati məsuliyyətinin xüsusiyyətlərinə diqqət yetirilir.

Hüquqi şəxsin bölünməsi, eləcə də hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması zamanı inzibati hüquqpozmaya görə inzibati məsuliyyətə, bölünmə balansına uyğun olaraq, bağlanmış əqdlər və əmlak üzrə hüquq və vəzifələr ötürülmüş hüquqi şəxs cəlb edilir. Hüquqi şəxsin bir növündən digər növünə çevrilməsi zamanı törədilmiş hüquqpozmaya görə inzibati məsuliyyətə yeni yaradılmış hüquqi şəxs cəlb edilir.

Bir neçə hüquqi şəxsin birləşdirilməsi halında inzibati məsuliyyətə yeni yaradılmış hüquqi şəxs cəlb edilir. Hüquqi şəxsin başqa hüquqi şəxsə qoşulması zamanı inzibati hüquqpozmaya görə inzibati məsuliyyətə başqa hüquqi şəxsə qoşulmuş hüquqi şəxs cəlb edilir.

Yuxarıda sadalanan hallarda inzibati məsuliyyətə cəlb olunma zamanı məsuliyyətə cəlb olunan hüquqi şəxsin tərkibindəki hüquqi şəxslərin inzibati hüquq pozuntusunun törədilməsinə dair əvvəlcədən məlumatlı olub-olmaması əhəmiyyət kəsb etmir.

6. Fiziki şəxsin inzibati məsuliyyətə cəlb edilməsinin hüquqi şəxsin inzibati məsuliyyətə cəlb edilməsindən fundamental fərqi subyektin təqsiri konsepsiyası və onun təzahürü, yəni hüquqi şəxsin təqsirinin əlamətləri məcmusunda görünür. Şəxsin öz törətdiyi əmələ və onun nəticələrinə psixi münasibəti kimi qiymətləndirilən ənənəvi dərkedilmə, hüquqi şəxs üçün gəbul olunmazdır.

Hal-hazırda təqsirin mövcudluğu təşkilatın məsuliyyətə cəlb edilməsi üçün mütləq şərt hesab edilmir. Əgər hüquqa zidd davranışın səbəbi son zərurət olmamışdırsa, hüquqa zidd davranışın özü inzibati tənbehin tətbiq edilməsi üçün kifayətedici hesab edilir. Təşkilatlara təqsirsizlik prezumpsiyası tətbiq edilmir və əgər norma pozulmuşdursa, təşkilat təqsirsizliyini sübut etməlidir.

Bununla yanaşı, hüquqi şəxslərin inzibati məsuliyyətinin səciyyəvi prosessual cəhətləri də mövcuddur. Belə ki, bu işlərə baxılmasının prosessual əsasını protokol deyil, yoxlama haqqında akt təşkil edir.

Beləliklə, tədqiqat nəticəsində müəyyən olunur ki, hüquqi şəxslərin inzibati məsuliyyətinin səciyyəvi cəhətləri və xüsusiyyətləri hüquqi şəxslərin mahiyyətindən, əlamətlərindən, hüquq münasibətlərində onların iştirakının əhəmiyyətindən, müvafiq hüquq sistemində hüquqi şəxs anlayışı ilə əhatə olunan konkret məzmundan, müvafiq dövrdə inzibati məsuliyyətin vəzifələrindən asılı olaraq formalaşır və müstəqil amil kimi hüquqi tənzimləmə prosesinə əhəmiyyətli təsir göstərir .

Açar sözlər: hüquqi şəxs, təşkilati vahidlik, hüquq subyektliyi, hüquqa zidd davranış, inzibati məsuliyyət

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı: 2012, 24 s.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: 2001, 615 s.
3. Алексеев С.С. Государство и право. Начальный курс. М.: Юрид. Литература, 1996 г. 192 с.
4. Бахрах Д.Н. Административная ответственность граждан в СССР. Учеб. пособие. Свердловск: Изд-во Урал. ун-та, 1989, 204 с.
5. Якуба О.М. Административная ответственность. Юрид. Литература, М.: 1972 г. 152 с.

Шерафеддин Шерифов

ОСОБЕННОСТИ И ХАРАКТЕРНЫЕ ЧЕРТЫ АДМИНИСТРАТИВНО-ПРАВОВОЙ ОТВЕТСТВЕННОСТИ ЮРИДИЧЕСКИХ ЛИЦ

Резюме

Данная статья посвящена исследованию характерных черт и особенностей административно-правовой ответственности юридических лиц. Автор рассматривает характерные черты и особенности административно-правовой ответственности юридических лиц как самостоятельный фактор в системе правоотношений и применении правовых норм. Придерживается мнение о том, что характерные черты и особенности административно-правовой ответственности юридических лиц вытекают из сущности, признаков, значения их участия в правовых отношениях, из конкретного содержания, аккумулируемого понятием юридическое лицо в соответствующей правовой системе, задач административной ответственности в зависимости от соответствующего периода.

Ключевые слова: юридическое лицо, организационное единство, правосубъектность, противоправное поведение, административная ответственность

Sharafaddin Sharifov

CHARACTERISTICS AND FEATURES OF THE ADMINISTRATIVE LIABILITY OF LEGAL PERSONS

Summary

Characteristics and features of the administrative liability of legal persons are investigated as an independent factor in the system of legal relations and in the application of legal norms. According to the author, characteristics and features of the administrative liability of legal persons are formed depending on the essence of legal persons, the importance of their participation in the legal relations, the concrete content covered with the concept of a legal person in the legal system, the positions of administrative liability in the respective period and have a significant impact on the process of legal regulation.

Keywords: legal person, organizational unity, legal personality, unlawful conduct, administrative liability

UOT – 316.3

Söhrab Məhərrəmov
AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.f.d.

İNTERNET VƏ SOSİOKÜLTÜR TRANSFORMASİYA

Məqalədə internetin sosiokültür fenomen olması, həmçinin İnformasiya Kommunikasiya Texnologiyalarının cəmiyyətə təsirinin xarakteri və dinamikası araşdırılır. Müasir sosiokültür proseslərinin təbiəti və xarakteri, informasiya cəmiyyətinin humanistləşməsinin mümkün yolları və istiqamətləri, bilik cəmiyyətinin strategiyasının, siyasətinin formalaşmasının və qurulmasının praktikası tədqiq edilir. Qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə İnternetin inkişafı ilə bağlı baş verən sosiokültür dəyişilmələrin xarakteri ziddiyyətlidir. Burada humanitar inkişafın münasib imkanları ilə yanaşı, yeni texnologiyaların inkişafı ilə bağlı humanistsizləşmənin əvvəllər məlum olmayan riskləri mövcuddur. Mətndə internetin sosiokültür fenomen olması, həmçinin İnformasiya Kommunikasiya Texnologiyalarının cəmiyyətə təsirinin xarakteri və dinamikası araşdırılır.

Müasir sosiokültür proseslərinin təbiəti və xarakteri, informasiya cəmiyyətinin humanistləşməsinin mümkün yolları və istiqamətləri, bilik cəmiyyətinin strategiyasının, siyasətinin formalaşmasının və qurulmasının praktikası tədqiq edilir. Qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə İnternetin inkişafı ilə bağlı baş verən sosiokültür dəyişilmələrin xarakteri ziddiyyətlidir. Burada humanitar inkişafın münasib imkanları ilə yanaşı, yeni texnologiyaların inkişafı ilə bağlı humanistsizləşmənin əvvəllər məlum olmayan riskləri mövcuddur. Mətndə internetin sosiokültür fenomen olması, həmçinin İnformasiya Kommunikasiya Texnologiyalarının cəmiyyətə təsirinin xarakteri və dinamikası araşdırılır.

Müasir sosiokültür proseslərinin təbiəti və xarakteri, informasiya cəmiyyətinin humanistləşməsinin mümkün yolları və istiqamətləri, bilik cəmiyyətinin strategiyasının, siyasətinin formalaşmasının və qurulmasının praktikası tədqiq edilir. Qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə İnternetin inkişafı ilə bağlı baş verən sosiokültür dəyişilmələrin xarakteri ziddiyyətlidir. Burada humanitar inkişafın münasib imkanları ilə yanaşı, yeni texnologiyaların inkişafı ilə bağlı humanistsizləşmənin əvvəllər məlum olmayan riskləri mövcuddur.

Kompüter bizim həyatımıza təxminən yarım əsr bundan qabaq daxil olmuşdur və onun cəmiyyətə təsiri müxtəlif tədqiqatlarda dəfələrlə təhlil edilmişdir. Cəmiyyət qabaqcıl informasiya texnologiyalarının təsiri altında dəyişir və ilk növbədə bu dəyişilmə gəncləri əhatə edir. Qeyd etməliyik ki, bu transformasiya asan baş vermir. Yeni nəsil zamanın əlaqələrini qırır və doğrudan doğruya, başqa cür düşünür [1, s.45].

Kompüter problemlərin həlli sahəsində, əvvəlcə rəqəmlərlə hesablamalarla bağlı sahələrdə kəskin irəliləyişlərə səbəb oldu. Kompüter hesablamaların sürəti, həcmi və s. haqda təsəvvürləri tam dəyişdi. İstifadənin yeni-yeni istiqamətləri yarandı: rəqəmsiz hesablama, qeyri-alqoritmik hesablama, süni intellektdən istifadə, informasiyanın təhlili. Elm və texnikanın informatika, informatika texnologiyası və s. kimi yeni sahələri meydana gəldi, informasiya texnologiyalarının əsas obyekti informasiya oldu. İnformasiya Texnologiyaları (İT) real zamanda informasiyaya daxil olmağı, onu saxlamağı və onu işlətməyi təmin etdi. Onlar sosial-iqtisadi hadisəyə çevrildilər. Bununla yanaşı, biz nəzərə almalıyıq ki, İnformasiya Texnologiyalarının üstünlüyü onlardan məsələlərin həlli zamanı instrument kimi istifadə oluna bilmələrindədir.

Təqdim edilən məqalədə internetin sosiokültür fenomen olması, həmçinin İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) cəmiyyətə təsirinin xarakteri və dinamikası araşdırılır.

Burada biz müasir sosiokültür proseslərinin təbiəti və xarakteri, informasiya cəmiyyətinin humanistləşməsinin mümkün yolları və istiqamətləri, bilik cəmiyyətinin strategiyasının, siyasətinin formalaşmasının və qurulmasının praktikasını araşdırmağa cəhd etmişik. Qeyd etmək lazımdır ki,

müasir cəmiyyətdə İnternetin inkişafı ilə bağlı baş verən sosiokültür dəyişilmələrin xarakteri ziddiyyətlidir. Burada humanitar inkişafın münasib imkanları ilə yanaşı, yeni texnologiyaların inkişafi ilə bağlı humanistsizləşmənin əvvəllər məlum olmayan riskləri mövcuddur.

Dediklərimizlə bağlı burada konkret olaraq aşağıdakı prinsipial müddəaları qeyd etmək olar:

İnternet dar funksional texnologiya deyil, özünün inkişaf xassəsi olan və sosiokültür effektlərin geniş spektrini yaradan qlobal sistemli fenomendir. Bir tərəfdən internetin yayılması və inkişafı ciddi sosiokültür dəyişilmələrə səbəb olur. Digər tərəfdən son onilliklərin ictimai inkişafının tendensiyalarının özü İnternetin və digər İKT həyat fəaliyyətinin bütün sahələrinə daxil olmasını həvəsləndirir, stimullaşdırır [2, s.122].

"İnformasiya cəmiyyəti"nin, "bilik cəmiyyəti"nin qurulmasının konsepsiyası və siyasətinin müzakirəsi ilə bağlı diskussiyalar belə bir anlayışı ehtiva etməlidir ki, İKT ayrılmaz olmasa da, hər halda konvergensiya edən, müasir texnoloji inkişafın müəyyənedici əhəmiyyət daşıyan və qlobal miqyasda sosiokültür proseslərə böyük təsir imkanı olan nano-bio-informasiya-koqnitiv texnologiyanın komponentlərindən biridir.

İnternet kültür mediallaşmasının prosesini və formasını müəyyən edir. İnternet və yeni media qruplar və şəxslərarası kommunikasiyanın yeni kültür mahiyyətlərinin və qarşılıqlı üsullarının törətdiyi əsas məkan kimi çıxış edir. Konkret olaraq aşağıdakı sosiokültür effektləri göstərə bilərik:

İnternet yeni nəsillərin düşüncə tərzini və digər oriyentasiyalarını dəyişməklə onların sosiallaşmasının baza mühitini yaradır. Nəticədə nəsillər arasında kültür qırılmaları güclənir. Kültür varisliyinin ənənəvi mexanizmləri pozulur. Yaşlı nəsil yeni texnologiyaların mənimsənilməsində geridə qaldıqları üçün qiymətli kültür təcrübəsi daşıyan statusunu itirir.

Yeni eskapizm fenomeni yaranır: real olmayanın problemlərin həllindən virtual məkana keçid baş verir. Loqosentrik, narrativ təfəkkürün (düşüncənin) üstünlüyü itirilir, aradan qalxır. O, daha az məntiqi bağlılıqla, tənqidililiklə və sistemliliklə xarakterizə olunan "klip" təfəkkürü ilə tamamlanır və bəzən isə əvəzlənir. İnternetin inkişafı milli kültürlərə və milli dillərə yönəlik qlobal proseslərin bir hissəsidir.

Müasir sosiokültür proseslərin, İnternetin və digər İKT təsiri altında aparılan tədqiqatlar fənlərarası və peşələrarası yanaşmanın tətbiqi əsasında qurulmuşdur. Cəmiyyətin həyatının bütün sahələrində baş verən dəyişilmələrə İnternetin təsiri olduqca böyükdür.

İnternetin və digər rəqəmsal texnologiyaların dövründə baş verən transformasiyaların dinamik və mürəkkəb xarakterinin öyrənilməsi və təhlili son onilliklərdə texnoloji inkişafın tənqidi qiymətləndirilməsi və bilik cəmiyyətinin davamlı inkişafında maksimum səmərəli istifadə edilməsi baxımından olduqca vacibdir.

Yeni texnologiyalar insanların informasiyadan istifadəsini genişləndirməklə birlikdə, onun üçün məhdudiyyətlər də yaradır. Rəqəmli kainatın daim genişlənməsində informasiya savadının əhəmiyyəti, konkret olaraq baza təhsili vərdişləri və rəqəmsal instrumentarilərdən istifadə qabiliyyəti getdikcə artacaq. Belə vərdişlərin kifayət qədər inkişaf etmədiyi insanlar daha çox sahələrdə problemlərlə üzləşəcəklər. Şəbəkə kommersiyasının yeni modelləri informasiyadan uğurla istifadə və mübadilə edə bilən, ona girişi olan və ondan gəlir götürə bilən insanlara böyük kömək edəcək [3, s.254].

Elektron təhsil ənənəvi təhsilin əsaslarını dəyişdirir və dağıdır. Elektron təhsilin resurslarının qlobal sürətli inkişafı belə təhsilin imkanlarını genişləndirir, təhsili daha ucuz və asan edir. Təhsilin dəyəri bütün həyat boyu artacaq, onun qeyri-institusional və qeyri-formal modeli geniş yayılacaq [4, s.67].

Fərdi həyatın toxunulmazlığı və faktların qorunması barədə olan təsəvvürlərdə dəyişikliklər baş verəcək. Hökumətlərin və kompaniyaların arxivlərində saxlanılan məlumatların həcminin çoxalması mütəxəssislərin profilləşməsinin həyata keçirilməsinə səbəb olacaq, ötürülən informasiyaların monitorinqinin və seçilməsinin mürəkkəb metodikası bu mütəxəssislərin müşahidə edilməsini asanlaşdırır və ucuzlaşdırır. Gözləmək olardı ki, bu şəxsi həyatın toxunulmazlığına və onlayn dünyada etimada ciddi təsir edəcək.

Hiper bağlı cəmiyyətlər yeni səslərə və qruplara daha çox diqqət edəcək, onları dəstəkləyəcək və onlara daha çox səlahiyyətlər verəcək. Hiper əlaqəli cəmiyyətlər kollektiv fəaliyyət üçün yeni imkanlar açacaq. Bu isə daha çox insanın eşidilməsinə imkan verəcək və konkret bir məsələnin ənənəvi siyasi partiyaların hesabına inkişaf etməsinə kömək edəcək. Hökumət təşəbbüslərinin açılması və ictimai rəqəmlərə çıxışın çoxalması dövlət xidmətlərinin şəffaflığını artıracaq və bununla onların vətəndaşlara yönəlikliyinə səbəb olacaq [5, s.27].

Yeni texnologiyalar qlobal informasiya iqtisadiyyatını dəyişəcək. Hiber bağlı mobil qurğuların, avadanlıqlarda və infrastrukturda tərcümə, köçürmə şəbəkə sensorlarının, 3D-çapının və texnologiyalarının sürətli yayılması qlobal informasiya iqtisadiyyatını dəyişəcək. Bir çox sahələrdə mövcud olan biznes modellərdə innovasion qurğuların səbəb olduğu yaradıcı böhran baş verəcək, bu isə insanların istənilən yerdə və istənilən yaşda iqtisadi baxımdan fəal qalmalarına imkan verəcək.

Yuxarıda dediklərimiz bəzi müddəalardan çıxış edərək qlobal informasiya cəmiyyətinin formalaşmasının bəzi ciddi ziddiyyətli prosesləri və problemləri barədə düşüncələrimizi bildirək.

Hamıya məlumdur ki, hazırda biz prinsipcə yeni informasiya mühitində yaşayırıq. Əvvəllər publik açıq kontent məhdud sayda müəlliflərdən, nəşriyyatlardan, tele və radio kompaniyalardan ibarət idi. Bu gün isə kompüterə, İnternetə və digər qadjetə çıxışı olan hər bir insan bu işləri yerinə yetirə bilir.

Əvvəllər hər hansı bir çap mətninin surətinin sayı məhdud idi. Belə mətnlərin surətinin yayılması əsasən məhdud ərazidə, bir ölkənin və ya bir regionun, bir kültürün, bir dilin hüdudlarında yayılırdı. Bu gün informasiyanın yayılması qlobal miqyasdadır. Mətnin məqsədyönlü yayılması zamanı da bu iş məhdud idi. Əsasən aktual kontent yayılırdı. Mətn köhnəldikdə dövriyyədən çıxarılır, hamı üçün əlçatan olmaqdan çıxır, ən böyük arxivlərdə və kitabxanalarda toplanırdı. Bu gün isə İnternetdə həm aktual, həm də köhnə informasiya hamı üçün və eyni vaxtda əlçatandır. Belə mətnləri fərqləndirmək heç də asan deyil və bunun üçün xüsusi vərdişlər tələb olunur [6].

Elektron informasiyanın yaradılan və dövr edən həcmi eksponensional şəkildə artır. 2012-ci ildə ancaq mətn informasiyası bəşəriyyətin bütün tarixi ərzində çap olunan kitablarda olan qədər idi. Həm də ümumi informasiya həcmində mətnlərin payı getdikcə azalır. Bu rəqəm 2013-cü ildə 0,1% təşkil edirdi. Yerdə qalanlar audiviziual informasiyalar – filmlər, videokliplər, musiqi, təsvirlərdir. İnternetdə olan kontentlərin hansı dildə olduğundan bəhs etdikdə, elektron mühitdə olan bərabərsizlikdən danışmamaq mümkün deyil. Mütəxəssislər hesablayıb ki, dünya biliklərinin 95% bütün dillərin 3%-də təqdim olunur.

Kağız əsrində publik açıq olan mətnlər bir qayda olaraq savadlı, kompetent və öz məsuliyyətini başa düşən insanlar tərəfindən yaradılmışdı. İnformasiya publik məkanda yayılana qədər nəşriyyatlarda seçim süzgəcindən keçirdi. Bir qrup ixtisaslı insanlar tərəfindən yaradılan informasiya digər ixtisaslı insanlar – rəyçilər, redaktorlar, korrektorlar, yoxlayıcı büroları və nəhayət, senzura tərəfindən əvvəlcə qiymətləndirilir, sonra isə yoxlanılırdı. Qrafomanlar nəşriyyatlar tərəfindən kənarlaşdırılırdı. Kontent müəlliflərinin və yayıcılarının adları kifayət qədər tanınırdı.

Hazırda demək olar ki, bütün dünyada hər şəxsin özünü ifadəetmə hüququ tanınır. Nəticədə elektrik informasiya məkanında cox fəal şəkildə böyük həcmdə qrafomanlar, iş bacarmayanlar, savadsızlar, məsuliyyətsiz və pisniyyətli insanlar böyük həcmdə ictimai açıq kontent yaradır, sərbəst şəkildə yayır və hətta təlqin edirlər. Ona görə də İnternet təkcə səmərəli informasiya ilə deyil, həm də (daha çox) gərəksiz, mənasız, zərərli, yalan, dağıdıcı və sadəcə təhlükəli informasiya ilə doludur. Böyük həcmdə informasiya anonim şəkildə yaradılır və yayılır. İnformasiyanın yaradılması və həmçinin yayılması dövründə professional nəzarət kifayət qədər deyildir.

İndi hamı özünü ifadə etmə hüququndan danışır, özünü ifadə etikası isə çatışmır. Əvvəllər informasiya tapmaq çətin idisə, indi informasiyadan gizlənmək çətindir, bəzən isə informasiyanın təsirindən özünü qorumaq, təhlükəsizliyini təmin etmək müşkül məsələyə çevrilir. Biz hazırda həddən ziyadə çirklənmiş informasiya mühitində yaşayırıq və informasiya bizim iradəmizdən asılı olmayaraq bizə təsir edir. Əgər bizi əhatə edən ətraf fiziki mühitin çirklənməsi təhlükəsi kifayət qədər təb-

liğ edilibsə və bütün dünya təhlükəsiz fiziki mühit sahəsinin qorunması uğrunda çalışırsa, informasiya mühitinin çirklənməsi təhlükəsi indi-indi dərk edilir, başa düşülür [6].

Söz azadlığını, öz mövqeyini ifadə etmə azadlığını məsuliyyətli kommunikasiya davranışı ilə, konkret insanın, cəmiyyətin, ölkənin informasiya təhlükəsizliyi ilə əlaqələndirmək hazırda olduqca aktualdır. Bu məsələ informasiya etikası sahəsinə aid olduğundan mühümlüyü və vacibliyi daim çoxalır. Bugünkü informasiya mühiti davranışda və danışığın məzmununda və dildə - istər yazılı, istər şifahi olsun, ideal və norma anlayışlarını aradan qaldırır.

Bir kültürdə yaşayan insanlar daima və getdikcə daha çox İnternetdə digər kültürün yaratdığı terminlər, mahiyyətlər, nümunələr, klişelər, stereotiplərlə rastlaşır. Bütün bunları çox vaxt tənqidi yanaşmadan və hətta fikirləşmədən qəbul edir. Bu zaman kültürün zənginləşməsi prosesi ilə yanaşı, həm də kültür ekspansiyası baş verir. Hər bir yad kültür mənimsəməsi digər sosiokültür mühitinə onun xüsusiyyətlərinin nəzərə alınmadan köçürülməsi gözlənilməz, bəzən tam əks gözləntilərə səbəb olur. İnformasiya məkanının açıq olması bir çox ölkələrin özlərinin informasiya və kültür suverenliyinin itirilməsinə gətirib çıxarır.

İnformasiya etikası baxımından qlobal rəqəmsal mühitdə fərqli kültürlərin özlərini təcrid olunmaqdan qorumaqla və identikliyini itirməmək şərti ilə inkişaf etməsi, çiçəklənməsinin mümkünlüyü mübahisə doğuran məsələlərdəndir [7, s.184].

Sosial şəbəkədə gənc və gənc olmayan insanlar çox tez-tez özlərinə tam yad olan insanlarla ünsiyyətə girərkən kütləvi şəkildə və könüllü olaraq öz özəlliklərindən imtina edirlər və heç də həmişə bu cür açıqlığın nəticələrini başa düşmürlər. Uşaqlar öz valideynləri barədə hər cür məlumatlarla paylaşırlar. Bütün bu informasiyalar harada isə saxlanır, toplanır, təhlil edilir və istifadə olunur. Müasir texnologiyalar bizim harada olmağımızı, hərəkətimizi, ünsiyyət dairəmizi və məşğuliyyətimizi, vərdişlərimizi, maraqlarımızı, davranışımızın xüsusiyyətlərini müəyyən etməyə imkan verir. Videokameralar bizi özümüzün arzumuzdan və razılığımızdan asılı olmayaraq müşahidə obyekti edir.

Kütləvi kommunikasiya vasitələri getdikcə daha çox kütləvi əyləncə və manipulyasiya vasitəsinə çevrilir. İnternetdə və qlobal KİV-də kütləvi şüurda böyük həcmdə manipulyasiyalar baş verir. İnformasiya trillion dəfə artmışdır. Belə hesab edilir ki, indi əsas informasiya mənbələri də çoxalmışdır. İnformasiya nə qədər çox olursa, o qədər müxtəlif çeşidli olur, daha çox piüralizm olur, bu isə demokratiya üçün yaxşıdır. Əslində isə yüzlərlə çoxalan rəqəmsal televiziya kanalları informasiyanı – mətnləri və təsvirləri bütün əsas dünya mediasının sahibi olan iki onluq ailədən alırlar. Bunun nəticəsində də onlar KİV-in vasitəsi ilə bütün ölkələrdəki insanları eyni kontent ilə "yedizdirirlər".

Belə olan vəziyyətdə insanın onu əhatə edən reallıqlar barədə həqiqi, dəqiq və tam informasiya almaq hüququnun necə təmin edilməsi ilə bağlı info-etik suallar ortaya çıxır. Bəzi siyasətçilərin və alimlərin də qeyd etdiyi kimi burada əsas problem insanın özünün hüquqlarının mahiyyətinin başa düşülməsindədir, onun hüquq və vəzifələrinin digərlərinə münasibətdə nisbəti müxtəlif kültürlərdə və cəmiyyətlərdə olduqca fərqli başa düşülür. Bu zaman bir neçə sual ortaya çıxır: İnternetdə bir fərdin özünü ifadə etmə azadlığı hüququ kollektiv və ya cəmiyyət tərəfindən məhdudlaşdırıla bilərmi? İnsanın, yoxsa cəmiyyətin hüququ üstündür? Bu suallara verilən cavablarda Qərb cəmiyyəti ilə Şərq cəmiyyəti arasında ziddiyyət meydana çıxır. Qərb cəmiyyəti hesab edir ki, insan hüququ hər şeydən üstündür. Şərq cəmiyyəti bununla razılaşmır. Həm də burada kiberməkan siyasi, inzibati və digər sərhədlərin üzərində qərarlaşır və başa düşülmür ki, hansı cəmiyyətin hüquqları insan hüququna təsir edir və ya etməlidir. Bununla bağlı özünüifadə azadlığına hər hansı məhdudiyyət qoyula bilərmi? Misal üçün İnternetdə senzura lazımdırmı? Qərb cəmiyyəti bu suala "yox", Şərq cəmiyyəti isə "hə" cavabı verir [8].

Kompüter problemlərin həlli sahəsində, əvvəlcə rəqəmlərlə hesablamalarla bağlı sahələrdə kəskin irəliləyişlərə səbəb oldu. Kompüter hesablamaların sürəti, həcmi və s. haqda təsəvvürləri tam dəyişdi. İstifadənin yeni-yeni istiqamətləri yarandı: rəqəmsiz hesablama, qeyri-alqoritmik hesablama, süni intellektdən istifadə, informasiyanın təhlili. Elm və texnikanın informatika, informatika

texnologiyası və s. kimi yeni sahələri meydana gəldi, informasiya texnologiyalarının əsas obyekti informasiya oldu. İnformasiya Texnologiyaları (İT) real zamanda informasiyaya daxil olmağı, onu saxlamağı və onu işlətməyi təmin etdi. Onlar sosial-iqtisadi hadisəyə çevrildilər. Bununla yanaşı biz nəzərə almalıyıq ki, İnformasiya Texnologiyalarının üstünlüyü onlardan məsələlərin həlli zamanı instrument kimi istifadə oluna bilmələrindədir.

İnformasiya Texnologiyalarından istifadə etmək üçün müvafik biliklərə sahib olmaq və xüsusi təhsil almaq vacibdir. Belə ki, İnformasiya Texnologiyaları araşdırmanın predmetinə və obyektinə çevrilir. İT indiyədək olan vasitələrin içərisində araşdırma üçün ən yaxşı instrumentdir. İT informasiya partlayışı ilə müşayiət olunur və biliklərin aktuallığını təmin edir [9].

İT istifadə üçün lazım olan, zəruri olan biliklər yeni təhsil növlərinin – kompüter, informasiya, media təhsilinin yaranmasına səbəb oldu. Belə yeni bilik əldəetmə formaları təhsilin hər bir səviyyəsində tədris proqramlarının bir hissəsidir.

İT real zaman rejimində harda olmağından asılı olmayaraq informasiyanı almaq, saxlamaq və araşdırmaq mümkündür. İT təhlükəsizliyi və informasiyanın konfidensiallığının əhəmiyyəti onların istifadəsinin vacibliyindən asılı olaraq artır. Araşdırılan informasiyanın konfidensiallığı çoxaldıqca onun təhlükəsizliyinin təmin edilməsinin vacibliyi də çoxalır. Biz texnologiyadan və informasiyadan sui-istifadənin, icazəsiz girişlərin, informasiyanın açılmasının şahidiyik. Belə problemləri aradan qaldırmaq, onların həllinə nail olmaq günümüzün vacib məsələlərindəndir [6].

İnformasiya cəmiyyəti haqda çox sayda məqalələr yazılmasına rəğmən onun əksəriyyət tərəfindən qəbul edilən tərifi hələ yoxdur. Dəfələrlə qeyd edilmişdir ki, "informasiyadan kənar" cəmiyyətlər olmur, çünki cəmiyyətlərin hamısı kommunikasiyanı özündə ehtiva edir. Müasir cəmiyyətdən danışanda tədqiqatçıların fikirləri haçalanır. Bəziləri bu cəmiyyəti "elektron", "rəqəmsal" və ya "informasiya-kommunikasiya" cəmiyyəti adlandırır. Bu zaman tam aydın olmur ki, burada söhbət bəzi ölkələrdə artıq qurulmuş cəmiyyətin real vəziyyətindən, yoxsa gələcəkdə olacaq cəmiyyətin obrazından gedir. Yu. Xabermas, E. Qiddens, Q. Şiller və digər filosoflar və alimlər informasiya cəmiyyəti nəzəriyyəsini tənqid edirlər. Britaniyalı sosioloq F.Uebster hesab edir ki, informasiya – texnologiyalar inqilabı cəmiyyətin informasiyalaşmasını sürətləndirdi, onu prinsipcə dəyişmədi. F.Uebster yazır: "Mən sizin diqqətinizi kapitalizmin yeni əlamətlərinə cəlb etmək istəyirəm. Mənə elə gəlir ki, onun əsas prinsiplərinin əvvəlki kimi qaldığını, onların möhkəmləndiyini və daha geniş istifadə edildiyini qeyd etmək vacibdir. Bugünkü qlobal iqtisadiyyat əvvəllər mövcud olan metodların – bazar mexanizmləri, məhsulların və xidmətlərin ictimai strukturlarda deyil, özəllər vasitəsi ilə istehsalı, əsas hərəkətverici qüvvə kimi gəlirlərin əldə edilməsi, xidmətlərdə və malların istehsalında muzdlu əməkdən istifadə edilməsi – istifadəsinin nəticəsidir. Qısaca desək, bizim bu gün düçar olduğumuz qlobal şəbəkə cəmiyyəti kapitalizm cəmiyyətinin yaxşı məlum olan prinsiplərinin daha tam həyata keçirilməsi, daha doğrusu transmutasiyasıdır" [8]. Bununla yanaşı 1980-ci illərin sonundan başlayaraq informasiya cəmiyyəti haqda fikirlər elmi mühitin hüdudlarından kənara çıxdı və tezliklə dünya siyasətinin mühüm amilinə çevrildi. Artıq bu gün dünyanın bütün ölkələri qlobal informasiya cəmiyyəti quruculuğunda iştirak edir. Rus tədqiqatçısı Yu.Yu.Çernı hesab edir ki, "informasiya cəmiyyəti" termini elmi xarakterdən çox ideoloji, hətta mif yaradıcı xarakter daşıyır. Yu.Yu.Çernıya görə bu termin texnoloji tərəqqi pilləkənində "industrial cəmiyyət" adlandırılan sosial qurum ilə gələcəkdə yaranacaq şərti olaraq "bilik cəmiyyəti" adlandırılan qurum arasında pillə rolunu oynayır. Tədqiqatçı güman edir ki, "bilik cəmiyyəti" özü gələcəkdə adı hələ məlum olmayan yeni mərhələ ilə əvəz olunacaq.

İnformasiya cəmiyyəti ilə bağlı bir çox hadisələrin və proseslərin mahiyyəti rus filosofu V.S. Stepinin təklif etdiyi sivilizasiya inkişafının iki tipi konsepsiyasında daha aydın olur. V.S.Stepin hesab edir ki, sivilizasiyaların bir çox çeşidliliyi içərisində prinsipcə fərqli iki sivilizasiya inkişafı – ənənəvi və texnogen tipi fərqləndirilməlidir. Ənənəvi sivilizasiya üçün mövcud həyat fəaliyyətinin yenidən istehsalı xarakterikdir. Texnogen sivilizasiyalarda isə təkcə istehsal deyil, həm də sosial sahədə yeni texnologiyaların daim axtarışı və tətbiqi başlıca rol oynayır [9].

Texnogen sivilizasiya üçün insanın təbiəti dəyişdirən və onu özünə tabe edən varlıq olması haqda təsəvvürlər xarakterikdir. Bu zaman təbiət elmi idraka və texnoloji dəyişikliklərə qanunauyğun şəkildə məruz qalan obyektlərin sahəsi kimi başa düşülür. İnsan bilikləri sistemində dominant rolunu elmi rasionallıq oynayır. Texnogen sivilizasiyada fərqli sosial birliklərə daxil ola bilən, digərləri ilə bərabər hüquqa malik azad fərd idealı prioritet hesab edilir. Kültürdə orijinal fəaliyyət nümunələri formalaşdıran innovasiyalar ali dəyər sayılır. Texnogen cəmiyyətlərdə hakimiyyət insanlar üzərində deyil, əsasən obyektlər üzərində hakimiyyət kimi nəzərdən keçirilir. Texnogen cəmiyyətlərin yaranması ənənəvi tip cəmiyyətlərə ciddi təsir edərək onları dəyişməyə məcbur etdi.

XX əsrin II yarısında postindustrial inkişaf fazasına qədəm qoyan texnogen sivilizasiya qloballaşma şüarı altında planetin fərqli ölkələrinə və regionlarına daxil olmanın yeni dövrünü başladı. Burada əsas ekspansiya İKT inkişafı ilə bağlı olan texnika – texnologiya ekspansiyasıdır. Bu ekspansiyanın mexanizmi iki fazadan ibarətdir: 1) texnogen sivilizasiyanın nüvəsini təşkil edən ölkələr arasındakı konkurent mübarizəsində texnoloji üstünlük qazanması; 2) Qazanılmış üstünlüyün qlobal səviyyədə beynəlxalq siyasi institutların köməyi ilə həyata keçirilməsi.

Burada İnternetin tarixinə qısa bir ekskurs yerinə düşər. ABŞ və Aİ ölkələrində milli və millətüstü informasiya infrastrukturlarının formalaşdırılmasına 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində başlanmışdı. Amerikada telekommunikasiya şəbəkəsinin inkişafında görkəmli rolu "internetin atası" sayılan A.Qor oynamışdır. 1991-ci ildə A. Qor elm və təhsildə Milli kompüter şəbəkəsi yaratmağı təklif etdi (National Research and Education Netüork – NREN). Məhz bu şəbəkə gələcək internetin karkası rolunu oynadı. A.Qorun təqdim etdiyi bill "Yüksək sürətli hesablamalar və kommunikasiyalar haqda qanuna" çevrildi. NREN şəbəkəsi ABS-ın super kompüter mərkəzlərini əlaqələndirdi və hesablama maşınlarının gücündən kiçik kollec və universitetlərin müəllimləri və tələbələri daxil bütün alimlərin istifadəsi üçün imkan yaratdı [3, s.164].

16-18 sentyabr 1992-ci ildə ABŞ-da Milli elm fondunun dəstəyi ilə NREN-lə bağlı işçi konfrans keçirildi. Konfrans iştirakçıları belə bir yekdil fikrə gəldilər ki, NREN milli informasiya infrastrukturlarının işləməsini asanlaşdıracaqdır. 1993-cü il fevralın 22-də prezidentin Vaşinqtonda olan icraçı bürosu U.Dj.Klinton və A.Qorun "Amerkanın iqtisadi inkişafının texnologiyası. Yaradılacaq yeni istiqamət" adlı Memorandumunu çap etdi. Memorandum Milli informasiya infrastrukturu təşəbbüsünü ilk rəsmi elan edən sənəd oldu.

ABŞ-da başlanan bu işlər Aİ tərəfindən dəstək qazandı. 1993-cü ilin dekabr ayında Aİ Avropa birlikləri komissiyası tərəfindən "İnkişaf, konkurentlik qabiliyyəti və məşğulluq – XXI yüzilliyin çağırışı və yolları" adlı sənəd hazırlandı. Sənəddə deyilirdi ki, informasiya cəmiyyətləri hər bir avropalının həyat tərzini yaxşılaşdırmağa, stabil inkişafa, konkurentlik qabiliyyətinin artmasına, iş yerlərinin çoxalmasına imkan verən ciddi potensiala malikdir.

Sənədi müzakirə edib bəyənən və təsdiq edən Aİ bu sənədi informasiya cəmiyyəti barədə konkret tövsiyələrlə möhkəmləndirən geniş, hərtərəfli məruzə hazırlamaq barədə qərar qəbul etdi. 1994-cü il may ayının 26-da həmin ilin iyun ayının 24-25-də Korfu adasında keçiriləcək Avropa Şurasının sessiyasına hazırlıq gedişində "Avropa və qlobal informasiya cəmiyyəti. Avropa Şurasına tövsiyələr" adlı Martin Bangemanın rəhbərliyi altında Aİ-nin bir qrup eksperti tərəfindən hazırlanmış sənəd dərc edildi. Mətn problemin hərtərəfli təhlilindən və Aİ-na tövsiyələrdən ibarət idi. Əsas siyasi kurs kimi telekommunikasiya təsərrüfatının səmərəliliyini və konkurentlik qabiliyyətini yüksəltmək məqsədi ilə onun liberallaşdırılması qəbul edildi.

1994-cü il iyul ayının 19-da M.Bangemanın rəhbərliyi altında ekspert qrupu tərəfindən informasiya cəmiyyəti quruculuğunda birləşmiş Avropa üçün "İnformasiya cəmiyyətinin Avropa yolu" adlı konkret fəaliyyət planı hazırlandı. Sonralar ABŞ-da və Aİ-da informasiya infrastrukturunun formalaşması davam etdirildi [10].

Qlobal informasiya infrastrukturunun yaradılması ilə bağlı ilk çağırışı 1994-cü ilin mart ayında ABŞ-ın vitse prezidenti A.Qor Buenos-Ayres şəhərində Elektrik rabitəçilərinin beynəlxalq ittifaqının konfransında etmişdi. İnformasiya cəmiyyətinin ümumdünya layihələrinin hazırlanması haqda məsələ 1994-cü il iyulun 9-da "Böyük yeddiliyin" İtaliyanın Neapol şəhərində keçirilən görüşündə

gündəliyə salınmışdı. Müzakirələrin nəticəsində "Böyük yeddiliyin" nazirlərinin xüsusi görüşünü keçirmək qərara alındı. Həmin görüş 1995-ci ilin fevral ayının 25-26-da Brüsseldə oldu. Görüşdə Fransanın, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Yaponiyanın, ABŞ-ın və Kanadanın nümayəndələri ilə birlikdə informasiya və əyləncə texnologiyaları sahəsində dünya biznesinin liderləri, həmçinin görkəmli alimlər iştirak edirdi.

İnformasiya sahəsində qlobal idarəetmənin vəzifələrinin həll edilməsinə 1990-cı ilin ortalarından başlayaraq biznes və ekspert cəmiyyətləri fəal şəkildə qoşuldular.

Aİ-nin təşəbbüsü ilə 1998-ci ildə İKT sahəsində ilk qlobal interaktiv forum olan "İnformasiya cəmiyyətinin texnologiyaları" adlı beynəlxalq konqres təşkil edildi. ABŞ-ın Minneapolis şəhərində 1998-ci ildə Elektrik rabitəçilərinin beynəlxalq ittifaqının səlahiyyətli konfransında Tunis hökumətinin təşəbbüsü ilə BMT-yə informasiya cəmiyyətinin məsələlərinə həsr edilmiş Ümumdünya sammitinin keçirilməsi təkif edildi. İKT-nin idarə edilməsi ilə bağlı problemlərin sonrakı müzakirələri 2000-ci ildə Davos şəhərində keçirilən Ümumdünya iqtisadi forumunda keçirilmişdi [8].

İKT İşçi qrupu 2001-ci ilin noyabr ayında BMT-nin tabeçiliyində yaradıldı. Elektrik rabitəçilərinin Şurası İnformasiya cəmiyyətinin məsələlərinə həsr edilmiş Ümumdünya sammiti keçirmək haqda qərar qəbul etdi. Sammitdə ən mübahisə doğuran məsələ İnternetin idarə edilməsi ilə bağlı oldu. İnternetin idarə edilməsi ilə bağlı bir neçə modelin müzakirəsi nəticəsində "tarixi səbəblərə görə" birtərəfli nəzarətin ABŞ hökuməti tərəfindən həyata keçirilməsi barədə qərar qəbul edildi.

Varlı və kasıb ölkələr arasındakı "rəqəm fərqini" azaltmaq üçün xüsusi fond yaradılması perspektivi fikir ayrılığına səbəb oldu. Bu fondun yaradılmasının təşəbbüsçüləri inkişaf etməkdə olan ölkələr idi. Gərgin keçən müzakirələrdən sonra Rəqəm həmrəyliyi Fondunun yaradılması, onun maliyyələşdirilməsinin könüllü olması şərti ilə qəbul edildi.

YUNESKO-nun Ümumdünya sammitinə müraciətində olan tezislərdən birində deyilirdi ki, "texnoloji informasiyalar" ideyası ilə bağlı olan "informasiya cəmiyyəti" konsepsiyası insanın inkişafına yönəlik "bilik cəmiyyətinin" ancaq bazası rolunu oynayır. YUNESKO-nun Baş katibinin kommunikasiya və informasiya üzrə müavini Abdul Vahid Xan hesab edir ki, "bilik cəmiyyəti" anlayışı daha üstündür, çünki o, dəyişikliklərin sosial, kültür, iqtisadi, siyasi və iqtisadi-hüquqi aspektlərini, həmçinin inkişafla bağlı daha plürüalistdir, gələcəyə baxışı əhatə edir.

YUNESKO - nun mövqeyi beynəlxalq birlik tərəfindən bəyənildi. Bu öz əksini 2003-cü ilin dekabr ayının 12-də qəbul edilən Cenevrə Bəyannaməsinin 67-ci bəndində tapdı: "Biz möhkəm əminik ki, hamımız bir yerdə nəhəng imkanlar dövrünə - informasiya cəmiyyəti və insan ünsiyyətinin sahələrinin genişləndiyi dövrə qədəm qoyuruq. Bu yeni yaranan cəmiyyətdə informasiyanı və biliyi yenidən istehsal etmək, mübadilə etmək, birlikdə istifadə etmək və dünyanın bütün şəbəkələrinə ötürmək mümkün olacaq. Əgər biz lazım olan hərəkətləri yerinə yetirsək, tezliklə bütün insanlar biliklərdən birgə istifadəyə nail olacaq, qlobal həmrəyliyin bazasına və xalqların və ölkələrin arasında daha tam qarşılıqlı anlaşmaya əsaslanan yeni informasiya cəmiyyəti quracağıq. Biz inanırıq ki, bu işlər, həqiqətən, biliklərə əsaslanan cəmiyyətin sonrakı inkişafına yol açacaqdır" [11]. BMT Baş Assambleyası 2006-cı ilin mart ayının 27-də informasiya cəmiyyətinin məsələlərinə həsr edilmiş Beynəlxalq Sammitin nəticələrinə aid qərarı ilə may ayının 17-ni Ümumdünya informasiya günü elan etdi.

Hazırda maşına yönəlik "informasiya cəmiyyətindən", insanın hərtərəfli inkişafına yönəlik "bilik cəmiyyətinə" doğru olan hərəkət gələcəkdə informasiya proseslərinə humanitar xarakteri verməyə imkan yaradacaq. Bununla yanaşı qitənin bütün ölkələri və xalqlarının bilikdən birgə istifadəsi kimi cəlbedici ideya qlobal dəyişikliklərin əsas qayəsinin dəyərləri ilə - texnogen sivilizasiya ilə ziddiyyət təşkil edir. Onun kültür – genetik kodu daxili təkmilləşməyə deyil, dünyanın texnoloji vasitələrlə fəal dəyişdirilməsinə yönəlmişdir.

Rus tədqiqatçısı A.V.Sokolov hesab edir ki, hər iki tərəfin – humanitar və texnokratik – özünün "həqiqəti" və "yalanı" var. Ona görə də, informasiya cəmiyyəti qlobal, postindustrial intellektə malik inkişaf etmiş, maşınlı informasiya texnologiyalarının köməyi ilə dövlətin, sosial qrupun və fərdin maddi və mənəvi tələbatını ödəyən sosium barədə sosial mifdir. Həm də bu iş təkcə informa-

siya texnologiyaları ilə bitmir. Dünya öz miqyası ilə bütün ən cəsarətli arzu və gözləntiləri ötüb keçəcək yeni texnoloji inqilab ərəfəsindədir. Artıq bu gün sadəcə əmək alətlərini və həyat tərzini yaxşılaşdırmayan, həm də atom və molekullardan bizim yaşadığımız mühiti "düzəldən" fövqəl mühəndis – demiurq formalaşdırılır.

Tədqiqatçı M. Epşteyn həyəcanla yazır: "Əvvəllər dəyişməz hesab edilən varlığın PREDDANNIS sayılan hər şey indi əl ilə və fikirlə düzəldilən sayılır. Bəşəriyyət dünyanın yaranışının dərk edilməsinə yaxınlaşır və indi dünyanı aşağıdan yuxarıya, ansaq öz layihələrinə uyğun yenidən qurmağa başlayır. Ona görə varlığın faciəvi qovşağı dağılır və yeni mühəndislərin, genetiklərin, proqramçıların, elektronşiklərin əlində materiala çevrilirlər" [12].

Yeni texnoloji uklad hüdudlarında nano-bio-informasiya-koqnitiv texnologiyaların konvergensiyası aparıcı rol oynayacaq. Təxmin edilir ki, XXI əsrin ortalarında insanın təbiətinin, o cümlədən şüurun fəaliyyəti texnologiyasına sahib olmaq mümkün olacaq. Süni intellekt təbii intellektin səviyyəsinə çatacaq, bəzi sahələrdə isə ötüb keçəcək. Maşın-insan gibridləri bioloji əsasda yaradılan kiborqlar və öz xarakteristikalarına görə kiborqlara yaxınlaşan insana bənzər robot-androidlər getdikcə daha çox yayılacaq.

"Konvergensiya edən texnologiyalar" termini 2002-ci ildə amerikalı nanotexnoloq M.Roko və sosioloq U.Beynbridj tərəfindən "İnsan təbiətini yaxşılaşdırmaq üçün konvergensiya edən texnologiyalar. Nanotexnologiya, biotexnologiya, informasiya texnologiyası və koqnitiv elm" adlı məruzələrində işlədilmişdir [9].

Qlobal informasiya cəmiyyətinin inkişaf perspektivləri haqda onu demək mümkündür ki, dünyanın ayrı-ayrı ölkələri və regionları səviyyəsində bütün Yer kürəsi miqyasında praktiki olaraq qeyri-məhdud kommunikasiya imkanları olan informasiya infrastrukturlarının formalaşmasının getdikcə sürətlənəcəyini gözləmək lazımdır. Ancaq bu infrastruktura özü texnoloji inqilabın yeni etapının əsası, bazası rolunu oynayacaq. Hadisələrin inkişafından asılı olaraq "informasiya cəmiyyəti" konsepsiyası öz tarixi rolunu oynayıb qurtardıqdan sonra keçmişə çevriləcək və öz yerini nano-bio-informasiya-koqnitiv texnologiyalara əsaslanan "bilik cəmiyyəti" konsepsiyasına verəcək.

İnformasiyanın yayılması və əlçatan olması sabit iqtisadi, siyasi, kommunal və sosial inkişafın əsas amilləridir. İnformasiya siyasəti hər birimizə təsir edir, çünki informasiya olmadan biz nə fərd kimi, nə də cəmiyyət kimi mövcud ola bilmərik. İnformasiya cəmiyyəti qurulmasının məqsədi, beynəlxalq səviyyədə informasiya və kommunikasiya texnologiyalarından yaradıcı və səmərəli istifadə edilməklə konkurentlikdə üstünlük qazanmaqdır. Qloballaşma deyəndə müasir sosial həyatı xarakterizə edən, sürətlə inkişaf edən və daim sıxlaşan qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq şəbəkəsi başa düşülür. Kommunikasiyanın müasir metodları müxtəlif ölkələrə və kültürlərə bir-biriləri ilə tez və asan qarşılıqlı fəaliyyət göstərməyə imkan verir. "İnformasiya inqilabına" rəğmən bugünkü reallıq cəmiyyətin informasiya ilə zəngin və kasıb sahələri arasında fərqin artmasını göstərir.

Avropanın strateji məqsədi 2020-ci ilədək böhrandan çıxmaq üçün sürətli, sabit və hərtərəfli inkişafı təmin etməkdir. "Digital Agenda for Europe" ("Avropa üçün rəqəmli gündəlik") adlı sənəddə belə inkişafa mane olan səbəblər göstərilir: rəqəmsal vərdişlərin yoxlüğü, şəbəkələrə olan aşağı etimad təhlükəsi, kiber cinayətkarlıq və sosial problemlərin həllində əldən verilmiş imkanlar.

Hazırda bəşəriyyət insanların həyatının keyfiyyətini yaxşılaşdırmaq sahəsində və maddi nemətlər istehsalında İKT-dən çox asılıdır. Çox vacibdir ki, bizim bu texnologiyalardan asılılığımızın çoxalması tənqidi informasiya infrastrukturlarının (elektrik enerjisi, su təchizatı, nəqliyyat, təhlükəsizlik sistemi və s.) təhlükəsizliyinin gücləndirilməsinin möhkəmləndirilməsi ilə, həmçinin vətəndaşların kiber cinayətlərdən müdafiəsi ilə bərabər getsin.

Bu gün qarşımızda duran yeni vəzifələrdən biri insan potensialının inkişafı üçün əsas olan iqtisadi biliklərin daimi və davamlı inkişafının təmin edilməsidir. Bu sahədəki konsepsiya inkişafın iki əsas komponentini özündə birləşdirir: informasiya cəmiyyətinin inkişafı və biliyin iqtisadiyyatının inkişafı.

İnformasiya siyasəti deyəndə, cəmiyyətin informasiyaya girişini nizamlayan qaydaların, qanunların və standartların toplumu başa düşülür. Milli informasiya siyasəti kültür, bilik və informasi-

ya müəssisələrininin əsas məsələsidir. Qeyd etmək vacibdir ki, biliyin iqtisadiyyatı əmək məhsuldarlığının yüksəldilməsinə, konkurentlik qabiliyyətinin yüksəlməsinə və inkişafa, təhsilə, innovasiyalara və İKT-dən istifadə edilməsinə yeni yanaşmaların formalaşmasına, əməkdaşlığa, hər şeyi əhatə etməyə və hökumətlərin yeni rolunun formalaşmasına imkan yaradır.

Bəzi tədqiqatçılar biliyin iqtisadiyyatının əsasında inkişaf prosesinə kömək edən dörd prinsipin dayandığını bildirirlər:

- vətəndaşlara biliklərin əldə edilməsində, istifadəsində və mübadiləsində lazım olan hər şeylə təmin edən təhsil sistemi;
- elmi biliklərin və texnologiyaların kommersiya məqsədi ilə tətbiqində alimləri və biznesmenləri birləşdirən innovasiya sistemi;
- stabil makroekonomik şərait, konkurensiya, çevik əmək bazarı, adekvat sosial müdafiəni qarantiya edən iqtisadi və institusional baza;
-bütün insanlara ucuz və səmərəli rabitə və informasiya vasitələri verən informasiya cəmiyyəti infrastrukturu.

Texnologiya yaxın 3-5 ildə inkişafa təsir edəcək xarici qüvvələr içərisində birinci yerdə durur. Bəzi rəhbərlər texnologiyaların dəyişilməsini ən vacib amil hesab edirlər. Hazırda siyasi və iqtisadi hakimiyyət fiziki dünyadan virtual dünyaya keçir. Ümumdünya İqtisadi Forumunun "Qlobal risklər 2012" adlı məruzəsində qeyd edilir ki, virtual aləmdə cinayətkarlıq, terrorizm və müharibə hələlik real aləmdə olan səviyyəyə çatmayıb, ancaq vəziyyətin dəyişməsi təhlükəsi mövcuddur, çünki hiper bağlanma (qoşulma) artıq reallıqdır. Müasir dünyada beş milyard mobil telefon İnternetə və buludvari (oblaçnı) əlavələrə qoşulub, insanların gündəlik həyatı hiber təhlükələrə və rəqəmsal uğursuzluğa daha çox düçar olur. Biz, həqiqətən, qəbul etməliyik ki, mövcud qlobal təhlükələrin bir neçəsi indiki halda movcud qlobal problemlərin nizamlanması üçün kifayət deyil [10].

Ümumi maraqları təqdim edən xidmətdən Avropada hakimiyyət orqanlarından və üzv dövlətlərdən gözlənilən keyfiyyət, innovasiya, şəffaflıq və girişin sadəliyi elektron ehtiyatlarına aludə olmanın əsasını təşkil edir. Kommersiya sektoru əsasən rəqəmsal texnologiya ilə bağlıdır. 2012-ci ilin məlumatına görə Avropada ev təsərrüfatlarının 30%-i hələ də İnternetə qoşulmayıb. Elektron biliklərin yeni iqtisadiyyatı strateji idarə etməyə prinsipcə başqa instrumentasiya və yanaşma tələb edir. Ənənəvi yanaşmaların tam köhnəldiyini demək doğru olmadığı kimi, elektron biliklərin iqtisadiyyatında müasir şəraitdə təşkilatı səmərəliliyi və mövcud olmanın stabil yüksəlməsini təmin etmək də kifayət deyil [12, s.165].

Yeni texnologiyalar şəbəkəsinin dünyaya vəd etdiyi üstünlüklərdən tam olaraq istifadə etməyimiz üçün informasiya sistemi etibarlı və təhlükəsiz işləməlidir. İnsanlar əmin olmalıdırlar ki, onların məlumatları öz ünvanına problemsiz çatacaq. Azad informasiya axınının təmin edilməsi məlumatların təhlükəsizliyi, konfidensiallığı və qarşılıqlı əlaqədə olan şəbəkələrin tamlığı qlobal iqtisadi çiçəklənmənin, universal hüququn təhlükəsizliyi və inkişafı üçün zəruri olan şərtlərdir. Müasir iqtisadiyyatın qurulması üçün belə vacib olan bu texnologiyaların insanların imkanlarını genişləndirməsi, cəmiyyəti zənginləşdirməsi, tədqiqatlara, işlərə və innovasiya fəaliyyətinə şərait yaratmasına davam etməsi üçün onların qarşılıqlı fəaliyyətə açıq olmaları onların sürətli inkişafını təmin edəcək.

Gələcəyin İnterneti onun dörd istiqamətdə işləməsini zəruri edir: bilik və kontent İnterneti, insanların İnterneti, xidmət İnterneti və əşyaların İnterneti. Hamıya xidmət etməyi qarantiya etməyi təmin etmək üçün, tezliklə Bütün Avropanı əhatə edən şəbəkə qurmaq, yüksək sürətli qoşulmanı təmin edən geniş zolaqlı girişi inkişaf etdirmək, həmçinin rəqəmli dividendin tezlik zolağından istifadə etmək vacibdir.

Rəqəmsal ekosistemlərin, təhsilin alətləri və onları idarəetmə inkişafına bizim yanaşmamız və təsəvvürlərimiz ictimai həyatın dəyişkən təbiətini və inteqrasiya səviyyəsini və yeni nəsillərin aludəçiliyini nəzərə almalıdır. "Şəbəkəyə qoşulmuş hər bir adama bura girişi olmayan iki nəfər düşür. Bu onilliyin sonunda Yer kürəsinin bütün əhalisi İnternetə qoşulmuş olacaq" – bu sözləri Google kampaniyasının direktorlar şurasının sədri Erik Şmidt demişdir. Bu sözlər 2013-cü il aprelin 13-də şənbə günü Twitterdə yayıldı və 2020-ci ilə Yer kürəsi əhalisinin İnternetə qoşulmasının mümkün-

lüyü haqda canlı diskussiyalara səbəb oldu. Bu sahədə Azərbaycanda olan vəziyyəti göstərmək üçün bəzi rəqəmlər misal göstərək. Azərbaycanda 2012-ci ildə 2011-ci il ilə müqayisədə hər 100 nəfərə düşən internet istifadəçisinin sayı 65%-dən 70%-ə yüksəlmişdir. 2012-ci ilin yekunlarına görə ölkədə olan bütün ev təsərrüfatları arasında kompüteri olanların sayı 47%, internetə çıxışı olanların sayı isə 64,4% olmuşdur. 2015-ci ildə olan rəsmi məlumata görə ölkədə internet istifadəçilərinin sayı 2 milyon nəfərdir. Qeyd etmək yerinə düşər ki, bizdə internet trafikinin 50-60% əyləncə saytlarının payına düşür.

Ancaq rəqəmsal kültürün yeni səviyyəsi "şəbəkə əhalisinin" mütləq çoxluğu ilə müəyyən edilmir. Bu həm də texnoloji inkişafın yaratdığı mobil cihazların qida mənbəyi, intellektual material, saxlanmanın daha mükəmməl cihazları, informasiyanın təhlili və ötürülməsi və yeni interfeysi, həmçinin skrininq texnologiyası ilə müəyyən edilmir.

Müəyyən mənada söhbət rəqəmsal kainatda kommunikasiya və kollektiv iş üçün universal şərait yaradan, effektli fərdi şəbəkə quran və bununla da "sənaye interneti" adlanan şəbəkənin yaranmasına səbəb olan yeni kompleks dəyişmədən gedir. Bütün bu sikvellerlər hər şeyi əhatə edən İnternet paradiqmasında birləşir. Hər şeyi əhatə edən İnternet bizim üçün adi olan rəqəm dünyasının sıx çulğaşmış mənzərəsini tam dəyişir.

İnternet kontekstində "dağıdıcı" termini həm mənfi, həm də müsbət aspektdə işlədilir. Bizi əhatə edən informasiya məkanının inkişafı və İnternetin həyatımıza daha dərindən daxil olması hesabına həyatın özündə keyfiyyət dəyişikliyi baş verir.

İnternetin mənfi aspektlərinə aşağıdakıları aid etmək olar:

- hələlik heç kim tərəfindən nəzarət edilməyən müxtəlif kontent yerləşdirmək və istifadə etmək imkanı, bu isə informasiya xaosu yaradır.
- fərdi və ictimai şüur və davranışla manipulyasiya etməyin yeni imkanları yaranır.
- strateji xarakterli prioritetlərin taktikiyə dəyişməsi baş verir. Bu isə, elmdə, kültürdə, təhsildə uzunmüddətli proyektlərin maliyyələşməsini nəzərə çarpacaq dərəcədə azaldır.

İnternetin müsbət aspektlərinə isə bunları aid edə bilərik:

- yeni kommunikasiya imkanları yaranır, məsələn əşyaların İnternetinin köməyi ilə yaradılanlar;
- insanların ünsiyyətində zaman və məsafənin qısaldılması baş verir;
- yeni industriyanın yaranması və inkişafı, məsələn, üç ölçülü çap mümkün olur.

Dünyada İnternetə çıxışı olan qurğu və kompüterlərin sayı artıq yüz milyonlarla ölçülür. İndi sadə smartfon o adamlarda yoxdur ki, smartfon prinsipcə ona lazım deyil. 2015-ci ilin yanvar ayına olan rəsmi məlumata görə Azərbaycan əhalisinin 73%-i internet, 55%-i isə geniş zolaqlı xidmət istifadəçisidir. Hər iki göstərici üzrə Azərbaycan dünyanın orta göstəricisini iki dəfə qabaqlayır [12].

Ekspertlər hesab edirlər ki, 2015-ci ildə bütün dünyada İnternetdə ümumi trafik 1 zetta bayt (1milyard tera bayt) həddini keçəcək.

İnternetin inkişafı informasiya mühitində dəyişilmənin sürətini daim artırır. Bu ona gətirib çıxarır ki, ətraf biznes mühitinin vəziyyətini az-çox uzun perspektivdə proqnozlaşdırmaq praktiki olaraq mümkün deyil. Ona görə də, bir çox təşkilkatların rəhbərliyində prioritetlər strateji səviyyədən taktikiyə dəyişir.

Məhsul istehsalının yüksək mobil olması, qloballaşma və giperkonkurensiya, kompaniyaların nisbətən az xərclə daha çox məhsul istehsal etmək və xidmət göstərmək istəyi ona gətirib çıxardı ki, müasir informasiya texnologiyaları tək-tək insanların iştirakçı tələbinə daha dəqiq təsir etmək istiqamətində fəal inkişaf edir.

Ancaq İnternetin kommunikativ imkanları başqa məqsədlər üçün də istifadə edilə bilər. İnsan özünü nə qədər çox Qlobal şəbəkənin müxtəlif resurslarına cəlb edirsə, onun şüurunun və davranışının xarici manipulyasiyalarına müqaviməti o qədər aşağı olur. İnternet istifadəçilərinin böyük qrup-

larına dəyərlərə, kodlara, təqdim etmə və davranış modellərinə subyektə sərf edəcək şəkildə təsiri formalaşdırmaq məqsədi ilə edilən xarici təsirin həyata keçirilməsinin potensial təhlükəsi ciddi narahatlıq yaradır.

Eyni zamanda İnternetin geniş tətbiq edilməsi ilə fərdiləşdirilmiş çoxkanallı kommunikasiya cəmiyyətə böyük xeyir verir. Misal üçün, xəstə uşaqlara, kütləvi müalicə auditoriyasına yönəlmiş kültür müəssisələrinin və universitetlərin müxtəlif məqsədli inkişaf fondlarının kommunikasiya kompaniyalarını göstərmək olar. Aydındır ki, İnternetdən informasiya saxlanması və mübadilə edilməsi üçün istifadəni normallaşdırmaq üçün müasir axın rejimində daxil olan kontentləri təhlil edən redaktorlar və professional ekspertlər institutunu bərpa etmək yaxşı olardı.

İstər milli, istərsə də qlobal səviyyədə idarəetmə metodlarının restruktrizasiyasında İnternet geniş istifadə edilir. Ərəb ölkələrində avtokratik idarəçiliyə qarşı hərəkatların müdafiəsində, demokratik ölkələrdə rəsmi şəxslərin və siyasi strukturların toxunulmazlığına, həmçinin İnternetin seçkilərin nəticələrinə güclü təsiri və siyasətə birbaşa təsirinə qarşı hərəkatların müdafiəsində onun rolu qəbul edilir, tanınır və geniş müzakirə edilir.

Fəaliyyətin müxtəlif sahələrində qlobal şüurun formalaşmasında və qlobal təşəbbüslərin yaranmasında İnternet mühüm rol oynayır. Bu özünü vətəndaş cəmiyyətində qlobal hərəkatların müdafiəsində, informasiya ötürülməsində sərhədlərin praktiki olaraq götürülməsində, bir çox sahələrdə vətəndaş cəmiyyəti üçün maraq doğuran və yerlərdə təşəbbüs üçün təcrübə və qabaqcıl iş metodlarının az xərclə və praktiki olaraq maneəsiz mübadiləsinin təmin edilməsində göstərir. İnternetin idarəetmə metodlarına, vasitələrinə və mexanizmlərinə güclü təsir etməsi indi əksəriyyət tərəfindən qəbul edilir, inkar edilmir [12].

İnternet informasiyaya (və kommunikasiya vasitələrinə) girişi genişləndirməklə, ani mobilizasiya üçün, kommentariya və rəy toplanması və siyasi mövqe bildirmək üçün imkan yaratmaqla "cini şüşədən buraxmışdır" və onun geri qaytarılması mümkünsüz görünür. İnternetdən istifadənin bütün bu formaları tək-tək insanların, qrup şəxslərin, tək-tək hallarda isə marginalların imkanlarının genişlənməsi metodlarıdır. Müasir cəmiyyətlərdə təsirin əhəmiyyətli dərəcədə genişləndirilməsi və hətta hakimiyyətin gücləndirilməsi üçün İnternetdən istifadə edilir.

Toplanan təcrübə, nəzəri axtarışlar və tədqiqatlar İnternetin iqtisadi və sosial inkişafın potensialının dəyişməsində, demokratiyanın radikal dərinləşməsində və genişləndirilməsində və əhalinin ictimai proseslərin inkişafında indi oynadığı və gələcəkdə oynaya biləcəyi rolu göstərir.

Hazırda İnternetlə təminolunma prosesi ilə eyni vaxtda bundan az əhəmiyyətli olmayan inkişaf vasitəsi kimi, sənaye və istehsalat proseslərindən, kargüzarlıq və informasiyanın təhlilindən başlanmış, işgüzar əməliyyatların idarə edilməsi və sənədlərin qeydiyyatına qədər idarə etmənin müxtəlif formalarının hazırlanması və sistemləşdirilməsi kimi proseslər gedir.

Açar sözlər: kompüter, internet, sosiokültür transformasiya, informasiya cəmiyyəti.

İstifadə edilmiş ədəbiyyat

1. Тарасов А.Н. Сущность консепта «социокультурная трансформация» // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: 2011, Вып. №7 (13).
2. Тарасов А.Н. Теоретико-методологические аспекты аналитики социокультурной трансформации // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: 2011, Вып. №7 (13)
3. Тарасов А.Н. Категориально-понятийный аппарат аналитики социокультурной трансформации // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: 2012, Вып. №1 (15). Ч. I. с.189-191.

4. Тарасов А.Н. Теория деконструкции как философско-теоретическая основа эстетики постмодернизма // Философия и общество. М.: 2009, №1 (53)
5. Тарасов А.Н. Синергетический подход к аналитике социокультурных трансформаций в континиуме европейской культуры // Фундаментальные исследования. 2013, №6 (част 1)
6. Дрожжинов В., Широков Ф. От компьютерной революции к построению глобального информационного общества XXI века // PC Week. 1998, №168 (44). (электронный ресурс), Режим доступа: http: www/ pcweek. ru/thems/ detail. Php? – İD – 49267.
7. Чернов А.А. Становление глобального информационного общества: проблемы и перспективы. М.: Издательско-торговая корпорация «Дашков и Ко», 2012
8. Громов Г. Дороги и перекрестки истории Интернета. Дорога первая. Из США в Европу (электронный ресурс). – Режим доступа: http:www.netvally.com/library/hyperbook/road1.htm.
9. National research and education network (электронный ресурс): http://en.wikipedia.org/wiki/National_Research_and_Education_Network.
10. Information super highway (электронный ресурс). Режим доступа: http://en.wikipedia.org/wiki/Information_Superhighway.
11. Clinton W.J.,Gore A. Technology for Amerika's Economic Growth, a New Direction to Build Economic Strength. Executive Office of the President. – Washington, DS.1993. – (электронный ресурс). – Режим доступа: http://ntl.bts.gov/lib/jpodocs/briefing/7423.pdt.
12. Europe and the flobal information Society. Recommendations to the European Concil (электронный ресурс). – Режим доступа: http www.echolu/eudocs/en/banqemann.html.

Зохраб Магеррамов

ИНТЕРНЕТ И СОЦИОКУЛЬТУРНАЯ ТРАНСФОРМАЦИЯ

Резюме

В статье анализируется природа и характер современных социокультурных процессов, возможные пути и направления гуманизации информационного общества, практика формирования и построения стратегии, политики общества знания. Следует отметить, что характер социокультурных изменений, происходящих в связи с развитием Интернета, противоречив. Наряду с соответствующими возможностями гуманитарного развития, здесь имеются ранее неизвестные риски гуманизации, связанные с развитием новых технологий.

Ключевые слова: компьютер, интернет, социокультурная трансформация, информационное общество

Sohrab Maharramov

INTERNET AND SOCIAL-CULTURAL TRANSFORMATION

Summary

The nature and character of the modern social-cultural processes, possible ways and directions of the humanization of information society, the practice of forming and building of strategy, politicians of knowledge society are analyzed in the article. It should be noted that the character of social-cultural changes taking place in the connection with the development of internet is contradictory. There are previously unknown risks of humanization related to the development of new technologies along with the respective capabilities of humanitarian development.

Keywords: computer, internet, social-cultural transformation, information society

UOT – 316.6

Telman Niftaliyev
Azərbaycan Dövlət İqtisad Universiteti, sos.ü.f.d., dosent

GƏNC ZABİTLƏR VƏ LİDERLİK KEYFİYYƏTLƏRİ

Məqalədə gənc zabitlər və onların peşəkarlıq qabiliyyətlərinin təhlili aparılır. Zabit hazırlığı müddətində onlara həm öz peşəsi öyrədilir, həm də onlara liderlik keyfiyyətlərinin formalaşması istiqamətində zəruri biliklər verilir, onlar gələcək hərbiçi peşəsinin dərinliklərinin mənimsənilməsinə hazırlaşdırılır. Ali hərbi məktəblərin tədris prosesində təlim keçən gənc kursantların yaradıcı qabiliyyətlərinin formalaşması mexanizmlərinin tətbiqində hərbi pedaqoji kollektivin gücündən istifadə edilir. Kursantların hərbi məktəbdə təhsili nəticəsində liderlik keyfiyyətlərinin aşılanması baxımından ilk növbədə onlarda liderliyə üç tərkibdən ibarət psixoloji hazırlıq koqnitiv hazırlıq, motivasiya haqırlığı və fəallıq cəhətdən hazırlıq halı formalaşdırılır.

Zabit təkcə öz peşəsinin bilicisi kimi deyil, həm də insanlara ekstremal döyüş şəraitində rəhbərlik edən, düzgün qərarlar qəbul edən, eyni zamanda nümunəvi davranış göstərən tərbiyəçi kimi motivasiyalı fəaliyyətə hazırılığı olan şəxsiyyət olmalıdır. Veberin təbirincə desək [1, s.55], keyfiyyətləri təsvir edilən lider şəxsiyyətin ideal tipidir. Düzdür, lider dedikdə, onun ictimai münasibətlərlə şərtləndirilməsini nəzərə alaraq digər mühüm göstəricilərin də formalaşmasını məqsəd kimi təyin etmək olar.

Sosiallaşmanın hələ erkən dövründə yeniyetmə gənclərin ilk dəfə özünüdəyərləndirmə, imkan və qabiliyyətlərinin sərhədlərinin təyin edilməsi və insanlarla münasibətlərinin qiymətləndirilməsi mümkün olan kimi, həyata keçirilməlidir. Sonradan eyni məsələlər ali hərbi məktəblərin tədris prosesində təlim keçən gənc kursantların yaradıcı qabiliyyətlərinin formalaşması mexanizmlərinin tətbiqində hərbi pedaqoji kollektiv tərəfindən istifadə edilir.

Nəzərə alınmalıdır ki, kursantların hərbi məktəbdə təhsilinin nəticəsində liderlik keyfiyyətlərinin aşılanması baxımında ilk növbədə onlarda liderliyə üç tərkibdən ibarət psixoloji hazırllıq halı formalaşmalıdır: koqnitiv hazırlıq, motivasiya hazırlığı və fəallıq cəhətdən hazırlıq [2, s.232]. Daxili psixoloji hazırlıq şəxsiyyətin qrupda lider olmasının şəxsiyyətdaxılı səbəblərini təmin edir. Bu əslində ən mühüm meyardır. Psixoloji cəhətdən liderliyə hazırlıqlı olmadan real praktikada onu həyata keçirmək çətin olur. İkinci koqnitiv cəhət kursantın qrup liderliyinə komunikativ bacarıqlar baxımından hazırlığını əks etdirir. Gələcəkdə isə konkret kursantın uğurlu fəaliyyət və ünsiyyətə hazırlıq səviyyəsini özündə kəsb edir. Praktikada o, aşağıdakılarla səciyyələnir:

1) intellektual keyfiyyətlər (informasiyalarla raional davranma, ideyalar irəli sürmək bacarığı, təfəkkürün çevikliyi və yaradıcı xarakteri, yaranmış situasiyaları praqmatik qiymətləndirmə bacarığı);

2) icraetmə qabiliyyətlləri (dəqiq hərəkətlər alqoritmi üzrə fəaliyyət gösttərmək bacarığı, çətin vəziyyətlərdə qeyri-standart qərar qəbuletmə qabiliyyəti, əldə edilən nəticələrin kritik qiymətləndirmə bacarığı);

3) təşkiletmə keyfiyyətləri (ekstremal hallarda müstəqil qərar qbuletmə bacarığı, qrup probleminin həlli üzrə məsuliyyəti öz üzərinə götürmək cəsarəti, problemli situasiyada qrupun səylərinin cəmləşdirməyə bacarıq);

4) sosial-kommunitativ və himayədarlıq keyfiyyəti (insanları öz ardınca aparmaq qabiliyyəti, münaqişələri effektiv yatırtmaq bacarığı, çevik ünsiyyət tərzləri).

Kursant simasında gələcək zabitin şəxsiyyətinin digər şəxsiyyət növlərindən prinsipial fərqləndirən cəhəti vardır. Onun mahiyyətini hərbiçinin cəmiyyətdə yerinə yetirdiyi funksiyalarla təyin

etmək olar. Bunlar hərbiçi-vətəndaş, mütəxəssis-zabit, komandir-rəis, və rəhbər-tərbiyəçi vəzifələridir ki, bunlar hərbi ali məktəb və ya ilkin hərbi xidmətdə sosiallaşma prosesinin gedişatı və nəticəsini keyfiyyətcə qiymətləndirməyə imkan verir [3, s.167].

Bu keyfiyyətlər dördlüyü sistem vəhdətinə malikdir və göründüyü kimi gənc zabitlərin sosiallaşmasının peşəkarlıq (yəni hərbi peşə sosiallaşması) və liderlik (aparıcı qabaqcıl sosial şəxsiyyətin formalaşması) yönlərini sıx əlaqəli və qarşılıqlı asılılıq sistemi kimi təsəvvürünə kömək edir. Buradan məlum olur ki, təlim və döyüş təcrübəsi prosesində peşəkarlıq keyfiyyətlərinin aşılanması bir qayda olaraq həmçinin liderlik keyfiyyətlərinin formlaşması və inkişafı ilə müşahidə olunmalıdır. Yəni yalnız sərt hərbçi (sovet dövründə buna "soldafon" deyirdilər) formalaşdırmaqla kifayətlənməmək və mütləq vətəndaşlıq keyfiyyətlərinin mənimsənilməsi məqsədi güdülməlidir. Vətəndaşlığın isə ən güclü ifadəsi, sözsüz ki, vətənpərvərlik duyğularının, sonsuz Vətən məhəbbəti hisslərinin gənclərinin şüurunda kök salması olmalıdır [4, s.135]. Bundan başqa, kursantların zabit kimi yetişdirilməsi yalnız minimal normativ tələblərə riayət etməklə deyil, əksinə, maksimum yüksək nailiyyətlərin əldə edilməsi, geniş bilik və erudisiyanın formalaşması, yaradıcı mütəxəssislərə çevrilməsinə şərait yaradılmalıdır. Təlim prosesində və ümumiyyətlə, ali hərbi məktəb illərini əhatə edən həyat dövründə kursantların gələcək komandirlər kimi yetişdirilməsi, həmçinin onların hərbi-inzibati karyerasının başlanğıcı kimi düşünülməlidir. Yəni təkcə hərbi əməliyyatlar və hərəkətlərin həyata keçirən bölmənin rəhbəri kimi deyil, peşəkar idarəedici olaraq hərbi inzibatçılıq-menecment qabiliyyətləri və vərdişllərin də aşılanmasına çalışmaq vacibdir. Nəhayət, gənc zabitlərin tabeçiliyində olanlara yalnız rəhbər statusunda təsəvvür etməklə də məhdudlaşmaq düzgün olmazdı, məhz əsas pedaqoji bacarıqların və qabiliyyətlərin yetişdirilməsi vasitəsilə gənc zabitlərin tərbiyəçi kimi də formalaşmasına nail olmaq vacibdir.

Beləliklə, göründüyü kimi, sosioloji yanaşma prizmasından baxılan əlaqəli cütlük-keyfiyyətləri peşəkarlıq-liderlik paradiqmasının inkişafı isitiqamətində kursantların sosiallaşması prosesinin gedişi və nəticələrini operasional qaydada quymətləndirməyə əsas yaradır. Bunun əsasında gənc hərbçilərin sosiallaşmasının peşə xüsusiyyətləri ilə yanaşı, onların təkcə milli cəmiyyətin və hərbi zümrənin norma və dəyərlərini məniməsmək kimi deyil, həmçinin ictimai fikirdə liderlik haqqında üstün təlimlərin irəli sürdüyü ideyalar və yüksək dəyərlərə yiyələnmək amalı kimi təsəvvür etmək olar.

Hərbi təlim və hərbi praktikada liderlik müxtəlif şəkillərdə təzahür edə bilər. Liderlik müəyyən şərtlər altında fərdi və ya qrup məqsədlərini həyata keçirmək üçün hər hansı bir insanın başqalarının fəaliyyətlərinə dəstək olması və onları idarə etməsidir [5, s.112]. Belə məqsədyönlü tərzdə insanların davranışlarına nüfuz etməyin həm qrup məqsədi, həm fərdi məqsədə nail olma amilləri arxasında dura bilər. Başqa sözlərlə desək, liderlik lider keyfiyyətlərinə malik olan gənc kursant və ya zabitin həyata keçirdiyi işlərlə bağlı bir zaman parçasında prosesdir. Onun təzahür etməsi üçün müvafiq situasiya və qərar qəbulu zəruriyyəti yaranmalıdır. Hərbi məktəbdə və sonrakı hərbi qulluqda belə situasiyalar fasiləsiz olaraq yaranır. Məsələn təlimdə, lider olmaq üçün digər qrup üzvlərindən daha bilikli, dərslərin və tapşırıqların hamıdan üstün öhdəsindən gəlməyi həm nümayiş etdirmək, həm də bunun mühit tərəfindən etiraf edilməsinə nail olmaq vasitəsilə həyata keçirmək lazımdır. Deyildiyi kimi, liderliyin təməlində başqalarına təsir etmək fiziki və əqli güc potensialı dayanır. Bu güc potensialını aşağıdakı kimi göstərmək olar:

• **Xarizmatik güc** - Lideri qarşısındakıların gözündə təsiredici edən, xüsusi keyfiyyətləri sevgi, hörmət və əminlik yaratmağı ifadə edir.

• **Məcburetmə gücü** - Qarşısındakı insanların idarə edilməsi üçün istifadə olunan maddi və mənəvi məcburetmə, hətta qorxutma yolu ilə həyata keçirilən bir üsuldur.

• **Mütəxəssis gücü** - Liderin müəyyən bir mövzuda mütəxəssis olması bilik, bacarıq və təcrübəsindən irəli gələn güc qaynağıdır.

• **Qanunauyğun güc** - Bir idarəedicinin qarşıya qoyduğu məqsədlərin lider və ya idarəedici tərəfindən istifadə olunmasıdır.

• **Mükafatlandırma gücü** - Liderin və ya idarəedicinin başqalarına daima mükafat verməsi ilə bağlı bir güc qaynağıdır.

Lider idarə edən, təsir edən, nümunnəvi örnəklər verə bilən, düzgün yol göstərən bir şəxsiyyətdir, yəni onun şəxsi keyfiyyətləri də qrupun dəyərləndirməsində ən yüksək səviyyədə olmalıdır. Lider əlindəki gücü (üstünlüyü) düzgün istifadə etməyə qadir olan şəxsiyyətdir, əks halda onun təsiretmə qərarları digərlərinin maraqları və gözləmələrinə cavab verməyərək, gec-tez inkar ediləcək və müqavimətlə qarşılanacaqdır.

Liderə xas xüsusiyyətlər aşağıdakılardır:

- tələbkar və səbirli;
- daima öndə deyil, lazım olduğu zaman arxa planda durmağı bacaran;
- dəyişikliyin yaradıcısı olan;
- prinsipləri ilə hərərkət edən;
- ç ətinliklərlə mübarizə aparan;
- əxlaq normalarını öz mənfəətlərinin önündə tutan;
- qərarları həlli ilə bərabər verən;
- daima dəyişikliyə hazır olan bir insandır.

Əslində lider bu maddələrdə toplanan xüsusiyyətlərdən əlavə, daha çox dəyərləri ifadə edən bir peşəkar şəxsiyyət olmalıdır. Liderlik insanları sadəcə idarə etmək deyil, insanları öz qabiliyyətləri ilə gücləndirməkdir [6, s.140].

Çox zaman idarəedicilik və liderlik bir-biri ilə qarışdırılır, lakin bunların ikisi də çox fərqli anlayışdır. Nümunəvi idarəçilik, sonradan öyrənmə yolu ilə əldə olunur. Liderlik isə insanların daxilindən gəlir. İdarəçilik üçün bir insan təhsil ala bilər, idarəçiliyin bütün sistemlərini mənimsəyə bilər və nəhayət, təcrübələrlə bu insan çox gözəl bir idarəçi ola bilər. Lakin liderlik haqqında nə qədər təhsil, məlumat alınsa da, nə qədər bu barədə danışılsa da lider olmaq üçün bunlar yetərli olmaya bilər. Çox zaman ən seçmə idarəçilər belə, böyük problemlər yaşayır, hətta idarə etdiyi insanlarla belə yola gedə bilmirlər və bu da nəticədə lider olmamağa gətirib çıxarır.

İdarəedici işləri planlaşdıran, həyata keçirən, problemləri həll edən, kollektivi idarə edən və daha bir çox idarəedicilik bacarığına sahib olan bir insandır [7, s.111]. Ancaq idarəedici bu öhdəliklərin çox azını yerinə yetirir. Bu ya özündən (bilik və bacarıq azlığından, işi dərketməmə, problemli münasibət qurma və s.) ya da üzərində işlədiyi işdən qaynaqlanır.

Bütün bu problemlər idarəedicilik fenomeninin yetərli olub, yaxud olmamasının müzakirəsinə səbəb olur. Həqiqətən də, qarışıq problemləri həll etmək, cəmiyyətdə güclü bir bağlılıq və motivasiya duyğusu yaratmaq üçün liderlik bacarıqlarına ehtiyac vardır. Tarixə baxdıqda, liderlərin böyük işlərin, planların yaradıcısı və həyata keçirəni olduğunu görürük.

Bü günün sürətlə inkişaf edən texnika və şəbəkə dünyasında fəaliyyətlərin düzgün istiqamətləndirilməsi üçün mütəxəssis və idarəedicilərə ehtiyacı vardır. İnsanlıq tarixində heç vaxt bugünkü kimi insanlar rahat yaşaya bilmələri üçün standart iş həyatına, idarə quruculuğuna, xəstəxanalara, məktəblərə və s. bu qədər bağlı olmamışdır. Bu səbəblə müasir və qarışıq quruluşların səmərəli fəaliyyət göstərə bilməsi üçün mütəxəssisliyə və bacarığa əsaslanan idarəedicilik sistemlərinin yaranması və inkişaf etməsi daha vacibdir. İnsanların yaşayış tərzi, ətraf mühitin qorunması və bunların düzgün istiqamətləndirilməsi və buna uyğun professional idarəedicilərin yetişdirilməsi zəruri olmuşdur.

Daxildən gələn bacarıq olmasa, öyrənmə yolu ilə əldə etmək mümkün deyil və bu günün professional idarəediciləri texniki bacarıqlara deyil, daha çox idarəedicilik bacarıqlarını üstün tuturlar [8, s.324-325]. Bu idarəedicilik bacarıqlarının əsasında insanların görünən və görünməyən çox say-

da maneələri aşaraq, hədəflərə çata bilmələri və yaşayışlarından məmnun qalmaları üçün şərait yaradan liderlik bacarıqları durur. Bu bacarıq pozucu, həll edici, yaradıcı, dağıdıcı və çox sayda gücü birtərəf edərək, insanları müəyyən hədəflər üçün bir yerə toplayır. Bu bacarıq cəmiyyətin quruluşunun bürokratik qatılıq, siyasi çəkişmə və iqtidar çəkişmələrindən qaynaqlanan lazımsız vəziyyətə düşməsini əngəlləyə bilir. Qısacası, liderlik bir sosial sistemin qarışıq və girdablı iqtidar dinamiklərinin, sistemin irəliyə getməsini əngəlləyici istiqamətdə deyil, dəstəkləyici istiqamətdə çalışmasına şərait yarada bilir.

Sosiallaşma prosesində peşəkarlıq keyfiyyətlərinin liderlik keyfiyyətləri ilə tamamlanması prosesində motivləşdirmə həlledici əhəmiyyətə malikdir [9, s.45]. Zabit-liderlərin önəmli funksiyalarından biri tabeçiliyində olanların stimullaşdıra bilmələridir. Buna motivasiya (həvəsləndirmək, sövq etmək) deyilir [10, s.140, 11, s.152]. Motivasiya - məqsədə çatmaq üçün hərəkətə gətirən bir fenomen olaraq tanınır. Nümunəvi liderlər ətrafındakılar üçün məlumat qaynağı olurlar. Hərbi kollektivin (döyüş qrupunun) üzvlərini hərəkətə gətirmək üçün bölmə rəhbəri-liderlərdə aşağıdakı xüsusiyyətlərin olması vacibdir:

- cəlbedici, lakin reallığını saxlayan hədəflər seçmək;
- hərəkətlərinə yüksək şəxsi maraq və enerji nümayiş etdirmək;
- əsgərlərdə və çavuşlarda şərəfli məqsəd və istiqamət duyğusu yaratmaq;
- uğur qazanmaq üçün əsaslı planlar qurmaq və onarın reallaşması yollarını araşdırmaq (uğur qazanmaq liderliyə məxsusi atribut olaraq zabit fəaliyyətində, xüsusən vacibdir);
- insanlara onların uğurlarına aid bir tarix duyğusu və özünə hörmət aşılamaq;
- gələcək işin uğur və uğursuzluq prespektivlərinə dair ortaq bir görüntü yaratmaq.

Hərbdə liderliyin həyatda reallaşması xüsusiyyəti onun digər referent tərəflərin (yuxarı pillə rəislər, qonşu hərbi bölmə və birliklərin rəhbərləri) uğurlu olması ilə qarşılıqlı əlaqə və təsirdə olmasından ibarətdir. Yəni hərbdə liderlik həm iyerarxiya həm şəbəkəyə bənzər əlaqələr sistemində təzahür edir [12, s.43]. Bir qrupun yalnız bir liderə sahib olması, bütün liderlik xüsusiyyətlərinin bu şəxsdə cəmləşməsi və qrupun digər üzvlərinin liderlik xüsusiyyətlərinə sahib olmaması anlamına gətirməməlidir. Liderlik bir insan tərəfindən həyata keçirilən bir sosial bacarıqdır. Bu bacarıqların qrup üzvləri tərəfindən də paylaşdırılması liderin zaman və enerjisini daha səmərəli nəticə almaq üçün artıracaq və məqsədlərə çatmağı daha səmərəli edəcəkdir. Beləliklə, lider-zabit tabeçiliyində olanların bacarıqlarını və müsbət vərdişlərini daima təkmilləşdirməyə çalışmalıdır. Bu isə, bilavasitə liderin müşahidəçilik bacarığı ilə bağlıdır [13, s.23].

Hədəfləri dərketmə qabiliyyəti olan, özünü bütün vəziyyətlərdə idarə edə bilən, məsuliyyət sahibi olan, işinin vacibliyini səmərəli bir şəkildə həyata keçirə bilən müşahidəçi liderin vəzifələrindən daha səmərəli istifadəsinə imkan yaranır.

Yüksək keyfiyyətli müşahidəçiyə aşağıdakı xüsusiyyətlər xasdır:

• Hadisələrə dərin bir düşüncə ilə yaxınlaşır, hər bir vəziyyətdə özünün mövqeyini formalaşdırır və arqumentlərini hazırlayır;

• Haqsızlıqlara razı olmur və haqsızlıqlardan şikayət etmir, səbirli olmağı bacarır;

• İstənilən işi idarə etməyə və istiqamətləndirməyə hazırdır.

Sosiallaşma nəticəsində formalaşan liderlik fəaliyyətlərinin təməl məqsədi sıravi heyətin həyata keçirdiyi işlərində daha səmərəli və daha uğurlu ola biləcəkləri imkanların araşdırılmasıdır. Beləcə, əsas özləri iş fəaliyyətlərində uğurlu və fəal olacaqlar, sonra isə rəhbərlik etdikləri bölümün daha hazırlıqlı, daha yaradıcı və daha məsuliyyətli xidmət etməsinə səy göstərəcəklər.

Beləliklə, bu problemlərin həllini lider xüsusiyyətli idarəedicilərin iş başına keçməsində deyil, lider xüsusiyyətli hərbçilərin bir araya gələrək, əlverişli döyüş hazırlığı mühitinin formalaşmasına şərait yaradacağına əsas verir [14, s.53].

Acar sözlər: zabit, hərbi, liderlik, gənc kursant

İstifadə edilmiş ədəbiyyat

1. Виханский О.С. Стратегическое управление. М.: 1999, 265 с.
2. Şəfiyeva E. İ. Zabit hazırlığının sosial-psixoloji məsələləri. Bakı: Elm, 2006, 232 s.
3. Федулов Б.А. Личностно-профессиональное развитие курсантов военного вуза. М.: 2003, 167 с.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. (onuncu kitab) Bakı: Azərnəşr, 2002, 135 s.
5. Şirəliyev H.İ., Əhmədov Ə.C. Politologiya. Bakı: Təbib, 1997, 416 s.
6. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya. Dərs vəsaiti. Bakı: 2008, 331 s.
7. Əfəndiyev M.Ə., Şirinov A.M. Sosiologiyanın nəzəri problemləri. Bakı: Bakı Univ., 2001, 514 s.
8. Emily Spencer Leadership Models and Theories: A Brief Overview, L, 2003
9. John Higley & Jan Pakulski, Elite And Leadership Change In Liberal Democracies, L, 2003
10. Гидденс Э. Социология. М.: Эдиториал УРСС, 1999, 704 с.
11. Гвоздева Е.С., Жданов А.С., Нуртдинов А.Н. Лидерство молодежи и развитие, Новосибирск: 2003
12. Stoyanov T., Leadership Development Programs in the Canadian Armed Forces Sofia, 2001, pp 1-11.
13. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001, 358 s.
14. Quliyev T.Ə. İdarəetmənin əsasları, Bakı: 1993, s. 324-325

Телман Нифталиев

МОЛОДЫЕ ОФИЦЕРЫ И ЛИДЕРСКИМЕ КАЧЕСТВА

Резюме

В военных учениях и военной подготовке лидерство может проявляться по-разному. Лидерство – это способность какого-либо человека управлять другими и оказывать им поддержку для осуществления при определенных условиях индивидуальных и групповых целей. За таким целенаправленным умением обращения с людьми может стоять фактор достижения групповых и индивидуальных целей. Другими словами, лидерство – это процесс, связанный с осуществлением дел за определенный промежуток времени молодым курсантом или офицером, обладающим лидерскими качествами.

Ключевые слова: офицер, военный, лидерство, молодой курсант

Telman Niftaliyev

YOUNG OFFICERS AND LEADERSHIP QUALITIES

Summary

The analysis of young officers and their professional abilities are explored in the article. During officer training, professions are taught them, necessary knowledge on the direction of formation of leadership qualities is given them and they are being prepared on the mastering the depths of the military profession. The power of teaching staff is used in the application of the mechanisms of formation of creative abilities of the young trainees training in the educational process of higher military schools. Psychological preparation consisting of three contents - cognitive training, motivation training and preparation in terms of activity are formed as a result of the education of trainees in military school in terms of instilling leadership qualities.

Keywords: officer, military, leadership, young trainees

UOT – 17

Sədaqət Məmmədova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

CƏMİYYƏTİN İNKİŞAFINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN ÖZÜNƏMƏXSUSLUĞU

Məqalədə cəmiyyətin inkişafının müasir mərhələsində milli-mənəvi istiqamətdə baş verən sosial hadisə və proseslərə baxış keçirilir. Qərb və Azərbaycan mütəxəssislərinin və tədqiqatçılarının fikirləri təhlil olunur və həmin fikirlərə münasibət bildirilir. Azərbaycanda dini və milli köklərə qayıdış, milli tariximizə həqiqi və obyektiv baxış, dilimizin saflığı uğrunda mübarizə əldə olunmuş nailiyyətlərin əsalarından biri olduğu qeyd olunur. Bildirilir ki, Azərbaycan xalqı daim bəşəri dəyərlərə hörmətlə yanaşaraq özünəməxsus olan milli-mənəvi dəyərlərinə sahib çıxacaq, onu qoruyub saxlayacaq və gələcək nəsillərə ötürəcəkdir.

Müasirləşən Azərbaycan hərtərəfli inkişaf edərək müntəzəm olaraq dünya sivilizasiyasına inteqrasiya etməkdədir. Müasir inteqrasiya prosesi isə çoxtərəfli olması və mürəkkəbliyi ilə səciyyələnir. Bunu nəzərə alan ölkə rəhbərliyi inteqrasiya siyasətini həyata keçirərkən bu prosesin bütün detallarını və digər dövlətlərin əvvəllər buraxdığı nöqsanları diqqətdən qaçırmır, ölkənin sivil dövlətlərə çatması istiqamətində səmərəli olan yollardan bəhrələnir, üsullardan istifadə edir. İnteqrasiya prosesini, demək olar ki, bütün digər ölkələr də keçməkdədir. Çünki bu proses artıq başlayıb və onu geri qaytarmaq mümkün deyil.

Artıq 20 ildir ki, müstəqillik əldə etmiş Azərbaycanda dini-mənəvi köklərə qayıdış, milli tariximizə həqiqi və obyektiv baxış, milli-mənəvi dəyərlərə hörmətin qorunması ən mühüm uğurlarımızdan hesab edilir. Ümummilli lider Heydər Əliyev cəmiyyətdə mənəvi dəyərlərin roluna xüsusi qiymət verərək qeyd edirdi ki, heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq. Bu mənada o, xüsusi olaraq vurğulayır ki, hər bir xalqın mədəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mənəviyyatını zənginləşdirir [1, s.256].

Dəyərlər müəyyən mənada bizim həyatımızın məqsədləridir; hətta yalnız öz həyatımızın deyil, məsələn, biri başqalarının həyatı üçün də elm və ya sənətlə məşğul olmağı qarşıya məqsəd qoyar; digəri başqa insanları da öz bəyəndiyi yola çəkməyi müqəddəs bir vəzifə sayar; başqa biri bütün dinclik və səadətin iqtisadi qüdrətlə mümkün olacağına inanar və s. Cəmiyyət səviyyəsində də müxtəlif dəyər oriyentasiyalarından bəhs etmək mümkündür [2, s.127].

Milli-əxlaqi dəyərlərimizin öyrənilməsi, qorunub saxlanması və inkişaf etdirilməsi və gələcək nəslə ötürülməsi də Azərbaycan dövləti qarşısında duran əsas vəzifələrdən biridir. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha çox dərəcədə milli-mənəvi dəyərlərin qorunması və nisbi müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Milli-mənəvi dəyərlərin bir qismi ictimai ideal və mədəni-tarixi inkişafın hamı tərəfindən qəbul olunmuş məqsədi kimi çıxış edir. Bunlara misal olaraq azadlığı, sosial bərabərliyi, ədaləti, humanizmi, demokratiyanı, habelə ümumbəşəri xarakter daşıyan digər idealları göstərmək olar. Onlar ümumi mədəniyyət sistemində mərkəzi yer tutur, bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir şəxsiy-

yətin mənəvi zənginliyinin nüvəsini təşkil edir. Şəxsiyyətin formalaşmasında mənəvi dəyərlər çox müxtəlif formalarda çıxış edir. Onların tərkibinə elmi həqiqəti ifadə edən nəzəri müddəalardan tutmuş əxlaqi normalar, estetik dəyərlər, bədii zövq, dini inam, ictimai rəyin müəyyən ünsürləri və s. daxildir [2, s.126].

Milli-mənəvi və əxlaqi dəyərlərdə əsas əlamətlər kimi vətənpərvərlik ənənələrini, vətənpərvərlik tərbiyəsini, mənəvi-əxlaqi, etik keyfiyyətləri, milli və ümumbəşəri dəyərlərin vəhdətini, ana dilinə hörmət, milli birlik ideyasını, demokratik dəyərləri, dövlətçilik ənənələrini, dövlətçilik hissini, dünya ənənələri və milli ənənələrin birliyi daxil edlilir [3, s.56].

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində əhəmiyyətli uğurlara nail olmuşdur. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən, irqindən asılı olmayaraq Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirmişdir [4, s.92]. Ümumilikdə, Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyinin daha da möhkəmləndirir və Azərbaycanı dünya mədəniyyətlərini qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir.

1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" Beynəlxalq konfransındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu məsələyə diqqəti yönəldərək demişdir: "Müasir dünyada dini-mənəvi dəyərlərdən səmərəli şəkildə istifadə olunması hər bir ölkə üçün hər bir xalq üçün, hər bir din üçün çox əhəmiyyətlidir" [1, s.9].

Azərbaycan xalqının mənəvi mədəniyyətinin əsas tərkib hissəsi kimi dini-mədəni dəyərlərin tədqiqi Azərbaycan alimlərinin mühüm vəzifəsidir. İslam dini və oradakı yüksək əxlaqi keyfiyyət və dəyərlərin Azərbaycan mədəniyyətində yeri, rolu, nəsildən-nəslə ötürülməsi, Azərbaycan dövlətçilik ənənələrinin formalaşmasına təsiri və s. problemlərin tədqiqi bu gün xüsusi aktuallıq kəsb edir.

İslami dəyərlər, onun millətimizə faydası dərindən, professional şəkildə, obyektiv rakursdan öyrənilməlidir. Bəziləri bu dəyərləri düzgün qiymətləndirmir, onlara subyektiv baxış bucağından baxır, düzgün təhlillər apara bilmir. Bu barədə ulu öndər Heydər Əliyev deyirdi: "Əgər keçmş çar Rusiyası imperiyası ərazisində, sonra Sovetlər İttifaqı ərazisində islam mədəniyyəti haqqında araşdırmalara nəzər salsaq, çox dəyərli əsərlərlə yanaşı eyni zamanda subyektiv fikirlər də hökm sürür. Məndə belə təəssürat var ki, Avropa ölkələrində, o cümlədən, Rusiyada keçmişdə də, indi də bəzi tədqiqatçılar islam mədəniyyətinə, islam dininə subyektiv hissiyyatlar nöqteyi-nəzərindən baxırlar" [1, s.37].

Yüksək dünya standartlarına cavab vermək, yeniliyi qəbul etmək və təbliğ etmək qarşıya qoyulan əsas məsələlərdəndir. Avroatlantik məkana inteqrasiya Azərbaycana ancaq xeyir və fayda gətirməsi isə düzgün və ardıcıl siyasətdən asılıdır. Qloballaşma kimi böyük bir məfhumun daxili və ayrılmaz komponenti olan inteqrasiya yolunda milli-mənəvi, dini dəyərlərin özünəməxsusluğunun qorunub saxlanması və varislik prinsipi əsasında gələcək nəsillərə çatdırılması böyük və gərgin zəhmət tələb edir.

Qloballaşma elə bir prosesdir ki, tədqiqatçı A.Həsənli yazır, bu zaman mütləq milli-mənəvi dəyərlərin tənəzzül etməməsi və aşınmaması istiqamətində tutduğu mövqeyindən asılı olaraq hər bir vətəndaş öz vəzifəsini yerinə yetirməli, bu yöndə bütün bilik və bacarığını səfərbər etməlidir. Bu məsələ həm də alim və tədqiqatçıları da narahat etməli, onlar məntiqli fikir və ideyalarını irəli sürməlidirlər. Doğrudur, bu istiqamətdə bəzi tədqiqat işləri işıq üzü görüb, lakin bu hələ kifayət deyildir. Əsas aktuallıq kəsb edən odur ki, necə etmək lazımdır ki, bizim milli-mənəvi dəyərlərimiz, əxlaqi qaydalarımız dünyanı öz ağuşuna almış bu prosesi daha da zənginləşdirsin, ona bir növ təkan versin. Ancaq əksər ölkələrin timsalında bunun şahidi oluruq ki, qloballaşma prosesi

ayrı-yarı mədəniyyətlərə, millətlərin özünəxas dəyərlərinə zərbə vurmuş, yad elementlərin milli mədəniyyətlərin tərkibinə daxil olmasına səbəb olmuş, bu mədəniyyətlərin zəifləməsi istiqamətində həm uğurlu, həm də uğursuz cəhdlər olmuşdur [4, s.25].

Müasir proseslər ən müxtəlif səpkilərdə - siyasi, iqtisadi, mədəni və s. cəhətlərdən tədqiqatçılar tərəfindən öyrənilir. Keçən onilliklər ərzində müasir proseslərə münasibətdə çoxlu baxışlar, mövqelər formalaşmışdır. Bunların sistemləşdirilməsi və ümumiləşdirilməsi özü də qloballaşma proseslərinin nəzəri-konseptual əsaslarının müəyyənləşdirilməsi vəzifəsinə daxildir.

Azərbaycanın beynəlxalq aləmlə münasibətlərinin, dünyanın müstəqil dövlətlərinin ailəsinə inteqrasiyasının aparıcı istiqamətlərini, milli maraqlara xidmət edən suveren inkişaf yolunu müəyyənləşdirərkən ümumilli lider Heydər Əliyevin hansı prinsiplərə, əməkdaşlığın hansı forma və mexanizmlərinə, inteqrasiyanın mövcud olan nə kimi nəzəri və praktiki modellərinə üstünlük verməsi, onun siyasi kursunda qloballaşma amilinin yeri və rolu, dünya siyasəti üçün nümunə ola biləcək xüsusiyyələri - bütün bunlar araşdırılmasını gözləyən məsələlərdəndir.

Ümumiyyətlə, dünya tarixində inteqrasiya və qloballaşma məsələlərinə birmənalı münasibət olmamışdır. Tədqiqatçılardan bəziləri bu məsələyə müsbət tərəfdən yanaşırsa, bəziləri isə onun əleyhinə çıxır, qloballaşmanın milli-mənəvi dəyərləri kökündən sarsıdacağını iddia edir və antiqlobalistika hərəkatının genişlənməsinə rəvac verirlər. Buna görə də qloballaşma məsələsinə olan müxtəlif yanaşmaların ətraflı tədqiq və təhlilinə zərurət yaranır [4, s.42].

Azərbaycanda yayılan kütləvi mədəniyyət əsasən Qərb həyat tərzinin və postmodernist ənənələrin yayılmasına xidmət edir. Məlumdur ki, Qərb sivilizasiyası özünü bəşər mədəniyyətinin inkişafının ən yüksək mərhələsi hesab etməklə digər mədəniyyətlərin də yeni inkişafa tabe edilməsini iddia etməkdə və həmin mədəniyyətləri yaradan xalqların sosial-siyasi və mənəvi-əxlaqi həyatını öz dəyərlərinə uyğun tənzimlənməsi tələbini verməkdədir. Özünü Qərb sivilizasiyasına inteqrasiya edən müasir Azərbaycan cəmiyyətində real ictimai münasibətlər sahəsində kütləvi mədəniyyətin təsiri və yaratdığı təsəvvürlər güclənir və bu proses ümumbəşəri proseslərin tərkib hissəsi kimi özünü göstərir. Azərbaycanın yeni ictimai-siyasi sistemə yön alması nəticəsində "müasirləşmə" düşüncəsi sosial şüurda özünə xüsusi yer almışdır. Xüsusilə, şəhərdə indiyə qədər mövcud olmayan və tanınmayan mədəni dəyərlərin qəbulu "müasirlik" kimi dərk edilir. Əslində "müasirləşmə", müasirlik özü Qərbdən gələn kütləvi mədəniyyəti mənimsəmə kimi ifadə olunur. İctimai şüurda özünə yer alan bu məsələ insanların keçmiş irslərindən ayrılaraq yeni ənənələr, stereotiplər mühitinə atılması ilə bağlıdır. Bir çoxları əvvəlki irsin köhnəlik kimi "gülünc", "zəif" olduğundan onun atılması düşüncəsindən çıxış edirlər. Bu cür təsəvvürlər bilavasitə onların yaşam tərzinə və dünyagörüşünə təsir edir.

Ayrı-ayrı dini təriqətlərin cəmiyyətə yol açması, qadağan olunmuş kitab və nəşrlərin xüsusi yollarla insanlar arasında paylanması, ideoloji təsir vasitəsilə insanların çaşdırılması, geyim, qida, memarlıq və s. mədəniyyətində millətimizə xas olmayan cəhətlərin təbliği - vaxtında qarşısının alınması, zəruri təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edən vacib məsələlərdəndir. Ancaq bu yolla insanları inkulturasiya və akkulturasiya arasında tərəddüd etməkdən qurtarmaq mümkündür.

Azərbaycan bütün dövlətlər tərəfindən dini, etnik, mədəni tolerantlığın bərqərar olduğu ölkə kimi tanınır. Qloballaşma dövrünün əsas tələblərindən biri də elə tolerantlıqdır. Bu da doğrüdür ki, əgər dini, mədəni fərqlərə qarşı dözümlülük olmasa, müasir proseslər lazımi nəticəni verməyəcəkdir. Ona görə də milli dəyərlərə böyük önəm verərək tolerantlığın möhkəmlənməsi millətə zərər gətirməz [4, s.56].

Ümumiyyətlə, qeyd edilməlidir ki, bu gün alimləri düşündürən aktual məsələlərdən biri də qloballaşma yolunda əzmlə addımlamaq üçün milli-mənəvi dəyərlərimizdən yararlanmaq, sivili-

zasiyalı cəmiyyətin qurulmasında böyük əzm nümayiş etdirmək və bu zaman milli streotipləri yaddan çıxarmamaqdır.

O.Şpenqler isə Avropanın süqutunu həm də milli-mədəni dəyərlərin tənəzzülü ilə bağlayır. Sivilizasiyaların qarşılıqlı toqquşmasından bəhs edən Amerika politoloqu S.Hantinqton "Qərbləşməsiz modernləşmə" düsturunu təklif edmişdir. Bu düsturda "üçüncü dünya" ölkələrinin sosial-iqtisadi və texnoloji inkişaf problemlərinə yeni yanaşma təsvir olunur. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, özlərinin sosial-siyasi və təsərrüfat sturukturlarının dəyişməsinin və inkişafının obyektiv zərurət olduğunu başa düşən həmin ölkələr Qərbin ardınca kor-koranə getməkdən imtina edirlər. Əksinə, onlar Qərb texnologiyalarından özlərinin ənənəvi milli dəyərlər sistemində istifadə etməyə çalışırlar [6, s.125].

Akademik R.Mehdiyevin fikrincə, müasir dövrdə qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq, cəmiyyətin daxilindəki sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, əvvəla, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir. İkinci, istər millətin, istərsə də dövlətin müstəqil inkişaf imkanlarının mahiyyətinə varmadan, səmərəsizliyi amansızcasına cəzalandırır [6, s.129].

AMEA-nın müxbir üzvü, professor S.Xəlilov "Mənəviyyat fəlsəfəsi" adlı kitabında Şərq və Qərbdə milli-mənəvi dəyərlərin qarşılıqlı münasibətlərini geniş təhlil edərək göstərir ki, biz Qərbin xilas olmaq istədiyi və məmnuniyyətlə bizə ixrac etdiyi bayağı mədəniyyətdən ikiəlli yapışaraq "müasir" olmağa çalışırıq. Daha sonra o, qeyd edir ki, insanın mənəvi ehtiyacları onun boyabaşa çatdığı milli-mədəni mühitin spesifikası ilə müəyyən olunur. Ona görə də hər bir xalqın sosial-mənəvi mənşəyini, mədəniyyət tarixini öyrənmədən yeni nəslin nə kimi hisslərlə yaşadığını, onun mədəni tələbat meyillərini və estetik zövq oriyentasiyasını müəyyən etmək çox çətindir [5, s.250].

R.Aslanova "İslam və mədəniyyət" adlı monoqrafiyasında din və mədəniyyətin genezisi, qarşılıqlı dinamikası, islam mədəniyyətinin ümumbəşəri dəyərləri, Azərbaycanın bu mədəniyyətin inkişafında yeri və rolu, islam dəyərlərinin Qərb mədəniyyətinə təsiri geniş tədqiq edilir.

Professor A.Əhədov "Azərbaycanda islamın modernləşdirilməsi" adlı monoqrafiyasında göstərir ki, müasir Azərbaycanda islamın modernləşdirilməsində üç meyil nəzəri cəlb edir. Birinci, islamın ayin və mərasimlərinin hal-hazırki dövr və gələcək üçün vacibliyinin və faydalı olmasının iddia edilməsi, bunların mahiyyətinin indiki həyat tərzinə uyğun şəkildə şərh edilməsi, ikinci, islamın adət və ayinlər kompleksinin ünsürlərinin təsnifatının verilməsi və buna uyğun olaraq onların şərhi, üçüncüsü, islam ayinlərinin sadələşdirilməsi, azaldılması və asanlaşdırılması yolu ilə çoxəsrlik müsəlman ənənələrini müasirləşdirib cəzbedici və günün tələblərinə uyğun olan şəklə salınmasına səy edilməsi. Abdulla Əhədova görə, modernist müsəlman ruhaniləri islamın əsas ehkamlarını qətiyyən pozmurlar. Lakin ictimai bərabərsizlik, qadına münasibət, ailə-məişət, dini dözümlülük, dostluq və başqa məsələlərdə onlar ortodoksal islam mövqeyində durmur, bunlara müasir baxımdan yanaşırlar [6, s.44-49].

H.Orucovun redaktəsi ilə çap olunmuş "İslam əxlaqı" adlı monoqrafiyada isə göstərilir ki, milli-mənəvi dəyərlərimiz milyonlarla insanı birləşdirən ortaq dəyərlərdir. Bu dəyərləri paylaşmaq və onları qorumaq üçün bir araya gəlmək milyonlarla insanın həmrəyliyi deməkdir. Ən önəmlisi odur ki, yüzillər boyu milli və dini dəyərlərimiz bir-biri ilə o qədər çulğalaşıb ki, bu gün onların sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür [7, s.163].

Azərbaycanın tədqiqatçılarından İ.Rüstəmov, A.Həsənli, S.Hüseynov, Ə.Qurbanov, E.Əhmədov, T.Əfəndiyev, A.Əhmədov, A.Hacıyeva, Z.Quluzadə, R.Ulusel, H.Hüseynov, R.Mustafayev, və b. müasir şəraitdə milli-mənəvi dəyərlərin qorunub saxlanmasını zəruri hesab edir və bu

dəyərlərin inkişaf tendensiyaları və qarşılıqlı münasibətləri haqqında bir çox monoqrafiya və məqalələr yazmışlar.

Mövcud elmi ədəbiyyatda bu vaxtadək dini-mənəvi dəyərlərin roluna dair xeyli tədqiqat işləri aparılsa da, qloballaşma şəraitində Azərbaycanda dini-mənəvi dəyərlərin inkişaf tendensiyaları ilə bağlı tədqiqata, nisbətən, az diqqət yetirilmişdir. Bu mənada tədqiqat işinin əsas məqsədlərindən biri müasir dövrdə dini-mənəvi dəyərlərimizin inkişaf xüsusiyyətlərini sistemli və tam halında tədqiq etməkdir [8, s.164].

Bu gün Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlətin qurulduğu bir vaxtda xalqımızın min illər boyu bizə irs qoyduğu dəyərli dini-mənəvi dəyərlərin inkişafının tədqiqi cəmiyyətimizin gələcək inkişafı üçün müstəsna əhəmiyyət kəsb edir. Hazırki əsas məqsəd Azərbaycanda qloballaşma şəraitində dini-mənəvi dəyərlərin inkişafının sistemli təhlilinin verilməsi əsasında müasir ictimai inkişafımızla həmahəng səsləşən cəhətləri üzə çıxarmaqdan, qabarıq şəkildə işıqlandırmaqdan ibarətdir.

Dünyada baş verən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə qloballaşma müəyyən edəcəkdir. Bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosiomədəni məkanın bir hissəsi olmağa can atmışdır. Tarix belə nümunələr yaradaraq bu və ya digər imperiyaya öz hərbi-siyasi və iqtisadi nüfuz dairəsini iki, bəzən də üç qitəyə genişləndirmək imkanı vermişdir. Üç dünya dininin meydana gəlməsi dünya məkanının qlobal inteqrasiyasının yeni nümunəsini yaratmışdır. İudaizm, xristianlıq, sonra isə İslam gerçəkliyin sosiomədəni, siyasi və iqtisadi qavrayışına təsirin hüdudlarını genişləndirərək başlıca olaraq, bu və ya digər dinin nümayəndələrinin məskunlaşdığı məkanlar yaratdılar [4,s.95].

Lakin dünya tarixində bəşəriyyət hələ heç vaxt bütün dünya məkanının sabit və təhlükəsiz inkişafını təmin etməli olan ümumi siyasi və iqtisadi məkan yaradılmasına könüllü cəhd etmək üçün ümumi məqsədə çatmağa belə yönəlməmişdir. XIX əsrdə başlanan, XX əsrdə fasilələrlə davam edən və hazırda da baş verən ümumdünya inteqrasiya prosesinin tarixi analoqu olmayıb və yoxdur, ona görə də qloballaşmanın faydalı və qüsurlu cəhətlərinə ölçülüb-biçilmiş və əlaqələndirilmiş şəkildə yanaşmaq son dərəcə vacibdir.

Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, əvvəla, milli mədəniyyət və ənənələrin öncüllüyünü zəiflədir, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir. İkincisi, istər millətin, istərsə də dövlətin müstəqil inkişaf imkanlarının mahiyyətinə varmadan, səmərəsizliyi amansızcasına cəzalandırır və inkişaf etmiş ölkələri isə daha da həvəsləndirir [8, s.184].

Cəmiyyətdə qərarlaşmış bəzi qeyri-etik normalar qlobal etik dəyərlərə zərbə vurur və qloballaşmanın cəmiyyətdə təşəkkülünə mane olur. Mənfi, qeyri-etik normalara qarşı amansız münasibət formalaşması vacib və zəruridir. Halallıq vicdanlılıq, etibarlılıq, düzgünlük, həqiqətpərəstlik hisslərini özündə ehtiva edir. Qərb modeli üzrə inkişaf etmiş bazar iqtisadiyyatının yaradılması yalnız halal, vicdanlı sahibkarların fəal köməyi sayəsində mümkündür. Azərbaycanda yeni tip sahibkarların mənəvi davranışı etik işgüzar münasibətlərin təşəkkülünə əlverişli şərait yaradır, Azərbaycanın yerli sahibkarları son vaxtlar öz fəaliyyətlərini halallıq prinsipi üzərində qurmasının vacibliyini, dövlətin qanunlarına əməl olunmasının əhəmiyyətini daha aydın dərk edirlər. Əlbəttə, biznesdə əxlaq normalarının təşəkkülü üçün hələ çox işlər görülməlidir [3, s.59].

XXI əsrin əvvəllərində sosial-siyasi və iqtisadi problemlərin artması, dünyanı əhatə edən qloballaşma prosesinin sürəti, onun bəzi mənfi amilləri müasir insan probleminə, onun mənəviyyat kodeksi məsələsinə diqqəti artırır, gələcək təhlükənin qarşısının alınmasında dini-mənəvi də-

yərlərin rolunun vacibliyini ön plana çəkir. Bəşəriyyətin arzusunda olduğu sosial tərəqqinin əsas məqamları - insanın rifah halının və sosial müdafiəsinin yaxşılaşması, insanlar arasında hər cür qarşıdurmanın zəifləməsi, siyasi demokratiyanın bərqərar olması, insani münasibətlərin təkmilləşməsi prioritet məsələyə çevrilmişdir.

Dini-mədəni dəyərlərə yüksək önəm verən ümummilli lider Heydər Əliyev 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" Beynəlxalq konfransdakı çıxışında demişdir: "Müasir dünyada dini-mənəvi dəyərlərdən səmərəli şəkildə istifadə olunması hər bir ölkə üçün, hər bir xalq üçün, hər bir din üçün çox əhəmiyyətlidir" [1, s.9].

Hər bir xalqın, millətin, dövlətin varlığının ifadəsi olan ideyaların, dünyagörüşünün, həyat və düşüncə tərzinin deformasiyaya uğraması ilə həmin birliyin tənəzzülü başlayır. Tarix sübut edir ki, ən güclü sistemlərin məhvi sosiomədəni və siyasi mədəni məkanda yaşayan insanlar üçün ümumi olan mənəvi dəyərlərin, ideyaların radikal transformasiyasının mənəvi davamı kimi meydana çıxır.

Fərdlərin əxlaqi cəhətdən özünü reallaşdırması prosesi gələcəyə istiqamətlənməklə onların milli-mənəvi dəyərlərini, müsbət keyfiyyətlərini,özünü təkmilləşdirməyə fəal münasibətini, özünütərbiyə qabiliyyətini formalaşdırmağa kömək edir. Tərbiyə prosesi düzgün istiqamətləndirildikdə özünütərbiyə nəinki sosiallaşma prosesinə, eləcə də şəxsiyyətin özünü realizəsinə faydalı təsir göstərir. Özünütərbiyədə müvəffəqiyyət qazanmaq üçün həlledici şərt əvvəldən düzgün istiqamət götürülməsidir. Özünütərbiyə şəxsiyyətin zehni və əxlaqi qabiliyyətlərini, onun əldə etdiyi bilikləri, sosial zövqünü və xarakterini əhatə edir. Özünütərbiyənin başlıca ünsürləri özünümüşahidə, özünütəhlil, özünüqiymətləndirmə, özünütənqid və sairədir. Özünümüşahidə milli-mənəvi dəyərlərdən, müsbət keyfiyyətlərdən uzaqlaşdırmağı məhdudlaşdırmaqla hər bir fərdin sosial əhəmiyyətli maraq və meylinin, şəxsiyyət dəyərlərinin təşəkkülünə stimul yaradır. Özünütəhlil insanın mənəvi dünyasını əks etdirən müsbət və mənfi keyfiyyətlərin nisbətini anlamağa, özünə və başqalarına məsuliyyətli münasibətə istiqamətləndirir. Özünüqiymətləndirmə şəxsiyyətin milli-mənəvi, mədəni fəaliyyəti və yaradıcılığını tənzimləyir, insanın onu əhatə edən konkret mühitdə öz yeri və rolunu, ictimai borcunu, mənəvi-vətəndaşlıq ləyaqətini aydın dərk etməsidir. Özünütərbiyənin ünsürlərindən biri olan özünütəndiq isə özünütəhlil prosesində nöqsanları,səhvləri dərk etmək və bunları aradan qaldırmağa səy göstərməkdə öz ifadəsini tapır [2, s.129-130].

Bu gün Azərbaycan cəmiyyətinin xarici dilləri bilən, kompüterdən baş çıxaran, internet vasitəsilə dünyaya "pəncərə açan" gənclərə ehtiyacı olduğu qədər və ondan daha artıq, heysiyyətli, qürurlu, milli, dini, mənəvi-əxlaqi dəyərlərə sədaqətli, vətənpərvər vətəndaşlara ehtiyacı vardır. Müasir mədəniyyəti mənimsəmək nə qədər önəmlidirsə, milli mədəniyyətimizə sahib durmaq, ondan faydalanmaq bir o qədər mühümdür. Sadəcə texnikaçı, mütəxəssis, peşə sahibi hər zaman tapılar. Bu ehtiyacını hər bir millət müvəqqəti bir zaman üçün əcnəbilərə müraciət surətilə də təmin edə bilər. Lakin heç bir zaman xaricə müraciət olunaraq, mədəni inteqrasiya, vətəndaş cəmiyyəti vasitəsilə bir vətənpərvər, bir milliyyətçi, bir istiqlalçı, milli idealları, müqəddəs dəyərləri mənimsəmiş şəxs alına bilməz. Milli ruhlu, vətənpərvər, istiqlalçı vətəndaş yetişdirmək işi isə ölkə rəhbərliyi, dövlət qurumları, kütləvi informasiya vasitələri, tədris və tərbiyə müəssisələri, mədəniyyət ocaqları və xüsusilə də ziyalılar ordusu tərəfindən həyata keçirilməlidir.

Bu sahədə uğur qazanmaq üçün isə ilk növbədə milli mədəniyyətə sahib durmalı, milli-əxlaqi dəyərlər əxz edilməlidir. Çünki millət əsasına, siyasi özəlliklə söykənmədən, xalqın adət-ənənəsini, şifahi və yazılı ədəbiyyatını, bədii və iqtisadi məhsullarını mənimsəmədən bəşəri mədəniyyətə gedən yol da keçilməz olar. Millətin dil, din, əxlaq, hüquq, estetika, iqtisadiyyat və texnika ilə bağlı yaşayışının, həyat tərzinin ahəngdar bir bütünü olan kültür demokratik mahiyyət daşıdığı kimi, həm də beynəlmiləl, bəşəri məzmun kəsb edir. Bir sözlə, milli olmayan, xalqın, millətin işinə yaramayan heç bir şeydə bəşərilik də axtarılmaz. Vətəndaş cəmiyyətinin milli mədəniyyətlərə, xüsusilə də mü-

səlman cəmiyyətlərinə təsirindən bəhs edərkən də ilk növbədə bu amillər diqqət mərkəzində saxlanılmalıdır [3, s.60].

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi strategiyanın prioritetindən biri də milli-mənəvi dəyərlərimizin qorunması və daha da inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, dini etiqad azadlığının təmin olunması, ölkəmizdə fəaliyyət göstərən dini qurumların nümayəndələri üçün bərabərhüquqlu şəraitin yaradılması və multikulturalizmin inkişafıdır. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist mədəniyyəti üçün hər zaman xarakterik olub. Təsadüfi deyildir ki, bu gün Azərbaycan multikulturalizmin, tolerantlığın əsas məkanlarından biri kimi tanınır. Həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzinə çevrilib. Bu cür yanaşma həm multikulturalizmin ən yaxşı modeli olan ölkəmizin inkişafının tarixi reallıqları ilə, həm də müasir dünya sivilizasiyası məkanı və zamanı daxilində Azərbaycanın davamlı inkişaf tələbatı ilə elmi cəhətdən əsaslandırılıb. Azərbaycandakı tolerant mühit, sosial sabitlik beynəlxalq ictimaiyyətin də maraq dairəsindədir.

Ölkəmizdəki stabil çoxmədəniyyətlilik və çoxkonfessiyalılıq mühiti, dövlət-din münasibətlərinin qurulması bir çox xarici ekspertlər, dövlət rəsmiləri tərəfindən nümunəvi model kimi qiymətləndirilir. Təsadüfi deyil ki, Azərbaycan beynəlxalq miqyasda dinlərarası dialoq mərkəzinə çevrilməkdədir. Bunun təsdiqi olaraq, son illərdə Dünya Dini Liderləri Sammitinin, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının Bakıda keçirilməsini qeyd etmək olar. Ölkəmizdəki sabitliyin, dini dözümlülüyün, burada yaşayan millətlər arasında qarşılıqlı münasibətlərin yüksək səviyyəsi Azərbaycana gələn bütün qonaqları valeh edib. Şübhəsiz ki, dözümlülük ruhunun qorunub saxlanılmasında müsəlman ruhanilərinin də müəyyən xidmətləri var. Müasir Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir [4, s.89].

Azərbaycanın gələcək inkişafı milli-əxlaqi inkişaf strategiyasının da başlıca parametrlərini müəyyən etməyi tələb edir. Millətlərarası dialoqu ölkənin gələcək inkişafında mühüm vasitə hesab edən ölkə başçısı haqlı olaraq inkişafın mühüm mərhələlərində çoxmillətli ölkə olan Azərbaycan üçün millətlərarası münasibətlərin qorunub saxlanmasını sabitliyin birinci şərti hesab edir. Çünki həm milli, həm də dünyəvi dəyərləri qoruyub saxlamaqla demokratiyaya doğru iri addımlarla gedən Azərbaycanın inkişafı və tərəqqisinin, beynəlxalq aləmdə nüfuzunun yüksəlişi həmin amillə çox sıx şəkildə bağlıdır.

Mənəvi mədəniyyətimizin - böyüklərə hörmət, uşaqlara məhəbbət, sadiq olmaq, səbirli olmaq, qonaqpərvərliklə yanaşı - məsuliyyət mədəniyyəti, şəxsiyyətə hörmət, dürüstlüyün cəmiyyətdə mütləq etik normaya çevrilməsi vacib milli məqsədlərdən biri kimi, hər bir vətəndaş tərəfindən dəstəklənməli və bərqərar olunmalıdır. Bununla yanaşı, milli irsimiz, sağlam mentalitetimiz, ənənələrimiz və dinimizin qorunub saxlanılması prosesi, elmin, keyfiyyətli təhsilin və kulturoloji maarifin inkişafı, mütərəqqi innovasiyaların yayılması ilə müşahidə olunmalıdır.

Müasir Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, hüquqi dövlətin formalaşması dövlətimizin qlobal beynəlxalq aləmə inteqrasiyası şəraitində dinin, xüsusilə islamın mədəniyyətə təsirinin öyrənilməsi, müasir insanın mənəviyyat prinsiplərinin formalaşmasına, onun daxilən zənginləşməsinə təsirinin öyrənilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyev mənəvi prinsiplərin rolunu xüsusi qiymətləndirir: "Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" [6, s.176].

Açar sözlər: milli-mənəvi dəyərlər, dini-mənəvi dəyərlər, mənəviyyat, mədəniyyət, multikulturalizm, tolerantlıq

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev H.Ə. Dinimiz xalqımızın mənəvi sərvətidir. Bakı: Qanun, 1999, 165 s.
2. Əhmədov A. Kecid dövründə milli-mənəvi dəyərlərin transformasiyası. Elmi əsərlər. NDU, №21, 2015
3. Əhmədov E. Milli-mənəvi dəyərlərin qorunması zəruriliyi. Sivilizasiya jurnalı, №14, 2013
4. Həsənli A. Azərbaycanda milli-mənəvi dəyərlər. Bakı: 2015
5. Xəlilov S.S. Mənəviyyat fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti, 2007,520 s.
6. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI - Yeni Nəşrlər Evi, 2005, 464 s.
7. Orucov H.X. İslam əxlaqı. Bakı: İpəkyolu nəşriyyatı, 2010, 208 s.
8. Paşazadə A.Ş. Qafqazda İslam. Bakı: Azərnəşr, 1991, 224 s.

Садагят Мамедова

УНИКАЛЬНОСТЬ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ В РАЗВИТИИ ОБЩЕСТВА

Резюме

В статье рассматриваются социальные события и процессы, происходящие на современном этапе развития общества в национально-нравственной сфере. Выражается отношение к мнениям западных и азербайджанских специалистов и исследователей в этой области. Отмечается, что возвращение Азербайджана к религиозным и национальным корням, правдивый и объективный взгляд на национальную историю, борьба за чистоту языка являются одним из основных достижений в годы суверенитета. Указывается, что Азербайджанский народ с уважением относится к мировым ценностям, защищая и передавая свои национально-нравственные ценности будущим поколениям.

Ключевые слова: национально-нравственные ценности, религиозно-нравственные ценности, нравственность, мультикультурализм, толерантность

Sadagat Mammadova

UNIQUENESS OF NATIONAL-SPIRITUAL VALUES ON THE DEVELOPMENT OF SOCIETY

Summary

Attention is paid to social events and processes on national-spiritual direction in the modern stages of the development of society in the article. The ideas of western and Azerbaijani specialists and researches are analyzed. Returning to the religious and national roots in Azerbaijan, a true and objective view to the national history are noted as one of the successes achieved in the fight for the purity of our language. Also, it is noted that Azerbaijan people will have national-spiritual values, respecting for human values, will protect them and pass to future generations.

Keywords: national-spiritual values, religious-spiritual values, spirit, multiculturalism, tolerance

UOT – 32

Rəna Mirzəzadə
AMEA Fəlsəfə və Hüquq İnstitutu, fəl.ü.e.d.

SOYQIRIM VƏ GENOSİD CİNAYƏTİNƏ BEYNƏLXALQ HÜQUQİ VƏ SİYASİ BAXIŞ

Məqalədə bildirilir ki, genosid sözü ilk dəfə İkinci Dünya müharibəsi ərəfəsində yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin tərəfindən işlənib. R.Lemkin faşistlər tərəfindən Avropa yəhudilərinin kütləvi məhvetmə siyasətini məhz genosid adlandırmışdı. Onun fikrincə, genosid əhalinin qəsdən məhv edilməsi cəhdidir. Soyqırım - etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistemli olaraq tam və ya qismən məhv edilməsidir. Soyqırım - milli mənsubiyyətinə görə dinc əhalinin məqsədli şəkildə kütləvi qətliamıdır. Bəşər tarixi zaman-zaman soyqırım siyasəti kimi bir həqiqətin reallığına şahid olub və olur. Soyqırım hadisələri bəşəri cinayətlər kateqoriyasına aid olan proseslərdir.

Soyqırım… Terrorlar… - günümüzün ən aktual problemləridir. Terror və soyqırım – bu, düşünülmüş kütləvi insan qətlidir. Soyqırımlar… Holokosta - yəhudilərin soyqırımı insanlığa qarşı törənən ən böyük cinayətdir! Xocalı genosidi - XX əsrin sonunda insanlığa qarşı ən vəhşi terrordur. 2001-ci il 11 sentyabr ABŞ-da baş verən hadisə insan qətliamı deyilmi!?… Bəs Bakıda 19 mart 1994-cü ildə metronun partladılması nədir… Adi "xəbər" mətnli insan qətliamımı…

Genosid sözü ilk dəfə İkinci Dünya müharibəsi ərəfəsində yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin tərəfindən işlənib. R.Lemkin faşistlər tərəfindən Avropa yəhudilərinin kütləvi məhvetmə siyasətini məhz genosid adlandırmışdı. Ona görə genosid - "əhalinin qəsdən məhv edilməsi cəhdidir. "Genosid" yunan sözü olub (yunanca "genos" - kök, nəsil, soy, latınca "caedo" - öldürürəm deməkdir) bu iki söz birləşməsindən formalaşıb. "Genosid" termini beynəlxalq hüquqda "qəsdən və sistemli şəkildə dövlətin milli, irqi, dini, siyasi və etnik qrupu tam və hissəvi şəkildə məhv etməsi" kimi işlədilməyə başladı. R.Lemkin bu anlayışı elmə tətbiq etməklə, soyqırımın müəyyən insan qruplarının mövcudluğuna, onun vacib əsaslarının məhvinə doğru yönəlmiş və çox müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, əlaqəli, bəlkə də planlaşdırılmış surətdə həyata keçirilməsini nəzərdə tuturdu [1, s.3].

1945-ci ildə Nürnberq Beynəlxalq Hərbi Tribunalı məhz İkinci Dünya müharibəsinin cinayətlərini, vəhşicəsinə insanlığın məhvinə yönəlmiş belə hadisələri "faşist liderlərinin bəşəriyyət əleyhinə cinayətləri" ittihamı ilə cəzalandırdı. Qeyd edək ki, Nürnberq Tribunalının bu ittiham aktında "soyqırım" termini de yure, yəni hüquqi anlamda deyil, proses və hadisələri təsvir edən anlamda verilmişdir. Nəzərə yetirək ki, 1948-ci il 9 dekabrda BMT tərəfindən "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya (SCQACK) qəbul edildi. Bu Konvensiya 1951-ci il yanvar ayının 12-də 20 ölkə Konvensiyaya üzv olduqdan sonra beynəlxalq hüquqi qüvvə aldı. Buna baxmayaraq həmin dövrdə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən yalnız 2-si razılaşmaya tərəfdar olduğundan dörd onillik ərzində Konvensiya zəif işlək gücdə olaraq qalmışdır. Bu Konvensiya keçmiş SSRİ tərəfindən 1954-cü ildə, Birləşmiş Krallıq tərəfindən 1970-ci ildə, Çin Xalq Respublikası tərəfindən 1983-cü ildə, ABŞ tərəfindən isə 1988-ci ildə ratifikasiya olunmuşdur. Buna görə də bu beynəlxalq hüquqi akt yalnız 1990-cı illərdə artıq işə düşmüşdür. Beləliklə, bəşər tarixində ilk dəfə beynəlxalq hüquqda insan qruplarının milli, etnik, irqi, dini fərqlərinə görə kütləvi məhvinə yönələn cinayətlər soyqırımlar kimi qəbul edildi. Bu Konvensiyanı qəbul edən, ona qoşulan ölkələrin üzərinə bu kimi cinayətlərin qarşısının alınması və belə cinayətləri törədənlərin cəzalandırılması öhdəliyi bir vəzifə kimi qoyulurdu. 1946-cı ildə BMT Baş Assambleyası genosidin

mütləq cəzalandırılmalı olmasını elan edib. Həmin Bəyannamədə göstərilir ki, genosid istər sülh, istərsə də müharibə şəraitində bir fərdin, qrupun və ya dövlətin öz əhalisinə və ya digər dövlətin əhalisinə qarşı yönələn cinayətləri Beynəlxalq Tribunalda mühakimə olunmalıdır.

Bu haqda "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın preambulasında qeyd edilib ki, "soyqırım" yalnız beynəlxalq hüquq üzrə BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət hesab edilmir, həmçinin "bütün tarixi dövrlərdə soyqırım bəşəriyyətin amansız böyük itkisi" hesab edilir. Beynəlxalq hüquq normalarında soyqırım törədən şəxslərin (fərdlərin) cinayəti mühakimə olunmalı və cəzalandırılmalıdır. Beynəlxalq hüquq "soyqırım cinayəti" terminini müəyyənləşdirməklə, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də açıqlayır. "Soyqırım cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında" Konvensiyanın 5-ci maddəsinə əsasən "iştirakçı dövlətlər soyqırım cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbir görməlidir". Konvensiyanın 6-cı maddəsinə görə "həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayanda, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir" [2].

Beynəlxalq Cinayət Məhkəməsi (BCM) isə yalnız 1 iyul 2002-ci ildə və ondan sonra törədilmiş cinayətləri mühakimə edə bilər.

Bəs elmi sözlük lüğət və ya ensiklopediyalarda bu anlayış necə verilir? Belə ki, "soyqırım sözü" – soyqırım cinayəti, genosid cinayəti, gizli bir planın icrası sürətilə milli, etnik, irqi və ya dini bir qrupun tamamilə və ya qismən yox edilməsi məqsədilə bu qrup üzvlərin öldürülməsi, fiziki və ya digər ruhi ağır zərərə məruz qalması, qrupun tamamilə və ya qismən yox edilməsi nəticəsində ortaya çıxacaq şərtlərdə yaşamağa məcbur edilməsinin həyata keçirilməsidir [3, s.447].

"Soyqırım" – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növüdür. Soyqırımın mənası Azərbaycan Cinayət Məcəlləsinin 103-cü maddəsində belə nəzərdə tutulmuşdur. "Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərinin öldürülmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmədə ifadə olunur" [4, s.944].

Bəs genosid nədir? Genosid (yunanca genos - qəbiləni, nəsli, tayfanı; lat. cadere - məhv etmək, öldürmək) ayrı-ayrı əhali qruplarının irqi, milli yaxud dini motivə görə əhalinin ayrı-ayrı qruplarının kütləvi sürətdə məhv edilməsidir [5].

Genosid cinayətləri faşizmi, irqi və milli ədavəti, ali irqlərin "aşağı" irqlər üzərində hökmranlığını və s. təbliğ edən mürtəce "nəzəriyyələrə" əsaslanır. Burada sual yaranır: hansı halda kütləvi insan qətllərinə qırğın, hüquqi dildə insanlıq əleyhinə cinayət deyilir, hansı halda genosid? Həyatda adi insanlar üçün mühüm əhəmiyyəti olmasa da, bu yanaşma beynəlxalq hüquqda vacib əhəmiyyət kəsb edir. Belə ki, London Universitetinin professoru Philippe Sandsa görə "insanlıq əleyhinə cinayət və genosid" konseptləri arasındakı adi fərqlər belədir:

a) insanlıq əleyhinə cinayət deyəndə fərdlərin kütləvi sayda qətli, məhvi nəzərdə tutulur. Sistematik, davamlı kütləvi qətllər varsa, bu, insanlıq əleyhinə cinayətdir;

b) genosidə yanaşma isə bir qədər fərqlidir. Belə ki, genosid məsələsində insanların kütləvi qətli nəzərdə tutulmur, çünki həm də bütöv qrupların məhvi nəzərdə tutulur. Başqa sözlə, məhz hər hansı bir qrupa aid olduğu üçün öldürülən çoxlu sayda insanın qətli genosiddir.

Bu baxımdan bu iki yanaşmanın da fərqli tərəfləri vardır. Birinin məqsədi fərdləri qorumaqdır, digərinki isə qrupları.

Bu mənada yenə sual yaranır ki, bütün kütləvi qırğınlara genosid demək olarmı?

Yenə Ph.Sandsa müraciət edək. Ph.Sands yazır ki, "Genosid terminin tərəfdarları iddia edirlər ki, insanları, sadəcə fərd olduğu üçün qrup halda məhv etmirlər. Onları sırf hansısa dini, irqi və

ya milli qrupa aid olduqlarına görə qırırlar. İnsanlıq əleyhinə cinayət termininin tərəfdarları isə inanırlar ki, insanları sırf hansısa qrupa aid olduqlarına görə yox, bir fərd kimi qəbul edib qorumaq lazımdır. Təbii ki, yalnız bu yolla kütləvi qırğınların qarşısını almaq olar [6].

Ph.Sandsın da açıqlamasından görünür ki, bu iki anlayışın, yəni soyqırım və genosidin sanki bir-birinə qarşı olmasına baxmayaraq, 1998-ci ildə Romada Beynəlxalq Cinayətlər Məhkəməsini quranda ağır cinayətlər arasına genosidi də, insanlıq əleyhinə cinayəti də saldılar. Çünki bu cinayətlərə görə məsuliyyət bölgüsündə də fərqlər vardır.

Bəs bu məsuliyyət fərqi nədir? Təbii ki, insanlıq əleyhinə cinayət deyəndə bu cinayəti törədən və törətməyə əmr verən ayrı-ayrı fərdlər məhkəməyə çıxarılır. Genosid ittihamı isə fərqlidir. Genosiddə fərdlər deyil, bir grupun digər qrupu məhv etməsi, yox etməsindən bəhs olunur. Burada məhz qurban olan qrup sübut etməlidir ki, genosid törədən, ittiham olunan şəxslər bu prosesi sırf öz istəkləri ilə həyata keçirməyiblər. Bu bir qrupun siyasəti olub. Məhz bu səbəbdən qərar verəndə tarix də, münaqişəni və ya cinayəti yaradan səbəblər, onun keçmiş tarixi-siyasi faktorları da diqqətlə araşdırılmalıdır. Çünki Ph.Sandsın qeyd etdiyi kimi : "genosid kimi ittihamlar yanlış anlamlara və qruplararası ədavət kimi fəsadların yaranmasına səbəb ola bilər [7].

Məlumdur ki, İkinci Dünya müharibəsi illərində hitlerçilər işğal etdikləri ölkələrdə əhaliyə qarşı kütləvi miqyasda genosid cinayətləri törətmişlər. Genosidin cəzalandırılması nüfuzlu Beynəlxalq Hərbi Tribunalların (Nürnberq və Tokio proseslərinin) Nizamnaməsində, habelə "Genosid cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" Beynəlxalq Konvensiyada müəyyən edilsə də, BMT 1965-ci ildə "İrqi seçkiliyin (apartheidin) bütün formalarının ləğvi haqqında" Konvensiyanı da qəbul etmişdir [4, s.425].

Bu nöqteyi-nəzərdən də hər hansı tarixi mərhələdə olan hadisələrin hansının soyqırım, hansıların isə daha az kriminal və ya qeyri-insani əməl olduğunu və ya genosid olmasını müəyyən etmək mürəkkəb prosesdir. Soyqırım ittihamlarının, genosid məsələsinin cərəyan etdiyi hər bir hadisədə müxtəlif tərəflərin mövqelərini məhz faktların çox müxtəlif cəhətlərini təşviq etməklə nəzərə alırlar. Hadisənin şərhləri, təfərrüatları müzakirə edilərək qərar çıxarılır. Sözsüz ki, soyqırım ittihamı tam aydın olmur və demək olar ki, həmişə fikirlərdə ziddiyyətlər olur, mülahizə və qənaətlərdə dolaşıqlıq yaranır, yanaşmalar çarpazlaşır. Beləliklə də, uzun illər "soyqırım" və "genosid" terminə yanaşmada hadisələrə qiymət verilməsi çözülmür.

Cinayətlər içində ümumi hökmlər var ki, onlara da kütləvi qətllər və insan alveri də daxildir. Soyqırım da beynəlxalq cinayətlər silsiləsindən olub ən çox müharibə, immiqrant qaçaqçılığı və terrorizm kontekstində ehtiva olunur.

Soyqırım sözünə bir termin kimi tərif verilməsi və ya izahı, qeyd etdiyimiz kimi, müxtəlif sözlük və lüğətlərdə demək olar ki, təxmini eyni məzmunu ifadə edir. Bəs tətqiqatçılar bu haqda nə yazır? M.Hassan Kakar çoxsaylı təcrübi araşdırmalarından sonra "Sovet müdaxiləsi və əfqan cavabı: 1979-1982" kitabında göstərir: "Soyqırımın beynəlxalq tərifi çox məhdud verilmişdir. Çünki bu anlayışa "mütləq siyasi və ya soyqırım törədənlər tərəfindən müəyyən olunan hər hansı bir qrup" ifadəsi də əlavə edilməlidir. M.H.Kakar məhz bu yerdə Frenk Çok və Kurt Conassondan nümunə verərək yazır: "Soyqırım - soyqırımı törədənin müəyyənləşdirdiyi bir qrupun dövlət və ya başqa hakimiyyətin məhv etməyə çalışdığı birtərəfli kütləvi qırğınının bir formasıdır". Beynəlxalq hüququn soyqırıma verdiyi hal-hazırkı tərifllə qane olmayan bəzi tədqiqatçılar da qeyd edirlər ki, bu tərifə o dövrdə məhz keçmiş SSRİ-nin rəhbəri olmuş Stalinin qismən təsiri olub, buna görə də orada "siyasi qruplar" sözü nəzərdə tutulmayıbdır [8].

Digər bir tədqiqatçı, Havay Universitetinin (ABŞ) professoru R.C.Rammel "soyqırım" terminin iki müxtəlif aspektdə məna şərhini göstərir. Birincisi, ənənəvi məna, yəni hakimiyyət tərəfindən insanların milli, etnik, irqi və ya dini mənsubiyyətinə görə qətli, məhv edilməsidir. İkinci, leqal məna, beynəlxalq razılıqla Konvensiyada (SCQACK) ifadə edilən termindir. Belə ki, bura həm də

gender stratifikasiyası baxımından gendersidi - doğumların qarşısının alınması, yəni abortlar, uşaqların zorla bir qrupdan digərinə köçürülməsi kimi öldürməklə əlaqəli olmayan hərəkətlər də aiddir. Bu isə məhz qrupun məhvinə yönələn hərəkətdir. Əsas şərh, ənənəvi məna izahıdır. Bundan əlavə, bura siyasi tənqidçilərin də hakimiyyət tərəfindən öldürülməsi və digər beynəlxalq səviyyəli qətllər də daxildir. Bu qarışıqlığı ayırmaq üçün R.Rammel üçüncü bir izah üçün "demosid" ("democide") terminindən istifadə etmişdir. Demosid sözü yunan mənşəli olub, "xalq" və "öldürmə" sözlərindən ibarətdir. Bu anlayışı R.Rammel belə izah edir: "Demosid" ölkədəki bir iqtidarın qərarları nəticəsində reallaşan (genosid, soyqırım), politisid (siyasi qırğın) və kütləvi qiyamlara daxil olan hər cür ölümdür. Soyqırım anlamının hüquqi tərifi içində "müxtəlif ölümlər də" bu anlamın içində yer alır. Digər tərəfdən, dövlətlərin döyüşlərdə öldürdükləri, mühakimə etmədən edam etdikləri insanlar və ya da əsgərlərin bir hərbi hədəfə qarşı edilən silahlı hücumu ilə reallaşan hər cür qeyri-ölümləri demosid sayılmaz. R.Rammel hökumətlərin yol açdığı ölümlərlə bağlı 8000 hesabatı tədqiq etmişdir. O, XX əsrdə demosidlə bağlı 262 milyon ölümün reallaşdığını hesablamışdır [9].

Politisid – bu, əsasən, özündə siyasi qırğınları ehtiva edir.

Bu terminlə paralellikdə etnik təmizlik - bir etnik qrupa mənsub insanların zorla yerindən edilməsini məqsəd qoyan, dəyişik siyasəti ifadə edir. Ümumiyyətlə, zorla köçürülmə müəyyən bir əhalinin yerini dəyişdirmə kimi tətbiqlərin nəticəsində ortaya çıxır. Bu termin, yəni politisid də etnosid və genosid ilə yaxından əlaqəlidir [10]. Bir sözlə, etnosid - cəmiyyətdə etnik monolitliyi, müxtəlif etnik köklərə malik insanların bir-birindən fərqlənmədiyini iddia edən fikrin cəmiyyətə təlqin və tətbiq edilməsindən ibarət şüurlu siyasətdir.

Digər bir tədqiqatçı Adam Cons "Soyqırım: Ətraflı giriş" kitabında yazır: "Tarix boyu insanların başqa qrupları yad kimi görmə qabiliyyətləri olub". A.Cons fikrinə davam edərək F.Cok və K.Conassondan sitat gətirir: "Tarixi və antropoloji insanların özləri üçün həmişə bir adları olub. Əksər hallarda bu ad "xalq" olub və hər hansı yolla özlərindən daha keyfiyyətsiz hesab etdikləri başqa adamlara qarşı bu ad üzərində sahibliklərini yaradıblar. "Xalq" və bəzi başqa cəmiyyətlər arasındakı fərqlər din, dil, metod, adətlər və s. ilə bağlı xüsusilə böyük olduğundan digərləri adi insana nisbətdə daha az qiymətləndirilib – kafirlər, barbarlar və ya hətta heyvanlar" [11, s.28].

A.Cons fikrini belə ifadə edir: "Çox az xalq başqa bir qrupla daha rahat yaşaya bilir, çünki yadlar insandan daha aşağı qiymətləndirilir. Buradan isə qısa bir arqument əldə edilir ki, bizim yaşaya bilməmiz üçün onlar və ya biz məhv edilməliyik. Bu qiymətləndirmədən sonra A.Cons belə davam edir: "Frenk Çok və Kurt Conassonun erkən araşdırmalarında qeyd edildiyi kimi çətinlik ondadır ki, belə tarixi qeydlərin mövcudluğu ikibaşlı və qeyri-mötəbərdir. Belə ki, bu gün tarix bəzi "sadiq", "obyektiv" faktlarla, onu yazanın öz rəhbərini tərifləmək məqsədinə xidmət edən hesablamalarına və öz fikirlərinin daha ali olmasını əsaslandırmaqla yazılır" [11, s.29].

Təhlillərdə bir anlam da var: gendersid. Bəs gendersid nədir? Soyqırım (genosid) və cinslərin öldürüldüyü hal gendersidi fərqlidir. Uşaqlar (xüsusilə qızlar) və qadınların Fukididin "Melian dialoqu"nda məhz göstərdiyi faktlar gendersid məsələsini ehtiva edir.

Digər bir tədqiqatçı Devid Stannard özünün "Amerika holokostu" əsərində göstərir: "Amerikanın yerli əhalisinə qəsdən etnosid kimi - yəni bilərəkdən xəstəliklərin bioloji silah olaraq tətbiq olunmasıdır". Bu ittiham ilk dəfə Ceffi Amhorstün başçılıq etdiyi Britaniya qüvvələrinə qarşı irəli sürülüb. Hər bir halda onun komandanlığı ilə bakteroloji hərbin tətbiqinə aid cəmi bir sənəd var. D.Stannard yazır: "Amerikanın yerli əhalisinin məhvi avropalılar və onların varisləri tərəfindən törənən "soyqırım zəncirində" dünya tarixinin ən kütləvi soyqırım aktıdır" [12].

Bəs etnosid nədir? Avropa dillərində etnoside və ya cultureside ya da cultural genocide deyilən və Azərbaycan dilində "boyqırım" adlandırıla bilən bu anlayış bir xalqın milli varlığını, milli kimliyini, onu başqalarından ayıran milli və maddi-mənəvi kultural dəyərlərini zorakı əritmə siyasəti ilə yox etməyə yönəlik dövlət siyasətini bildirir. Dünyadakı boyqırım (etnosid) faktları içərisində

azərbaycanlıların adı göstərilməsə də, bir gerçəklikdir ki, bütün dünya üzrə boyqırımın ən klassik örnəklərindən biri panfaşizm şovinizminin azərbaycanlılara qarşı zorakı əritmə siyasətidir.

Bəs "holokost" termini nə vaxt meydana çıxdı? Bu ifadə İkinci Dünya müharibəsində Hilterin başçılığı ilə Almaniyanın Milli Sosialist Alman Fəhlə Partiyası tərəfindən planlaşdırılan və həyata keçirilən məhv proqramının bir hissəsi kimi, təxminən 6 milyon Avropa yəhudisinin öldürülməsini ifadə etmək üçün istifadə olunur. Alimlərin əksəriyyəti holokost anlayışına başqa qrupları daxil etmir, bu termini yalnız yəhudilərin soyqırımı üçün saxlayırlar. Faşistlər bunu "yəhudi məsələsinin son həlli" adlandırırlar. Dünyada baş verən soyqırım aktlarından amerikalıların hindulara, ermənilərin türklərə və azərbaycanlılara, almanların yəhudilərə, fransızların əlcəzairlilərə qarşı təcavüzünü göstərmək olar. Nəzərə yetirək ki, Yel Universitetindən Ben Kiernan Üçüncü Pun müharibəsinin sonunda Karfagenin dağılmasını "ilk soyqırım" kimi qələmə verir [13].

Hər il aprelin 24-də məskunlaşdığı ərazini özününküləşdirən, bir xalq kimi özləri də qondarma, yalan millət olan ermənilər saxta və uydurma "erməni soyqırımı"nı qeyd edirlər. Həqiqətdə isə, mahiyyət və xarakterinə görə o dövrdəki hadisələrə hüquqi, siyasi və tarixi, mənəvi kontekstdən yanaşsaq bu əsassız, yalan ifadə olan "erməni soyqırımı" sözü özü saxta və qondarmadır. "Erməni soyqırımı" sözü real həqiqətdən uzaq, boş və uydurma bir cəfəngiyyat üzərində yazılan yalan bir tarixi saxtalaşdırmadır.

Digər bir fakta nəzər salaq. Bəs 1918-ci il 31 mart hadisələrinin əsl həqiqəti nədir? Bu erməni – daşnak birləşməsinin qanunsuz siyasəti, yəni müasir hüquqi sənədlər və qanunvericilik aktlarına əsasən dövlət ərazisində məskunlaşan bir qrup əhalinin onun konstitusiya quruluşuna qarşı etdiyi qiyamdır.

Nəzərə yetirək ki, Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırım Günü kimi qeyd olunur.

Bəs Xocalı faciəsi nədir? Xocalı soyqırımdır! XOCALI kütləvi insan qətliamıdır! Bu Beynəlxalq cinayət kateqoriyasına aid olan soyqırımdır. Professor Əli Həsənovun fikri ilə yanaşsaq: "Ermənistanın işğalçılıq siyasəti Azərbaycan xalqının dinc həyatına, mənəvi-psixoloji sabitliyinə, intellektual enerjisinə qarşı yönəldilmiş məqsədyönlü təcavüzdür" [14].

Azərbaycanlılar zaman-zaman qonşu erməni daşnakları və onların havadarlarının köməyi nəticəsində təcavüzə - kütləvi insan tələfatına məruz qalmışlar. Respublika Prezidenti İlham Əliyevin məntiqi ilə desək: "XX əsrin sonunda bütün dünyanın gözü qarşısında törədilmiş, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifəsi olmuşdur. Xocalı soyqırımı törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir" [15].

Soyqırım və genosid anlayışlarına siyasi-hüquqi kontekstdə nəzər yetirdik. Bəli, bütün terminlər, o terminlərdən doğan digər anlamlar da hüquqi mətndə aşkar edir ki, istər soyqırımlar, istər genosid faktı insanlığa qarşı törədilən terror aktıdır!

Açar sözlər: genosid, politisid, demosid, etnosid, gendersid, faciə, etnik qrup, terror

İstifadə edilmiş ədəbiyyat

1. Soyqırım cinayəti. Beynəlxalq aktlar, normativ sənədlər, müraciət və şərhlər toplusu. Bakı: 2010
2. www.wikipediya.soyqırım.az)
3. Türkce-azerice hüquq lüğəti. Türkiye: 2013, 570 s.
4. Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı: Qanun, 2007, 1108 s.
5. http://www.google.az/search?redir_esc və ya azerdict.com

6. http://www.azadlıq.orq/content/article/2493331/ontmr
7. Ph.Sands CV. Matrix champers.18 november 2009// http://en.m.wikipedia/orq/wiki/phillipe-sands
8. M.Hassan Kakar. Afghanistan. The Soviet İnvasion and the Afgan Response, 1979-1982. Berkeley: University of California press, 1995
9. http://liberteryen.orq/2010/12/demosid
10. http://tr.m.üikipedia.orq/üiki/Etnik -temizlik
11. F.Çok və K.Conasson. Soyqırımın tarixi və sosiologiyası. 1990, http://m.vk.com/wall-435619-27_310
12. http: //az. M.üikipedia. orq/üiki/soyq%c4%
13. http: //okamil.wordpress. Com/2012/07/05/
14. http://news.milli.az/ politikcs/325964.html.22.02.2015
15. http://az.prezidenti.az/articles/4388

Рена Мирзазаде

МЕЖДУНАРОДНО-ПРАВОВОЙ И ПОЛИТИЧЕСКИЙ ВЗГЛЯД НА ПРЕСТУПЛЕНИЕ ГЕНОЦИД

Резюме

В статье дается толкование термина «геноцид». Раскрываются значения таких терминов, как «этносцид», «культуроцид», «политицид», «демоцид», «гендерцид». Автор подчеркивает, что международное сообщество осуждает все виды преступлений, направленных на уничтожения человечества. Автор считает понятие «армянский геноцид» вымыслом и фальцификацией. Говоря о Ходжалинском геноциде, о его результатах, автор рассматривает его как одно из самых жестоких в истории человечества.

Ключевые слова: геноцид, политицид, демоцид, этноцид, гендерцид, трагедия, этническая группа, террор

Rena Mirzazade

INTERNATIONAL LEGAL AND POLITICAL VIEW ON THE PROBLEM OF GENOCIDE

Summary

An interpretation of the term "genocide" is given in the article. The significance of such terms as "ethnocide", "culturocide", "politicide", "democide", "genderocide" is revealed. The author emphasizes that international community condemns all the kinds of crimes directed at the destruction of mankind. The author considers the concept of "Armenian genocide" to be fiction and falsification. Speaking about Khojaly genocide and its outcomes, the author considers it as one of the most violent in the history of mankind.

Keywords: genocide, politicide, democide, ethnocide, gendercide, tragedy, ethnic group, terror

UOT – 1(09)

Elnur Rüstəmov
AMEA Fəlsəfə və Hüquq İnstitutu

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ VƏ QƏRB EKZİSTENSİALİZMİ

Məqalədə görkəmli Azərbaycan dramaturqu M.F.Axundov və ekzistensializm fəlsəfəsinin nümayəndələrindən olan K.Yaspersin dünyagörüşü müqayisəli təhlil edilir. Hər iki mütəfəkkirin dünya, cəmiyyət, azadlıq, həyat, humanizm, elm haqqında fikirləri araşdırılır. Müəllif mövcud fikirlərlə razılaşaraq bu qənaətə gəlir ki, M.F.Axundzadə bütün şüurlu həyatını Şərq xalqlarını oyatmaq, onları ictimai və milli intibah yoluna çıxarmaq uğrunda mübarizə işinə, onun maarifləndirməsinə həsr etmişdir. K.Yaspers kimi M.F.Axundzadə də ictimai inkişafın səbəbini cəmiyyətdən kənarda deyil, cəmiyyətin özündə axtarırdı.

Bəşər tarixi boyu insanlar öz mövcudluğunu, daha doğrusu, təbiətdəki digər canlılardan fərqli yaşam, duyum tərzinə malik həyatları olduğunu təsdiq etməyə çalışmışlar. Bunun özü isə düşüncə ilə bağlı bir məsələdir. Bu səbəbdən də mütəfəkkirlər zaman-zaman həyatın anlamı üzərində müxtəlif mülahizə və yanaşmalar ortaya qoymuşdular. Onu da nəzərə almaq lazımdır ki, hər bir filosofun dünyagörüşünün formalaşmasına yaşadığı dövrün sosiomədəni təsiri danılmazdır. Çünki filosof, sosial şəraitin intellektual məhsulu kimi bəşəri mədəniyyətin dəyərlərinin daşıyıcısıdır. Düşünən insan sivilizasiyanın obyektiv zərurətini həyatı ilə uyğunlaşdırmağa çalışır. Mirzə Fətəli Axundzadə də belə mütəfəkkirlərdən olmuşdur. Məqalədə biz M.F.Axundzadə yaradıcılığı ilə Qərb ekzistensializminin ortaq nöqtələrinə diqqətimizi yönəldərik. Ekzistensializm cərəyanının nümayəndələrinin həyata baxış tərzi ilə Axundzadə yaradıcılığı arasında oxşar cəhətlər daha çoxdu. Biz, konkret olaraq bu məsələdə ekzistensializmin ən böyük nümayəndəsi Karl Yaspers və M.F.Axundzadə üzərində fikrimizi cəmləşdirməyə çalışarıq.

M.F.Axundzadə mədəni tərəqqi, müasirləşmək yolu ilə azadlığa nail olmağın mümkünlüyünə inanırdı. Bu inam Axundzadə yaradıcılığında qırmızı xətt kimi keçir. O özünün məşhur komediyalarını, "Kəmalüddövlə məktubları" adlı fəlsəfi traktatını, eləcə də digər əsərlərini bu məqsədlə yazıb yaratmışdır. Əlifba islahatını da bu niyyətlə aparmaq istəmişdir. Müasirləşməyi həyatının başlıca qayəsi hesab edən M.F.Axundzadə cəmiyyətə dair baxışlarında maarifçilikdən demokratik respublikaya qədər yüksəlməsi yeni dövr Azərbaycan ictimai-fəlsəfi fikrinin ən böyük nailiyyəti, uğuru idi. Mütəfəkkir ilk dəfə olaraq Azərbaycan ictimai-fəlsəfi fikrinə "proqres", "sivilizasiya", "fanatik", "despot", "patriot", "politika", "liberal", "demokratiya", "konstitusiya", "respublika", "parlament" və s. bu kimi ifadələrin izahını verməklə cəmiyyət haqqındakı baxışlara dönüş etmiş oldu. M.F. Axundzadə bütün şüurlu həyatını Şərq xalqlarının çox əsrlik cəhalət yuxusundan oyatmaq, onları ictimai və milli intibah yoluna çıxarmaq uğrunda mübarizə işinə həsr etmişdir [3, s.24]. O, ağır irtica və istibdad şəraitində azadlıq, demokratiya və ictimai tərəqqi bayrağını yüksəklərə qaldırmışdır.

Eyni bir yanaşmanı biz Karl Yaspers fəlsəfəsində də görürük. Yaspers qeyd edirdi ki, insanın özü, onun düşüncəsi, fəaliyyəti, epoxası və dünyası, gündəlik həyat tərzi, onun daxili gücünün göstəriciləridir, - əgər sən həmin insanın düşündüklərini dərk etmək və onunla birlikdə fikirləşmək istəyirsənsə, bütün bunları kənara qoymaq olmaz. Özünüdərk fərdin azadlığının ifadəsidir ki, bu tezis də bildiyimiz kimi ekzistensializm fəlsəfi cərəyanının özəyini təşkil edir. Ekzistensializm I Dünya Müharibəsindən sonra Avropada yaranan mənəvi boşluğa bir cavab olaraq ortaya çıxmışdı. Ancaq onun rüşeymləri daha əvvəllərə gedib çıxırdı. M.Haydegger "Avropa nihilizmi" əsərində sübut etməyə çalışırdı ki, presokratik fəlsəfədən sonra fəlsəfə, daha doğrusu, Avropa fəlsəfəsi lazımi istiqamətdə getməmişdir, nəticədə o özünün əsas vəzifəsi olan varlığı tədqiq etmək əvəzinə başqa problemlərlə məşğul olmuşdur. Onun əqidəsincə, Protoqor "insan hər şeyin meyarıdır – mövcud olanların və mövcud olmayanların" tezisini irəli sürməklə fəlsəfə üçün baş xətti müəyyənləşdirmişdir, la-

kin Avropa fəlsəfəsi bu xətdən uzaqlaşmaqla "nihilist" yol seçmişdir. Bununla insan mövcudluq kimi, subyekt kimi deyil, mahiyyət kimi axtarılmışdır. Yeni dövrdən başlayaraq fəlsəfə üzünü subyektə çevirməklə, subyektivliyi kəşf etməklə bu nihilizmi aradan qaldırmaq istiqamətində ciddi addımlar atmışdır [5, s.261-314].

Ekzistensializm varlıq, mövcudluq kateqoriyaları üzərində qurulan ontoloji sistemdir. Bu fəlsəfənin "mövcudluq fəlsəfəsi" və ya "ekzistensializm" adlandırılması da bununla əlaqədardır. Ekzistensializm Qərbi Avropa fəlsəfəsi tarixində xüsusi xidmətə malik olan dünya sistemidir. Bu təlim, qeyd edildiyi kimi, dərin köklərə malikdir, eyni zamanda dünyada "gələcəyin fəlsəfəsi" kimi çox geniş yayılmışdır. Tarixən varlıq anlayışı mövcud olan nə varsa – maddi və mənəvi olan hər şeyi əhatə edən kateqoriya kimi işlənmişdir. Sözün klassik mənasında dünya mahiyyət və mövcudluğun vəhdəti kimi anlaşılmışdır. Lakin ekzistensializm bu dixotomiyaya xüsusi məna verirdi. Varlığı, mövcudluğu önə çəkirdilər. Ekzistensialistlər qeyd edirdilər ki, varlıq ancaq insan mövcudluğu, həyat, yaşama, bəşəri mövcudluq, düşünənin, yaşayanın, fəaliyyət göstərənin mövcudluğudur. "Ekzistensialist fəlsəfənin dilində mövcudluq həmişə və mütləq bəşəri varlığı ifadə edir" [2, s.29].

Ekzistensialistlərdə mütləq mövcudluqdan söhbət gedir, bu isə düşünənin, bilavasitə yaşayanın, fəaliyyət göstərənin, haldan-hala düşənin, həyəcan, qorxu, ehtiras, sevgi və s. halları keçirən insanın düşdüyü haldır ki, onu ekzistensiya adlandırırlar. Dünyada insana şeylər, proseslər, başqa fərdlər lazımdır, lakin bunlara o öz münasibətini göstərmək üçün mütləq mövcud olmalıdır. İnsana bilik lazımdır, bu mənada bilik, idrak haqqında elm kimi fəlsəfə və emprik elmlər də zəruridir. Lakin bütün bunlardan istifadə etmək və deməli,yaşamaq üçün insan mövcud olmalıdır. İnsan bilikdən istifadə edərək öz mövcudluğunu zənginləşdirir, bununla o özünə məxsus varlığı istehsal və təkrar istehsal edir. Bu mənada mövcudluq bir sirdir, fəlsəfə bu sirli, müəmmalı dünyaya can atır, bu dünya isə əbədi olaraq qapalı qalacaqdır; fəlsəfə ona çatsaydı "dərhal məhv olardı" [6, s.338]. Fəlsəfə ancaq insanda sirli qalan bu dünyaya onu suala tutmaq, müxtəlif hallarda təsvir etmək yolu ilə can atır. Ona görə də Yaspers yazırdı ki, "varlıq mənim yaradıcılığımdır" [6, s.432], "mən dərk etdiyim şey deyiləm" [6, s.388], "insan tamamlana bilməz, mövcud olmaq üçün o zamanda olmalıdır" [6, s.411], ona görə də "həmişə insan nədir sualı qoyulmalıdır" [6, s.412].

Eyni bir problemin fərqli formada qoyuluşuna biz M.F.Axundzadə yaradıcılığında da rast gəlirik. Mütəfəkkir təbiətdə olduğu kimi cəmiyyətdə də ümumi bir inkişaf olduğunu qeyd edirdi. Filosof ictimai inkişafın səbəbini cəmiyyətdən kənarda deyil, cəmiyyətin özündə axtarırdı. Onun fikrincə, insan cəmiyyəti "vəhşilik aləmindən" "mədəniyyət aləminə" qədəm qoyub daim tərəqqi yolu ilə inkişaf etmişdir. Bu inkişafın mühüm şərtləri elmin və maarifin öyrənilməsi, xalqlar arasında ittifaq, əmin-amanlıq, hüquq və qanunların insanlar tərəfindən gözlənilməsidir. Şərq xalqlarına nisbətən Avropa ölkələrinin tərəqqisi onların öz alim və filosoflarının sözünə baxib vaxtında elm öyrənməsi və sənayenin müxtəlif sahələrini inkişaf etdirməsidir. Avropa ölkələrinin tərəqqisini görən və Qərb filosoflarının, tarixçilərinin və iqtisadçılarının əsərlərini oxuyan Axundzadə oradakı demokratiya, mədəniyyət, tərəqqi haqqında fikirlərini söyləmişdir. O, qeyd edirdi ki, azadlıq hər adamın öz şəxsiyyət və əmlakının sahibi olmaq hüququdur, bildiyi kimi ibadət etmək , başqalarının azadlığını pozmayınca qanundan qorxmaq vəsiləsi olmadan fikirləşmək, danışmaq, işləmək, tək və ya birlikdə fəaliyyət göstərmək hüququdur.

Axundzadə bütün həyat və fəaliyyətini müsəlman xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq işinə həsr etmişdir. O dövrdə Şərq xalqlarının iqtisadi, elmi və mədəni sahələrdə tənəzzülü böyük mütəfəkkiri ciddi narahat edir, düşündürürdü. Bu gerilikdən xilas olmaq üçün çıxış yollarını axtaran filosof cəmiyyətin siyasi və mədəni həyatında əsaslı dəyişikliklər aparılmasını zəruri sayırdı [4, s.333].

Axundzadə humanizmin, şəxsiyyət azadlığı fikrinin atəşli carçısı olmuş, bu amal uğrunda ardıcıl mübarizə aparmışdır. Axundzadə istəyirdi ki, həmvətənləri "müdhiş despotizm" zülmündən azad olub, həyata ayıq gözlə baxa bilsinlər. Azadlıq ideyaları onun dünyagörüşünün mühüm ideya mənbəyi olmuşdur. Mütəfəkkirin fikrincə, xalq öz taleyinin sahibi olmalıdır, dövlət də xalqın mənafeyinə xidmət etməlidir. O, xalq dedikdə, birinci növbədə, zəhmətkeş kütlənin, əzilənləri nəzərdə

tuturdu. Ona görə də həm publisistik, həm də bədii əsərlərində onların mənafeyini müdafiə edir və bu yolda mübarizə aparırdı. Axundzadənin "hünər və şəxsi ləyaqət olmadan yüksək dərəcələrə çatmaq heç də şərafət deyil, bəlkə rəzalət və həqarətdir" fikri bu gün də öz aktuallığını itirmir [3, s.29].

Cəmiyyətin və insanın tərəqqisi üçün bütün həyatı boyu yorulmadan mübarizə aparan Axundzadə yazırdı; "Mən... bəşəriyyəti sevən bir insanam, hər kəs insanları sevib, mədəniyyətin tərəqqisinə kömək edərsə, mən onun dostu və tərəfdarıyam". Mən bəşəriyyətin düşməni olan və mədəniyyətin inkişafına əngəl törədənlərdən kənarda, uzaqdayam" [1, s.158].

M.F.Axundzadə "Aldanmış kəvakib"əsərində göstərir ki, xalqın qanını sorub dövlət işində heç nə anlamayan Şah Abbas dövründə Yusif Sərrac kimi ağıllı, bacarıqlı, dövlət işini qanan və hakimiyyətə yarayan adamlar da vardır. Bütün hallarda cəmiyyətin idarəedilməsi sistemində maarifləmməyi irəli sürürdü. Eyni yanaşmanı biz Ekzistensializm cərəyanında eləcə də Yaspersin yaradıcılığında rast gəlirik.

Açar sözlər: M.F.Axundzadə, K.Yaspers, cəmiyyət, azadlıq, humanizm, elm

İstifadə olunmuş ədəbiyyat

1. Axundov M.F. Əsərləri 3 cilddə. III cild. Bakı: Elm, 1988, 386 s.
2. Больнов О.Ф. Философия экзистенциализма. СПб: Линь, 1999, 218 с.
3. Köçərli F. M.F.Axundovun dünyagörüşü. Bakı: Elm, 1999, 122 s.
4. Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: İrşad, 1994, 340 s.
5. Проблема человека в западной философии. Под общей редакцией Н.Панова. М: Прогресс, 1988, 532 с.
6. Ясперс К.Т. Смысл и назначение истории. М: Республика, 1994, 527 с.

Эльнур Рустамов

МИРЗА ФАТАЛИ АХУНДЗАДЕ И ЗАПАДНЫЙ ЭКЗИСТЕНЦИАЛИЗМ

Резюме

В статье автор проводит сравнительный анализ мировоззрения видного азербайджанского драматурга М.Ф.Ахундзаде и известного представителя французского экзистенциализма К.Ясперса. Изучаются мысли двух мыслителей относительно мира, общества, свободы, жизни, гуманизма, науки.

Ключевые слова: М.Ф.Ахундзаде, К.Ясперс, общество, свобода, гуманизм, наука

Elnur Rustamov

MIRZA FATALI AKHUNZADEH AND WESTERN EXISTENTIALISM

Summary

The outlook of the eminent Azerbaijani dramatist M.F.Akhunzadeh and the representative of the existentialist philosophy K.Yaspers is comparatively analyzed in the article. The thoughts of two thinkers about the world, society, freedom, life, humanism are investigated.

Keywords: M.F.Akhunzadeh, K.Yaspers, society, freedom, humanist, science

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

УДК – 331

Гюльнара Гаджиева
Азербайджанская Академия Труда и Социальных Отношений, д.ф.э., доцент

ОБРАЗОВАНИЕ КАК ФАКТОР ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ТРУДОВОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В статье исследуется роль интеллектуального потенциала страны в рыночной системе экономики. В решении социально-экономических проблем важная роль в формировании способностей к труду принадлежит профессиональному образованию. Составной частью общественного прогресса, увеличения объема продукции, роста производительности труда является повышение уровня образования. Здесь анализируется образовательный уровень населения и разработаны рекомендации по их совершенствованию.

Роль интеллектуального потенциала страны, как движущей силы экономического развития, в рыночной системе экономике, с каждым днем растет. В решении социально-экономических проблем важная роль в формировании способностей к труду принадлежит профессиональному образованию. Составной частью общественного прогресса, увеличения объема продукции, роста производительности труда является повышение уровня образования. Отдача от использования квалифицированного труда увеличивается повышением уровня образования. Таким образом, между образованием и производительностью труда существует тесная связь. Повышением уровня образования, работник быстрее осваивает новую специальность, занимаясь над достижением высокого уровня квалификации.

Следует отметить, что в рыночных условиях наблюдалась тенденция отхода от социалистического образования к совершенно новому, в результате чего появились новые виды государственных и негосударственных учебных заведений.

Анализируя образовательный уровень населения можно сказать, что за период 2000-2013 гг. он имел тенденцию к росту. Так, если в 2000 году на 10 тыс. населения подготовка специалистов высшими учебными заведениями составлял 30 чел., то в 2013 году этот показатель составил 36 чел., т.е. вырос на 20%. В то же время специалисты подготовленные средне специальными предприятиями за исследуемый период сократились на 8%, а по сравнению с 2005 г. на 32%. Следует отметить, что в республике в 2005/2006 учебном году количество средне специальных учебных заведений от 60 сократилось до 58 в 2013/2014 учебном году. В тот же период число обучающихся в средне специальных учебных заведениях на 10 тыс. человек за исследуемый период сократилось на 2%. Количество высших учебных заведений в 2013/2014 учебном году по сравнению с 2005/2006 учебным годом увеличилось на 10%, а число обучающихся в высших учебных заведениях на 10 тыс. человек за тот же период увеличилось на 5,2% [2]. Следует отметить, что население в возрасте 15 лет и старше, имеющие высшее и среднее образование за 2006-2014 гг. увеличилось на 23 чел. или на 2,3%.Среди них удельный вес населения с высшим образованием за исследуемый период увеличился на 5,9%, за счет снижения количества лиц со средним специальным образованием.

Важным фактором развития интеллектуального потенциала является профессиональное образование, которое может быть получено в профессионально-технических и иных училищах, целью чего является подготовка и переподготовка специалистов.

Каждый день растут требования к профессиональному мастерству в системе подготовки рабочих кадров, которые требующие создания непрерывной системы их подготовки и пе-

реподготовки, а также повышения квалификации. Следует признать, что в стране в подготовке и переподготовке грамотных кадров имеются определенные недостатки, которые негативно влияют на формирование профессионального рынка труда. Наблюдая подготовку кадров за 2000-2013 гг. можно сказать, что их число увеличилось на 35,3%, а число впервые подготовленных специалистов на 2,8 раза, в то время когда переподготовка кадров составил в 2013 году 1075 чел, а рост составил 3,1%. За исследуемый период наблюдается сокращение числа лиц, повышающих квалификацию, составляя 47,7% [2].

Анализ статистических данных позволяет делать вывод, что в стране наблюдается спад в подготовке специалистов. В таких условиях выдвигается задача по обеспечению подготовки и переподготовки работников нового типа, которые должны обладать инициативностью, умением быстро адаптироваться к новым условиям, широкой профессиональной подготовкой, культурно-технической грамотностью и коммуникабельностью. Практика показывает, что в любой сфере деятельности современный работник должен обладать способностями к экономическому мышлению, с тем, чтобы четко представить себе хозяйственные, в то же время культурные и социальные аспекты нововведений. В настоящее время с учетом этих обстоятельств, можно сказать, что освоение новых профессий и квалификаций означает нечто большее, чем приспособление к новым условиям.

Следует отметить, что стремление к образованию, в целом интеллектуального потенциала, у различных групп населения носит пассивный характер. Так как, образование связано только с получением высокооплачиваемой работы, что связано с изменением спроса в специалистах высокой квалификации.

Рыночная система экономики предполагает большую конкуренцию во всех сферах человеческой деятельности, а именно, в образовании. Характерной особенностью формирования трудового потенциала является твердая ориентация на образование. А в целях совершенствования системы образования необходимо улучшить источники финансирования, с привлечением как бюджетных, так и внебюджетных средств. Опыт развитых стран показывает, что на развитие интеллектуального потенциала увеличиваются затраты. Инвестиции в эту область должны увеличиваться быстрее капитальных вложений в материальную сферу. Например, в США в год на образование одного человека расходуется 20000 американских долларов [1].

В формировании трудового потенциала важное значение имеет организация системы повышения квалификации, которая обеспечила бы совершенствование знаний и навыков с учетом изменений повышающихся требований. Целесообразно дифференцировать курсы повышения квалификации по профилю подготовки и срокам обучения в зависимости от уровня квалификации.

В системе профессионального образования важное звено - обучение работников на производстве. Работа организаций и процесс обучения работников в целом на основе договоров, планируется с учетом запросов работодателей и работников. Развитие системы профобразования необходимо рассматривать с точки зрения удовлетворения потребностей экономики в работниках востребованной квалификации, с тем самым потребностей населения в образовании.

Значительное место в формировании трудового потенциала в рыночной системе хозяйствования занимает переподготовка кадров, высвобождаемых из производства, в связи с реструктуризацией, изменением профиля, не востребованностью сферы деятельности, сокращением спроса на рынке труда и т.д. Переподготовка кадров должна осуществляться на межзаводском, отраслевом уровне, например, на базе крупных акционерных предприятий. С этой целью следует разработать положения, регулирующие их деятельность. Считаем целесообразным создать учебные центры, в зависимости от количества приобретаемых профессий и уровня их сложности. В формировании трудового потенциала качественным составляющим являются создание новых профессий, с учетом ликвидации устаревших не требующих высо-

кой профессиональной подготовки. В системе профессионального образования необходимо проведение аттестации выпускников всех видов учебных заведений. Регулирование отношений в области образования происходит правовыми нормами принятого закона Азербайджанской Республики «Об образовании». Данный закон должен поддержать систему начального профессионального образования как одного из основных институтов по обучению, адаптации к трудовой деятельности молодежи. При определении перспектив развития образовательной системы в стране следует законодательно предусмотреть, во-первых, обеспечить общедоступность и бесплатное полное среднее образование и высшее профессиональное образование; во-вторых, увеличить удельный вес очного и заочного форм обучения; в-третьих, применение нетрадиционных форм получения образования; в-четвертых, увеличить материальную заинтересованность работников образовательных учреждений, в-пятых, применить дифференцированный подход качеству педагогического состава, с тем, чтобы повысить качество образования. Все это позволит обеспечить материальную основу развития трудового потенциала страны, что является необходимой предпосылкой достижения стратегической цели кадровой политики, в частности становления хорошо обученного, дисциплинированного, креативного работника.

Ключевые слова: интеллектуальный потенциал, трудовой потенциал, образование, профессиональное образование, подготовка и переподготовка кадров.

Использованная литература

1. Рынок труда. Под. ред. Буланова В.С., Вольгина Н.А. М.: 2000, 479 с.
2. Статистические показатели Азербайджана 2014 год. Баку: 2014

Gülnarə Hacıyeva

TƏHSİL AZƏRBAYCANDA ƏMƏK POTENSİALININ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ AMİLİDİR

Xülasə

Məqalədə bazar iqtisadiyyatı şəraitində ölkənin intellektual potensialının rolu tədqiq edilir. Qeyd edilir ki, ictimai tərəqqinin, məhsulun həcminin artırılmasının, əmək məhsuldarlığının yüksəldilməsinin əsasını təhsil səviyyəsinin yüksəldilməsi təşkil edir. Məqalədə əhalinin təhsil səviyyəsi təhlil edilir və onun təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

Açar sözlər: intellektual potensial, əmək potensialı, təhsil, professional təhsil, kadrların hazırlanması və yenidən hazırlanması.

Gulnara Hajıyeva

EDUCATION AS A FACTOR IN INCREASING THE EFFICIENCY OF THE LABOUR POTENTIAL IN AZERBAIJAN

Summary

The role of intellectual potential of the country in the market economy conditions is investigated in the article. İt is noted that, the foundation of social progress and increasing the volume of the product and labour productivity is the improving the level of education. The education level of population is analyzed in the article, the proposals related to its development have been prepared.

Keywords: intellectual potential, labour agreement, education, professional education, training and retraining of personnel

UOT – 332.02

Nurəngiz Mikayılova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.

AQRAR SAHƏNİN İNKİŞAFININ SÜRƏTLƏNDİRİLMƏSİNDƏ BƏLƏDİYYƏ ORQANLARINDAN İSTİFADƏNİN İSTİQAMƏTLƏRİ

Məqalədə Azərbaycanın idarəetmə sistemində bələdiyyələrin tutduğü mövqe, onun fəaliyyəti göstərilmiş, bələdiyyələrin iqtisadi fəaliyyəti və büdcə formalaşmasının əsasları araşdırılmış, aqrar sahənin iqtisadi inkişafında fəaliyyəti, ərzaq təhlükəsizliyi, kəndlərin sosial-iqtisadi inkişafı və aqrar sahənin effektivliyinin yüksəldilməsində bu orqanların rolunun artırılması istiqamətləri göstərilmişdir. Sosial-iqtisadi inkişafda bələdiyyələrin yeri müəyyən edilmiş, demokratik cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi ilə əlaqələndirilmişdir.

İdarəçilik növləri içərisində ən mürəkkəbi və çoxşaxəlisi dövlət idarəçiliyidir. Dövlətin qarşısında saysız-hesabsız müxtəlif problemlər durur. Ona görə də həmin problemlərə müxtəlif yanaşma tələb olunur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlət bu qədər çox və müxtəlif problemlərin həllinə tam nail ola bilmir. Bunun üçün ona imkanları azlıq edir, yaxud bu imkanlar düzgün bölüşdürülmür. Nəhayət, dövlət üçün əlavə idarəçilik yükü ortaya çıxır. Başqa sözlə desək, dövlətin idarəetmə imkanlarına uyğun gəlməyən əlavə tənzimləmə sahəsi yaranır. Dövlət bunun öhdəsindən tələb olunan səviyyədə gələ bilmir. Bir çox hallarda da qarşıya qoyulan məqsədə nail olmaq qeyri-mümkün olur, ortaya yeni problemlər çıxır. Bunun ən faydalı yolu idarəçilik yükünün səmərəli şəkildə paylanmasıdır. Beləliklə, dövlət idarəetməsində idarə olunan obyektlərin bəzilərinə özü-özünü idarə etmək imkanları verilir. Dövlət operativ müdaxilə hüququnu saxlamaqla həmin sahəyə toxunmur. Yerli özünüidarəetmə, sadəcə, bu səbəbdən yaranmır. Yerli özünüidarəetmənin yaranması zərurəti həm də idarəetmənin özünün ümumi məqsədlərindən irəli gəlir. Dövlət idarəetməsində və yerli özünüidarəetmədə ən vacib məsələ idarə olunan obyektin marağının nəzərə alınması, onun inkişaf etdirilməsidir. Bu zaman idarə olunanın marağının ödənilməsi qarşıya qoyulan məqsədə və ya idarə edənin davranışı ilə əlaqələndirilir, idarə olunanın lazımi istiqamətdə müstəqil fəaliyyəti stimullaşdırılır. Bu zaman dövlət idarəetməsinin əsas funksiyalarından biri olan daimi nəzarət funksiyasını yerinə yetirməkdən qismən azad olur. Dövlət öz üzərinə düşən idarəçilik yükünün bir hissəsini müəyyən subyektlərə verir və bununla da, idarəçilik resurslarına qənaət olunur. Başqa bir tərəfdən, dövlət idarəçilik verilən subyektlərə öz marağına uyğun problemləri həll etmək imkanı verməklə bərabər, onun qarşıya qoyulan məqsədlərə çatmaq istəyini də stimullaşdırır və idarəetmənin səmərəli olması müəyyən qədər təmin edilmiş olur.

Azərbaycan demokratik inkişaf yoluna yeni qədəm qoyduğuna görə burada bələdiyyə özünüidarəetmə forması da yeni idi. Onun yaranmasının zəruriliyi, əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 dekabr 1999-cu il bələdiyyə seçkiləri ilə əlaqədar xalqa müraciətində aydın göstərilmişdir: "Biz Azərbaycanda qeyri-dövlət, tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm də demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir" [1]. Müraciətdə deyildiyi kimi bələdiyyələrin seçilməsi, onların təşkil edilməsi, fəaliyyəti dövlətin hər bir vətəndaşı üçün yeni imkanların yaradılması, ölkəmizin inkişafı üçün yeni idarəetmə formasının başlanğıcı olmalıdır.

Yaxın perspektivdə respublikamızda dövlət və bələdiyyə idarəetməsinin elə bir təşkilati strukturu formalaşmalıdır ki, bu təşkilati struktur iqtisadi cəhətdən səmərəli olsun, yaxud maliyyə - iqtisadi cəhətdən nisbətən ucuz başa gəlsin, idarəetmə baxımından çevik olsun, hər iki idarəetmə formasının hüquq və vəzifələri reallaşsın, icra hakimiyyət orqanları ilə bələdiyyə idarəetməsi bir-birini qarşılıqlı surətdə tamamlasın, idarəetmədə paralellik, təkrarlar aradan qalxsın, bələdiyyələrin onlara həvalə edilmiş ərazinin inkişafı üçün məsuliyyəti, cavabdehliyi, eyni zamanda səlahiyyətləri artsın,

Respublikanın və onun ayrı-ayrı regionlarının müxtəlif formalarda təhlükəsizliyi (iqtisadi, ərzaq, ekoloji və i.a.) təmin olunsun [4, s.13].

Bələdiyyələrin yaradılmasına və yerli özünüidarə islahatlarının aparılmasına maraq yerli icmaların öz yaşadıqları ərazinin inkişafında rolunun artırılmasına olan gözləntilərlə bağlı idi. Lakin bu sahədə uğur qazanmış ölkələrin təcrübəsi göstərdi ki, "yerli özüünüidarə" anlayışını bələdiyyələrlə məhdudlaşdırmaq olmaz. Fermer birliklərinin, kənd kredit kooperativlərinin, kənd inkişafını dəstəkləyən bələdiyyə fondlarının hamısı birlikdə icma yerli özünüidarəçiliyi institutunu formalaşdırır. Dövlət idarəetmə orqanları bir qayda olaraq rayon və ya region miqyaslı problemlərin həllinə daha prioriet yanaşırlar, lakin bələdiyyələr lokal problemlərə, bir kəndin sərhədlərilə hüdudlanan layihələrə təşəbbüs göstərirlər, onlar bilavasitə icmaların özündən formalaşdığından problemlərə məhz icmanın ehtiyaclarından yanaşırlar.

Respublikada iqtisadi inkişafın davamlı olması, artan tələbatın ödənilməsi üçün torpaq, su, rekreasiya və digər resurslardan səmərəli istifadə etmək olduqca vacibdir. Bu məqsədlə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları yeni iqtisadi siyasət strategiyasının əsasını təşkil etməklə ölkənin təbii ehtiyatlarının səmərəli istifadəsini ön plana çəkmiş, kənd təsərrüfatının dinamik inkişaf etməsi, kənd əhalisinin sosial həyat səviyyəsinin yüksəldilməsi, xüsusilə yerlərdə məşğulluğunun təmin edilməsi kimi məsələləri prioritetə çevirmişdir.

Kənd əhalisi üçün həyat o zaman maraqlı və cəlbedici olur ki, onların iqtisadi və sosial tələbatları ödəmək üçün şərait yaradılsın. Bu isə yerli səviyyədə idarəetmənin səmərəli təşkilindən bilavasitə asılıdır. Dünya təcrübəsi göstərir ki, kənd yerlərində effektiv idarəetmənin təşkili kifayət qədər asandır, çünki bu ərazilər daha geniş sosial kapitala malikdir. "Sosial kapital" anlayışı insanlar arasında qarşılıqlı inam və səmimiyyətin, onların bir-birilə əməkdaşlıq etməyə hazırlığının real səviyyəsini ifadə edir. Belə şəraitdə bələdiyyələr yerli icmaların özünütəşkilinin, icma maraqları ilə bağlı kollektiv qərarvermənin forması kimi meydana çıxır. Onlar təmsil etdiyi icmaların sosial-iqtisadi problemlərinin həllində dövlətlə əhali arasında vasitəçi rolunda çıxış etməklə yanaşı, inzibati idarəçiliyin ən aşağı həlqəsi kimi qəbul olunur. Müasir yanaşmaya görə kəndin iqtisadi və sosial inkişafını bir-birindən ayıraraq problemlərini araşdırır. Kənd yerlərində iqtisadi inkişaf iqtisadi fəaliyyət növlərinin mövcudluğu ilə, sosial inkişaf isə kənddə yaşayan əhalinin həyat fəaliyyəti şərtlərinin formalaşması ilə əlaqələndirilir [6, s.91]. Dünya təcrübəsində bu kimi problemlərlə bilavasitə yerli özünüidarəetmə orqanları olan bələdiyyələr tərəfindən stimullaşdırılır. Bu kimi fəaliyyəti həyata keçirmək üçün bələdiyyələrin kifayət qədər səlahiyyətləri və maliyyə mənbələri mövcud olur və bütün bunlar dövlət tərəfindən işlənmiş hüquqi mexanizmlərə əsaslanır.

Son illər Azərbaycan iqtisadiyyatında iqtisadi sistemin transformasiyası ilə bağlı aparılan islahatların mühüm istiqamətlərindən biri də işçi qüvvəsinin 40%-nin və əhalinin isə 50%-ə qədərinin birbasa bağlı olduğu aqrar sahəni əhatə edir. Aqrar iqtisadiyyatın qarşısında duran əsas vəzifələrdən biri - kənd təsərrüfatı məhsulları istehsalının artırılması, əhalinin ərzaq məhsulları, emal sənayesinin isə xammalla etibarlı şəkildə təmin etməkdən ibarətdir. Torpaq resursları kənd təsərrüfatında istehsal vasitəsi kimi başqa istehsal vasitələrindən ciddi fərqlənən bir sıra spesifik xüsusiyyətlərə malikdir ki, onlar kənd təsərrüfatı istehsalına böyük təsir göstərirlər. Belə ki, torpaq istehsalın başqa vasitələrindən fərqli olaraq insan əməyinin məhsulu deyil, təbiətin məhsuludur. İnsan əməyinin nəticəsi olan başqa istehsal vasitələrindən fərqli olaraq torpaq təbiətin çoxəsrlik təbii-tarixi inkişafının məhsuludur. Digər tərəfdən torpaq ərazicə məhduddur və kənd təsərrüfatı istehsalı üçün əlverişli şəraitə malik olan xüsusiyyət və təbii şəraitə malik ərazilər kifayət qədər deyil. Torpaq istehsalın başqa heç bir vasitəsi ilə əvəz edilə bilməz. Onsuz kənd təsərrüfatında, xüsusən də bitkiçilikdə istehsal prosesi həyata keçirilə bilməz. Torpaq sahələri keyfiyyətinə görə eynicinsli deyillər. Nəticədə eyni ərazi vahidinə bərabər qoyuluşlar nəticəsində müxtəlif kəmiyyətdə məhsul alınır. Türkiyə və İran dövlətlərində torpaqların təxminən 70-75%-i əkinə yararlı olmaqla, onun 65-70%-i də bilavasitə əkin məqsədləri üçün istifadə edilir [8]. Azərbaycanda kənd təsərrüfatı üçün yararlı olan 4766,8 min hektar torpaqdan kənd təsərrüfatı istehsalı üçün 1608,2 min hektarından istifadə edilir. Torpaqlardan istifadə isə 33,7% təşkil edir.

Ölkə qanunvericiliyinə görə mülkiyyət formasından asılı olmayaraq mülkiyyətində, yaxud istifadəsində torpaq sahələri olan fiziki və hüquqi şəxslər torpaq vergisi ödəməlidirlər. Torpaq mülkiyyətçiləri və ya istifadəçilərinin vergiyə cəlb edilməsi onların təsərrüfat fəaliyyətindən asılı deyil və onların istifadəsində olan torpaqlar vergitutma obyekti adlanır. Kənd təsərrüfatının iqtisadiyyatının qiymətləndirilməsində fərqləndirici xüsusiyyət ondan ibarətdir ki, əkinçiliyin ümumi mədəniyyəti, təsərrüfat dövriyyəsində iştirak edən torpaqların uçotu və vəziyyətinin təhlili olmadan kənd təsərrüfatı istehsalının səmərəliliyini kifayət qədər dəqiq müəyyən etmək mümkün deyildir. Bu vəzifənin həllinə torpaq kadastrının işlənib hazırlanması və tətbiqi kömək edir. Torpaq kadastrı torpaq haqqında obyektiv məlumat almaq məqsədilə torpaqların qeydiyyatı, təsviri və qiymətləndirilməsi üzrə fəaliyyət sistemidir. Kadastr torpağın hüquqi vəziyyəti, kəmiyyəti, keyfiyyəti və qiyməti haqqında etibarlı məlumat və sənədlərdən ibarətdir.

Müstəqillik qazandıqdan sonra digər sahələrdə olduğu kimi aqrar sahədə də islahatlar aparıldı. Belə ki, 1996-cı ildə "Torpaq İslahatı" haqqında qanun imzalandı və torpaqdan istifadənin hüquqi əsasları müəyyən edildi. Qanuna görə torpaqların bir hissəsi dövlətin sərəncamında saxlanılaraq, qalan hissəsi isə bələdiyyə və xüsusi mülkiyyətə verilmişdir.

Daha sonra dövlət aqrar sahəyə dair islahatlar keçirərək mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinə torpaqdan istifadəyə görə bərabər şərait yaratdı. Azərbaycan Respublikasının qanunvericiliyinə görə torpaq mülkiyyətçiləri torpağı satmaq, girov qoymaq, dəyişmək, bağışlamaq, icarəyə vermək, əlavə torpaq almaq kimi hüquqlara malikdir.

Ölkənin vahid torpaq fondunun 23,5%-i bələdiyyə mülkiyyətinə verilmiş və bələdiyyə torpaqlarının hüquqi əsasları olan "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanun imzalanmışdır. Bundan əlavə Azərbaycan Respublikasının torpaq və mülki məcəllələrində, "Şəhərsalmanın əsasları haqqında", "Bələdiyyə əraziləri və torpaqları haqqında", "Bələdiyyə torpaqlarının hərrac yolu ilə satılması haqqında" Qanunlarda bələdiyyə torpaqlarından istifadənin hüquqi əsasları müəyyən edilmişdir.

Bələdiyyə mülkiyyətinə ayrılan torpaqlar dövlət tərəfindən ayrılan torpaqlara və başqa torpaq mülkiyyətçilərindən bələdiyyələrə bağışlanılan torpaqlar hesabına yaranır. Bələdiyyə mülkiyyətinə aid torpaqlar isə təyinatına görə ehtiyat fondu torpaqlarına, ümumi istifadədə olan torpaqlara, hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlara ayrılır.

Bələdiyyələrin ümumi istifadədə olan torpaqlarına şəhər və kənd yaşayış məntəqələrinin, küçə və meydançalarının, yerli və ölkə əhəmiyyətli yolların, meşələrin, parkların, idman meydançalarının altında olan torpaqlar aid edilir. Bunlardan əlavə yerli əhəmiyyətli hidrotexniki qurğuların altında olan torpaqlar və əhalinin mal-qarasının otlaması üçün istifadə olunan torpaqlar ümumi istifadə olunan torpaqlara aid edilir.

Bələdiyyə torpaqlarının idarə edilməsi müəyyən prinsiplərə əsaslanır. Başlıca prinsip torpaqların təyinatına görə istifadə edilməsi və dövriyyədən əsassız olaraq çıxarıla bilinməməsidir. Əkinə yararlı torpaqların sahəsi mühafizə olunmalı, torpaqların şoranlaşması və şorəkətləşməsinin qarşısının alınması, torpağın münbit qatı qorunmalı və bərpa olunmalı, torpağın xüsusi mülkiyyətə və icarəyə verilməsi zamanı qanunvericiliyə riayət edilməli, torpaqlardan yalnız haqq ödənilməklə istifadəyə verilməlidir. Bələdiyyə torpaqları qısa və uzunmüddəti icarəyə verilə bilər və bu icarəyə görə bələdiyyə büdcələrinə icarəçilər tərəfindən vergilər daxil olur.

Qanunvericiliyə görə bələdiyyə torpaqlarından istifadəyə görə vergi tutulur. Bələdiyyələr sərəncamında olan torpaqları hüquqi və fiziki şəxslərə icarəyə verir və həmin şəxslər torpaqdan istifadəyə görə torpaq vergisi ödəyirlər. Verginin hədləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən qaydada həyata keçirilir. Qeyd edək ki, qanunvericilikdə vergi güzəştləri də müəyyən edilmişdir ki, bu da kənd təsərrüfatına az yararlı olan torpaqlara şamil edilir. Torpağın münbitlik dərəcəsindən asılı olaraq 1 şərti bal üçün aylıq gəlirin vergi tutulmayan məbləğinin 0,5% həcmində müəyyən edilir.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir. Torpaq istifadəçiləri və mülkiyyətçiləri təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq torpaq vergisinə cəlb olunurlar. Kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı və keyfiyyəti nəzərə alınmaqla torpaq sahəsinin hər hektarına bir şərti balın qiyməti 6 qəpik olmaqla hesablanır.

Fiziki şəxslər və bələdiyyə müəssisələri torpaq sahələri barədə istifadə hüquqları aldıqdan sonra bələdiyyələrə bir aydan sonra vergi ödəməyə borcludurlar. Bələdiyyələr də öz növbəsində ödənilməli olan torpaq vergisinin məbləğini özündə əks etdirən tədiyyə bildirişini onlara çatdırmalıdır.

Bələdiyyə mülkiyyətinə verilən bu torpaqların hüquqi əsasını "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Şəhərsalmanın əsasları haqqında", "Bələdiyyə əraziləri və torpaqları haqqında", "Bələdiyyə torpaqlarının hərrac yolu ilə satılması haqqında" Qanunlar və digər normativ hüquqi sənədlər təşkil edir.

Bələdiyyə mülkiyyətinə aid olan torpaqlar dövlət tərəfindən ayrılan torpaqlara və başqa torpaq mülkiyyətçilərindən bələdiyyələrə bağışlanılan torpaqlar hesabına yaradılaraq təyinatına görə ehtiyat fondu torpaqlarına, ümumi istifadədə olan torpaqlara, hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlara ayrılır.

Müstəqillik qazandıqdan sonra ölkədə torpaq islahatı aparılmış, respublikanın 8641506 vahid torpaq fondunun 4 milyon 913 min 639 hektarı (56,9 faiz) dövlət mülkiyyətində saxlanılmış, 2 milyon 32 min 744 hektarı (23,5 faiz) bələdiyyə mülkiyyətinə verilmiş və 1 milyon 695 min 123 hektarı (19,6 faiz) isə özəlləşdirilmişdir.

Bələdiyyə mülkiyyətində 1122,0 min hektar əkinə yararlı torpaq vardır. Bunun 101,9 min hektarını əkin yeri (9,0%), 3,2 min hektarını biçənəklər (0,3%), 1008,4 min hektarını otlaq sahələri (89,9%), 5,2 min hektarını çoxillik əkmələr (0,5%), 3,3 min hektarını dincə qoyulmuş torpaqlar (0,3%) təşkil edir.

Bələdiyyə torpaqlarından hal-hazırda səmərəli istifadə olunmur, bələdiyyə torpaqları özəlləşdirilir, icarəyə verilir, turizm məqsədləri üçün istifadə edilir, böyük hissəsi isə istifadəsiz olaraq qalmaqdadır. Ölkə üzrə bələdiyyə torpaqlarının özəlləşdirilməsindən 2013- cü ildə bələdiyyə büdcələrinə 23056,2 min manat məbləğ daxil olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 1,9 dəfə çoxdur. Bu göstərici bələdiyyələrin büdcə gəlirlərinin yekunda xüsusi çəkisi 48,8 % təşkil etmişdir. Bələdiyyə torpaqlarının icarəyə verilməsindən isə 4170,1 min manat əldə edilmişdir ki, bu da ötən ilə nisbətən 93,5% təşkil edir, büdcə gəlirlərinin yekununda isə xüsusi çəkisi 8,8%-dir, ölkə üzrə kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri büdcə xərclərinin yekununda 1,4% təşkil edir [4, s.4; 7; 11]. Rəsmi statistika və hesabatlarda bələdiyyə torpaqlarının istifadə təyinatlarına rast gəlinmir.

Qanunvericiliyə görə bələdiyyə torpaqlarından istifadəyə görə vergi tutulur. Bələdiyyələr sərəncamında olan torpaqları hüquqi və fiziki şəxslərə icarəyə verir və həmin şəxslər torpaqdan istifadəyə görə torpaq vergisi ödəyirlər. Verginin hədləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən qaydada həyata keçirilir. Qeyd edək ki, qanunvericilikdə vergi güzəştləri də müəyyən edilmişdir ki, bu da kənd təsərrüfatına az yararlı olan torpaqlara şamil edilir. Torpağın münbitlik dərəcəsindən asılı olaraq 1 şərti bal üçün aylıq gəlirin vergi tutulmayan məbləğinin 0,5% həcmində müəyyən edilir.

Bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlara təklif tələbi üstələdiyi hallarda və kənd təsərrüfatına azyararlı və yararsız torpaqlar kənd təsərrüfatı ehtiyacları üçün icarəyə verildikdə icarə haqqı güzəştli şərtlərlə tətbiq edilir. Kənd təsərrüfatı üçün nəzərdə tutulmamış torpaqlar da istehsal məqsədləri üçün icarəyə verilə bilər. Kənd təsərrüfatı məqsədləri üçün ayrılmış torpaqlardan istifadə qanunvericiliklə tənzimlənir.

Ölkə iqtisadiyyatının neft sektorundan asılılıqının azaldılması, aqrar sahənin inkişafının sürətləndirilməsi torpaqlardan səmərəli istifadə edilməsi problemlərinin həllini prioritetə çevirmişdir. Bələdiyyələrin yerli resurslardan istifadə edərək istehsal və emal müəssisələri yaratması kənd təsər-

rüfatı məhsullarının həcminin artırılması, ərzaq təminatının yaxşılaşdırılması və işsizlik səviyyəsinin daha da azaldılması ilə nəticələnəcək ki, bu da bələdiyyə torpaqlarından səmərəli istifadə ilə yanaşı bələdiyyə büdcələrinin də artırılmasına zəmin yaradacaq. Bundan başqa bələdiyyənin xidmət müəssisələri kimi soyuducu kameralarının yaradılması nəinki regionun, hətta ölkənin ixrac imkanlarını daha da artıra bilər. Bu prossesin stimullaşdırılması üçün, dövlət tərəfindən zəruri tədbirlərin görülməsi ilə yanaşı yerli idarəetmə orqanlarının da üzərinə mühüm vəzifələr düşür ki, həmin orqanlar da nəticə etibarilə mövcud olan problemlərin aradan qaldırılmasında mühüm işlər görməlidir [7, s.54].

Bələdiyyə şurasının tərkibində aqrar sahənin mütəxəssislərinin çox az olması bu kimi təkliflərdən səmərəli istifadə olunmamasına gətirib çıxarır ki, bu da bələdiyyə torpaqlarının otlaq sahələrinə çevrilməsinə və kol-kosa bürünməsinə səbəb olur.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında məqsədli investisiya proqramlarının həyata keçirilməsi, bələdiyyə proqramlarının aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsinə yönəltmək başlıca vasitə hesab edilir. Bu ilk növbədə onunla bağlıdır ki, kənd təsərrüfatında əsas istehsal vasitəsi kimi torpaq resursları mühüm əhəmiyyətə malikdir və ondan səmərəli istifadə edilməsi, onun iqtisadi münbitliyinin artırılması ilə sıx əlaqədardır. Bu istiqamətdə istər yerli əmtəə istehsalçıları, istərsə də bələdiyyə qurumlarının və bütövlükdə Kənd Təsərrüfatı Nazirliyinin səyləri artırılmalıdır.

Kənd təsərrüfatı istehsalının idarə edilməsində iqtisadi vasitələrdən istifadə edilməsi nəticə etibarilə əmtəə istehsalçılarının iqtisadi müstəqilliyinin təmin edilməsinə bilavasitə təsir göstərir və eyni zamanda bütövlükdə istehsalçıların maraq və mənafelərinə öz təsirini göstərir. İdarəetmə ilk növbədə iqtisadi stimullaşdırmanın təsir gücünə əsaslanır və bu da əsas etibarilə kənd təsərrüfatı istehsalının artırılmasında, eləcə də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində başlıca mənbə rolunu oynayır.

Azərbaycanda bələdiyyə müəssisələrinin sayı çox azdır. 2010-cu ildə bələdiyyə müəssisələrinin sayı 1755, 2011-ci ildə 1759, 2012-ci ildə 1755, 2013-cü ildə isə 1752 ədəd olmuşdur. Bələdiyyə müəssisələrinin demək olar ki, hamısı Bakı və digər şəhərlərdə formalaşıb. Son statistik məlumatlara görə, hal-hazırda fəaliyyət göstərən 1765 bələdiyyə müəssisəsindən 3-ü kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 3-ü isə emal sənayesində fəaliyyət göstərir. Halbuki, bələdiyyə müəssisələri yaratmaq üçün ölkədə kifayət qədər potensiallar və resurslar mövcuddur.

Bələdiyyə mülkiyyəti üzrə müəssisələrin sayı və fəaliyyət sahəsi

Cədvəl 1

İstehsal sahələri	2010	2011	2012	2013
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	5	5	3	3
Emal sənayesi	4	4	3	3
Su təchizatı: tullantıların təmizlənməsi və emalı	1	1	1	2
Tikinti	9	12	15	15
Ticarət; nəqliyyat vasitələrinin təmiri	2	2	1	1
Nəqliyyat və anbar təsərrüfatı	2	1	1	1
İnformasiya və rabitə	1	1	1	-
Peşə, elmi və texniki fəaliyyət	2	2	1	1
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	1	1	1	1
Dövlət idarəetməsi və müdafiə, sosial təminat	1718	1719	1720	1720
İstirahət, əyləncə və incəsənət səhəsində fəaliyyət	5	5	4	2
Digər sahələrdə xidmətlərin göstərilməsi	5	6	5	3
Cəmi	1755	1759	1756	1752

Cədvəl "Azərbaycanın Statistik Göstəriciləri 2013" (s.655-661) əsasında müəllif tərəfindən hazırlanmışdır [2].

Bələdiyyələrin aqrar sahədə fəaliyyətini qiymətləndirmək üçün onların mövcüd vəziyyətinin təhlil edilməsi zərurəti ortaya çıxır. Bunun üçün bütün dünya ölkələrində SWOT analiz aparılır.

SWOT analiz, yəni bələdiyyənin güclü cəhətləri (Strenths), bələdiyyənin zəif cəhətləri (Weaknesses), bələdiyyənin imkanları (Opportunities), mövcud təhlükələr (Threats) barəsində məlumatların yığılması, qruplaşdırılması və analiz edilməsi anlamını verir. Tədqiqatlar nəticəsində bir sıra məlumatlar toplanılır, təhlillər aparılır və yerli idarəetmə orqanlarının fəaliyyətlərini təkmilləşdirmək üçün konkret qərarlar qəbul edilir. Təkmilləşməyə və səmərəli fəaliyyətə mane olan cəhətlərin aradan qaldırılmasına çalışılır.

Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan Vəndam bələdiyyəsinin SWOT analizi (Qəbələ rayonu)

Cədvəl 2

Vəndam bələdiyyəsinin Güclü cəhətləri (Strenths)	müəyyən maliyyə imkanı; nüfuzlu liderin olması; əlverişli coğrafi mövqedə yerləşməsi; bələdiyyə üzv və qulluqçularının konkret bacarıqları; bələdiyyəyə icma sakinlərinin dəstəyi; bələdiyyənin xəritəsinin olması.
Vəndam bələdiyyəsinin zəif cəhətləri (Weaknesses)	daimi gəlir mənbələrinin azlığı; bələdiyyə fəaliyyətində şəffaflığın zəifliyi; QHT, donordlarla və s. tərəflərlə qarşılıqlı əməkdaşlığın zəifliyi; lazım olanda güc-sanksiya tətbiq edə bilməməsi; müəssisələrinin yaranmaması; bələdiyyə büdcəsinin zəif olması; bələdiyyə əmlakının zəif olması; bələdiyyələrin aqrar sahənin inkişafında fəaliyyətinin hiss olunmaması; bələdiyyə orqanlarında calışanların məqsədli yardım almaq üçun dövlətə müraciət etməməsi.
Vəndan bələdiyyəsinin imkanları (Opportunities)	kadr potensialı; bələdiyyə ərazisində yaşayan insanların bacarıqlarından istifadə olunması; potensial maliyyə mənbələrinin olması (məsələn, dövlətdən məqsədli maliyyə ayırmaları, turizm, bələdiyyə mülkiyyətində olan ərazilərdə bol şirin su ehtiyatları, tikinti üçün qiymətli çay daşları və s.); icra hakimiyyəti ilə yaxşı qarşılıqlı münasibətlər; vergi ödəyicisinin inamını qazanmaqla vergilərin toplanmasını artırmaq; inventar dəyəri olmayan əmlakların qiymətləndirilməsi və vergiyə cəlb edilməsi;
Mövcud təhlükələr (Threats)	dotasiyanın verilməməsi, yaxud miqdarının azaldılması; dövlət səviyyəli iqtisadi faktorlar (infilyasiya, maliyyə böhranı, iqtisadi tənəzzül); təbii fəlakət.

Mənbə: Cədvəl tədqiqatlar əsasında müəllif tərəfindən hazırlanmışdır

SWOT analizin köməyilə Vəndam bələdiyyəsinin güclü cəhətləri - müəyyən maliyyə imkanı, nüfuzlu liderin olması, əlverişli coğrafi mövqedə yerləşməsi, bələdiyyə üzv və qulluqçularının konkret bacarıqları, bələdiyyəyə icma sakinlərinin dəstəyi kimi amillər müəyyən edilmişdir. Vəndam bələdiyyəsinin də kifayət qədər zəif cəhətləri mövcuddur, bunlar da araşdırılmış və qruplaşdırılmışdır. Belə ki, daimi gəlir mənbələrinin azlığı, bələdiyyə fəaliyyətində şəffaflığın zəifliyi, Qeyri-Hökumət Təşkilatları ilə əlaqələrin zəifliyi, lazım olanda güc-sanksiya tətbiq edə bilməməsi, istehsal müəssisələrinin yaranmaması, bələdiyyə büdcəsinin və əmlakının zəif olması və s. bu kimi amillər bələdiyyənin zəif cəhətlərini göstərməklə yanaşı, onun kifayət qədər problemləri olduğunu göstərir. Bələdiyyələrin mövcud vəziyyətini, əsasən, onun zəif və güclü cəhətlərini aşkar etdikdən sonra mü-

əyyən etmək mümkün olur. Bələdiyyə fəaliyyətinin təkmilləşdirilməsi nöqteyi-nəzərdən bələdiyyələrin imkanlarını və bələdiyyə üçün mövcud və mümkün olan (gözlənilən) təhlükələrin araşdırılması, təhlil edilib və qruplaşdırılması vacib hesab olunur. Vəndam bələdiyyəsində kadr potensialı, bələdiyyə ərazisində yaşayan insanların bacarıqlarından istifadə olunması, potensial maliyyə mənbələrinin olması (məsələn, dövlətdən məqsədli maliyyə ayırmaları, turizm, bələdiyyə mülkiyyətində olan ərazilərdə bol şirin su ehtiyyatları, tikinti üçün qiymətli çay daşları, münbit torpaqlaq və s.), icra hakimiyyəti ilə yaxşı qarşılıqlı münasibətlər, vergi ödəyicisinin inamını qazanmaqla vergilərin toplanmasını artırmaq, inventar dəyəri olmayan əmlakların qiymətləndirilməsi və vergiyə cəlb edilməsi və s. bu kimi potensial imkanlar mövcuddur. Potensial imkanlardan istifadə edərək, Vəndam bələdiyyəsinin mənfi cəhətlərini azaltmaq, numünəvi kənd bələdiyyəsi səviyyəsinə qaldırmaq reallıqdan uzaq deyil.

Bütün bələdiyyələr kimi Vəndam bələdiyyəsi də mövcud təhlükələrdən uzaq deyil. Bələdiyyənin fəaliyyəti üçün dotasiyanın verilməməsi, yaxud miqdarının azaldılması, dövlət səviyyəli iqtisadi faktorlar (infilyasiya, maliyyə böhranı, iqtisadi tənəzzül), təbii fəlakət və s. bələdiyyələrin nəinki inkişafı üçün, hətta mövcudluğu üçün bir təhlükədir.

Kifayət qədər güclü cəhətlərə və potensial imkanlara malik olan Vəndam bələdiyyəsini "pilot" bələdiyyəyə çevirmək, eksperiment məqsədilə ona geniş səlahiyyətlər vermək və kifayət qədər büdcə təminatı ilə təmin etmək məqsədəuyğun olar. İqtisadi səmərə əldə etdikdən sonra bu təcrübəni tədricən bütün bələdiyyələrə şamil etmək mümkündür.

Bundan əlavə, regionlarda yerli idarəetmə orqanlarının da üzərinə mühüm vəzifələr düşür ki, həmin orqanlar da nəticə etibarilə bu sahədə mövcud olan problemlərin aradan qaldırılmasında mühüm işlər görməlidir. Ftkrimizcə, regionlarda topdansatış bazarlarının yaradılması son nəticədə regionda fəaliyyət göstərən əmtəə istehsalçılarının öz məhsullarını sürətlə reallaşdırmasına əlverişli şərait yarada bilər. Bundan əlavə, bələdiyyələrin emal müəssisələrinin sayının artırılması, onlar arasında azad rəqabət mühitinin formalaşmasında da mühüm rol oynaya bilər.

Fikrimizcə, bələdiyyələrin inkişafını dəstəkləyən maliyyə fondları yaradılmalı, dövlət büdcəsindən ayrılan transfertlərin həcmi əhəmiyyətli dərəcədə artırılmalı, bələdiyyələrə məqsədsiz transfertlərlə yanaşı aqrar sahənin inkişafında fəal iştirak etməsi məqsədilə məqsədli transfertlərin də verilməsi təmin edilməli və bələdiyyələrin kreditə çıxış mexanizmləri fəaliyyətə başlamalıdır.

Aqrar sahədə fermer təssərrüfatlarının birləşməsi və istehsal kooperativlərinin yaradılması beynəlxalq təcrübəyə əsasən məhsul bolluğuna gətirib çıxarır və rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların artırılmasına səbəb olur. Regionlarda aqrar bölməyə maliyyə dəstəyinin artırılması, məhsulların istehsalı, tədarükü və saxlanma məqsədilə soyuducu və taxıl anbarlarının tıkintisini davam etdirmək, ekoloji təmiz məhsullar istehsal etmək aqrar sahənin inkişaf istiqamətlərindəndir.

Bələdiyyələrin öz mülkiyyətinə verilən torpaq sahələrində hər hansı istehsal prosesini həyata keçirmək, oradan qazanc götürmək və kəndin digər problemlərini həll etmək üçün imkanları, potensialları var. Doğrudur, indi belə bələdiyyələrə cox rast gəlinir ki, qanunvericilikdəki hüquqlarından, imkanlardan istifadə edib öz ərazisində kənd təsərrüfatı ilə məşğul olsun, kəndlilərin sosial-infrastruktur problemlərini həll etsinlər. Bələdiyyələr banklardan kredit götürüb emal müəssisələri yarada bilərlər, kəndlərdə olan mal-qaranın südünü, qatığını əhalidən toplayıb emal etməklə qazanc götürə bilərlər. Bu həm də işsizliyin aradan qaldırılmasında bir mənbə rolunu oynaya bilər.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd edildiyi kimi, "Regional inkişaf prioritetləri nəzərə alınmaqla, bölgələrdə dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyaları əlaqələndiriləcək və əsasən iqtisadi səmərəlilik baxımından prioritetləşdiriləcəkdir. Həyat səviyyəsinə və keyfiyyətinə, adambaşına düşən məhsul buraxılışına və investisiyaların həcminə görə ölkənin iqtisadi rayonları arasında mövcud olan fərqlər azaldılacaqdır. Müasir yanaşma çərçivəsində iqtisadi qərarların qəbul olunmasında yerli özünüidarəetmə orqanlarının çevikliyi artırılacaqdır" [2]. Odur ki, regionların inkişafı istiqamətində mühüm layihələr həyata keçirilməli, sosial xidmətlərin yaxşılaşdırılması tədbirləri davam etdirilməsi məqsədi ilə istər dövlət, istərsə də bələdiyyə orqanları tərəfindən müvafiq addımlar atılmalıdır.

Bundan əlavə, aqrar sahənin inkişafında bələdiyyə fəaliyyətinin zəif olmasının əsas səbəbləri bələdiyyə büdcələrinin formalaşma çətinlikləri, transfertlərin həçminin azlığı, bələdiyyələrin daha

effektiv maliyyə mənbələrinin olmaması, mövcud maliyyə mənbələrindən daha səmərəli istifadə etmək üçün qiymətqoyma və vergitutma mexanizminin təkmil olmaması, bələdiyyələrin kredit bazarına çıxışının təmin olunmaması, məqsədli transfertlərin ayrılmaması və bələdiyyə qulluqçuları arasında aqrar sahənin mütəxəssislərinin az olmasıdır. Qanunvericilikdə məqsədli transfertlərin ayrılması nəzərdə tutulsa belə, belə transfertlərin ayrılması hallarına rast gəlinməyib. Eyni zamanda dünya təcrübəsində büdcələrarası transfertlərin ən geniş yayılmış növlərindən biri olan paylı vergi sistemi Azərbaycanda tətbiq olunmur.

Qeyd edək ki, bələdiyyələr olduqca zəif maliyyə potensialına malikdir. Orta hesabla bir bələdiyyəyə düşən gəlir 20,44 min manat, bələdiyyə ərazisində yaşayan hər adama düşən pay 3,2 manat təşkil edir.

Ölkədə fəaliyyət göstərən bələdiyyələrin 80%-dən coxu kənd yerlərinə aiddir və regionlarda mövcud olan kənd mülklərinin 90%-dən çoxunun inventar dəyərinin olmaması bələdiyyə büdcələrinin formalaşmasına mənfi təsir göstərir. İqtisadi rayonda evlərin inventar dəyərinin olmaması onlardan əmlak vergisinin yığılmasını əngəlləyir, inventar dəyəri olan ev və digər əmlakların inventar qiymətləri isə çox aşağıdır, bazar qiymətləri ilə uzlaşdırılmamışdır.

Hazırda bölgələrdə bələdiyyə institutunun fəaliyyət sferası əsasən kənddaxili yollarının saxlanması, aztəminatlı vətəndaşlara, ailə başçıları itirən və maddi çətinlik çəkənlərə yardımların göstərilməsi ilə bitir. İqtisadi rayonlarda əksər bələdiyyələrin inzibati binası yoxdur.

Kənd inkişafında bələdiyyə fəaliyyətini kənd təsərrüfatı istehsalının və aqrar-sənaye kompleksinin dəstəklənməsi, yaşayış məntəqələrinin planlaşdırılması və abadlaşdırılması, kəndlərin mühəndis və sosial infrastrukturunun inkişafı, kommunal və sosial xidmətin təşkili və bələdiyyə ərazilərində yaşayanların qeydiyyatının aparılması kimi istiqamətlərdə ümumiləşdirmək olar.

Bələdiyyə ərazilərində mövcud olan yeraltı və yerüstü sərvətlərdən (mineral sulardan, müalicə əhəmiyyətli mədən sularından, daş, qum, gil, əhəng və digər inşaat materiallarından, meşə sərvətindən, kurort sərvətindən və digər bu kimi təbii-iqtisadi potensialdan və s.) bacarıqla istifadə edərək bələdiyyə büdcələrini möhkəmlətmək, iqtisadi təfəkkürü, düşüncə tərzini, təsərrüfatçılıq vərdişlərini zənginləşdirmək, bələdiyyələrin işgüzarlığını artırmaq, idarəçiliyini təkmilləşdirmək bu gün bələdiyyə orqanlarının qarşısında duran ən prioritet məsələlərdir.

Bələdiyyələr istehsal və xidmət müəssisələri yarada bilsələr, əvvəla, bu onların maliyyə imkanlarına yaxşı təsir edəcək, digər tərəfdən onların cəmiyyətdə rolu və nüfuzu artacaq.

Beləliklə, aqrar sahənin inkişafında bələdiyyələrin rolunun artırılması aşağıdakı istiqamətlərdə ola bilər:

- mərkəzi hakimiyyət kənd inkişafına dair səlahiyyətləri mərhələlərlə bələdiyyələrə verməlidir;
- məqsədli aqrar inkişaf proqramlarının hazırlanması və icrası üçün bələdiyyə səlahiyyətləri müəyyənləşdirilməli, həmin məqsədlər üçün ünvanlı büdcə vəsaitlərinin ayrılması təmin edilməlidir;
- regional hakimiyyət strukturları əlaqələndirici funksiyanı yerinə yetirməli, əsas qərarvermə səlahiyyəti bələdiyyələrə ötürülməlidir;
- kənd inkişafına dair bələdiyyələr qısa və uzunmüddətli proqramlar hazırlamalı, bu proqramların icrası üçün dövlətdən məqsədli transferlərin alınmasına nail olunmalıdır;
- kənd idarəçiliyində paralellər aradan qaldırılmalıdır;
- kənd inkişafına dəstək ola bilən fondlar yaradılmalı və bələdiyyələrin bu fondlardan istifadəsi təmin edilməlidir;
- səlahiyyətlərinin həyata keçirilməsi məqsədilə onlara maliyyə mənbələri verilməli, xarici ölkə təcrübəsindən faydalanaraq paylı vergi sisteminin tətbiqi imkanları nəzərdən keçirilməli, bələdiyyələrin vergitutma mexanizmləri təkmilləşdirilməli, əmlakın qiymətləndirilməsi bazar qiymətləri ilə uzlaşdırılmalı, bələdiyyələrin vergiyığma zamanı təsiretmə mexanizmləri işlənilməlidir;
- "pilot" bələdiyyələr təşkil edilərək onlara kifayət qədər səlahiyyət və maliyyə mənbələri verilməli və iqtisadi səmərə əldə edildikdən sonra bu təcrübəni bütün iqtisadi rayon bələdiyyələrinə şamil etməklə aqrar sahənin inkişafında bələdiyyələrin rolu artırıla bilər;

- aqrar sahənin inkişafında bələdiyyələrin iştirakını sürətləndirən "Yerli Özünüidarəyə dəstək" Dövlət Proqramı qəbul edilməli, "Bələdiyyələrlə iş" Dövlət Komitəsinin işi gücləndirilməli, yaxud "Bələdiyyə Nazirliyi" yaradılmalıdır.

Açar sözlər: aqrar sahə, bələdiyyə orqanları, təkmilləşmə, ərzaq təhlükəsizliyi, torpaq, bələdiyyə büdcələri

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin Azərbaycan xalqına müraciəti, "Azərbaycan" qəz., Bakı, 1999, 11 dekabr
2. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası", 29 dekabr 2012-ci il, http://e-qanun.az
3. Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı: 2013, 804 s.
4. "Bələdiyyə orqanlarının büdcəsinin icrasına dair" statistik bülleten. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2013, 142 s.
5. Nuriyev Ə.X. Azərbaycanın müasir sosial-iqtisadi inkişaf strategiyası: formalaşdırılması və reallaşdırılmasının konseptual əsasları / Azərbaycan regionlarinin sosial-iqtisadi inkişafi: problemlər, inkişaf meyilləri mövzusunda respublika elmi-praktiki konfransının materialları Bakı: Avropa, 2011
6. Гордеев А. Экономические механизмы регулирования агропромышленного производства // Экономист, 2006, № 6, с. 90-93
7. Микаилова Н.Я. Роль муниципалитетов в экономическом развитии Азербайджана // Международный технико-экономический журнал, М.: Спектр, 2013, №1, с. 50-57
8. www. marmara.gov.tr

Нурангиз Микаилова

НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ РОЛИ МУНИЦИПАЛИТЕТОВ В УСКОРЕНИИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АГРАРНОЙ СФЕРЫ

Резюме

В статье отражены направления повышения деятельности муниципальных органов в социально-экономическом развитии аграрной сферы, вопросы обеспечения продовольственной безопасности, пути увеличения роли муниципалитетов в повышении эффективности сельского хозяйства и увеличения воздействия муниципалитетов в социально-экономическое развитие сёл.

Ключевые слова: аграрный сектор, муниципальные органы, усовершенствование, безопасность пищевых продуктов, земля, муниципальные бюджеты

Nurangiz Mikayılova

DIRECTIONS OF THE USE OF MUNICIPAL AUTHORITIES ON THE ACCELERATION OF DEVELOPMENT OF AGRARIAN SECTOR

Summary

The position of municipalities in the management system of Azerbaijan, their activities were shown in the article. The economic activity of municipalities and the bases of budget formation were investigated, the activity of agrarian sector on the economic development, food safety, social-economic development of the villages and the role of these authorities in increasing the efficiency of agrarian sector were noted in the article. The location of municipalities on the social-economy development was determined and associated with the experience of developed countries.

Keywords: agrarian sector, municipal authorities, improvement, food safety, land, municipal budgets

UOT – 330.3

Ofeliya Yusupova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.

MATERİAL EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN ƏHƏMİYYƏTİ, ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ UÇOTU

Məqalədə qarşıya qoyulan əsas məqsəd materialların uçotun təkmilləşdirilməsi və material ehtiyatlarından səmərəli istifadəni təmin edən tədbirlər proqramının işlənib hazırlanmasıdır. Həmin məqsədə nail olmaq üçün material ehtiyatlarının qiymətləndirilməsinin müasir tələblər əsasında həyata keçirilməsi; sənədləşmənin səmərəliliyinin yüksəldilməsi yolları; mühasibatlıqda və anbarda materialların analitik uçotunun təşkili qaydası; materialların sintetik uçotunun təşkilinin təkmilləşdirilməsi istiqamətləri; məhsulun material tutumunun azalmasına təsir edən amillərin təhlili; material ehtiyatlarından istifadənin təhlilinin təkmilləşdirilməsinin əsas istiqamətləri; material ehtiyatlarının uçotunun təşkilinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi istiqamətləri kimi aktual problemlərin həll edilməsi nəzərdə tutulmuşdur.

Müasir şəraitdə mühasibat uçotu və hesabatın təkmilləşdirilməsi və beynəlxalq təcrübədə qəbul edilmiş qaydalara uyğunlaşdırılması istiqamətində bir sıra normativ-hüquqi sənədlər hazırlanmışdır.

Bildiyimiz kimi Respublikamızda mühasibat uçotu və auditin yaranması bilavasitə suverenliyimizin əldə edilməsi ilə əlaqədar olmuşdur. Müstəqillik əldə etdikdən sonra yeni dirçələn dövlətimiz bazar iqtisadiyyatına ilk addımlarını atmışdır. Beləliklə, bir sıra sahələrdə özünü göstərən sürətli inkişaf iqtisadiyyatımızdan da yan keçməmişdir. İqtisadiyyatımızın inkişafında mühüm rol oynayan müəssisələr, birliklər, təşkilatlar da öz fəaliyyətlərində mənfəət əldə etdikcə inkişaf edirdilər.

Bazar iqtisadiyyatı şəraitində materiallara qənaət və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, eləcə də istehsalın nəticələrinin material məsrəflərinə nisbətən daha sürətlə artırılması vacib bir məsələ kimi qarşıda durur. Burada əsasən istehsalın enerji və material tutumunun azaldılması, xammalın daha keyfiyyətli emalı, materialları qənaət, tullantısız işləyən texnologiyanın istehsala tətbiqi və onların səmərəliliyinin yüksəldilməsi, ikinci dərəcəli material ehtiyatlarından və əlavə materiallardan hərtərəfli və geniş istifadə edilməsi kimi mühüm vəzifələr nəzərdə tutulur.

Materiallardan istifadə, əsasən, məhsul vahidinə sərf edilmiş xərclərin tərkibində onların tutduğu xüsusi çəki ilə xarakterizə olunur. Burada materialların plan məsrəfi onların sərfolunma norması adlanır.

Yeni iqtisadi münasibətlər şəraitində iqtisadi inkişafın sadəcə olaraq yüksək sürət əldə etmək deyil, xalq təsərrüfatında mütləq yüksək nəticələr əldə etməkdir. Son nəticələrin digər tərəfi material ehtiyatlarından istifadə edilməsinin səmərəliliyidir. Doğrudan da, materialların dəyər ifadəsində hər manatından nə qədər səmərəli istifadə edilərsə, tələbat da bir o qədər tam ödənilmiş olar.

Bununla əlaqədar olaraq sənaye müəssisələrində materialların uçotunun dəqiq və vaxtında aparılmasının böyük əhəmiyyəti vardır. Mühasibatlıq materiallarının daxil olmasının, sərf edilməsinin və hərəkətinin müntəzəm uçotunu aparmalı, müəssisəyə daxil olan materialların kəmiyyət və çeşidlərinin istehsalın cari tələbatına müvafiqliyinə, bunlardan düzgün istifadə olunmasına, anbarlarda ehtiyat normalarına, habelə xammal, köməkçi və sair material buraxılışı normalarına riayət olunmasına nəzarət etməlidir.

Materiallardan səmərəli istifadə edilməsinin iqtisadi təhlili müəssisənin planında nəzərdə tutulan material məsrəfləri ilə faktiki material məsrəflərini müqayisə etməklə başlanır. Bu zaman materialların norma daxilində sərf edilməsi və hər bir çeşiddən olan material üzrə kənarlaşmalar müəyyən edilməlidir.

Burada eyni zamanda, hər bir məhsul vahidi istehsalına faktiki material məsrəfi həm plan və həm də müəssisədə qüvvədə olan mütərəqqi material məsrəfi normaları ilə müqayisə edilir.

Materiallardan istifadənin uçotu və təhlili üzrə məqalənin hazırlanması üçün B.Sərdarov adına zavodun materiallarından istifadə edilmişdir.

Hazırda B.Sərdarov adına maşınqayırma zavodu keçmiş 1 may, B.Sərdarov adına və Binəqədi mexaniki zavodu adlanan üç zavodun bazasında yaranmışdır.

Arxiv materiallarından məlum olur ki, Binəqədi qazma kontoru yanındakı mexaniki emalatxana Azneftin xüsusi əmri ilə 16 sentyabr 1926-cı ildən 1 may adına mexaniki zavod adlanmışdır. 1 may adına zavodun yaxınlığında Kirovneft Nəqliyyat kontoru yerləşirdi. 1935-ci ildə bu kontorun bazasında yaradılan mexaniki zavoda inqilabçı B.Sərdarov adı verildi.

1938-ci ildə qonşuluqda yerləşən iki müəssisə – B.Sərdarov və 1 may adına zavodlar birləşdirildi və B.Sərdarov adına maşınqayırma zavodu adlandırıldı.

1971-ci ildə, zavodun yanında tikilən və buraxılışı gecikdirilən Bakı Poladtökmə zavodu da B.Sərdarov adına zavoda birləşdirildi. Sonralar bu zavod öz fəaliyyətini yaxşılaşdırdı və 1980-ci ildə B.Sərdarov adına zavoddan ayrılıb müstəqil hüquqi şəxs kimi fəaliyyət göstərməyə başladı.

B.Sərdarov adına zavodun 1500 nəfərə yaxın işçisi var. Burada ən çox neft avadanlıqları, kənd təsərrüfatı avadanlıqları və xalq istehlakı malları buraxılır.

Burada 1994-1995-ci illərə kimi bir çox kənd təsərrüfatı avadanlıqları da istehsal edilmişdir. Lakin yeni iqtisadi bazar münasibətlərinə keçidlə əlaqədar kənd təsərrüfatı müəssisələrinin özəlləşdirildiyi üçün hələlik kütləvi surətdə kənd təsərrüfatı aqreqatlarının alıcıları olmadığından bu kimi aqreqatların əksəriyyətinin istehsalı dayandırılmışdır. Lakin uzun illər zavodun istehsal etdiyi CK-2A markalı çay kultivatoru, KK-2,8 markalı kartof kultivatoru, UPK-2,8 markalı pambıq kultivatoru kombaynlar üçün bıçaqlar, seqmentlər 20 tonluq kanteynerlər zavodun şöhrətini artırmışdır.

B.Sərdarov adına maşınqayırma zavodu öz istehsal prosesini həyata keçirmək üçün Rusiya, Ukrayna, Moldova, Qazaxstan, Gürcüstan, Qırğızstan, Latviya, Almaniya, Çexiya və Slovakiya, Rumıniya, Belorusiya, Türkmənistan respublikalarından xammal və komplektləşdirici məmulat, detal və qovşaqlar idxal edir (daha doğrusu, 1996-cı ilə kimi idxal edirdi, indi isə az-az miqdarda və az saylı respublikalara idxal edir). Zavodun istehsal etdiyi məmulatlar və detallar və ehtiyat hissələri Hindistana, İraqa, İrana, Türkiyəyə, Əfqanıstana, Pakistana, Vyetnama, Suriyaya, Əlcazairə, Polşaya, Bolqarıstana, Kubaya, Özbəkistana, Moldovaya, Ukraynaya və Rusiya Federasiyasına satılır.

Uzun illər Respublikamızın iqtisadi həyatında şöhrətlə adı çəkilən B.Sərdarov adına zavod hal-hazırda öz inkişafının yüksələn əyrisini davam etdirə bilmir. Köhnə SSRİ respublikaları ilə iqtisadi əlaqələrin pozulduğu, xalqımızın müharibəyə düçar olduğu və inflyasiyanın tüfyan etdiyi bu illərdə zavod nəinki irəliləyişə nail ola bilmir, hətta "yaşaya bilmək" imtahanı qarşısında çırpınır. Elə ona görə də zavod 2007-ci istehsal ilində bir manat də mənfəət əldə etməmiş, əksinə, ilin yekununu 458154,6 min manat zərərlə başa vurmuşdur. Bunun nəticəsində zavodun maliyyə vəziyyəti də pisləşmişdir. 1 yanvar 2008-ci ilə zavodun dövlət bankına 106821,6 min manat qısa müddətli kredit borcu, müxtəlif təşkilatlar isə 2838113,8 min manat kredit borcu olmuşdur. Aylarla zavodda işləyən əmək kollektivinə əmək haqqı verilmədiyindən həmin dövrə zavodun işçilərə olan əmək haqqı borcu 657503 min manat təşkil etmişdir.

1 yanvar 2008-ci ilə zavodda istehsal təyinatlı əsas vəsaitlərin məb-ləği 17218630,4 min manat, o cümlədən maşın və avadanlıqların dəyəri 21221424 min manat olmuşdur. 2007-ci ildə zavod büdcəyə 121000 min manat gəlir vergisi, 464,2 min manat nəqliyyat vergisi, 600 min manat mənfəət vergisi, 1642 min manat sair vergilər ödəmişdir.

Məqalədə qarşıya qoyulan əsas məqsəd materialların uçotun təkmilləşdirilməsi və material ehtiyatlarından səmərəli istifadəni təmin edən tədbirlər proqramının işlənib hazırlanmasıdır. Həmin məqsədə nail olmaq üçün bir sıra aktual problemlər həll edilməlidir. Bunlara aiddir:

- material ehtiyatlarının qiymətləndirilməsinin müasir tələblər əsasında həyata keçirilməsi;

- material ehtiyatlarının uçotunun təşkilinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi istiqamətləri
- materialların daxil olmasının və istifadəsinin sənədləşdirilməsi və sənədləşmənin səmərəliliyinin yüksəldilməsi yolları;
- mühasibatlıqda və anbarda materialların analitik uçotunun təşkili qaydası;
- materialların sintetik uçotunun təşkilinin təkmilləşdirilməsi istiqamətləri;
- istehsalata materialların buraxılmasının ilkin sənədləşdirilməsi və istehsalatda materiallardan istifadənin partiyalı və inventar üsulları;
- materiallardan istifadə edilməsi üzrə normadan kənarlaşmaların növləri və onların sistemləşdirilmə qaydası;
- məhsulun material tutumunun azalmasına təsir edən amillərin təhlili;
- material məsrəflərinin strukturunun təhlili;
- material ehtiyatlarından istifadənin təhlilinin təkmilləşdirilməsinin əsas istiqamətləri.

Maliyyə hesabatlarının tərtib edilməsi zamanı ehtiyatların düzqün qiymətləndirilməsi, təşkilatların maliyyə nəticələrinin ədalətli təqdimatının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bu məqalənin metodoloji əsasını Azərbaysan Respublikasının "Mühasibat üçotu haqda qanunu" və Respublika Maliyyə Nazirliyinin təsdiq etdiyi "Mühasibat üçotu siyasəti" təşkil edir.

Material uçotunun əsasını materialların hərəkəti üzrə tərtib olunan ilkin sənədlər təşkil edir. Materialların hərəkəti saxlanılması və səmərəli istifadəsi üzərində ilkin,cari və sonrakı nəzarət məhz ilkin sənədlər vasitəsilə həyata keçirilir.

Hal-hazırda Respublikamızda güclü istehsal potensialı vardır. Həmin potensialın xeyli hissəsini material ehtiyatları təşkil edir. Material ehtiyatları istehsal olunan sənaye məhsulunun (yerinə yetirilən işlərin və xidmətlərin) maya dəyərinin təxminən 60-70%-ni təşkil edir.

Sənayenin bir çox sahələrdə, məsələn, yüngül və yeyinti sənaye sahələrində, məhsulun maya dəyərində material ehtiyatlarının (xammalların, materialların, yanacağın və s.) xüsusi çəkisi daha yüksəkdir – 80-90%. Bu da sənayedə yaradılan milli gəlirin həcminə birbaşa təsir göstərir. Yəni məhsulun hər vahidinə nə qədər çox material ehtiyatları sərf olunarsa həmin sahədə yaradılan milli gəlirin həcmi də bir o qədər aşağı olur. Odur ki, ölkənin iqtisadi və sosial inkişafının başlıca mənbəyi olan milli gəlirin artırılmasında istehsal olunan məhsullara (iş və xidmətlərə) çəkilən material ehtiyatlarının azaldılması çox mühüm əhəmiyyətə malikdir. Apardığımız təxmini hesablamalara görə sənaye məhsullarının (iş və xidmətlərin) istehsalına material məsrəflərinin yalnız 1 faiz azaldılması bu sahədə yaradılan milli gəlirin 40-50 mlrd. manat artırılması deməkdir.

Məhsul vahidinə material məsrəflərinin azaldılması həmin məhsulun əmək və fond tutumunun azaldılmasına nisbətən daha çox səmərə verə bilər. Belə ki, material ehtiyatlarına 1% qənaət edilməsi, xərcləri əmək haqqı xərclərinə 1% qənaət edilməsindən 2,5 dəfə, kapital qoyuluşlarına 1% qənaət edilməsindən isə 4-5 dəfə çox azaltmağa imkan verir.

Bazar iqtisadiyyatı şəraitində canlı və əşyalaşmış əməyə qənaət olunmasının əhəmiyyəti daha da artmışdır. Məsələ bundadır ki, müasir daxili və beynəlxalq bazarda rəqabətə davam gətirmək və müəssisənin maliyyə vəziyyətini möhkəmləndirmək üçün istehsal xərclərini, ilk növbədə material məsrəflərini azaltmaq lazımdır.

Gizli deyildir ki, bazar iqtisadiyyatı şəraitində material ehtiyatlarının əldə olunması daha baha başa gəlir və onların yeni kütləsini xalq təsərrüfatı dövriyyəsinə cəlb etməklə istehsalın miqyasını artırmaq səmərəli deyildir. Məhz buna görə müasir dövrdə ehtiyatlara qənaət iqtisadi inkişafının başlıca keyfiyyət momentinə çevrilir. Lakin təəssüflə demək lazımdır ki, ölkədə ehtiyatlara qənaətin mütləq həcmi onların istifadə olunma miqyaslarına nisbətən çox deyildir.

Cəmiyyətin material ehtiyatlarına tələbatı artdıqca həmin ehtiyatların tamamlanmasına çəkilən ictimai zəruri məsrəflərin də artması meyli güclənir. Hələlik bizdə təkrar ehtiyatlardan çox az istifadə edilir. Təkcə onu göstərmək kifayətdir ki, ölkədə qara metalların ümumi istehsalında metal

(tullantılarından çox az istifadə edilir) tullantılarının xüsusi çəkisi cəmi 20-25% səviyyəsindədir. Halbuki inkişaf etmiş ölkələrdə bu rəqəm 2-3 dəfə yüksəkdir.

Bütün yuxarıda deyilənlər material ehtiyatlarından səmərəli istifadə olunmalı və onlara qənaət edilməsinin zəruriliyini və iqtisadi əhəmiyyətini kifayət qədər xarakterizə edir. Material ehtiyatlarından istifadənin səmərəliliyini yalnız onların məhsul vahidinə sərf edilən kütləsinin azalması ilə qiymətləndirmək düzgün olmazdı. Burada ümumi daxili məhsulun, yaxud milli gəlirin hər vahidinə düşən mal-material qiymətlərinin nisbi azalmasını da nəzərə almaq lazımdır. Məsələyə bu baxımdan yanaşsaq, onda görərik ki, son dövrlərə qədər məhsul istehsalının artmasına nisbətən mal-material qiymətlərinin ehtiyatı daha çox artırdı, yaxud da istehsal olunan məhsulun həcmi azaldığı halda, mal-material ehtiyatları hələlik azalmır, bəzən də artmaqda davam edir. Material qiymətlərinin ehtiyatlarının məhsul istehsalına nisbətən daha sürətlə artması fonunda həmin qiymətlərin ehtiyatlarının azalmaması ölkənin iqtisadi inkişaf sürətinin zəifləməsi və dayanmasına gətirib çıxaran başlıca səbəblərdəndir.

ABŞ, Yaponiya, Almaniya və digər inkişaf etmiş ölkələrin məşhur firmalarının iş təcrübəsi göstərir ki, onlar məhsul istehsalı üçün material ehtiyatları yaratmırlar və bunun üçün onların heç anbarları da yoxdur. Çünki onlarda istehsalın və material ehtiyatlarının tədarükünün təşkili çox yüksək səviyyədədir. Tədarük olunan material ehtiyatları anbarlara yox, birbaşa məhsul istehsal edilən bölmələrə gətirilir. Bu qayda həm də material qiymətlilərinin saxlanması xərclərini və saxlanma yerlərində onların uçotu və hesabatının aparılması ilə əlaqədar xərcləri ixtisara salmağa, beləliklə də, istehsal olunan məhsulun maya dəyərini aşağı salmağa imkan verir.

Material ehtiyatlarından səmərəli istifadənin əhəmiyyəti və zəruriliyi təkcə iqtisadi faktorlarla yox, digər faktorlarla bağlıdır. Bunlardan ən başlıcası ətraf mühitin qorunub saxlanılması məsələsidir. Məsələ bundadır ki, insanlar texnikanın köməyi ilə təbii proseslərə müdaxilə edib onların gedişatını pozur, bəzən də xammal, yanacaq-energetika, su və digər ehtiyatların təbii mənbələrini, bitki və heyvanat aləmini tamamilə tükədir və məhv edirlər. Ehtiyatların istehsalının müasir səviyyəsi artır, nəticədə onlar təbii kompensasiya imkanlarını itirirlər.

Havanın çirklənməsi də intensiv şəkildə davam edir. Qəbul edilmiş bir sıra inzibati iqtisadi tədbirlərə baxmayaraq hər il atmosferə min tonlarla müxtəlif kimyəvi birləşmələr atılır. Bütün bunlar ekoloji rejimin pozulmasına gətirib çıxarır, ətraf mühiti çirkləndirir, insanların həyatına mənfi təsir göstərir.

Beləliklə, material ehtiyatlarından səmərəli istifadənin zəruriliyi və əhəmiyyəti bir-birilə sıx bağlı olan müxtəlif kompleks faktorlardan irəli gəlir.

Material qiymətlərindən səmərəli istifadə edilməsi onların ehtiyatlarının azaldılması tullantı və itkilərinin minimuma endirilməsi və aradan qaldırılması təşkilati-iqtisadi, texniki, texnoloji, sosial və digər amillərdən asılıdır. Material ehtiyatlarından səmərəli istifadə olunmasının vacib şərtlərindən biri – işlək təsərrüfat mexanizminin və onun mühüm tərkib hissəsi olan müvafiq uçot sisteminin yaradılmasıdır [1, s.205].

Bazar iqtisadiyyatı şəraitində material ehtiyatlarının uçotu qarşısında duran vəzifələri yığcam şəkildə aşağıdakı kimi müəyyən etmək olar:

- saxlanılma və istifadə yerlərində material ehtiyatlarının qalığı və hərəkəti haqqında düzgün məlumatlar vermək;
- material qiymətlərinin tədarükü, daxil olması, saxlanılması, istehsalata (kənara) buraxılması və silinməsini vaxtında sənədləşdirmək;
- tədarük olunan material ehtiyatlarının faktiki maya dəyərini müəyyənləşdirmək;
- qoyulmuş normalara əməl olunması üzərində nəzarət etmək və həmin normalardan kənarlaşmaları müəyyən etmək;
- istehsalda istifadə olunan material ehtiyatları haqqında vaxtında məlumat vermək;
- material ehtiyatları üzrə tullantılar və itkilər haqqında, həmçinin onlara qənaət olunması haqqında informasiya vermək və s.

Material ehtiyatlarının uçotunun təşkilinin vacib şərtlərindən biri – onların qiymətləndirilməsidir.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, material ehtiyatları mühasibat uçotu və hesabatında faktiki maya dəyəri ilə əks etdirilməlidir. Material ehtiyatlarının faktiki maya dəyəri onların əldə olunmasına (kreditlə alınmış ehtiyatlara görə ödənilmiş faizlər də daxil olmaqla) çəkilən xərclərdən, təchizat təşkilatlarına və xarici iqtisadi təşkilatlara ödənilən əlavələrdən, komisyon məbləğlərdən, əmtəə birjalarının xidmətlərinin dəyərindən, gömrük vergilərindən, kənar təşkilatların vasitəsilə həyata keçirilən daşınma, saxlanma xərclərindən və digər xərclərdən yaranır [2, s.5].

Lakin cari uçotda material ehtiyatlarının faktiki maya dəyəri ilə qiymətləndirilməsi heç də həmişə mümkün olmur.

Əgər istifadə edilən ehtiyatların nomenklaturası böyükdüsə, onda onların faktiki maya dəyərini yalnız ayın sonunda, mühasibatlıq həmin maya dəyərini müəyyən etməyə imkan verən bütün sənədləri (malsatanların, nəqliyyat təşkilatlarının ödəmə tələbnamələrini və s.) aldıqdan sonra, hesablamaq mümkündür. Müəssisələrdə isə material ehtiyatlarının hərəkəti (mədaxili və məxarici) gündəlik baş verir və onların hərəkəti hər bir əməliyyat baş verdikcə vaxtında sənədlə rəsmiyyətə salınmalı və uçotda əks etdirməlidir. Odur ki, cari uçotda əvvəlcədən qoyulmuş qiymətlərdən, yəni uçot qiymətləri deyilən qiymətlərdən istifadə etmək zəruriliyi meydana çıxır.

Uçot qiymətləri kimi preyskurant (topdansatış), müqavilə, orta alış qiymətləri, plan-maya dəyəri və s. götürülür.

Preyskurant (topdansatış) qiymətləri hökumət tərəfindən mərkəzləşdirilmiş qaydada qoyulan qiymətlərdir. Bu qiymətlərdən əvvəllər daha çox istifadə olunurdu. Çunki topdansatış qiymətləri xeyli müddət, məsələn: beş il ərzində, sabit qalırdı və preyskurantlarda göstərilirdi. Bu, müəssisələrdə nomenklatura – qiymət-sorğu kitabçalarının tərtibini xeyli asanlaşdırırdı və materiallara plan qiymətlərinin hesablanmasına ehtiyac qoymurdu. Belə qiymətləndirmə zamanı nəqliyyat – tədarükət xərcləri ayrıca hesablanır və ayın sonunda materialların növləri və nomenklatura qrupları üzrə faktiki maya dəyəri müəyyən olunurdu. Lakin bazar iqtisadiyyatı şəraitində uçot qiymətləri kimi preyskurant (topdansatış) qiymətlərindən artıq istifadə olunmur, yaxud da nadir hallarda istifadə olunur. Başlıca səbəb isə ondan ibarətdir ki, bazar iqtisadiyyatı şəraitində qiymətlər uzun müddət sabit qala bilməz, onlar sürüşkəndir, dəyişiləndir və buna görə də materialların dəyəri tez-tez dəyişir.

Uçot qiymətləri kimi müqavilə qiymətləri götürüldükdə materialların faktiki maya dəyəri ilə onların uçot qiymətləri ilə dəyəri arasındakı fərq (kənarlaşma) yalnız nəqliyyat tədarükət xərclərindən ibarət olur.

Alış qiymətlərini birmənalı qəbul etmək, yaxud müəyyən etmək olmaz. Bu qiymətlər əlavə və güzəştlərlə birlikdə müqavilə qiymətlərindən, malsatanların hesab fakturasında göstərilən "faktura qiymətlərindən" ibarət ola bilər. Faktura qiymətləri müqavilə üzrə müəyyən edilir. Faktura qiymətlərinə nəqliyyat tədarükət xərcləri daxil olunmadığı halda həmin xərclərin uçotu ayrıca aparılır. Ayın sonunda faktura qiymətlərinə nəqliyyat – tədarükət xərcləri əlavə edilməklə materialların faktiki maya dəyəri müəyyən olunur.

Uçot qiymətləri kimi götürülən plan maya dəyəri materialların müqavilə qiymətləri və planlaşdırılan nəqliyyat – tədarükət xərclərindən yaranır. Bu halda kənarlaşma material ehtiyatlarının faktiki maya dəyərini onların plan maya dəyərinə nisbətən artıq (əlavə), yaxud aşağı (qənaət) olduğunu göstərir. Göründüyü kimi bütün hallarda material ehtiyatlarının hesabat dövründə faktiki maya dəyəri onların uçot qiymətlərilə dəyərindən, müvafiq kənarlaşmalardan (əlavə məsrəflər, yaxud qənaət) və nəqliyyat – tədarükət xərclərinin cəmindən yaranır.

Uçot qiymətləri kimi götürülən qiymətlər mütəmadi olaraq dəyişdiyi üçün həmin uçot qiymətlərinə müntəzəm olaraq yenidən baxılmalıdır ki, onlar material qiymətlərinin həqiqi dəyərini daha real əks etdirmiş olsunlar. Qiymətlər sabit qaldığı halda buna ehtiyac duyulmur. Amma inflyasiya

şəraitində uçot qiymətlərinin ildə bir neçə dəfə dəyişilməsi zəruridir, baxmayaraq ki, bu işə müəyyən məsrəflər tələb edir.

Hesabat dövründə material ehtiyatlarının hərəkəti, onların yalnız tədarük edilib mədaxil olunması yox, həm də istehsalata buraxılması və silinməsi deməkdir. Beynəlxalq təcrübədə material ehtiyatların maya dəyərinin hesablanmasının 4 əsas üsulu vardır. Bunlara aşağıdakilər daxildir:

- spesifik identifikasiya metodu;
- vaxta görə birinci alınanların maya dəyəri metodu (FİFO);
- vaxta görə sonuncu alınanların maya dəyəri metodu(LİFO);
- orta maya dəyəri metodu [3, s.175].

Bu metodlar beynəlxalq standartlara və qərb ölkələri kompaniyalarının uçot praktikasına uyğundur. Həmin metodlar ona əsaslanır ki, material ehtiyatlarının və digər ehtiyatların daxil olması və istehsalata buraxılması fiziki vahidlərin axını kimi yox, dəyərlərin axını kimi traktə olunur.

Spesifik identifikasiya metodunun mahiyyəti ondan ibarətdir ki, satiş zamanı satilan malların hər birinə fərdi yanaşma edilir.Yəni hər bir malın alış qiymətinə ayrıca baxılaraq hesablama aparılır. Bu metod, əsasən, sifarişlə istehsal olunan məhsulların maya dəyərini hesablayan zaman uğurla tətbiq olunur.

Orta maya dəyəri metodunun mahiyyəti ondan ibarətdir ki, hər hansı dövrün (ayın) material ehtiyatlarının hər vahidinin dəyəri həmin dövr üçün hesablanmış orta dəyərlə müəyyən edilir.

Məsələn: müəssisəyə material ehtiyatları daxil olmuşdur:

Tarix	Miqdarı	Bir ədədin qiyməti
1 yanvara qalıq	100 ədəd	1.000 manat
6 yanvarda alınıb	120 ədəd	1.400 manat
12 yanvarda alınıb	80 ədəd	2.000 manat
21 yanvarda istehsala buraxılıb	280 ədəd	-
25 yanvarda alınıb	150 ədəd	2.400 manat
31 yanvara qalıq	170 ədəd	-

İstehsalata buraxıla biləcək material ehtiyatlarının miqdarı 450 ədəd (100+120+80+150); istehsalata buraxıla biləcək material ehtiyatlarının ümumi dəyəri 788.000 man. (100 əd. x 1.000 man. + 120 əd. x 1.400 + 80 əd. x 2000 man. + 150 əd. x 2400 man.). Material ehtiyatlarının hər vahidinin orta maya dəyəri 8755.555 manata (788.000 : 450) bərabərdir. Ayın sonuna qalan material ehtiyatlarının maya dəyərinin məbləği 297688,8 manat (170 ədəd x 1751,111 man.) təşkil edəcəkdir.

Beləliklə, istehsalata buraxılan material qiymətlərinin maya dəyərinin məbləği 490311,2 man. (788000 – 297688,8) təşkil edir.

Qeyd edək ki, orta maya dəyəri metodundan material ehtiyatlarının dövrü uçotu sisteminin tətbiqi zamanı istifadə olunur.

Vaxta görə birinci alınanların maya dəyərilə olan metod (FİFO) ona əsaslanır ki, material ehtiyatları istehsalata alındıqları qayda ilə (ardıcıllıqla) buraxılır: birinci gəlib – birinci gedib. Başqa sözlə, material ehtiyatlarının məxarici (sərf olunması) müəyyən ardıcıllıqla alınma dəyəri ilə qiymətləndirilir: əvvəlcə məxaricə birinci alınmış dəstin qiymətilə buraxılan materialların dəyəri, sonra ikinci, üçüncü və beləliklə, ardıcıl olaraq sonrakı dəstlərin qiymətilə buraxılan materialların dəyəri silinir. Qiymətləndirmənin qaydası daxil olmuş dəstlərin məxaric olunmasının faktiki ardıcıllığından asılı olur.

Vaxta görə sonuncu alınanların maya dəyərilə olan metod (LİFO) belə bir qaydaya əsaslanır ki, məxaricə gedən (sərf olunan) material ehtiyatları vaxta görə sonuncu alınan dəstin dəyərilə, daha sonra isə sonrakı dəstin dəyərilə, yeni sonuncudan əvvəlki dəstin dəyərilə və i.a. qiymətləndirilir, baxmayaraq ki, bu zaman material ehtiyatlarının faktiki hərəkəti anbarlarda başqa cür ola bilər.

FİFO metodundan istifadə olunması material ehtiyatlarının dəyər axınını onların fiziki axınına maksimum yaxınlaşdırır. Bu metodun tətbiqi nəticəsində material ehtiyatlarının son qalığının məb-

ləği onların cari bazar dəyərinə yaxınlaşır, satılan məhsulun maya dəyəri isə aşağı düşür, bu da xalis mənfəətin həcmini artırır.

LİFO metodu qiymətlərin yüksəlməsi şəraitində tətbiq edilir. Bu zaman istehsalata buraxılan xammal və materiallar cari bazar qiymətləri ilə qiymətləndirilir və nəticədə satılan məhsulun maya dəyəri daha real müəyyən olunur, alınan xalis mənfəətin həcmi azalır.

Beləliklə, məxaric olunan material ehtiyatlarının qiymətləndirilməsinin FİFO və LİFO metodları müəssisənin fəaliyyətinin, xüsusilə də, inflyasiya şəraitində, maliyyə nəticələrinə əsaslı təsir göstərə bilər. Həmin metodların tətbiqi nəinki təkcə müəssisənin maliyyə nəticələrinə (konkret olaraq mənfəətin həcminə), eləcə də həmin mənfəətə görə dövlət büdcəsinə köçürülən vergilərin həcminə təsir göstərir. Odur ki, respublikanın müəssisələrində həmin metodların tətbiqinə dair müvafiq mexanizm işlənib hazırlanmalıdır. Hər şeydən əvvəl bu və ya digər metodun tətbiqi müəssisənin uçot siyasətində öz əksini tapmalıdır. Müəssisə tərəfindən seçilmiş metod tez-tez dəyişdirə bilməz. Bunu dəyişdirmək üçün müəssisənin ciddi əsası və arqumenti olmalıdır. Praktikada göstərilən metodlar dəyişdirilərkən müvafiq orqanların, məsələn, dövlət vergi müfəttişliyinin razılığı olmalıdır. Bu razılaşmanın da müəyən mexanizmi olmalıdır. Bir metoddan digərinə keçilməsi zəruriliyi və bunun nəticələri əvvəlcədən, illik hesabata əlavədəki uçot siyasəti haqda açıqlamada göstərilməlidir. Araşdırmalar göstərir ki, sənaye müəssisələri, səhmdar cəmiyyəti və birgə müəssisələrdə tədqiq olunan məsələ barədə dəqiq uçot siyasəti formalaşmamışdır.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 1997-ci il 23 yanvar tarixində təsdiq edilmiş "Müəssisələrin uçot siyasəti haqqında əsasnamədə" də material ehtiyatlarının qiymətləndirilməsi sahəsində müəssisələrin uçot siyasəti haqda heç bir müddəa və şərh yoxdur. Yəni burada göstərilmir ki, uçot və hesabatda, eləcə də istehsalata buraxılan, material ehtiyatlarının qiymətləndirilməsi sahəsində müəssisənin uçot siyasəti necə qurulmalıdır.

Zənnimizcə, material ehtiyatlarının qiymətləndirilməsi zamanı FİFO, yaxud LİFO metodundan istifadə edilməsi şərtləri və kriteriyaları müəyyənləşdirilməlidir.

İstehsalata buraxılan material ehtiyatlarının qiymətləndirilməsinin FİFO, yaxud LİFO metodunun tətbiqi onların analitik uçotunun yalnız növlər yox, həm də dəstlər üzrə aparılması zəruriliyini meydana çıxarır. Bu da uçotu xeyli mürəkkəbləşdirir və onun əmək tutumluğunu artırır. Deməli, həmin metodların tətbiqi uçotun yüksək səviyyədə avtomatlaşdırılması şəraitində sərfəli ola bilər.

Bütövlükdə yuxarıda deyilən səbəblər üzündən istehsalata buraxılan material ehtiyatlarının FİFO və LİFO metodları ilə qiymətləndirilməsi indiki şəraitdə real və səmərəli deyildir.

İstehsalata buraxılarkən (silinərkən) material ehtiyatlarının qiymətləndirilməsi zamanı "Mühasibat uçotu haqqında" Qanunda göstərilən (maddə 19) metodlardan birincisinin istifadə olunması daha məqsədəuyğundur. Bu metod, yuxarıda göstərildiyi kimi, orta maya dəyəri metodudur. Həmin metod ölkəmiz üçün ənənəvidir və uçot praktikasında geniş yayılmışdır. Bu metodun qısa mahiyyəti belədir. Ay ərzində materiallar istehsalata uçot qiymətlərilə buraxılır (silinir). Ayın sonunda materiallarına faktiki maya dəyərilə onların uçot qiymətlərilə dəyərləri arasındakı fərq, yaxud kənarlaşma uçot qiymətlərilə istehsalata buraxılan materialların dəyərinə proporsional olaraq silinir. İstehsalata silinən materialların faktiki maya dəyərinin onların uçot qiymətlərilə olan dəyərindən kənarlaşmalarını aşağıdakı kimi hesablamaq olar:

Göstəricilər	Materialların uçot qiymətlərilə dəyəri, min man.	Materialların faktiki maya dəyəri, min man.	Kənarlaşmalar (+, -)
Ayın əvvəlinə qalıq	6.000	6.520	+2600
Ay ərzində daxil olub	13.060	13.760	+3500
Qalıqla birlikdə daxil olub	19.060	20.280	+6100
Kənarlaşma, %	-	-	6,4
Ay ərzində sərf edilib	11.960	12704.2 7575.8	+3821,0
Ayın sonuna qalıq	7.120		+2279

İstehsalata buraxılmış material ehtiyatlarının faktiki maya dəyərinin uçot dəyərindən kənarlaşmalarının hesablanması:

11940 x 6,4 : 100 = 764,2 min manat

Ay ərzində istehsalata buraxılmış material ehtiyatlarının faktiki maya dəyəri:

11940 + 764,2 = 1270,42 min manat

İstehsalata buraxılmış material ehtiyatlarına düşən nəqliyyat – tədarükət xərclərinin faizi və məbləği də oxşar qaydada hesablanır. Kənarlaşmaların, yaxud nəqliyyat – tədarükət xərclərinin faizi, adətən, hər ay hesablanır. İqtisadi ədəbiyyatlarda kənarlaşmaların, yaxud nəqliyyat – tədarükət xərclərinin faizinin hansı müddətə müəyyən edilməsi haqda müxtəlif fikirlər mövcuddur.

Bir qrup iqtisadçılar həmin faizin bir ay müddətinə yox, daha uzun vaxt üçün müəyyən edilməsini təklif edirlər. Onların əsas arqumenti budur ki, istehsalatda istifadə olunan material ehtiyatlarının çeşidinin, alıcı və satıcılar arasındakı əlaqələrin nisbətən daimi olduğu bir şəraitdə faizin hər ay yenidən hesablanmasına ehtiyac yoxdur. Digər qrup iqtisadçılar isə buna etiraz edərək göstərirlər ki, bazar iqtisadiyyatı şəraitində təsərrüfat əlaqələrinin dinamikliyi, qiymətlərin qeyri-sabitliyi, material ehtiyatları bazarında rəqabətin olması və bunun qiymətlərə təsiri həmin faizin uzun müddət üçün hesablanmasını məqsədəuyğun etmir [4, s.105].

Zənnimizcə ikinci qrup iqtisadçıların fikri və mövqeyi daha əsaslıdır. Məsələ bundadır ki, istehsalatda istifadə olunan material ehtiyatlarının çeşidinin, alıcı və satıcılar arasındakı təsərrüfat əlaqələrinin uzun müddət daimi olması şəraitində də real bazar qiymətləri dəyişkəndir və dəyişilə bilər. Bu da istər-istəməz kənarlaşmaların, yaxud nəqliyyat tədarükət xərclərinin faizinin dəyişilməsinə gətirib çıxarmalıdır. Birinci qrup iqtisadçıların dediyi kimi – faizin uzun müddətə hesablanması isə məhsulun maya dəyərinin və onun satışından əldə olunacaq maliyyə nəticələrinin təhrif edilməsinə səbəb ola bilər. Odur ki, material ehtiyatlarının istehsalata uçot qiymətlərilə buraxılması şəraitində faizin hər ay hesablanması praktikası daha düzgün və məqsədəuyğundur.

Material ehtiyatlarının uçotu "Mühasibat uçotu haqqında" Qanuna, mühasibat uçotunun hesablar Planı və onun tətbiqinə dair təlimata və digər normativ sənədlərə uyğun olaraq təşkil edilir.

Material uçotunun əsasını materialların hərəkəti üzrə tərtib olunan ilkin sənədlər təşkil edir. Materialların hərəkəti, saxlanılması və səmərəli istifadəsi üzərində ilkin, cari və sonrakı nəzarət məhz ilkin sənədlər vasitəsilə həyata keçirilir.

Bunun nəticəsində müəssisədə ehtiyatların uçotunu yeni uçot standartlarının tələblərinə uyğunlaşdırmaq üçün ənənəvi mühasibat uçotunda olan 10№-dən 48№-dək olan hesabların qalıqları iqtisadi məzmununa uyğun nəzərdən keçirilərək, yenidən qruplaşdırılmalı və mühasibat uçotunun yeni hesablar planında verilmiş 201№-dən 208№-dək olan uyğun hesablara keçirilməlidir. Bunun üçün əvvəlcə ənənəvi mühasibat hesablarının qalıqlarında müəyyən düzəliş yazılışları aparmaq məqsədəuyğundur [5, s.76].

Malsatanlardan, təhtəlhesab şəxslər vasitəsilə, habelə müəssisənin öz sexlərindən daxil olan material ehtiyatları maddi məsul şəxslər tərəfindən mədaxil orderi yazılmaqla mədaxil olunur. Anbara gətirilmiş material ehtiyatları miqdarına, çeşidinə, qiymətinə, keyfiyyətinə və s. əlamətlərinə görə bağlanmış müqaviləyə, yaxud malsatanın hesablaşma sənədlərinə uyğun deyildirsə, onda həmin material ehtiyatlarının qəbulunu komissiya həyata keçirir və materialların qəbulu haqda akt tərtib edir. Akt malsatanlara, yaxud nəqliyyat təşkilatına iddia qaldırmaq üçün əsas sayılır.

Müəssisənin öz sexlərində hazırlanmış materiallar, yaxud sexlərdən tullantılar kimi qaytarılan, eləcə də əsas vəsaitlərin ləğvi nəticəsində anbarlara daxil olan materiallar daxili yerdəyişmə qaimələri əsasında rəsmiyyətə salınır.

Hazırda materialların uçotunun ən mütərəqqi metodu operativ – mühasibat(saldo) metodu hesab olunur. Uçotun bu metodu zamanı təşkilatın mühasibatı materialın hər bir nomenklatura nömrəsinə anbar uçotunun kartoçkalarını açır və qeydiyyat jurnalında imza etdirməklə anbar müdirinə verir.

Material vəsaiti qəbul edildikdən, yaxud verildikdən sonra anbardar anbar uçotu kartoçkalarında qeydlər aparır. Hər bir qeyddən sonra materialların qalığı çıxarılır. Beləliklə, anbarda anbar ehtiyatlarının vəziyyəti haqqında operativ məlumat olur. Kartoçkalar ilkin mədaxil və məxaric sənədləri əsasında doldurulur. İlkin sənədlərin məlumatları anbar kartoçkalarına yazıldıqdan sonra onlar reyestr üzrə mühasibatlığa verilir [6, s.237].

Hər gün, yaxud da müəyyən olunmuş vaxtlarda (həftədə bir dəfədən az olmayaraq) mühasibatlığın müvafiq şöbəsinin işçisi anbara gəlir və anbardar tərəfindən anbar uçotu kartoçkalarında aparılmış yazıların düzgünlüyünü yoxlayır və kartoçkalarda imza edir. Ayın sonunda anbar müdiri, bəzi hallarda isə mühasibatlığın işçisi materialların hər bir nomenklatura nömrəsi üzrə ayın 1-nə qalıq halda miqdar məlumatları anbar uçotu kartoçkalarından anbarda materialların qalığının uçotu cədvəlinə köçürülür.

Mühasibatlığın işçisi tərəfindən qalıq cədvəli yoxlandıqdan və viza edildikdən sonra mühasibatlığa verilir və burada materialların qalıqlarını uçot qiymətləri üzrə taksirovka edib uçot qrupları və bütövlükdə anbar üzrə yekunlarını çıxarırlar. Sonra bütün mədaxil, məxaric sənədləri anbarlar, sintetik hesablar, subhesablar və müəyyən edilmiş materialların ayrı-ayrı qrupları və yarımqrupları çərçivəsində qiymətlilər üzrə qruplaşdırılır.

Qalıq metodunun tətbiqi zamanı mühasibatlığa daxil olmuş ilkin sənədlər yoxlandıqdan və taksirovka edildikdən sonra anbarlar və materialların nomenklaturası üzrə nəzarət kartotekasına qoyulur və həmin kartotekanın məlumatları əsasında mühüm material növlərinin hərəkəti, qalığı haqqında aylıq statistik hesabat tərtib edilir.

Material ehtiyatlarının sintetik uçotunu aparmaq üçün mövcud hesab planında 10 "Materiallar", 15 "Materialların tədarükü və əldə edilməsi", 16 "Materialların dəyərində olan kənarlaşmalar" adlı hesablar nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 1995-ci il 20 oktyabr tarixli I-94 №-li əmri ilə olunmuş "Müəssisələrin mühasibat uçotunun Hesablar Planı və onun tətbiqinə dair təlimatda" müəyyən olunduğuna görə mühasibat uçotunun müəssisələr tərəfindən qəbul olunmuş təşkili qaydalarından asılı olaraq materialların daxil olması 15№-li "Materialların tədarükü və əldə edilməsi" və 16№-li "Materialların dəyərində olan kənarlaşmalar" hesablarından istifadə etməklə, yaxud etməməklə əks etdirə bilərlər [7. s.183].

Birinci halda müəssisəyə daxil olmuş hesablaşma sənədləri (hesab faktura və s.) əsasında materialların alınma dəyərinə aşağıdakı kimi yazılış tərtib edilir: Dt 15. Kt 60, 20, 23. N və s. Dt 15, Kt 60 yazılışı materialların müəssisəyə nə vaxt daxil olmasından asılı olmayaraq (malsatanlardan hesablaşma sənədlərinin daxil olmasından əvvəl və ya sonra) aparılır.

Müəssisənin anbarlarına daxil olmuş materialların uçot qiymətlərilə məbləğinə Dt 10, Kt 15 yazılışı verilir. Sərf olunan (istehsalata buraxılan, satılan və s.) material ehtiyatları uçot qiymətlərilə silindikdə Dt 20, 23 25, 26, 28, 29, 31, 43, 48 və s. Kt 10 yazılışı tərtib edilir.

Materialların uçot qiymətləri ilə faktiki qiymətləri arasında yaranan fərq (15 nömrəli hesabın kredit və debet dövriyyələri arasındakı fərq) 16 nömrəli hesaba silinir: a) Dt 16, Kt 15 – müsbət kənarlaşma; b) Dt 15, Kt 16 – mənfi kənarlaşma. Ayın sonunda 15 nömrəli hesabın debet qalığı müəssisəyə gətirilməmiş və yolda olan material qiymətlərini xarakterizə edir. 15 nömrəli hesabda qalıq olmadan da material ehtiyatlarının tədarükünün uçotu variantı mümkündür. Bu halda ayın sonunda 10 nömrəli hesabın debeti və 15 nömrəli hesabın krediti üzrə ayın sonuna yolda qalan, yaxud malsatanların anbarından çıxarılmamış materialların dəyərini əks etdirirlər. Gələn ayın əvvəlində həmin məbləğləri storpo edirlər və onlar uçotda 15 nömrəli hesabın debetində əks etdirilir. Ayın sonunda 15 nömrəli hesabın aşkar edilmiş qalığını 16 nömrəli hesaba silirlər və 15 nömrəli hesabın qalığı qalmır.

16 nömrəli hesab əldə olunan materialların faktiki maya dəyərinin onların uçot qiymətləri ilə dəyəri arasındakı yaranan fərqlərin məbləğlərini uçota almaq üçün nəzərdə tutulmuşdur. Həmin he-

sabdan yalnız o zaman istifadə edilir ki, materialların sintetik uçotu 10 nömrəli hesabda uçot qiymətləriylə aparılmış olsun.

16 nömrəli hesabda yığılmış kənarlaşmaların məbləği (materialların faktiki maya dəyəri ilə onların uçot qiymətlərilə dəyəri arasındakı fərq) sərf edilmiş materialların uçot qiymətlərilə dəyərinə proporsional olaraq 20, 23, 25, 26, 28, 29, 31, 43, 48 və s. hesabların debetinə silinir (əlavə yazılış, yaxud storpo üsulu ilə)

Hesabat mühasibat balansında 16 nömrəli hesabat qalığı material dövriyyə vəsaitlərinin dəyərinə daxil edilir və bu əməliyyata heç bir mühasibat yazılışı verilmir. Beləliklə də, mühasibat balansında material ehtiyatları faktiki maya dəyərilə əks etdirilir.

İkinci halda (yəni 15 və 16 nömrəli hesablardan istifadə edilmədikdə) əldə olunan material qiymətlərinin haradan daxil olmasından, onların tədarükü və müəssisəyə daşınması xərclərinin xarakterindən asılı olaraq mədaxili 10 "Materiallar" hesabının debetində, 60 "Malsatan və podratçılarla hesablaşmalar", 20 "Əsas istehsalat", 23 "Köməkçi istehsalat", 71 "Təhtəlhesab şəxslərlə hesablaşmalar", 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" və s. hesabların kreditində əks etdirilir. Anbardan müxtəlif məqsədlər üçün buraxılmış material qiymətləri Dt 20, 23, 25, 26, 29, 31, 43, 48 və s., Kt 10 mühasibat yazılışı ilə rəsmiyyətə salınır.

Müəssisələr əldə olunan material ehtiyatları üçün əlavə dəyər vergisi (ƏDV) ödəyirlər. Material ehtiyatları üzrə ƏDV-nin uçotu 19 nömrəli hesabın 3 nömrəli "Əldə olunan material ehtiyatları üzrə əlavə dəyər vergisi" subhesabında aparılır. Daxil olan material ehtiyatları üzrə ƏDV-nin məbləği malsatanların hesablaşma sənədlərində ayrıca göstərilir. Həmin məbləğə Dt 19-3, Kt 60 yazılışı verilir.

Material ehtiyatlarının sərf olunması istiqamətlərindən (istehsalata buraxılması, satışı, qeyri-istehsal ehtiyaclarına sərf edilməsi, əvəzsiz qaydada verilməsi və s.) asılı olaraq 19-3 nömrəli subhesabda uçota alınan ƏDV-nin məbləği müvafiq olaraq 68, 48, 29 (yaxud 81, 88) nömrəli hesabların debetinə silinir.

Uçotun jurnal-order formasının tətbiqi şəraitində malsatanlarla hesablaşmaların uçotu 6 nömrəli jurnal-orderdə aparılır. Jurnal-order ayın əvvəlinə malsatanlarla başa çatdırılmamış hesablaşma məbləğlərilə açılır. Bu jurnal-orderdə analitik uçot hər bir tədiyyə sənədi, mədaxil orderi, qəbul aktı üzrə həyata keçirilir.

Materialların faktiki maya dəyərini, faktiki maya dəyərinin onların uçot qiymətlərilə dəyərindən kənarlaşmalarını müəyyən etmək, eləcə də mühasibatlıqda sintetik və analitik uçotu əlaqələndirmək üçün hər ayın sonunda 10 nömrəli "Material qiymətlərinin hərəkəti" adlı cədvəl tərtib olunur. Sərf olunmuş materialları xərclərin uçotunun müvafiq obyektlərinə silmək üçün mühasibatlıqda 1 nömrəli "Materialların sərfinin bölüşdürülməsi" cədvəli tərtib edilir.

Yuxarıda deyilənləri yekunlaşdırsaq görərik ki, material ehtiyatlarının yalnız sintetik uçotunun aparılmasında nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Materialların hərəkətinin sənədləşdirilməsi, anbarda və mühasibatlıqda analitik uçotunun aparılması, uçot registrlərinin məzmunu və quruluşunda isə heç bir dəyişiklik yoxdur. Hazırda tətbiq olunan ilkin sənədlərin sayı həddən artıqdır, onlarda olan bir sıra göstəricilər praktikada aktiv istifadə olunmur. İlkin sənədlərin və mühasibat registrlərinin çoxluğu və mürəkkəbliyi, onların əl ilə doldurulması artıq əmək və vəsait sərfinə səbəb olur.

Material uçotunun əsasını materialların hərəkətini əks etdirən ilkin sənədlər təşkil edir. Məhz buna görə də material ehtiyatlarının uçotunun təşkilinin bütövlükdə təkmilləşdirilməsi ilkin sənədləşmənin sadələşdirilməsindən asılıdır. Hazırda tətbiq edilən ilkin sənədlərin sayı azaldılmalı, ixtisara salınmalı və onlar avtomatik qaydada işlənilməyə uyğunlaşdırılmalıdır.

Araşdırmalar və praktiki təcrübə göstərir ki, material ehtiyatlarının mədaxili zamanı tərtib olunan mədaxil orderləri tamamilə ixtisara salına bilər. Malsatanlardan daxil olan materialların mədaxili malsatanın hər bir hesablaşma sənədinə əsasən həyata keçirilməlidir. Materialların malsatanın sənədlərinə əsasən mədaxil edilməsi zamanı xüsusi ştamp tətbiq edilməli və həmin ştampda mədaxil

orderinin əsas rekvizitləri olmalıdır. Materialların mədaxili faktı ştampda maddi-məsul şəxsin imzası ilə təsdiq edilməlidir.

Yalnız tədiyə sənədləri olmayan materialların, eləcə də faktiki miqdarı, məbləği və digər göstəriciləri malsatanın müşayiətedici sənədlərdəki məlumatlarına uyğun gəlməyən materialların mədaxili aktla rəsmiyyətə salınmalıdır.

Təhtəlhesab şəxslərin vasitəsilə, həmçinin müəssisənin öz sexlərindən daxil olan materialların mədaxili isə birbaşa və yalnız anbar uçotu kartoçkalarında yazılış aparmaqla rəsmiyyətə salınmalıdır. Bunun üçün anbar uçotu kartoçkasında material təhvil verənin (təhtəlhesab şəxsin, sex rəisinin və s.) imzası üçün əlavə qrafa açmaq kifayətdir.

Materialların istehsalata buraxılışını və daxili yerdəyişməsini də ilkin sənədlər (tələbnamələr, qaimələr, limit-zavod kartları və s.) tərtib etmədən birbaşa anbar uçotu kartoçkalarında həyata keçirmək olar. Bu zaman materialları alan şəxsin imza etməsi üçün kartoçkada əlavə qrafa nəzərdə tutulmalıdır. Materialların buraxılması və alınması üzərində qarşılıqlı nəzarəti həyata keçirmək məqsədilə kartoçkaları iki nüsxədə aparmaq olar. Onlardan biri anbardarda, ikincisi isə materialları qəbul edən şəxsdə (məsələn, sex rəisində) olmalıdır.

Məlumdur ki, hazırda material ehtiyatlarının uçotunun təşkili 2004-cü il tarixində təsdiq edilmiş "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçirilir. Bu Qanunda müəyyən olunduğuna görə materialların mühasibatlıqda uçotunun operativ-mühasibat, yaxud saldo metodu ilə təşkili tövsiyə olunmuşdur. Həmin metod haqda yuxarıda danışılmışdı və onun digər metodlardan üstünlüyü göstərilmişdi. Bəhs olunan metodun tətbiqi yalnız uçotun əl ilə aparılması və hesablama maşınlarına ilkin informasiyanın əl ilə köçürülməsi şəraitində səmərəli idi. Bu şəraitdə, göstərilən metod uçotdakı paralelizmi aradan qaldırmağa, onun operativliyini yüksəltməyə, uçot işlərinin həcmini azaltmağa imkan vermişdi. Lakin uçot praktikasında avtomatlaşdırmanın geniş tətbiqi həmin metodun hər yerdə tam həcmdə tətbiqi zəruriliyini şübhə altına alır. Odur ki, material ehtiyatlarının uçotunun təşkilinin hansı metod və variantlar üzrə aparılmasını müəssisələrin özləri seçməlidirlər. Məsələyə bu cür yanaşılması nəinki müəssisələrin sərbəstliyini artırır, eləcə də materiallardan qənaətlə istifadə olunmasında onların məsuliyyətini qat-qat yüksəldir.

Təhlil göstərir ki, materialların sintetik uçotunun aparıldığı mühasibat registrləri (6, 7, 10 və 10/1 nömrəli jurnal-orderlər, 10 nömrəli və 43 nömrəli cədvəllər) də çoxdur, mürəkkəbdir və onlarda aparılan yazılışlar bir-birini təkrar edir. Fikrimizi konkret misallarla izah edək. Malsatanlardan daxil olan materiallar uçot qiymətlərilə və faktiki alış qiymətlərilə 6 nömrəli jurnal-orderdə əks etdirilir. Material ehtiyatları həmin jurnal-orderin "D" qrafasında uçot qiymətlərilə bütövlükdə göstərildiyi halda, faktiki alış qiymətlərilə, başqa sözlə, faktiki maya dəyərilə sintetik hesablar, subhesablar, yaxud uçot qrupları üzrə ayrıca göstərilir 6 nömrəli jurnal-orderin "D" qrafasının məlumatları sintetik hesablar, subhesablar üzrə açılaraq hər on gündən bir, yaxud hər ay yığım cədvəlinə (43 nömrəli cədvələ), ordan da 10 nömrəli cədvələ köçürülür. Bu zaman çoxlu səhvlərə yol verilir. Daha sonra, materialların faktiki maya dəyəri və uçot qiymətlərilə məbləğləri iki registrdə (6 nömrəli jurnal-orderdə və 10 nömrəli cədvəldə) təkrar olunur. Bundan başqa, materialların mədaxili faktiki maya dəyərilə (6 nömrəli jurnal-orderdə) onların silinməsi isə (10 və 10/1 nömrəli jurnal-orderlərdə) uçot qiymətlərilə əks etdirilir. Nəticədə mühasibatlıq sintetik uçot məlumatlarını (dövriyyə və qalıq cədvəllərində olan) tutuşdurmaq imkanından məhrum olur.

Material ehtiyatlarının mövcudluğu və hərəkəti üzrə təkrar yazılışların və digər nöqsanların aradan qaldırılması üçün hazırda tətbiq edilən mühasibat registrlərinin sadələşdirilməsi və təkmilləşdirilməsi zəruridir. Məsələn, tədarük registri olan 6 nömrəli jurnal-orderi dövriyyə cədvəli tipinə uyğunlaşdırmaq daha məqsədəuyğundur. Belə olan halda 10 nömrəli cədvələ və digər oxşar registrlərə ehtiyac qalmaz. Tədarük registri hər bir anbar çərçivəsində tərtib edilməli, ayın sonunda isə Baş kitaba yazılmaq üçün onların yekun məlumatları icmal registrində birləşdirilməlidir.

Bazar iqtisadiyyatının və beynəlxalq standartların tələblərinə uyğun olaraq material ehtiyatlarının mühasibat uçotunun təşkili metodologiyası daha çevik olmalıdır. Məsələn, inflyasiya və hiper-

inflyasiya şəraitində material ehtiyatlarının uçot və hesabatda əks etdirilməsi qaydaları işlənib hazırlanmalı və müvafiq normativ sənədlərdə öz əksini tapmalıdır.

Beynəlxalq uçot standartlarına uyğun olaraq material ehtiyatları üzrə müəssisələrin hesabatında aşağıdakı informasiyalar olmalı və açıqlanmalıdır: material ehtiyatlarının qiymətləndirilməsi üzrə uçot siyasəti; material ehtiyatlarının cari dəyəri (hesabat tərtib olunan dövrə olan dəyəri); riversasiya olunan məbləğlər, hansılar ki, həmin dövrün gəlirləridir (xərcləri çıxmaqla) və s.

Bazar münasibətlərinə keçid və onun inkişaf etdirilməsi mülkiyyət formasından asılı olmayaraq, müəssisələrin iş fəaliyyətində ənənəvi idarəetmə funksiyalarını istər-istəməz dəyişir. Bu isə öz növbəsində respublikanın iqtisadi inkişaf konsepsiyasının yenidən baxılmasını və praktik həllini tələb edir. Bazar mexanizmi iqtisadi subyektlərin koordinasiya edilməsini, əmək, material və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsi və həmçinin xalq təsərrüfatının tənzimlənməsini təmin edir.

İqtisadiyyatın bazar modelinə keçid mühasibat uçotunun və onun mühüm bölmələrindən olan materialların uçotunun müasir şəraitdə fundamental təşkili, onun nəzəri və praktiki problemlərinin ümumiləşdirilməsi, sistemləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşmasını tələb edir. Məqaləni hazırlıyarkən B.Sərdarov adına maşınqayırma zavodunun iqtisadi informasiyaları əsasında material ehtiyatlarından istifadənin uçotu və iqtisadi təhlili üzrə nəzəri və təcrübəvi aktual məsələlər tədqiq edilmişdir və aşağıdakı yekun nəticə və təkliflərin verilməsinə şərait yaradır:

1. Bazar münasibətləri şəraitində material ehtiyatlarının qiymətləndirilməsinin inflyasiya prosesi material məsrəflərinin uçotu üzrə informasiyaların həqiqiliyini təsdiq edən mühüm vasitələrdən biri hesab edilir. İnflyasiyanın təsirindən, yəni xammal və materialların uçota alınmasından yaxa qurtarmaq üçün materialların qiymətləndirilməsinin qüvvədə olan sisteminə yenidən baxılması və onun dünya təcrübəsində geniş tətbiq olunan beynəlxalq standartlara müvafiq qiymətləndirilməsinə (2 N-li "Əmtəə-material dəyərlərinin həqiqi maya dəyəri üzrə qiymətləndirilməsi və əks etdirilməsi") keçmək daha düzgün olardı. İstehsal dövrü nisbətən az olan maşınqayırma müəssisələrində xammal və materialların qiymətləndirilməsi üçün "FIFO" metodunu tətbiq etmək məqsədəuyğundur. Bu metod materialların birinci partiyası mədaxilə və onun elə özü (yəni birinci) – məxaricə prinsipinə əsaslanır. Buna görə də hesabat dövrünün axırına istifadə olunmayan materiallar axırıncı daxil olmuş mal partiyasının alış dəyərindən asılı olaraq qiymətləndirilir. Bu cür metod keçmiş hesabat dövründə istehsala material məsrəflərinin, eləcə də balans və vergiyə cəlb olunan mənfəətin səviyyəsini daha dəqiq müəyyən etməyə şərait yaradır.

2. Material ehtiyatlarından istehsal prosesində istifadəsinin uçotu və nəzarətin təşkilində onların istehlakı üzərində cari nəzarətin təşkili mühüm məsələlərdən biri hesab edilir. Uçotun tətbiq edilən mərhələ metodunun effektliyi bilavasitə istehsal prosesindəki normalarla müqayisədə məsrəflərin formalaşması üzərində nəzarətin təşkili nəticəsində daha da yüksəlir. Məlum şəraitində texnoloji reqlament – xammal və materialların nisbətini izləyən normativ təsərrüfatının bazasını təşkil etməlidir. Ancaq normativ uçotunun tətbiqi üzrə metodiki göstəriş işlənib hazırlanmış və texnoloji reqlamentin dəyişməsi ilə əlaqədar xammal və material məsrəflərinin normasından əmələ gələn kənarlaşmanın hesablama metodu tamamilə yox dərəcəsindədir. Maşınqayırma sənaye müəssisələrində istifadə olunan xammal və materialların reqlamentinə riayət etmədikdə nəzərə çarpacaq miqdarda itki əmələ gəlir. Qeyd edilənləri nəzərə alaraq texnoloji reqlamentin dəyişməsindən əmələ gələn kənarlaşmanın səviyyəsini hesablamaq üçün metod hazırlanmalı və bu metodun tətbiqi tövsiyə edilməlidir. Texnoloji prosesin gedişatına və kənarlaşma üzrə sənədləşməyə nəzarəti həyata keçirmək üçün "Avadanlıqların işi haqda sutkalıq raport" sənədinə "Kənarlaşmanın səbəbi və təqsirkarın gözü" sütununun əlavə edilməsi təklif edilmişdir.

3. Materiallar daxil olan zaman hesablarda yazılış aparmaqla kifayətlənmək olmaz. İşin səmərəliliyini yüksəltmək üçün materialların sabit uçotunu, anbar uçotunu dəqiq təşkil etmək lazımdır. İlkin sənədlərin satının azalması üçün materialların hərəkətinin uçotunun kompüterləşdirilməsi vacibdir.

Açar sözlər: hesabat, dəyər, maliyyə, mənfəət, uçot, vəsait

İstifadə edilmiş ədəbiyyat

1. Савицкая Г.И. Анализ хозяйственной деятельности предприятия. М.: ИНФРА, 2009, 536 с.
2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 2004
3. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və Hesabata giriş. Bakı: 2012, 280 s.
4. Безруких П.С. Бухгалтерский учет - издание 4-е, М.: Бухгалтерский учет, 2002, 719 с.
5. Mehdiyev V.M. Milli mühasibat uçotu standartları və kompüter mühasibatı. Bakı: Sabah, 2014, 228 s.
6. Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. Mühasibat uçotu. Dərslik. Bakı: 2012
7. Rzayev Q. R. Mühasibat uçotu və audit. Bakı: 2006, 384 s.

Офелия Юсупова

ЗНАЧЕНИЕ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ МАТЕРИАЛЬНЫХ РЕСУРСОВ, ИХ ОЦЕНКА И УЧЕТ

Резюме

Переход к рыночной экономике требует от предприятий повышения эффективности производства, конкурентоспособности продукции и услуг. Достижение финансовой устойчивости возможно на основе повышения эффективности производства, что достигается путем эффективного использования всех видов ресурсов и снижения затрат.

Необходимым условием выполнения планов по производству продукции, снижению её себестоимости, росту прибыли, рентабельности является полное и своевременное обеспечение, а также максимально эффективное использование материальных ресурсов.

Ключевые слова: отчет, стоимость, финансы, прибыль, учет, средства

Ophelia Yusupova

IMPORTANCE OF EFFICIENT USE OF MATERIAL RESOURCES, THEIR ASSESSMENT AND ACCOUNTING

Summary

The main purpose of the article is to improve accounting of materials and to prepare a program providing effective use of material resources. The followings are designed to achieve this goal: implementation of the assessment of material resources on the basis of modern requirements; the ways of improving the efficiency of documentation; organization of analytical accounting of materials in the accounting and storehouse; the directions of improvement of accounting of synthetic materials, the analysis of the factors influencing the decrease in material production capacity; the main directions of the use of material resources; modern situation of organization of accounting of material resources and solution of the actual problems of its improvement.

Keywords: reporting, cost, finance, profit, accounting, resource

UOT – 332

Şövqi Quliyev
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.
Ramil Əsgərov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

REGİONAL İQTİSADİ İNTEQRASİYANIN XÜSUSİYYƏTLƏRİ

Məqalədə iqtisadi inteqrasiya – ölkələr və xalqlararası iqtisadi əlaqələri genişləndirmək forması kimi vahid birlik halında göstərilmişdir. İqtisadi inteqrasiyanın ən inkişaf etmiş nümunəsi kimi Avropa Birliyi göstərilmiş və bu birliyin hansı mərhələlərdən keçdiyi qeyd edilmişdir. Məqalədə sərbəst ticarət zonası, gömrük birliyi, ümumi bazar, tam iqtisadi birlik formaları, onların mahiyyəti və xüsusiyyətləri verilmiş, NAFTA və ASEAN kimi inteqrasiya bloklarının oxşar və fərqli cəhətləri araşdırılmışdır.

XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən dünya iqtisadiyyatında qloballaşma prosesi sürətlə inkişaf etməyə başlamışdır. Bunun əsas səbəbi; ölkələr arasında elmi-texniki tərəqqinin sürətli inkişafı, ticarət əlaqələrinin genişlənməsi və sürətlənməsi, kapitalın və maliyyə axınlarının sərbəstləşməsi və s. göstərmək olar. Qeyd edilən amillər təbii olaraq ölkələr arasında milli sərhədlərin tədricən silinməsinə, vahid bir məkanda inteqrasiya meyillərinin güclənməsinə və bütövləşməsinə səbəb olmuşdur.

İqtisadi inteqrasiyanın nəzəri əsasları

İqtisadi inteqrasiya ölkələr və xalqlararası iqtisadi əlaqələri genişləndirmək forması ilə dərinləşir və vahid bir birlik kimi çıxış edir. Araşdırmalar göstərir ki, iqtisadi ədəbiyyatlarda iqtisadi inteqrasiyaya müxtəlif tərifl ər verilir. Verilən bu tərifləri, fikrimizcə, aşağıdakı kimi ümumiləşdirmək olar: iqtisadi inteqrasiya – ölkələrin dərin və sabit qarşılıqlı əlaqələr, milli təsərrüfatlar arasında əmək bölgüsü, müxtəlif səviyyə və formalarda təkrar istehsal strukturları arasında qarşılıqlı təsir əsasında siyasi və iqtisadi birliyidir. İqtisadi inteqrasiya – mürəkkəb tarixi prosesdir və o heç də yeni bir fenomen deyil. Marko Polonun yeddi əsr öncəki səyahətlərindən bəri global iqtisadi inteqrasiya – xarici ticarət, istehsal amillərinin hərəkəti və iqtisadi cəhətdən zəruri bilgi və texnoloji mübadiləsi artan əhəmiyyətini saxlamaqdadır. Tarix boyu bu proses heç də həmişə rəvan olmamış və heç də həmişə inteqrasiya etmiş tərəflər üçün səmərəli olmamışdır. Lakin bunlar istisna hallar olmuşdur. Tarixdə bəzi dezinteqrativ prosesləri: məsələn, Roma İmperiyasının dağılması, ötən əsrdə iki dünya müharibələri arasındakı dövrü çıxmaq şərtilə dünyanın müxtəlif cəmiyyət və dövlətləri arasında iqtisadi inteqrasiya meyilləri, ümumən, güclənmişdir [1, s.44].

İqtisadi inteqrasiya istehsal amillərinin qeyri-bərabər paylanmasından və əmək bölgüsündən doğan bir hal kimi də qiymətləndirilə bilər. Bu fikrə iqtisad elminin klassikləri müəyyən dərəcədə izah vermişlər. Belə ki, Adam Smit öz əsərində "əgər ticarətdə bir ölkə digərinin mallarına qarşı gömrük rüsumu tətbiq etməzsə, lakin üçüncü ölkələrə qarşı rüsum tətbiqini davam etdirərsə, bu zaman ölkə və istehsalçıları bu cür siyasətdən faydalanarlar [2, s.6]. "Klassiklər həmçinin belə bir qənaətə gəlmişlər ki, xarici iqtisadi əlaqələr öz müxtəlif formalarında cəmiyyətdə dövlətlər və xalqlar arasında əmək bölgüsündən doğur. Xarici bazarlarda satış üçün məhsul istehsalına istehsal resurslarının cəlb olunması istehsalın beynəlxalq ixtisaslaşmasını müəyyən edir. Beləliklə də, idxal hesabına istehlakı artırmaq və daha səmərəli etmək imkanı yaranır. İngilis iqtisadçısı Torrens belə hesab edir ki, ölkələr arasında optimal tarif tətbiqi zəruridir. Sərbəst ticarətin əleyhinə çıxmış və onun siyasi asılılıq yarada bilməsini söyləmişdir [3, s.41]. Bir sıra alimlər belə hesab edir ki, iqtisadi inteqrasiya üzv ölkələr arasında yeni əmtəə axınları doğurur ki, bu da idxal olunan malların bahalı olması və yüksək texniki-tərəqqiyə malik olan avadanlıqların istehsalı ilə bağlıdır. Nəticə etibarilə inteqrasiya istehsalı artmaqla bir tərəfdən üzv ölkələrin rifahını yüksəldir və digər tərəfdən beynəlxalq ixtisaslaşmanı dərinləşdirir [4, s.11].

Təcrübə göstərir ki, bəzən ölklər birtərəfli qaydada ticarəti sərbəstləşdirməklə də yüksək nəticələr əldə edə bilər. Bununla da bu ölkə "inteqrativ" üstünlüklər qazanmaqla, qrup məhdudlaşmasına məruz qalmır.

İqtisadi inteqrasiya, hər şeydən əvvəl, ümumi bir məqsədə birgə nail olmağa imkan verir. Bu məqsədlər çeşidli ola bilər: istehsalın həcminin artırılması, məşğulluğun yüksəldilməsi, əhalinin maddi rifahının artımı və s. Məhz bu mövqedən çıxış etsək onda, gömrük birliyinin ticarətin sərbəstləşdirilməsi qarşısındakı üstünlüklərinin yüksək olduğunu görmək olar. Təcrübə göstərir ki, bəzən ölkələr istehsal amillərinin məhdudluğu səbəbindən inteqrasiyaya meyil edirlər. İnteqrasiyaya girməklə onlar istehsalın artımına nail ola bilərlər.

Məşhur Amerika iqtisadçısı Paul Krugman hesab edir ki, insanların daha yaxın iqtisadi inteqrasiyadan əldə edə biləcəkləri fayda haqda təsəvvür və anlayışları tədricən yaranan təcrübəyə əsaslanır ki, bu da daha ucuz nəqliyyat və kommunikasiya vasitələrinin mövcudluğu faktına dayanır [5, s.950-959]. Əvvəla, nəqliyyat və kommunikasiya texnologisinin inkişafı mal və xidmətlərin, istehsal amillərinin və zəruri bilgi və texnolojinin ötürülməsi və nəqli dəyərini əhəmiyyətli dərəcədə azaltmağa başlamışdır. İkinci, insanlar və ya xalqlar tədricən nəqliyyat və kommunikasiya xərclərinin azalması faktına əsasən yaxından iqtisadi inteqrasiyadan qazanıla biləcək faydanı dərk etməyə başlamışlar. Üçüncü isə, cəmiyyətin təsiri iqtisadi inteqrasiya addımlarını müəyyənləşdirməyə və onun cəhətlərini cızmağa başlamışdır.

Bir daha qeyd etməliyik ki, yuxarıda qeyd olunan yanaşma və fikirlərin heç biri tam və konseptual nəzəriyyə xarakteri daşımır və yalnız elmdə iqtisadi inteqrasiya barədə mövcud olan fikirlərdir.

Azərbaycan iqtisadçısı Əvəz Bayramov regional iqtisadi inteqrasiyaya elmdə mövcud olan müxtəlif çoxsaylı fikir və yanaşmaları sxematik olaraq aşağıdakı kimi sistemləşdirmişdir (Sxem 1) [3, s.42-43].

Şxem 1. İqtisadi inteqrasiyaya yanaşmaların ümumi təsnifatı.



Əminliklə demək olar ki, əmək bölgüsü, xarici ticarət və ümumilikdə xarici iqtisadi əlaqələrin (XİƏ) inkişafı ölkələrin qarşılıqlı asılılığını artırmaqdadır. Bu asılılıq ölkələri öz iqtisadiyyatlarını, iqtisadi siyasətlərini yaxınlaşdırmağa, uzlaşdırmağa vadar etmişdir ki, bu da XİƏ-in ən yüksək forması olan regional iqtisadi inteqrasiyaya keçməsi ilə nəticələnmişdir.

Araşdırmalar göstərir ki, iqtisadi inteqrasiya həm mikro – firma, müəssisə səviyyəsində, həm də makro – dövlətlər, regionlar səviyyəsində baş verir.

İqtisadi inteqrasiyanın genişlənməsini şərtləndirən amilləri bu cür müəyyən etmək olar:

- XX əsrin 90-cı illərinin əvvəlləri üçün istehsalın beynəlmiləlləşməsi və yeni tip beynəlxalq inhisarların yaranması;
- istehsal əlaqələrinin firmalar arasında sıx qarşılıqlı təsir yaratması ilə müşayiət olunmaqla beynəlxalq əmək bölgüsündə struktur irəliləyişləri;
- bazarın və istehsalın beynəlmiləlləşməsini yeni səviyyəyə yüksəldən elmi-texniki inqilab;
- milli iqtisadiyyatların açıqlığı və ticarətin sərbəstliyi.

Regional iqtisadi inteqrasiyanın istiqaməti və xarakteri hər zaman üç fundamental amilin təsiri altında formalaşmışdır [6, s.198]:

1. insanların miqrasiyası;
2. mal və xidmət ticarəti;
3. kapitalın hərəkəti və maliyyə bazarlarının inteqrasiyası.

Ənənəvi olaraq, iqtisadçıların çoxu mal və xidmətlərin beynəlxalq ticarətini iqtisadi inteqrasiyanın başlıca mexanizmi kimi qəbul edirlər. Yəni, əgər istehsal amillərinin qiyməti arasında fərq olmasa, mal və xidmətlərin ölkələrarası axınından da heç bir fayda əldə etmək olmayacaq. Lakin D. Rodrik göstərir ki, bu fərqlərin olmaması mümkün deyil, çünki ticarət maneələri mövcuddur [7, s.177-186].

Təcürbə göstərir ki,bu maneələr iki formada təzahür edir:

1. Təbii maneələr – nəqliyyat və mallar haqda informasiya xərcləri;
2. Süni maneələr – tariflər, kvotalar va s. kimi dövlətin siyasi müdaxilələri.

Regional inteqrasiya müxtəlif ölkələrin iqtisadiyyatlarının könüllü, bərabərhüquqlu, qarşılıqlı əlverişli əsaslarda qarşılıqlı təsiri və nüfuzu prosesi kimi baş verməlidir. Lakin bu, şübhəsiz ki, yuxarıdakı şərtləri ödəməklə həyata keçməlidir, əks halda inteqrasiya iqtisadi durumun pisləşməsinə, böhranın yaranmasına, hətta siyasi sabitliyin pozulmasına səbəb ola bilər.

Hazırda dünyada onlarla inteqrasiya qruplarının mövcudluğuna baxmayaraq, onların məqsədləri əsasən eynidir – mal dövriyyəsinin artımı, xərclərin azalması və mənfəətin artması kimi iqtisadi üstünlüklərin əldə olunması. İnteqrasiya üzv ölkələr arasında ticarət məhdudiyyətlərinin aradan qaldırılması və xarici ticarət istiqamətində birgə siyasətin həyata keçirilməsini nəzərdə tutur.

İnteqrasiya birliyinə üzv ölkələrdə iqtisadiyyatda struktur islahatlarının aparılması zəruri şərtdir. Belə ki, üzv ölkələrin iqtisadiyyatlarının müxtəlif sahələri bir-birilə uyğun şəkildə yenidən qurulmalı, daha səmərəli iqtisadi strukturlar yaradılmalıdır. Qeyd etmək lazımdır ki, bir çox dövrlər üçün iqtisadi səmərə deyil, həmçinin siyasi, mədəni, hərbi sahələrdə əməkdaşlığı genişləndirmək kimi məqsədlər daha önəmlidir.

Məsələn, Avropanın tarixən ümumi ticarət-iqtisadi bazaya malik olması hər zaman onun tarixində bütün hadisələrin gedişatında, o cümlədən II Dünya müharibəsindən sonra Avropa ölkələrinin iqtisadi inteqrasiyaya başlamalarında da öz müstəsna rolunu oynamışdır.

R.İ.Хасбулатов göstərir ki, çağdaş dünyada "ikili" inteqrasiya meyilləri müşahidə olunur [8, s.571].

1. bir tərəfdən transmilliləşmə və qloballaşmadan doğan beynəlxalq iqtisadi inteqrasiya;
2. digər tərəfdən, hələ ötən əsrin əllinci illərindən müəyyən institusional formalarda inkişaf edən ənənəvi regional inteqrasiya.

İqtisadi inteqrasiyanın müasir xüsusiyyətləri

Çağdaş dünyada iqtisadi inteqrasiya prosesi, özünün müxtəlif təzahür formalarında xarici iqtisadi əlaqələrin (XİƏ) ən yüksək forması kimi genişlənməkdə və getdikcə dünyanın daha böyük ərazilərini əhatə etməkdədir. Bütövləşməyə meyil edən dünya təsərrüfatı öz inkişafında yeni çalarlar qazanır ki, bu da öz əksini inteqrativ proseslərdə açıq şəkildə tapır. XİƏ-in çağdaş durumu milli iqtisadiyyatların asılılığının güclənməsi, XİƏ-in milli iqtisadiyyatda rolunun durmadan artması ilə müşayiət olunur və bununla da iqtisadi inteqrasiyanın üstünlükləri ortaya qoyulmuş olur.

İnteqrasiya prosesini müəyyən inkişaf etmiş ölkələr çərçivəsində qapatmaqla o, dünya bazarının çağdaş qloballaşma meylinə ziddiyyət təşkil edir. Beləliklə, dünya iqtisadiyyatında müxtəlif inkişaf səviyyəli ölkələrin bir tərəfdən bir-birləri ilə yaxınlığa meyil etmələri, digər tərəfdən inteqrasiya proseslərinin regional xarakteri paralel olaraq inkişaf etməkdədir. Lakin regional inteqrasiya bloklarının inkişaf meyilləri onu söyləməyə əsas verir ki, dünya təsərrüfatının bütövləşməsi prosesi qarşısıalınmaz obyektiv bir prosesdir. Sübut olaraq genişlənməkdə olan AB-i göstərə bilərik. Yarandığı zaman yalnız 6 üzvü olan bir qurumun üzvlərinin sayı bu gün 20-ni ötmüşdür [9].

İqtisadi inteqrasiyanın aşağıdakı əsas formaları fərqləndirilir:

1. ***Sərbəst ticarət zonası***, iştirakçı ölkələrin öz aralarında ticarət maneələrini aradan qaldırmasını, lakin üçüncü ölkələrə onların tətbiqini nəzərdə tutur. Belə zonada iştirakçı ölkələr arasında gömrük nəzarəti saxlanır. Onun məqsədi – zonaya üzv olan qonşu dövlətlərin sərhədində nisbətən aşağı gömrük dərəcələri ilə əlaqədar üçüncü ölkələrdən daxil ola biləcək malların qarşısını almaq və ya uyğun qaydada vergiyə cəlb etməkdir.

2. ***Gömrük birliyi (GB)*** üzv ölkələrin öz aralarında ticarət maneələrini aradan qaldırmaları ilə yanaşı üçüncü ölkələrə qarşı vahid maneələrin tətbiqini nəzərdə tutur. Beləliklə də, üzv ölkələr arasında gömrük xidməti öz əhəmiyyətini itirmiş olur. Göründüyü kimi, GB üzv ölkələr arasında ticarətin təşviqinə və səmərəliliyinin artmasına səbəb olur. Lakin bu heç də o demək deyil ki, GB-nin təsiri birmənalıdır; müşahidələr göstərir ki, bu cür birliyin öz mənfi cəhətləri də vardır. Bu fikir paradoksal səslənə bilər, belə ki, ölkələr arasında baryerlərin aradan qaldırılması sərbəst ticarət istiqamətində aşkar bir addımdır. GB-nin fəaliyyət mexanizminin araşdırılması göstərir ki, onun yaradılmasından fayda ticarət dövriyyəsinin artmasında, zərər isə azalmasında əks olunur. Başqa sözlə desək, GB üzv ölkələrdə maddi rifahı ticarət dövriyyəsinin artımı qədər yüksəldir, azalması qədər endirir. Qərbi Avropa inteqrasiyasının müşahidəsi GB-nin nəticələrini praktiki qiymətləndirilməsinə imkan verir. Hələlik dünyanın aparıcı iqtisadçılarının fikrincə, GB düzgün prinsiplər üzərində qurularsa, uğurlu fəaliyyət göstərir, belə ki, ticarət dövriyyəsində artma meylləri azalmanı üstələyir. AB-nin yaranması ümumilikdə dünya iqtisadiyyatına müsbət təsir göstərdisə də, bəzi ölkələrin iqtisadiyyatında mənfi təsirlər də müşahidə olundu. Belə ki, məsələn, ABŞ və Kanada Avropa bazarlarının bir hissəsini itirmiş oldular. AB içində Niderland və Almaniya idxal rüsumlarını ümumi birlik səviyyəsinə qədər yüksəldərək özlərini bir sıra ticarət üstünlüklərindən məhrum etmiş oldular.

3. ***Ümumi bazar*** birlik daxilində sərbəst ticarətlə bərabər bütün istehsal amillərinin də sərbəst hərəkəti deməkdir. Misal kimi, yenə də Avropa İqtisadi Birliyi və ya Avropa Ümumi Bazarını göstərmək olar.

4. ***Tam iqtisadi birlik*** üzv ölkələrin öz iqtisadi siyasətlərini, həmçinin ticarət və istehsal amillərinin hərəkəti ilə bağlı siyasətlərini eyniləşdirmələri deməkdir. Bu cür birliyin üzvləri aşağıdakıları etməlidirlər:

- Ticarətdə bütün rüsum və kvotaları qarşılıqlı şəkildə aradan qaldırmalı;
- Ümumi bazarla digər dövlətlər arasında mal idxal-ixracını eyni cür tənzimləməli;
- Ümumi maraq kəsb edən məsələlərin həlli istiqamətində vahid siyasət yürütməli.

Mövcud dünya təcrübəsi göstərir ki, iqtisadi inteqrasiyanın bütün üzv ölkələr üçün əlverişli olması üçün aşağıdakı şərtlərə əməl olunması zəruridir [10, s.196]:

- Ölkələrin iqtisadi siyasətləri oxşar olmalıdır;
- Valyuta sistemləri yaxın, valyuta kursları isə sabit olmalıdır;
- İqtisadi sistemlər, sosial və siyasi quruluşlar oxşar olmalıdır.

Məlum olduğu kimi regional iqtisadi inteqrasiyanın bütün mərhələlərindən keçmiş və ən mütərəqqi inteqrasiya bloku kimi AB çıxış edir.

1957-ci ildə Qərbi Avropanın altı ölkəsi – AFR, Fransa, İtaliya, Belçika, Niderland və Lüksemburq arasında Avropa İqtisadi Birliyinin (AİB) yaradılması haqda müqavilə imzalandı ki, 1958-ci ildə də bu müqavilə rəsmiləşdirildi. Bir az sonra, 1960-cı ildə AİB-ə əks təsir olaraq Avropa Sərbəst Ticart Assosiasiyası (ASTA) yaradılır. Bu quruma digər yeddi Qərbi Avropa dövləti – Böyük Britaniya, Avstriya, Danimarka, Norvec, Portuqaliya, İsveç və İsveçrə üzv olur.

Yarandıqları gündən bəri AİB ASTA-ya nisbətən daha səmərəli fəaliyyət qura bilmişdi. 70-80-ci illərdə bu iki birlik arasında münasibətlər və qarşılıqlı təsir intensivləşməkdə idi.

1984-cü ildə Avropa Parlamenti Avropa Birliyinin yaradılması layihəsini qəbul etdi və onun bazasında birlik miqyasında ümumi bazarın yaradılmasının konkret planını – "Ağ kitab"ı işləyib hazırladı. 1986-cı ildə AİB-ə üzv olan ölkələr Roma müqaviləsini tamamlayan anlaşmaları və ya "Vahid Avropa Aktı"nı imzaladılar. Aktda birlik daxilində sərhədsiz bazarın yaradılması üzrə konkret və mərhələli tədbirlər öz əksini tapdı və həmçinin "Ağ kitab" da onun tərkib hissəsinə çevrildi.

Vahid Avropa Aktının vacib bir aspekti o oldu ki, burada beynəlxalq qurumlar çərçivəsində qərarların qəbulu ilə bağlı məsələlərə xüsusi diqqət verilmişdir.

Qeyd etmək lazımdır ki, AB-nin inteqrasiyanın hər mərhələdə uğurlu inkişafının səbəblərindən biri qanunvericilik bazasının və digər hər hansı parlament ratifikasiyası tələb edən qanun, normativ aktların vaxtında, ləngimədən müzakirə və qəbul olunmasıdır. Məsələn, Rodos sessiyasında bəlli oldu ki, artıq 1992-ci iln sonuna qədər ümumi bazar yaradılması üçün zəruri qanunvericilik bazasının 50%-dən çoxu artıq hazırmış.

1990-cı ildə AİB və ASTA arasında vahid Avropa iqtisadi məkanının yaradılması haqda mühüm bir razılaşma imzalandı. Bu razılaşma iki inteqrasiya bloku arasında mövcud bütün ticarət maneələrinin aradan qaldırılmasını, dövlət sifarişlərinin verildiyi zaman AİB və ASTA ölkələri korporasiyalarına bərabər imkanların yaradılmasını, milli korporasiyalara hər hansı üstünlüklərin verilməməsini və texniki norma və standartların eyniləşdirilməsini nəzərdə tuturdu.

AB-nin tarixinə xronoloji ardıcıllıqla baxılarsa, görmək olar ki, o, öz inkişafında bir neçə mərhələdən keçmişdir.

1950-70-ci illəri əhatə edən mərhələ AİB ölkələri arasında ticarət maneələrinin aradan qaldırılması, ticarətdə vahid gömrük tariflərinin tətbiqi, üçüncü ölkələrə qarşı vahid gömrük siyasətinin yeridilməsi ilə səciyyələnir. Gömrük ittifaqı daxilində həmçinin kapital və əmək qüvvəsinin də sərbəst şəkildə hərəkətinin təminatı da vacib hadisə kimi qeyd olunmalıdır. 60-cı illərdən vahid kənd təsərrüfatı siyasətinin yeridilməsi qərara alınır. Bu siyasət məzmunca aqrar sferanın ümumi istiqamətlərinin bəlli edilməsi planını, struktur islahatlarının həyata keçirilməsini, AİB-də aqrar sektorun tənzimlənməsi məqsədilə ümumi aqrar fondun yaradılmasını və kənd təsərrüfatı məhsullarına vahid qiymət tətbiqini əhatə edirdi.

1970-85-ci illər AB-nin tarixində nisbətən problemli mərhələ oldu. Belə ki, bu illər durğun və böhranlı illər kimi səciyyələnir. Birlik ölkələrinin əksəriyyətində istehsalın həcmi azalır və üzv ölkələrin inkişaf templərindəki fərqlər nəzərəçarpan dərəcədə böyük olmuşdur. Bu mərhələdə 1979-cu ildə Avropa valyuta sisteminin işə salınması və Avropanın regional valyutasının – EKYU-nun (ECU – Europian Currency Union) tətbiqi əhəmiyyətli hadisə oldu. EKYU-nun tətbiqində əsas məqsəd ABŞ dollarına əks təsir yaratmaq, Qərbi Avropa ölkələrinin dünyanın yeni siyasi-iqtisadi durumuna uyğun ümumi maliyyə strategijisini işləmək və onu Beynəlxalq Valyuta Fondu çərçivəsində gerçəkləşdirmək idi [11, s.213].

1985-94-cü illər AİB üçün sabit və sürətli inkişaf illəri oldu. 1 iyul 1987-ci ildə "Vahid Avropa Aktı"nın təsdiqi bu mərhələnin ən mühüm hadisəsidir. Bu aktla üzv dövlətlər öz son ümumi məqsədlərini – siyasi və iqtisadi birliyi nəzərdə tutan Avropa Birliyinin yaradılması rəsmiləşdirdilər. Aktda AB-nin təməl məqsədi "daxili sərhədləri olmayan vahid bazarın yaradılması" kimi qeyd olunur. 1992-ci ildə bu məqsədə nail olundu.

Ən nəhayət, 1992-ci ilin fevral ayında Maastrixtdə AİB-nin 1 yanvar 1994-cü ildən etibarən AB adlandırılması qərara alındı.

AİB daxilində inteqrasiya prosesi uzun illər ərzində Qərbi Avropa ölkələrinin razılaşdırılmış iqtisadi siyasət yeritmələri nəticəsində gerçəkləşə bildi. Söhbət, ilk növbədə, üçüncü ölkələrə qarşı ümumi kənd təsərrüfatı və ticarət siyasətinin tətbiqindən gedir.

Nisbətən uğurla inkişaf edən inteqrasiya bloklarından biri də NAFTA-dır (North America Free Trade Association – Şimali Amerika Sərbəst Ticarət Assosiasiyası). Bu blok 1994-cü ildə ABŞ, Kanada, Meksika arasında yaradılıb.

Hələ XX əsrin əvvəllərindən başlayaraq ABŞ-la Kanada arasında iqtisadi əlaqələrin getdikcə güclənməsi onlar arasında sərhədlərin yumşalmasına səbəb olmuşdur. Bu proses uzun illər inkişaf etdi və nəticədə bu 1988-ci ildə ABŞ və Kanada arasında sərbəst ticarət haqda müqavilə imzalandı.1992-ci ildə Meksika da bu müqaviləyə qoşuldu. Reallaşma mexanizmi baxımından fərqli olmasına baxmayaraq ilkin ideyasına görə NAFTA AİB tipli bir quruma çevrilməlidir - əvvəlcə işçi qüvvəsi, mal və kapitalın ümumi bazarının yaradılması, üzv ölkələrin istehsal sferalarının birləşərək bir-birini tamamlaması və bununla da üç ölkənin vahid təsərrüfat kompleksinin yaradılması baş ver-

məlidir. Nəzərə alsaq ki, NAFTA çox böyük bir iqtisadi güc dür, o zaman burada baş verən proseslərin nəinki Şimali Amerika regionu, həmçinin bütünlükdə dünya iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu görə bilərik.

Təsəvvür üçün qeyd etməliyik ki, hazırda NAFTA-nın illik mal və xidmət istehsalının həcmi təxminən 3 trln. ABŞ dollarıdır və dünya ticarətinin təqribən 20% bu təşkilatın payına düşür [12, s.75-77].

NAFTA-da inteqrasiya prosesləri AB-dən bir sıra prinsipial fərqlərə malikdir. Birincisi, bu iki inteqrasiya birliyinin inkişaf modelləri bir-birindən fərqlənir; əgər AB-də inteqrasiya yuxarıdan aşağıya, yəni öncə hökumətlər səviyyəsində, sonra onun ayrı-ayrı orqanları və daha aşağı səviyyələrdə həyata keçirmiş NAFTAda isə bu proses əksinə, mikrosəviyyədən başlamış - əvvəlcə ölkələrin şirkət və korporasiyaları arasında baş verən inteqrativ proseslər tədricən daha yüksək - hökümət səviyyəsinə yol tapmışdır. İkincisi, NAFTA-da ABŞ mütləq üstün mövqeyə malikdir və məzmunca inteqrasiya bu dövlət ətrafında baş verir. Bundan başqa Kanada və Meksika arasında iqtisadi əlaqələrin zəifliyi və o qədər də sağlam olmaması NAFTA-nın inkişafında öz əksini tapır. Qeyd etmək lazımdır ki, iki ölkənin korporasiyaları bir çox hallarda əsasən ABŞ bazarı uğrunda ciddi rəqabət aparırlar.

AB-dən fərqli olaraq, NAFTA-da dövlətlərarası tənzimləmə orqanları zəif inkişaf etmiş, dövlətüstü orqanlar isə heç yaranmamışdır. Dünyanın aktiv inteqrativ proseslərlə səciyyələnən regionlarından biri də Asiya-Sakit Okean (ASO) hövzəsidir. Ümumi məlumat üçün qeyd edək ki, bu region dünya iqtisadiyyatında güclənməkdə olan mövqeyə malikdir. Belə ki, insan potensialı 3.5 mlrd nəfəri adlayan ASO regionunun payına bu gün dünya üzrə ümumi məhsul istehsalının təxminən 56%-i, ticarət dövriyyəsini isə 45%-i düşür [11, s.215].

İnteqrativ meyillərin güclü olması ilə yanaşı, bu proseslərin ASO regionunda bir sıra inkişaf spesifikliklər vardır.

Əsas cəhətlərdən biri həm nisbətən inkişaf etmiş, həm də hələ inkişaf edən ölkələrin eyni dərəcədə cəlb olunmasıdır. Əgər dünyanın digər regionlarına nəzər salsaq, görərik ki, inteqrasiya bir qayda olaraq, təxminən eyni inkişaf səviyyəli ölkələr arasında yaranır. Lakin ASO regionunda kifayət qədər fərqli inkişaf səviyyəli ölkələr arasında inteqrasiya müşahidə olunur.

İnteqrasiyanın bir tərəfdən region ölkələrinin firma və korporasiyaları səviyyəsində, digər tərəfdən isə daha çox ayrı-ayrı subregionlar səviyyəsində inkişaf etməsi bu regionun spesifik cəhətidir.

Həmçinin, dinamik inteqrasiya meyilləri ilə yanaşı, onların təşkilati cəhətdən səviyyəsi aşağı olaraq qalmaqdadır. Yaponiyanın bu regionda gedən inteqrasiya proseslərində əlahiddə rolu vardır. Lakin son illərdə "4 Asiya pələngi", ABŞ və Çinin rolu xeyli artmaqdadır.

Bu regionda lider-blok kimi ASEAN – Cənub-Şərqi Asiya ölkələri assosiasiyası çıxış edir. Bu blok 1967-ci ildə Bruney, İndoneziya, Malaziya, Filippin, Sinqapur və Tailand dövlətləri arasında yaradılmış və 1995-ci ildə bu sıraya Vyetnam da qoşulmuşdur. Üzv ölkələr 1992-ildə birlik daxilində 2008-ci ilədək mərhələli şəkildə tarifləri endirməklə sərbəst ticarət zonası yaratmaq haqda razılığa gəlmişlər.

Aparılan araşdırmalara əsaslanaraq qeyd edə bilərik ki, iqtisadi inteqrasiya iqisadi proseslərin beynəlmiləlləşməsi, beynəlxalq əmək bölgüsünün nəticəsi kimi meydana gəlmişdir. Iqtisadi inteqrasiyanın nəhəng daşıyıcıları transmilli korparasiyaların və hazırkı inkişaf etmiş inteqrasiya bloklarını formalaşdırmış investisiya axınları çıxış edir.

İqtisad elmində iqtisadi inteqrasiya fenomeninə müxtəlif baxış və hipotezlərin mövcudluğuna baxmayaraq, qeyd etmək lazımdır ki, vahid, qəbul olunmuş nəzəriyyə mövcud deyil. Öz növbəsində inteqrasiya edən ölkə üçün bu fenomenin müsbət və mənfi cəhətləri sualı da açıq olaraq qalmaqdadır.

Açar sözlər: inteqrasiya, xarici iqtisadi əlaqələr, Avropa Birliyi, sərbəst ticarət zonası, gömrük birliyi

İstifadə edilmiş ədəbiyyat

1. Crafts Nicholas Globalization and Growth in the Twentieth Century (IMF Working Paper WP00/44) Washington D.C.: International Monetary Fund, March 2006
2. Adam Smith Wealth of nations, Vol. 4, 1776 page 6
3. Bayramov Ə.İ. Regional İqtisadi İntegrasiya: nəzəriyyə və praktika. Bakı: 1997
4. Щербанин Ю.А., Рожков К.Л., Рыбалкин В.Е., Фишер Г. Международные Экономические Отношения: интеграция. М.: ЮНИТИ, 1997, с.10-11
5. Krugman P. Scale Economies, Product Differentiation and the Pattern of Trade (American Economic Review) December-1980, p.950-959
6. Mussa M., Morris G. The İntegration of World Capital Markets Kansas city, Missouri: 1993
7. Rodrik D. How Far Will Economic Integration Go? (Journal of Economic Perspectives) p.177-186
8. Хасбулатов Р.И. Мировая Экономика. Часть I. М.: 2001, с.571
9. www.europa.eu.int
10. Чжен В.А. Рынок и открытая экономика. Ташкент: 1997, с.196
11. Мировая экономика: введение во внешнеэкономическую деятельность (под редакцией А.К.Шурканиной и Н.С.Цыпиной), М.: 2002, с.213
12. World Economic Survey Vol.1, 2004, p.75-77

Шовги Кулиев
Рамиль Аскеров

ОСОБЕННОСТИ РЕГИОНАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ ИНТЕГРАЦИИ

Резюме

В статье экономическая интеграция рассматривается как единая форма расширения экономических отношений между стран и народов. Евросоюз и этапы его развития рассматриваются как пример экономической интеграции. В статье исследуются сущность, формы и особенности свободной торговой зоны, таможенного союза и др. Исследуются общие и отличительные черты таких интеграционных блоков, как НАФТА и АСЕАН.

Ключевые слова: интеграция, внешне экономические отношения, Европейский Союз, зона свободной торговли, таможенный союз

Shovqi Quliyev, Ramil Asgarov

CHARACTERİSTİCS OF REGİONAL ECONOMİC İNTEGRATİON

Summary

Economic integration is shown as a single form of expansion of economic relations among countries and peoples. European Union and the stages of its development are seen as an example of economic integration. The essence, forms and characteristics of a free trade area, customs union and others are investigated in the article. The common and distinctive features of the integration blocks, as NAFTA and ASEAN are also investigated in the article.

Keywords: integration, external economic relations, European Union, free trade area, custom union

UOT – 330.34

Təranə Əhmədova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

MÜƏSSİSƏLƏRDƏ BİZNES STRATEGİYASININ FORMALAŞMASI YOLLARI

Məqalədə müasir dövrdə bazar prinsiplərinə əsaslanan strategiyanın formalaşması yolları tədqiq edilir. Bu məqsədlə, strategiyanın mahiyyəti, onun həyata keçirilməsinin taktiki əsasları dünya təcrübəsinə əsaslanaraq araşdırılır. Məqalədə müəssisənin strategiyasında biznes mühitinin mühüm rola malik olduğu əsaslandırılaraq, onun tənzimlənməsi mexanizmləri də təhlil edilir. Ümumilikdə, müəssisənin biznes strategiyasının fəaliyyətinə təsir edən amillər kompleks şəkildə tədqiq edilir və strategiyanın seçilməsinin əsas prinsipləri elmi cəhətdən araşdırılır.

Bazar iqtisadiyyatının formalaşması müəssisələrin bazar prinsipləri əsasında qurulmasını zəruri edir. Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşması və inkişafı bilavasitə biznes fəaliyyəti ilə əlaqədardır. Belə ki, biznes istehlakçıların tələbatının ödənilməsi və mənfəət alınması məqsədilə təşəbbüskar insanlar arasındakı işgüzar münasibətlərin məcmusudur. Biznesin məqsədi müəssisənin uzun müddət öz fəaliyyətində cəhd etdiyi son nəticədir. Biznesin məqsədi onun xarakterindən və inkişaf səviyyəsindən asılı olaraq müxtəlif ola bilər: mənfəətin alınması; bazarda, sahədə qabaqcıl mövqeyə nail olunması; istehlakçıların tələbatının optimal ödənilməsi və s.

Strategiyanın seçilməsi mərhələləri

Biznesin məqsədləri təyin edildikdən sonra onun strategiyasının işlənməsi mərhələsi başlayır. Belə ki, uzunmüddətli perspektivdə rəqabət mübarizəsində müəssisəyə yaşamağa imkan verən strategiyanın işlənilməsinin mahiyyəti xüsusi əhəmiyyətə malikdir.

Strategiya qoyulmuş məqsədlərə nail olmaq üçün lazımi hərəkətlərin ümumləşdirilmiş modelini ifadə edir. Uzunmüddətli perspektivdə rəqabət mübarizəsində zavoda yanaşmağa imkan verən strategiyanın işlənilməsinin mahiyyəti çox böyükdür. Korporativ səviyyədə strategiyanın əsas vəzifəsi - ətrafdakı iqtisadi mühitə daha faydalı sürətdə daxil olmaq və ona müvafiq gəlməkdir. Strategiya öz məqsədinə çatmaq və missiyanı yerinə yetirmək üçün təşkilatın haraya getmək istədiyini müəyyən edir. O, təşkilatın fəaliyyət xüsusiyyətlərini və istiqamətlərini əks etdirən məhdudiyyətlər yaradır və seçim çərçivəsini göstərir. Seçim məhsul və xidmətlər, onların həcmi, çeşidi, satış bazarları və ehtiyyatların alınma bazarı, artım imkanları, kapitalın dövretməsi , vəsaitin yerləşdirilməsi kimi məqamlara aiddir. Beləliklə, strategiya - niyyət haqqında deklarasiyadır, o, təşkilatın gələcəkdə necə olmaq istədiyini təyin edir.

Bazarda vəziyyətin tez-tez dəyişilməsi və sərt rəqabət şəraitində təkcə zavodun işinin daxili vəziyyətinə deyil, həm də uzunmüddətli strategiyanın hazırlanmasına diqqəti yönəltmək vacibdir. Çünki bu xarici mühitdə baş verən dəyişiklikləri nəzərə almağa imkan verəcəkdir. Keçmişdə bir çox zavodlar cari fəaliyyətdə resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi ilə bağlı problemlərə, gündəlik işə əsas diqqət yetirməklə uğurla fəaliyyət göstərirdilər. Bu gün isə, baxmayaraq ki, cari fəaliyyətdə potensialdan səmərəli istifadə məsələləri qüvvədə qalır, ətraf mühitdəki dəyişikliklərə zavodun uyğunlaşması təmin edən strategiyanın həyata keçirilməsi son dərəcə vacibdir [1].

Strategiyaya təsir edən amillər və seçilməsinə yanaşmalar

Müəssisələrin hər biri özünə xas mühit amillərinin əhatəsində fəaliyyət göstərir və eyni zamanda qarışılıqlı münasibətdə olur. Bu qarşılıqlı münasibətlərin səviyyəsi isə, müəssisə ilə ətraf mühit arasındakı əlaqələrin forma və xarakterini də müəyyənləşdirir.

Qeyd etməliyik ki, ətraf mühit amilləri və onların müəssisələrin fəaliyyətlərinə birbaşa və ya dolayı yolla təsirləri günü-gündən artır ki, bu da qarşılıqlı münasibətləri mürəkkəbləşdirir. Möv-

cud texnologiyalardan istifadə imkanları dəyişir, bazarlar və onlara nüfuz imkanları genişlənir, enerji ehtiyatları tükənir və qiymətlər günü-gündən yüksəlir, sabit xərclərin məhsulun maya dəyərindəki payı artır, istehlakçıların tələbatları dəyişir, informasiya vasitələri sürətlə inkişaf edir və s. Bütün bu tipli dəyişikliklər müəssisələrdən uzunmüddətli məqsəd və vəzifələrə yenidən baxmağı və ətraf mühitdə baş verən dəyişikliklərlə uzlaşdırmağı tələb edir. Şübhəsiz, müəssisənin fəaliyyətlərini bu tipli dəyişikliklərlə uzlaşdırmaq xeyli mürəkkəb və çətin bir işin məntiqi nəticəsidir. Bu səbəbdən də müəssisənin uğurları sürətlə dəyişən dünyada daima yenilikçi xarakterə və keyfiyyətə, mütərəqqi dəyişikliklərə uyğun strategiyaları olan idarəçilik fəlsəfəsinə malik olmasından asılıdır. Məhz düzgün seçilmiş strategiya dəyişkən, qeyri-müəyyən və risklərlə dolu mühitdə müəssisəyə daha düzgün istiqamət göstərəcəkdir. Bütün bunları ümumiləşdirərək strategiyaların müəssisələrin həyatında başlıca əhəmiyyətini aşağıdakı kimi qeyd edə bilərik:

a) Strategiya hər şeydən əvvəl ətraf mühiti lazımınca qiymətləndirməyə və gələcək planları daha da mükəmməl hazırlamağa imkan verir. Müəssisəni əhatə edən mühit amillərində baş verən dəyişikliklərin nədən ibarət olduğu və bunların fəaliyyətlərə necə təsir etdiyini qabaqcadan müəyyənləşdirə bilmək, gələcək planların daha da mükəmməl hazırlanmasına imkan verəcəkdir. Strategiyası olmayan müəssisə isə ətraf mühitdən olacaq yeni təhlükə və imkanları görə bilmədiyindən, heç şübhəsiz, yeni-yeni uğursuzluqlara sürüklənəcəkdir.

b) Strategiya müəssisəyə öz-özünü hərtərəfli qiymətləndirmə imkanı verir.

Strateji qərarlar müəssisəyə mövcud vəziyyəti və imkanları hərtərəfli təhlil etməyə imkan verir. Bu da öz növbəsində ayrı-ayrı şöbələrin və alt sistemlərin güclü və zəif cəhətlərini, idarəçilik fəlsəfəsini, rəhbərlərin dəyərlərini, arzu və meyillərin və s. öyrənilməsinə şərait yaradacaqdır.

ç) Strategiya müəssisənin fəaliyyətlərini müəyyən məcraya yönəldir, planlar üçün ümumi bir çərçivə hazırlayır və şöbələrarası koordinasiya əlaqələrini möhkəmləndirir: Strateji qərarlar sisteminin ümumi məqsəd və vəzifələrini müəyyənləşdirdiyi üçün alt sistemləri də bunları gerçəkləşdirmək istiqamətində fəaliyyət proqramlarını hazırlamağa və koordinasiyalı çalışmağa məcbur edir.

c) Strategiya müəssisədə alınan qərarların və gələcək layihələrin mükəmməlliyini və doğruluq dərəcəsini artırmağa xidmət etdir. Strateji qərarlar mühit amillərində baş verən dəyişiklikləri təhlil edərək yeni imkan və təhlükələri müəyyənləşdirməyə xidmət etdiyi üçün problemləri vaxtında görməyə, alternativ qərarlardan ən əlverişlilərini seçməyə və uğurla tətbiq etməyə imkan verir [1].

Qeyd etmək lazımdır ki, biznes aləmində yeganə strategiya mövcud deyil. Hər bir zavod özözlüyündə unikaldır, ona görə strategiyanın işlənilməsi strategiyası da spesifikdir, çünki bazarda zavodnın mövqeyindən, onun inkişaf dinamikasından, potensialından, rəqiblərin davranışından, istehsal edilən məhsulun və ya göstərilmiş xidmətlərin xarakteristikasından, iqtisadiyyatın vəziyyətindən, mədəni mühitdən və sairədən asılıdır. Eyni vaxtda biznesin strategiyasının işlənməsinin bəzi ümumləşdirilmiş prinsiplər haqqında danışmağa imkan verən əsas məqamlar var. Zavodun daxili vəziyyətini və xarici mühitini xarakterizə edən vacib amillərin təhlili əsasında strategiyanın seçilməsi həyata keçirilir. Strategiya aşağıdakı suala cavab verməlidir: xarici mühit elementlərini nəzərə almaqla qoyulmuş məqsədə nail olmaq üçün müəssisədə mövcud resurslar və imkanlardan istifadəsinin yaxşılaşdırılmasının hansı alternativ variantları vardır?

Strategiyanın seçilməsində aşağıdakı vacib amillər nəzərə alınmalıdır:

- sahənin güclü tərəfləri;
- zavodun güclü tərəfləri;
- zavodun məqsədləri;
- zavodun maliyyə resursları;
- işçilərin ixtisas səviyyəsi;
- xarici mühitdən asılılığın dərəcəsi;
- vaxt amili.

Nəzərə almaq lazımdır ki, strategiyaya təsir edən amillər heç də həmişə vaxtında gözə çarpmır, bəzən onlar artıq öz təsirlərini göstərdikdən sonra müşahidə olunur. Ətrafda olan rəqiblər, bazar, təchizat, istehlakçılar, sərmayələr, qanunvericilik, siyasi hərəkatlar, dövlətlərarası münasibətlər, təbii fəlakətlər və s. amillərlə əlaqəli elə hallar baş verə bilər ki, ya mövcud strategiya kökündən dəyişməli və yaxud əsaslı yeniləşməyə məruz qalmalıdır [2].

Seçilmiş strategiya onun həyata keçirilməsi imkanlarını müəyyənləşdirən amillərin hərtərəfli, əhatəli təhlili əsasında qiymətləndirilir. Qiymətləndirmənin əsas meyarı:seçilmiş strategiyanın zavodun qarşısında duran məqsədlərinə nail olmağa gətirib şıxarmasıdır.

Əgər strategiya müəssisənin qarşısında duran məqsədlərinə uyğun gəlirsə, onda onun gələcək qiymətləndirilməsi aşağıdakı istiqamətlər üzrə aparılr:

- ətrafdakı tələblərə və vəziyyətə seçilmiş strategiyanın uyğunlaşması;
- zavodun imkanlarına və potensialına seçilmiş strategiyanın uyğunlaşması;
- strategiyada olan riskin əlverişliliyi.

Müəssisənin strategiyasını müəyyən edərkən rəhbərlik zavodun bazardakı mövqeyi ilə bağlı üç əsas məsələ ilə qarşılaşır:

- hansı biznesə xitam verilsin;
- hansı biznes davam etdirilsin;
- hansı biznesə keçirilsin.

Bu o deməkdir ki, strategiyada əsas diqqət aşağıdakılara yönəldilir:

a) təşkilat nəyi edir nə nəyi etmir;

b) fəaliyyətin həyata keçirilməsində nə mühümdür və nə vacib deyil [2].

Qeyd etməliyik ki, strateji idarəetmə sahəsində aparıcı mütəxəssis və nəzəriyyəçilərdən biri olan ABŞ-ın Qərb Universitetinin professoru M.Porterin fikrincə, zavodun bazarda özünü aparması (davranışı) barədə strategiyanın işlənməsinin üç əsas sahəsi vardır:

Birinci yanaşma minimum istehsal xərcləri ilə liderliyin ələ alınmasıdır. Bu strategiya nəticəsində zavod analoji məhsula daha aşağı qiymətlər qoyması hesabına bazarın böyük hissəsinə yiyələnə bilər. Belə strategiyanı reallaşdıran zavodda istehsal və təchizat səmərəli təşkil edilməli, müasir texnologiyası və mühəndis konstruktor bazası olmalıdır. Belə strategiyada marketinq xidməti yüksək səviyyədə inkişaf etdirilməyə də bilər.

İkinci yanaşma məhsul istehsalında ixtisaslaşma ilə əlaqədar strategiyanın işlənməsidir. Belə halda zavod yüksək ixtisaslaşmış istehsalı həyata keçirməli və öz məhsulunun istehsalı üzrə lider olması üçün marketinq də yüksək səviyyəyə çatdırılmalıdır. Bu ona gətirib çıxarır ki, alıcı, hətta qiymət kifayət qədər yüksək olsa da, həmin məhsulu seçir. Bu tip strategiyanı reallaşdıran zavodun yüksək potensialı, səviyyəli dizaynerləri, yüksək keyfiyyətli məhsul təminatı sistemi, habelə inkişaf etmiş marketinq sistemi olur.

Üçüncü yanaşma isə bazarda müəyyən seqmentə malik qurumların strategiyasının müəyyən edilməsinə əsaslanır. Belə hallarda zavod bütün bazarda deyil, özünün dəqiq müəyyən edilmiş seqmentində fəaliyyət göstərir və müəyyən növ məhsula bazarın tələbini aydınlaşdırır. Bu zaman müəyyən biznes qurumu xərclərin aşağı salınmasına cəhd edə bilər və ya məhsul istehsalının ixtisaslaşdırılması siyasətini yeridə bilər. Bu iki yanaşmadan qarşılıqlı istifadə də mümkündür. Ancaq üçüncü tip strategiyanın həyata keçirilməsi üçün tam vacibdir. Çünki zavod bazarın müəyyən seqmentində, hər şeydən öncə tələbatı təhlil etməklə öz fəaliyyətini təkcə bazarın tələbləri baxımından deyil, həm də müəyyən müştərilərin tələbatını nəzərə almaqla qurmalıdır.

Ən çox yayılmış, praktikada sınaqdan çıxmış və ədəbiyyatda geniş işıqlandırılmış biznesin inkişaf strategiyası etalon strategiyası adlanır. Bunlar biznes qurumlarının inkişafının müxtəlif yanaşmalarını ifadə edir. Etalon strategiyası məhsul, bazar, sahələr, sahə daxilində zavodun vəziyyəti və texnologiya ilə bağlıdır.

Sahibkarın əsas vəzifəsi strategiyanı elə formalaşdırmaqdır ki, o bütün daxili və xarici mühitdə baş verən dəyişikliklərə, rəqib zavodların fəaliyyətlərindəki yeni istiqamət və meyillərə, istehlakçıların arzusuna, zövqünə və tələbinə, habelə sahibkarlıq fəaliyyətlərində dəyişən şəraitə cavab verə bilsin.

Təbii ki, daha fəal və uzun müddət fəaliyyət göstərmək arzusunda olan sahibkar işgüzar mühitə daha həssaslıqla yanaşaraq istehlakçıların arzu və istəklərinə vaxtında əməl edib fəaliyyət strategiyasında müvafiq dəyişikliklər aparmalıdır. Deməli, bisnesin sahibkarlıq fəaliyyətinin səmərəli təşkili hərtərəfli əsaslandırılmış strategiyanın olmasını tələb edir [3].

Müəssisədə biznes fəaliyyətinin səmərəli həyata keçirilməsini və perspektiv inkişafını təmin edən alternativ strategiyaların diapazonu olduqca genişdir. Bu strategiyaların seçilməsinin əsas prinsiplərinə aşağıdakıları daxil etmək mümkündür.

1) İntensiv yüksəliş və satışın həcminin artırılması. İntensiv yüksəliş strategiyasının reallaşdırılması zavodun idarəetmə metodlarının müxtəlifliyi ilə fərqlənən bir neçə fazanın ardıcıl həyata keçirilməsi ilə əlaqədardır.

2) Məhsulun təkmilləşdirilməsi və inkişafı. İşlənilib hazırlanmış məhsulun xüsusiyyətləri bazarın tələblərinə uyğun gəlir, lakin məhsulun tələbata uyğunlaşdırılaraq təkmilləşdirilməsi vacibdir.

3) Bazarın inkişafı. Bazarda yeni məhsulun keyfiyyət xüsusiyyətləri haqqında məlumat yoxdur. Bazarın yeni, əhatə edilməmiş, lakin potensial maraq kəsb edən seqmentləri mövcuddur. Belə bazarı və potensial seqmentləri "inkişaf" etdirmək lazımdır.

4) Diversifikasiya.

- konsentrik diversifikasiya. Yəni, bazara çıxarılan yeni məhsullar digər sahələrin əsas məhsulları ilə oxşarlıq xüsusiyyətlərinə malikdir.
- konqlamerant diversifikasiyası. Yəni, bazara çıxarılan yeni məhsullun ənənəvi istehsal edilən məhsula heç bir oxşarlığı yoxdur.

Ümumiyyətlə, diversifikasiya strategiyasının qeyri-stabil bazar şəraitində tətbiq edilməsi məqsədəuyğun hesab edilir. Bu da onunla əlaqədardır ki, bu strategiya bazarın hər hansı seqmentində baş verən itkilərin digər seqmentdəki gəlirlər hesabına kompensasiya edilməsinə imkan yaradır. Diversifikasiyanın əsas vəsifəsi resursların manevr edilməsi imkanları hesabına zavodun sabitliyinin və stabilliyinin yüksəldilməsindən ibarətdir.

5) İnteqrasiya:

- üfüqi inteqrasiya, yəni rəqiblər arasında birləşmə;
- şaquli inteqrasiya, yəni istehsalçı-istehlakçı zəncirvari xətt üzrə birləşmə.

6) Stabillik, bazarda yaranmış paritetin qorunub saxlanması.

Stabillik strategiyası bir qayda olaraq, inhisarçı zavodlar tərəfindən tətbiq edilir. Rəqabət şəraitində fəaliyyət göstərən digər zavodun bu strategiyanı reallaşdıraraq rəqiblər tərəfindən məğlubiyyətə uğraması qaçılmazdır [1].

7) Bazarı tərk etmək.

8) Müəssisənin ləğv edilməsi.

Müəssisənin bazardakı mövqeyinə və daxili parametrlərinə uyğun gələn səmərəli strategiyanın seçilməsi SWOT təhlilin nəticələrinə əsaslanaraq qərarların qəbul edilməsi matrisası əsasında həyata keçirilir .

Strateji dəyişikliklər zavodun fəaliyyətini bir çox tərəflərini və onun struktur elementlərini əhatə edir. Buna görə də onlar kompleksli xarakter daşıyırlar.

Dəyişikliklər məhsul və xidmətlərə, satış və xammal bazarları ilə, bütövlükdə zavodun struktur elementləri ilə əlaqədar ola bilərlər. Təcrübə göstərir ki, təşkilati idarəetmə strukturlarında və təşkilati mədəniyyətdə dəyişikliklərin aparılmasında zavodlar ən mühüm çətinliklərlə rastlaşırlar.

Təşkilatı struktur. Strateji planlanlaşdırmanı həyata keçirən zavodların təşkilatı idarəetmə strukturlarının təhlili, əsasən, aşağıdakı suallara cavabların verilməsini təmin etməlidir.

1) Müəssisənin mövcud təşkilatı idarəetmə strukturu hansı dərəcədə seçilmiş strategiyanın reallaşdırılmasını təmin edə bilər?

2) Müəssisənin idarəetmə bölmələri arasında strateji və operativ idarəetmə funksiyalarının optimal bölüşdürülməsini necə həyata keçirmək mümkündür?

Təşkilati mədəniyyət. Digər mühüm strateji dəyişikliklər sırasında yeni seçilmiş strategiyanın reallaşdırılmasında zavodun təşkilati mədəniyyətinin həmin strategiyaya uyğunlaşdırılmasını qeyd etmək lazımdır. Bir çox hallarda bu məsələ təşkilati quruluşların yenidən qurulmasından daha mürəkkəb və miqyaslı olur. Təşkilatı mədəniyyətin əsas vəzifəsi zavodda komandanın yaradılmasından, bütün əməkdaşların fəaliyyət və davranış istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

Təşkilatı mədəniyyət müəssisədə hökm sürən, bütün kollektiv tərəfindən müzakirəsiz qəbul edilən və tutduğu vəzifədən asılı olmayaraq əməkdaşların davranış xarakterini və mənasını müəyyən edən qaydarın, normaların, düşüncə tərzinin ənənələrin və dəyərlərin məcmusu deməkdir.

Açar sözlər: biznes, strategiya, taktika, biznes mühiti, səmərəlilik, müəssisə

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov A.B. Biznesin əsasları. Bakı: Nurlan, 2012
2. Əliyev T.N. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 1994
2. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 1996

Тарана Ахмедова

ПУТИ ФОРМИРОВАНИЯ БИЗНЕС СТРАТЕГИИ НА ПРЕДПРИЯТИЯХ

Резюме

В статье исследуются пути формирования стратегии, основанные на рыночных принципах на современном этапе. суть стратегии его тактические основы изучены на основе мирового опыта. В статье обосновывается роль бизнес среды в стратегии предприятия. Рассматриваются факторы, влияющие на бизнес стратегию предприятия.

Ключевые слова: бизнес, стратегия, тактика, бизнес среда, эффективность, предприятие

Tarana Ahmadova

WAYS OF FORMATION OF BUSINESS STRATEGY IN THE ENTERPRISES

Summary

The ways of formation of strategy based on market principles in the modern era are explored in the article. For this purpose, the essence of the strategy, the tactical bases of its implementation based on the world experience are investigated. The mechanisms of its regulation based on the important role of business environment in the strategy of enterprise are analyzed in the article. The factors influencing the activity of business strategy of enterprise are complexly investigated and the main principles of strategy are scientifically investigated.

Keywords: business, strategy, tactics, business environment, efficiency, enterprise

UOT – 339.1

Firuz Qurbanov
Qərb Universiteti, doktorant

TURİZM SEKTORUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Məqalədə turizm sektorunun iqtisadi inkişafda yeri, bu sahənin inkişafı ilə bağlı yerinə yetirilməli olan vəzifələr, qanunvericilik bazası, Azərbaycanda turizmin inkişafına müsbət təsir edən amillər və Azərbaycanda turizm sektorunu inkişaf etdirərək dünya standartları səviyyəsinə çatdırmaq istiqamətində təkliflər öz əksini tapmışdır.

İnformasiya cəmiyyətinin formalaşmasının əsas sahələrindən biri kimi turizm sektorunun artan tələbata uyğun olaraq inkişaf etməsidir. Bu da qloballaşma prosesinin genişlənməsi nəticəsində dünyada insanların yerdəyişməsi, onların məqsədli formada bir ərazidən digərinə hərəkətinin intensivləşməsi turizm sektorunu iqtisadiyyatın inkişaf edən sahələrindən birinə çevirir. Müasir şəraitdə sahibkarlıq fəaliyyətinin inkişaf etməsi, xüsusi mülkiyyətin dövlət büdcəsinin əsas gəlir mənbəyinə çevrilməsini nəzərə alaraq xidmət sahələrinin, o cümlədən turizmin dünya iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən biri olduğunu göstərir. Qeyd edək ki, bu sektor birbaşa insan fəaliyyəti ilə bağlı olduğundan cəmiyyət üzvlərinin tələbatlarının dolğun ödənilməsini nəzərə almalıdır.

Turizm sektoru ölkə iqtisadiyyatına gətirdiyi gəlirlə yanaşı, insanların asudə vaxtlarından səmərəli istifadənin təşkilinin əsas hissəsidir. Hazırda turizmin kütləvi şəkil alması elmi-texniki tərəqqinin inkişafı,informasiya cəmiyyətinin formalaşması, dövlətlərarası siyasi, sosial, mədəni və iqtisadi əlaqələrin genişlənməsi ilə onun ayrı-ayrı növlərinin inkişafı ilə bağlıdır. Turizm sektoru təkcə insanların asudə vaxtlarından istifadə ilə bağlı istirahət deyil, eyni zamanda sağlamlıq, idman, dini, konfrans, ekoloji və s. növlərinin inkişafını xarakterizə edir.

Müşahidələr göstərir ki, turizm sektoru milli mədəniyyət, tarixi möcüzələr və yerləri zəngin olan, ekoloji vəziyyəti, zəngin flora və faunası olan ölkələrdə daha sürətlə inkişaf edir. Ölkəmizdə turizmin inkişafı baxımından onun doqquz iqlim qurşağına malik olması onun istirahət üçün əlverişli region olduğunu göstərir.

Son dövrlərdə ölkəmizdə turizm sektoru sahəsində xarici əlaqələrin inkişafı, milli turizmin formalaşması və inkişafı ilə əlaqədar istiqamətlər müəyyənləşdirilmişdir ki, bu da sahənin inkişafı ilə bağlı aşağıdakı vəzifələrin yerinə yetirilməsini tələb edir:

- Turizmin maddi-texniki bazasını gücləndirmək;
- Turistlərə göstərilən xidmətin keyfiyyətini yüksəltmək;
- Turizm sektorunda rəqabətqabiliyyətli turizm bazarını formalaşdırmaq;
- Xarici investorları turizm bazarına cəlb etmək və s.

Azərbaycanda turizm sahəsinin inkişafı, turizm infrastrukturunun dünya standartlarına uyğunlaşdırılması, mehmanxanaların sayının artırılması onun dünya bazarına inteqrasiyası istiqamətində görülən mühüm addımlardandır. Ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafı sahəsində mövcud problemlərin həlli ölkənin resurs potensialından səmərəli istifadə səviyyəsi müxtəlif layihələrin reallaşdırılması əsasında mümkün ola bilər [1, s.150-167]. Davamlı inkişaf konsepsiyası ölkənin təbii və insan resurslarının maksimum dövriyyəyə cəlb edilməsi nəticəsində yüksək həyat səviyyəsinin təmin edilməsindən ibarətdir. Bu istiqamətdə atılan addım-

lardan ən mühümü turizm sektorunun davamlı inkişafına nail olmaqdır. Bu isə, ilk növbədə xüsusi vəsait mənbələrinin, maliyyə resurslarının formalaşması ilə əlaqədardır. Turizm layihələrinin istiqamətlərinin genişləndirilməsi, ölkənin əlverişli coğrafi və geosiyasi mövqeyə malik olması, beynəlxalq idman, ticarət və mədəni əlaqələrin genişlənməsi, ölkəyə xarici vətəndaşların axını ilə bağlıdır. Bütün bunlar ölkənin beynəlxalq turizmə inteqrasiyasını sürətləndirir. Bu isə Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olanların xarici ölkələrlə əlaqələrinin genişlənməsi, məhsul növləri və çeşidlərinin beynəlxalq bazarlara yeridilməsi, kadrların professionallığının artırılmasının əsas amillərindəndir.

İqtisadiyyatın müstəqil sahələrindən olan turizm bu sahəyə xas olan xüsusiyyətlərlə xarakterizə olunur. Bu sektorun inkişafı əmək məhsuldarlığının artırılması baxımından xidmətin səviyyəsinin yüksəldilməsi, stimullaşdırıcı metodlardan istifadə edilməsi, servis xidmətlərinin çeşidinin artırılması zəruridir. Turizm xidmət sahəsində mühüm sektor olmaqla inkişafda olan regionlarda mədəniyyətlərarası inteqrasiyanın dərinləşməsinə də münbit şərait yaradır. Belə ki, dünyada iqtisadiyyatın digər sektorlarının inkişafı mümkün olmadığı baxımından turizmin ölkənin gəlirlərinin əsas hissəsini təşkil etdiyi üçün belə ölkələrdə məşğuliyyətin əsas formasını turizm təşkil edir. Ümumilikdə turizm fəaliyyəti insanların zəruri mənəvi tələbatlarının ödənilməsi ilə xarakterizə edilir. Turizm fəaliyyəti ilə məşğul olan zaman insan amili öz keyfiyyət göstəricilərini nümayiş etdirir. Bu baxımdan turizm fəaliyyəti ilə məşğul olan şəxslər qarşısında yüksək tələblər qoyulur. Belə ki, bu şəxslər özündə yüksək dəyərləri birləşdirməli, yüksək mədəni baxış və davranışı özündə təmsil etməlidir.

Turizmin dünyada belə bir mühüm mövqe tutmasında əsas rol informasiya texnologiyalarına, rabitə və nəqliyyata məxsusdur.Belə ki,maraqlı yerlər barəsində informasiya-kommunikasiya texnologiyalarının köməyi ilə məlumatlandıqdan sonra əlverişli nəqliyyat növü seçilir. Beləliklə, turism sektorunun inkişafı eyni zamanda digər xidmət sahələrinin inkişafını da stimullaşdırır. Araşdırmalar göstərir ki, turistlərə nəqliyyat xidmətləri göstərilməsində əsas yer hava nəqliyyatına məxsusdur.

Son dövrlərdə mehmanxanaların sayı əsaslı şəkildə artmışdır. Təhlil göstərir ki, son bir ildə ölkəyə gələn turistlərin sayı, təqribən, 40%-ə qədər artmışdır. Azərbaycanın turizm sektorunun gündən-günə genişlənən imkanları məşhur dünya kanalları ilə (CNN, EURO NEWS) nümayiş etdirilir. Müşahidələr göstərir ki, dünyada neft sektorundan sonra turizm ən gəlirli sahələrdən birinə çevrilir. Belə ki, il ərzində turizmdən dünyada 450 mlrd. dollar gəlir əldə edilir.

Son dövrlərdə ölkəmizin müxtəlif regionlarına investisiyalar yatırdılmış, yeni, müasir tələblərə uyğun istirahət obyektləri istifadəyə verilmişdir. Müasir mehmanxana kompleksləri turist xidmətlərinin geniş kompleksini təklif edir.

Son altı ildə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı təqribən 2 dəfə, bu müəssisələrin əldə etdikləri məcmu gəlir isə 2 dəfədən çox artmışdır. Göstərilən dövrdə mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı, demək olar ki, 3 dəfə artmışdır [2]. Adı çəkilən turist müəssisələrində yerləşdirilən şəxsləri məqsədinə görə qruplaşdırdıqda onların sayında artım olduğu və əsas hissəsinin istirahət, işgüzar turizm məqsədi ilə ölkəyə gəldiyi aşkar edilmişdir.

Turizm obyektlərinin inkişafı baxımından iqtisadi rayonlarda əlverişli şərait yaradılmışdır. Qeyd etmək lazımdır ki, turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı 2010-cu ildən hazıradək 35%-dək artmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində regionlarda turizm sektorunun inkişaf etdirilməsi istiqamətində mehmanxanaların, sa-

natoriyaların, iaşə obyektlərinin tikintisi artırılmalıdır. Nəzərə alsaq ki, yaxınlarda ölkəyə turist axını artacaq, onlara yüksək səviyyədə turist xdmətləri göstərəcək turist obyektləri və onlarda göstərilən xidmətin keyfiyyəti təxirəsalınmadan artırılmalıdır. Son 6 ildə ölkədə turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı 2010-cu ildə 1,15 min nəfərdən 2012-ci ildə 1,47 min nəfərə qədər artmışdır [2].

Ölkəmizdə turizm sektorunun inkişafı sahəsində qanunvericilik bazasının yaradılmasını ümummilli lider Heydər Əliyevin adı ilə bağlamaq olar. Belə ki, turizmin formalaşmasının əsası kimi Tarixi İpək Yolunun bərpası, Türizm haqqında Azərbaycan Respublikasının Qanunu, 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı, daha sonra Gənclər, İdman və Turizm nazirliyinin yaradılması bu sahəyə dövlət qayğısının sübutudur. Son dövrlərdə bu sahədə inkişaf meyillərinin dərinləşməsini regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş iki Dövlət Proqramı, 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramının qəbul edilməsini göstərmək olar.

Turizm regionunun strateji məqsədi uzun müddət ərzində rəqabətədavamlılığı təmin etməkdən ibarətdir. Turizmdən yüksək mənfəət əldə edən sektorlar bu sahəyə pozitiv münasibət göstərirlər. Burada ən digər zəruri bir cəhət isə ondan ibarətdir ki,turizmə əhali necə münasibət göstərir. Azərbaycanda turizmin inkişafına müsbət təsir edən amillərdən biri də yerli əhalinin qonaqpərvərliyidir. Bu isə hər hansı bir xalqı heç bir tənzimləmə mexanizmlərindən istifadə etməklə idarə etməyə məruz qalmır.

İqtisadiyyatın güclənməsində turizmin də rolu böyükdür. Qeyd edək ki, turizmin inkişafı üçün Azərbaycanda hər cür şərait vardır. Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi qayğı göstərməsi dövlət səviyyəsində turizmin inkişaf perspektivləri ilə bağlı xüsusi proqramın qəbulu ilə nəticələnmişdir. Hazırda ölkənin bir çox bölgələrində xüsusi qoruq zonaları, turistlərin rahatlığı üçün şərait yaradılmış, mehmanxanalar inşa edilmişdir. Mədəniyyət və Turizm Nazirliyində proqramın reallaşması istiqamətində geniş tədbirlər həyata keçirilir. Xüsusilə, qeyd etmək istərdik ki, Mədəniyyət və Turizm Nazirliyi mehmanxanaların standartlaşmasını hər il nəzərdən keçirir, sərgilər təşkil etməklə yanaşı, bu sahədə çalışanların dünya standartlarına cavab vermələri baxımından insan faktorunun keyfiyyətinə önəm verir. Belə turizm sektorunda çalışan bacarıqsız və təcrübəsiz işçilər ölkə haqqında negativ bir fikir formalaşdıra bilər, bu isə gənc Azərbaycan dövləti üçün qəbulolunmazdır. Eyni zamanda turizm sahəsində mövcud olan rəqabəti nəzərə alaraq turizmin inkişafının əsas amillərindən biri olan ixtisaslı kadrların formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Bu istiqamətdə Mədəniyyət və Turizm Nazirliyi nəzdində kurslar açılmalı, xarici mütəxəssislər dəvət edilməlidir. Bu master-klassların sayının, xüsusilə regionlarda artırılması zəruridir. Belə ki, beynəlxalq mədəni, iqtisadi əlaqələrin genişlənməsi ölkəyə turist axınını gücləndirməklə,onlara xidmətin səviyyəsinin də artırılmasını tələb edir. Bundan başqa turizm infrastrukturun genişlənməsi sahəsində bir sıra işlər görülməlidir ki, bunlara da, xüsusən regionlara aparan magistral yollarında lazımi şəraitin yaradılması, yolların işıqlandırılması, asfaltın keyfiyyətinin artırılması, yol kənarında dincəlmə yerlərinin tikilməsi, ölkəmizə gələn turistlərə məlumat vermək üçün paytaxtımızın mərkəzində və tarixi obyektlərin yanında köşklərin qoyulması və s. zəruri sayılır. Xarici turistlər yollarda təhlükəsizlik faktoruna da çox önəm verir. Yolların keyfiyyətsizliyi və işıqlandırılması yollarda qəzaların artmasına başlıca səbəblərdəndir və bu amil müvafiq dövlət orqanlarının nəzərindən qaçmamalıdır.

Qeyd edək ki, son illərdə ölkəmizdə turizm sirkətlərinin sayının artması bu sahədə dünya standartlarına cavab verən turizm bazarının dünya bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl işlərdəndir. Hələ də regionlarımızda infrastrukturla bağlı problemlər mövcuddur ki, bu sırada da internetə çıxışın zəif olması, təbii qaz, istilik sistemi və elektrik energisi ilə təminatın zəif olması, bəzi regionlarda isə olmaması ciddi problemlər yaradır.

Lakin bütün bunlarla yanaşı qeyd edək ki, turizm infrastrukturunun təkmilləşdirilməsi nəticəsində turizm sahəsində müsbət dəyişikliklər də baş vermişdir. Belə ki, beynəlxalq neft və qaz sahəsində bağlanan müqavilələr, Azərbaycanın Avrasiya nəqliyyat dəhlizində əlverişli mövqeyi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, iş adamlarının vəsaitlərinin ölkəyə axını, əhali gəlirlərinin artması, insanların yaşayış səviyyəsinin artması, ölkənin davamlı iqtisadi inkişafının təmin olunması və s. turizm sahəsinin inkişafını stimullaşdıran amillərdir.

Açar sözlər: turizm, informasiya iqtisadiyyatı, sahibkarlıq, mehmanxana

İstifadə edilmiş ədəbiyyat

1. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. Bakı: 2007, 313 s.
2. www.azstat.org.

Фируз Гурбанов

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОГО СЕКТОРА

Резюме

В статье отмечается место туризма в экономическом развитии, задачи, связанные с развитием этой отрасли, законодательная база, факторы влияющие на развитие туризма, предложения, направленные на достижения мировых стандартов туристического сектора.

Ключевые слова: туризм, информационная экономика, предпринимательство, отель

Firuz Qurbanov

DEVELOPMENT OF DİRECTİONS OF THE TOURİSM SECTOR

Summary

The location of tourism sector in economic development, the tasks carried out on the development of this field, legislative base, the factors positively influence the development of tourism, proposals in the direction of world standards developing of the tourism sector in Azerbaijan have been reflected in the article.

Keywords: tourism, information economy, entrepreneurship, hotel

UOT – 334.01

Məhəmməd Balkaya
Qərb Universiteti, dissertant

ƏMƏK POTENSİALININ FORMALAŞMASININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

Hər bir dövlətin makroiqtisadi məqsədinin əsasını yüksək məşğulluq səviyyəsi təşkil edir. Bazar iqtisadi sistemi əlavə iş yerlərinin yaradılmasına, ictimai məhsulun artırılması, eyni zamanda əhalinin maddi tələbatının tam ödənilməsinə imkan verir. İşçi qüvvəsinin mövcud resurslarının tam istifadə edilməməsi şəraitində iqtisadi sistem öz istehsal imkanlarının sərhədlərini müəyyən edə bilmir. İşsizlik bütün cəmiyyətlərdə insanların həyat şəraitinə zərbə vurur. Bu isə onların öz bacarıq və qabiliyyətlərini ixtisaslaşdıqları fəaliyyət sahəsində tətbiq etməyə imkan vermir. Bütün bu kateqoriyalara yanaşmanı formalaşdırmaq baxımından klassik iqtisadiyyatın nümayəndələnin baxışları təhlil edilmiş və məşğulluq və işsizliyə münasibət bildirilmişdir.

Məşğulluğun yüksək səviyyəsinə nail olmaq dövlətin makroiqtisadi məqsədinin əsasıdır. Əlavə iş yerlərinin yaradılmasına imkan verən iqtisadi sistem, iictimai məhsulun artırılması, eyni zamanda əhalinin maddi tələbatının tam ödənilməsi vəzifəsini yerinə yetirir. İşçi qüvvəsinin mövcud resurslarının tam istifadə edilməməsi şəraitində iqtisadi sistem öz istehsal imkanlarının sərhədlərini müəyyən edə bilmir. İşsizlik insanların həyat şəraitinə də zərbə vurur. Bu isə onların öz bacarıq və qabiliyyətlərini ixtisaslaşdıqları fəaliyyət sahəsində tətbiq etməyə imkan vermir, onların psixoloji durumuna təsir göstərir. Bir çox elmi məktəblər məşğulluq problemini öyrənirlər. Belə ki, ingilis iqtisadçısı T.Maltusun "Əhali sakinliyi qanunu haqqında təcrübə" adlı əsərində ilkin olaraq məşğulluq anlayışı araşdırılmışdır. O qeyd edirdi ki, işsizlik demoqrafik səbəblərdən yaranır, nəticədə əhalinin artım sürəti istehsalın artım sürətini üstələyir. Lakin qeyd edək ki, bu nəzəriyyənin çatışmazlığı ondan ibarətdir ki, o, işsizliyin doğumun aşağı səviyyəsində, inkişaf etmiş ölkələrdə əmələ gəlmə səbəblərini izah edə bilmirdi.

Klassik nəzəriyyənin xərclərin kifayət etməməsi imkanlarının inkar etməsi qismən Seyin qanununa əsaslanır. Seyin qanununa əsasən əmtəələrin istehsal prosesi istehsal olunmuş əmtəələrin dəyərinə bərabər gəlir yaradır. Bu onu göstərir ki, istənilən həcmdə məhsul istehsalı, zəruri məhsulların bazarda alınmasını təmin etmək üçün avtomatik gəlirlə təmin edir. Təklif öz tələbini formalaşdırır, yığım isə onu mürəkkəbləşdirən amil kimi çıxış edir. Lakin Seyin qanununun belə sadə şəkildə başa düşülməsi anlaşılmazlığa gətirir. Belə ki, məhsul istehsalının müvafiq məbləğdə pul gəlirini təmin etdiyi məlumdur, lakin onun tam şəkildə xərcləndiyi barədə zəmanət yoxdur. Gəlirin hər-hansı bir hissəsini yığım kimi saxlamaq olar ki, bu zaman o tələbdə öz əksini tapmayacaq. Yığım gəlir və xərclərin hərəkətində uyğunsuzluğa gətirir ki, bu da Seyin qanununun səmərəli təsirinə ziyan vurur. Yığım istehlakın əskikliyinə gətirir. Nəticədə, satılmayan məhsullar, istehsalın azalması, işsizlik və gəlirin azalması baş verir.

İnvestisiya yatırımı istehlak xərcləri ilə bağlı hər-hansı çatışmazlığı kompensasiya etmək üçün həyata keçirilir. İnvestisiya yığımla əmələ gələrək, istehlak zamanı baş verən hər-hansı bir çatışmazlığı ödəyir. Həqiqətdə bütün firmalar öz məhsullarının hamısını satmaq yox, məhsulun müəyyən bir hissəsini istehsal vasitələri formasında bir-biri ilə mübadilə üçün istehsal edirlər. Əgər sahibkarlar investisiya yatırdıqları qədər, ev təsərrüfatları da yığım edərlərsə, bu zaman Sey qanunu fəaliyyət göstərəcək, istehsalın və məşğulluğun səviyyəsi daimi qalacaq [1, s.7-10].

İşsizlik kateqoriyasını K.Marks dərindən "Kapital" əsərində tədqiq etmişdir [2]. O qeyd edirdi ki, texniki tərəqqi ilə istehsal vasitələrinin 1 işçiyə düşən həcmi və dəyəri artır. Belə bir vəziyyət kapital yığımına nisbətən əməyə tələbi azaldır və bunun səbəbi işsizliklə bağlıdır. Belə yanaşma ri-

yazi baxımdan düzgün deyil, başqa sözlə, işçi qüvvəsinə tələb artırsa, işsizlik azalmalıdır və ya olmamalıdır. K.Marks digər səbəbləri də ehtimal edirdi,o cümlədən, bazar təsərrüfatının tsiklik inkişafı. Klassiklərin fikrincə, kapitalizm özütənzimlənən iqtisadiyyatı təcəssüm etdirir. Burada isə tam məşğulluq norma hesab edilir. Onların fikrincə, iqtisadiyyatın fəaliyyətində dövlətin köməyi artıq sayılırdı.Hesab edilirdi ki, iqtisadiyyatda istehsalın və məşğulluğun tam həcminə nail olmaq üçün dövlətin müdaxiləsi onun səmərəli fəaliyyətinə yalnız zərər gətirə bilər. Klassik nəzəriyyənin məntiqi belə bir nəticəyə gətirirdi ki, dövlətin müdaxiləsi olmadan iqtisadi siyasət məqsədəmüvafiqdir.

1936-cı ildə ingilis iqtisadçısı Con Meynard Keyns müasir məşğulluq məzəriyyəsinin banisi olaraq kapitalizmdə məşğulluq səviyyəsinin izahını irəli sürmüşdür. O, "Ümumi məşğulluq nəzəriyyəsi, faiz və pul" əsərində klassik nəzəriyyənin əsasına zərbə vurdu [3]. Keynsin məşğulluq nəzəriyyəsi klassik yanaşmadan əsaslı şəkildə fərqlənir. Bu nəzəriyyənin əsas nəticəsi ondan ibarətdir ki, kapitalizmdə əhalinin tam məşğulluğunu tənzimləyən heç bir mexanizm yoxdur. Qeyd edilir ki, iqtisadiyyat balanslaşdırılmış ola bilər, lakin inflyasiyanın və işsizliyin yüksək səviyyəsində. Daha doğrusu tam məşğulluq qanunauyğunluq deyil. Kapitalizm özünütənzimləyən sistem ola bilməz və iqtisadi dəyişiklikləri təbii fəlakət və ya müharibələrlə əlaqələndirmək olmaz. Keynsə görə məşğulluq səviyyəsi səmərəli tələbin dinamikası ilə - istehlaka və kapital qoyuluşuna gözlənilən xərclər - müəyyən edilir. Məhz bu milli gəlir və məşğulluğun səviyyəsini şərtləndirir. Keynsə görə əmək haqqının aşağı düşməsi kapitalist iqtisadiyyatına birbaşa yox, dəyişənlər vasitəsilə təsir edir: "istehlaka marjinal meyil", "marjinal səmərəli kapital". Məhz buradan aydın olur ki, nə üçün Keyns əmək haqqının azaldılmasının əksinədir. Onun fikrincə, əmək haqqının aşağı düşməsi məşğulluğun artmasına gətirməyəcək, o, sahibkarların xeyrinə gəlirlərin təkrar bölgüsünə gətirəcək. Fəhlələr tərəfindən istehlak tələbinin azalması əhalinin digər qrupları tərəfindən kompensasiya olunmayacaq.Belə ki, onların gəlirlərinin artması istehlaka marjinal meyilin azalması ilə müşaiyət olunacaq. Məhz bu səbəbdən Keynsə görə gəlirlərin bərabər bölgüsü səmərəli tələbin həcminin artırılması amili kimi çıxış edir. Əmək haqqının aşağı düşməsinin investisiyaların artmasına təsiri ilə bağlı məsələnin həllində Keyns klassik və neoklassik məktəbin nümayəndələri ilə razılaşmır. Qeyd edək ki, sonuncular hesab edirdilər ki, əmək haqqının aşağı salınması marjinal kapitalın səmərəliliyini artırar və beləliklə, əmək haqqının aşağı düşməsi investisiyanın artımına gətirir. Lakin belə bir vəziyyət o zaman düzgün hesab edilir ki, ayrıca bir müəssisənin timsalında baxıldıqda. Bütövlükdə milli iqtisadiyyatda nəzərdən keçirdikdə əmək haqqının aşağı düşməsi istehlak tələbini aşağı salar, bu isə öz növbəsində istehsal və investisiyaların azalmasına gətirər. Nəticədə əmək haqqının aşağı düşməsi və işsizliyin artması ilə məcmu tələb aşağı düşər. Qeyd edək ki, iqtisadi aktiv əhalinin işsizlər sırasına daxil olması sistemdə tarazlıq bərpa olunur. Keyns qeyd edirdi ki, hətta real əmək haqqı azalanda məşğullar işdən çıxmırlar, işsizlər isə iş təklifini azaltmırlar. Beləliklə, real əmək haqqı əməyə olan tələbdən asılıdır, lakin o, məhduddur. Məcburi işsizlikdən danışarkən Keyns məşğulluğun məcmu tələbin həcmindən asılı olduğunu vurğuladı. Göründüyü kimi, klassik və neoklassik tarazlığın müvəqqəti pozulması vəziyyətini ehtimal edirdilər. Belə bir vəziyyət əmək və əmtəə təklifi onlara olan tələbdən üstün olduqda baş verir. Lakin bu modellərin həllində tarazlığa nail olmaq üçün qiymətlərin və əmək haqqının aşağı düşməsi durur. Nəzəri modellərdə bu ani baş verir, real iqtisadiyyatda istehsalın aşağı düşməsinə gətirən iqtisadi tənzimlə işsizlərin sayının artmasına aylar tələb olunur. Bunlarla bağlı Keyns belə qərara gəldi ki, nominal əmək haqqı əmək bazarının tənzimlənməsində və makroiqtisadi tənzimləmədə iştirak etmir.

Nəzərə alsaq ki, onun iqtisadi inkişaf modelində məhz səmərəli tələbin həcmi ÜDM-nin səviyyəsi və artım sürətini müəyyən edir, buradan Keynsin sərt əmək haqqı və yüksək məşğulluq səviyyəsinə yönəldilmiş iqtisadi siyasətin həyata keçirilməsinin tərəfdarı oldüğü məlum olur.

Digər bir ingilis alimi A.Piqunun "İşsizlik nəzəriyyəsi" (1923) əsərində belə bir tezisi əsaslandırılmışdır ki, əmək bazarında qeyri-təkmil rəqabət fəaliyyət göstərir. Bu isə əməyin qiymətini yüksəldir. Buna görə bir çox iqtisadçılar göstərirdilər ki, sahibkar yüksək ixtisaslı mütəxəssisə yüksək əmək haqqı verməkdə maraqlıdır. Belə ki, bu zaman məhsul buraxılışının dəyəri yüksəlir. Yüksək məhsuldar əməyə görə sahibkar işçi personalını ixtisar edə bilir. Belə bir prinsip fəaliyyət göstərir:

aşağı əmək haqqı, yəni aşağı məhsuldarlıqla işləyən 5 nəfərdənsə, yüksək əmək haqqı alan 1 nəfərin işə götürülməsi məqsədəuyğundur. Piqu belə bir fikri əsaslandırırdı ki, ümumi əmək haqqının aşağı düşməsi məşğulluğu stimullaşdıra bilər [4].

Keynsin məşğulluq konsepsiyası və stabillik siyasəti II Dünya Müharibəsindən sonra əksər iqtisadçı alimlərin makroiqtisadi baxışlarında dominant rolunu oynayırdı.

Lakin son 2 onillikdə bu nəzəriyyənin əksi olan alternativ konsepsiyalar, o cümlədən monetarizm və rasional gözləmələr nəzəriyyəsi formalaşmışdır. Monetarizm köklərini ideya baxımından klassik məşğulluq nəzəriyyəsindən götürür. Onların fikrincə, bazar sistemi, dövlətin təsirinə məruz qalmırsa, iqtisadiyyatın fəaliyyətində, o cümlədən məşğulluq sahəsində sabitliyi təmin edər.

1970-ci illərin ortalarından rasional gözləmələr nəzəriyyəsi dövriyyəyə daxil olur ki, bu da "insanlar özlərini rasional aparırlar ideyasına əsaslanır. Bazar subyektləri gözləmələrin formalaşmasında sahibkarın xüsusi ixtisas və professionallığa malik olan informasiyanı toplayıb əldə edirlər ki, bu da əşyaların pul baxımından maraq dairəsində olmaları ilə bağlıdır. Sahibkar, işçi və istehlakçılar iqtisadi proseslərin necə getdiyini nəzəri baxımdan bilirlər və qərar qəbulunda mümkün informasiyadan öz maraqları baxımından istifadə etmək imkanına malikdirlər. Belə bir vəziyyət nisbətən yaxşı iş tapmaq baxımından müvafiq gözləntilərə aiddir.

M.Beyli və D.Qordanın 70-ci illərin ortalarında təqdim etdikləri məşğulluğun müqavilə nəzəriyyəsi diqqəti cəlb edir. Onun xüsusiyyəti ondan ibarətdir ki, bir neçə konsepsiyanın qovuşuğunda meydana gəlmişdir. Bu nəzəriyyənin əsasını sahibkarlarla işçilər arasında uzunmüddətli münasibətlərin olmasıdır. Belə münasibətlər əmək bazarının agentləri arasında, hətta hüquqi cəhətdən müqavilələr rəsmiləşdirilmədikdə belə əlaqəni qoruyub saxlayır. Belə bir vəziyyət də sahibkarın xüsusi ixtisas və professionallığa malik olan işçilərə ehtiyacı olduğu üçün davamlı və stabil münasibətlərin yaradılmasında maraqlıdırlar. Nəticədə xüsusi təcrübəyə malik olan işçilər və sahibkarlar arasında şərti (implisent) müqavilə bağlanır. Belə ki, bu müqavilənin əsas məqsədi işəgötürənlə işçi arasında hüquqi cəhətdən rəsmiləşdirilmiş sənəd deyil, iqtisadi cəhətdən müəssisənin mövqeyini müəyyən etməkdir [5].

Beləliklə, problemə nəzəri baxışları təhlil etməklə nəticə çıxarmaq olar ki, dövlətin iqtisadi proseslərdə iştirakını inkar edən klassik yanaşma özünü təsdiq etmir.Dövlət tənzimləyiciləri olan investisiya, vergi, pul-kredit, miqrasiya siyasəti əhalinin məşğulluq problemi ilə qarşılıqlı əlaqədə, qanunvericilik və antiinhisar normaları, inflyasiya prosesinin saxlanılması tam məşğulluğa nail olmağa imkan vermirlər. Məşğulluq yalnız insanların məşğuliyyəti deyil. Bu, əmək prosesidir, insanların təbii həyat fəaliyyətidir.

Məşğulluqla bağlı müasir dövrün alimlərinin əsərlərinə müraciət etsək görərik ki, V.Kostakov məşğulluğu ictimai fəaliyyətin müxtəlif sahələrində müxtəlif əhali qrupları arasında ictimai əmək bölgüsünə əsasən əməyin sərf olunma prosesi kimi təqdim edir [6]. Digər bir alim İ.Lqodkina yazır ki, məşğulluq müəyyən texniki səviyyə və həcmdə işçilərlə istehsalın maddi şəraiti arasında tarazlıq kimi müəyyən etmək olar. Burada işçilərin maddi istehsal şəraitinə uyğun olaraq hərəkəti nəzərdə tutulur [5].

Ölkədə məşğulluq probleminin işlənilməsində M.Allahverdiyev, S.Mehbalıyev, Ş.Muradov, T.Quliyev və başqalarının da əməyi vardır.

S.Mehbalıyevin tədqiqatları, əmək bazarı və əhalinin sosial müdafiəsinə həsr edilmişdir. Onun "Əmək bazarı və əhalinin sosial müdafiəsi" adlı əsərində Azərbaycanda əmək bazarının və məşğulluğun yüksəldilməsi yolları əks etdirilmişdir ki, bu da dövlətin iqtisadi və sosial siyasətinin əsas məqsədini təşkil edir.

Əmək bazarının tənzimlənməsi ilə bağlı T.Quliyev yazdığı əsərlərində vurğulayır ki, əməyə tələb və təklifi tənzimləməklə məşğulluq səviyyəsinə nəzarət etmək olar və kütləvi işsizliyin qarşısını almaq olar. Belə ki, qəbul edilmiş normadan artıq olan işsizlik səviyyəsi cəmiyyətdə sosial gərginliyin güclənməsi şərtidir [7].

Fikrimizcə, məşğulluq ictimai məhsulun və milli gəlirin yaradılması baxımından iş qabiliyyətli əhalinin fəaliyyətidir. Bu imkanların işləmək qabiliyyəti və arzusu olan hər kəsə verilməsi nəticədə ictimai istehsalda tam məşğulluğa gətirər.

Açar sözlər: əmək potensialı, məşğulluq, işsizlik, işçi qüvvəsi, iş yerləri, əmək bazarı

İstifadə edilmiş ədəbiyyat

1. Rəhimov S.H. Turizmin və ekskursiya işinin təşkili. Bakı: Mütərcim, 2004, 310 s.
2. Marks K. Kapital. London: 2005
3. Кейнс Дж.М. Общая теория занятости, процента и денег. М.: Эксмо, 2007, 960 с.
4. Руденко Г.Г., Муртузаев Б.Ч. Формирование рынков труда. М.: Экзамен, 2004
5. Bernecker P. Fundamentals of tourism. Geneva: 1964, p. 64
6. Костаков В.Г., Рутгаузер В.М. Человеческий фактор: занятость и благосостояние. М.: 2002
7. Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку: Элм, 2000, 449 с.

ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ ФОРМИРОВАНИЯ ТРУДОВОГО ПОТЕНЦИАЛА

Резюме

Достижение высокого уровня занятости является основной целью макроэкономической политики всех стран. Рыночная система, создающая дополнительное количество рабочих мест ставит задачу увеличить количество общественного продукта и удовлетворить материальные потребности населения. При неполном использовании ресурсов рабочей силы рыночная система работает не достигая границы своих производственных возможностей. Безработица наносит урон жизненным интересам людей. А это не дает им приложить свое умение в том роде деятельности, где он может наибольшим образом проявить себя. В работе изучая подходы классиков, анализируются такие категории, как занятость и безработица, обобщается авторский подход.

Ключевые слова: трудовой потенциал, занятость, безработица, рабочая сила, рынок труда

Mahammad Balkaya

THEORETICAL PROBLEMS OF FORMATION OF LABOUR POTENTIAL

Summary

The basis of each state`s macro-economic objective is a high level of employment. The market economic system allows for job creation, increasing the social product, but also full payment of the needs of the population. Economic system can`t determine the limits of its production capacities in the condition of incomplete use of the existing resources of the workforce. Unemployment is a blow to livelihoods of people in all societies. But this does not allow to apply their skills and abilities in the activity field of specialization. The views of representatives of classical economic, approach to employment and unemployment have been analyzed in terms of forming approach to all these categories.

Keywords: labour potential, employment, unemployment, labour force, labour market

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 2 (04), 2015

Redaktorlar:

Gülnarə Hacıyeva, Lətifə Məcidova, Qızılgül Əlimirzəyeva

Kompüter tərtibatı:

Pərvanə Məcidova

Dizayn:

Mail Xəlilov

Yığılmağa verilib: 30.11.2015
Çapa imzalanıb: 25.12.2015
Format: 70x100 16/[1]
7.5 ş.ç.v
Tiraj: 200

"TOFİQ-M" Nəşriyyatı